# MƏQALƏLƏR TOPLUSU

**BAKI – 2023**
**“Ecoprint”**

Redaktoru: Balayar Sadiq
**Tərtib edən: f.ü.f.d., dos. Radif Heybət oğlu Mustafayev**

**Cəmil Əhmədli**
**Məqalələr toplusu, Bakı, "Ecoprint" nəşriyyatı, 2023, səh.328**

**Təkrar nəşr**
**ISBN 978-9952-8172-9-5**

**© Cəmil Əhmədli, 2023**



**Cəmil Əhmədli** (27.10.1931-09.02.2010) Gədəbəy rayonunun Söyüdlü kəndində müəllim işləyən Mirzə Teymur ailəsində doğulmuşdur. 1938-ci ildə birinci sinifə gedən C.Əhmədli müharibə illərində, məktəblərin çətin fəaliyyət göstərdiyi dövrdə atasının yanında təhsil almışdır. 1948-ci ildə 10-cu sinifdə oxuyarkən respublikada keçirilən riyaziyyat

olimpiyadasının qalibi olmuşdur. Həmin il yeni yaradılmış Moskva Fizika-Texnika İnstitutunun nümayəndəsi C.Əhmədlinin oxuduğu məktəbin buraxılış imtahanlarında iştirak etmiş və onun həmin instituta qəbul olunduğunu bildirmişdi. Lakin maddi çətinliklərə görə Cəmil Əhmədli Moskvaya gedə bilmir, sənədlərini Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) fəlsəfə şöbəsinə verərək qəbul olmuş, həmin fakültəni fərqlənmə diplomu ilə bitirmişdir.

Cəmil Əhmədli 1953-cü ilin yayında SSRİ Elmlər Akademiyasının Fəlsəfə İnstitutunun aspiranturasına müsabiqə yolu ilə imtahan verərək qəbul edilmişdir. 1956-cı ildə Akademik Teodar Oyzermanın rəhbərliyi ilə "Azadlıq və zərurət" mövzusunda dissertasiyasını müdafiə edərək, fəlsəfə elmləri namizədi alimlik dərəcəsini almışdır. 1960-cı ildə Bakıda nəşr edilən "Azadlıq və zərurət" (rus dilində) kitabı mövzuya dair keçmiş SSRİ məkanında ilk monoqrafiya idi.

1954-1956-cı illərdə Moskva Dövlət Universitetində, 1958-1962-ci illərdə Azərbaycan Sənaye İnstitutunda, 1963-1972-ci illərdə Bakı Ali Partiya Məktəbində, 1959-1974-cü illərdə Azərbaycan SSR EA-nın Aspiranturasında fəlsəfə kursundan dərs demişdir. 1957-ci ildə Fəlsəfə İnstitutunda (indiki Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutu) elmi katib, baş elmi işçi, şöbə müdiri vəzifələrində işləmişdir. 1958-ci ildən etibarən "Materialist dialektikanın qanun kateqoriyası" mövzusu üzərində çalışmış, 1963-cü ildə 20 çap vərəqi həcmində 2 böyük monoqrafiya çap etdirir. 1964-cü ildə bu əsərlər filosofun doktorluq dissertasiyasının əsasını təşkil etmişdir.

Cəmil Əhmədlinin təşəbbüsü və rəhbərliyi ilə 1969-cu ildə Azərbaycanda ilk sosioloji laboratoriya yaradılmışdır. Laboratoriyanın əməkdaşları fəaliyyət göstərdikləri 15 il ərzində 10-a yaxın aktual mövzu üzrə tədqiqat keçirmiş, 100-dən çox kitab, elmi məqalə çap etdirmiş, 10-dan çox beynəlxalq

konfransların təşkilatçıları, iştirakçıları olmuşlar.

1966-cı ildə bərpa edilən Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun Fəlsəfə kafedrasının müdiri olan C.Əhmədli 1990-cı ilə qədər orada müdir vəzifəsində çalışmışdır. 1990-cı ildən 2000-ci ilə qədər Bakı Dövlət Universitetinin Fəlsəfə və sosiologiya kafedrasının müdiri vəzifəsində işləmişdir. Cəmil Əhmədli Bakı Dövlət Universitetində Humanitar fakültələr üzrə fəlsəfə kafedrasının professoru olmuşdur.

C.Əhmədli 16 monoqrafiyanın, 400-dən artıq məqalənin müəllifidir. O 12 doktor, 100-ə yaxın namizəd yetirmişdir. İdrak nəzəriyyəsi problemləri, fəlsəfi kateqoriyalar və prinsiplər problemi, müasir təbiətşünaslığın fəlsəfi problemləri, Elmi Texniki İnqilabın mahiyyəti və sosial nəticələri problemi istiqamətlərində elmi fəaliyyət göstərmişdir. Alim "Azərbaycan Sovet Ensiklopediyası"nda 54 məqalənin müəllifidir.

Cəmil Əhmədli 1990-cı ildə əməkdar elm xadimi fəxri adını almış, 1997-ci ildə Rusiya Pyotr Elmlər və İncəsənət Akademiyasının müxbir üzvü, 2000-ci ildə isə akademik seçilmişdir. Tədqiqatçı Azərbaycanda təhsilin və elmin inkişafındakı xidmətlərinə görə 30 oktyabr 2009-cu ildə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Cəmil Əhmədlinin həyat və fəaliyyətinin əsas tarixləri, əsərlərinin siyahısı haqqında məlumatları əks etdirən "Biblioqrafik göstərici" kitabı 2001-ci ildə çapdan çıxmışdır.

**Cəmil Əhmədli**

***fəlsəfə elmləri doktoru,***
***professor, əməkdar elm xadimi,***
***Şöhrət ordenli, Rusiya Pyotr Elmlər və İncəsənət***
***Akademiyasının akademiki***

Джамиль Ахмедли (27.10.1931-09.02.2010) родился в семье Мирзы Теймура, работавшего учителем в селе Союдлу Гедабекского района. Дж.Ахмедли, пошедший в первый класс в 1938 году, учился рядом со своим отцом в годы войны, когда в школах было трудно работать. В 1948 году, учась в 10 классе, он выиграл математическую олимпиаду, проходившую в республике. В том же году представитель только что созданного Московского физико-технического института принял участие в выпускных экзаменах школы, где учился Дж. Ахмедли, и заявил, что он принят в этот институт. Однако из-за финансовых трудностей Джамиль Ахмедли не смог поехать в Москву.

Летом 1953 года Джамиль Ахмедли был принят в аспирантуру Института философии АН СССР, сдав конкурсный экзамен. В 1956 году защитил диссертацию на тему «Свобода и необходимость» под руководством академика Теодара Ойзермана и получил степень кандидата философских наук. Книга «Свобода и необходимость» (на русском языке), изданная в Баку в 1960 году, стала первой монографией на эту тему в бывшем СССР.

В 1954-1956 годах преподавал философию в МГУ, в 1958-1962 годах в Азербайджанском индустриальном институте, в 1963-1972 годах в Бакинской высшей партийной школе, в 1959-1974 годах в аспирантуре АН Азербайджанской ССР. . В 1957 году работал в Институте философии (ныне Институт философии и социологии Национальной академии наук Азербайджана) ученым секретарем, старшим научным сотрудником, заведующим отделом. Он работает над «Юридической категорией материалистической диалектики» с 1958 г., а в 1963 г. опубликовал две большие монографии на 20 страницах. В 1964 году эти работы легли в основу докторской диссертации философа.

Первая социологическая лаборатория была создана в

Азербайджане в 1969 году по инициативе и под руководством Джамиля Ахмедли. За 15 лет работы сотрудники лаборатории провели исследования по около 10 актуальным вопросам, опубликовали более 100 книг и научных статей, организовали и приняли участие в более чем 10 международных конференциях.

Дж. Ахмедли, который был заведующим кафедрой философии Азербайджанского института народного хозяйства, восстановленного в 1966 году, работал там заведующим до 1990 года. С 1990 по 2000 год работал заведующим кафедрой философии и социологии Бакинского государственного университета Джамиль Ахмедли был профессором кафедры философии гуманитарных наук Бакинского государственного университета.

Ахмедли является автором 16 монографий и более 400 статей. У него 12 докторов и около 100 кандидатов. Работал в области проблем теории познания, проблемы философских категорий и принципов, философских проблем современного естествознания, сущности НТР и проблемы социальных последствий. Ученый является автором 54 статей в «Азербайджанской советской энциклопедии».

Джамилю Ахмедли в 1990 году было присвоено звание Заслуженного деятеля науки, в 1997 году он был избран членом-корреспондентом Российской Петровской академии наук и искусств, а в 2000 году избран академиком. 30 октября 2009 года за заслуги перед развитием образования и науки в Азербайджане ученый был награжден орденом Славы.

В 2001 году была опубликована книга «Библиографический указатель», отражающая основные даты жизни и деятельности Джамиля Ахмедли, список его работ.

# REDAKTORLARDAN

V.İ.Leninin zəngin və tükənməz ideya irsinin öyrənilməsi və onun geniş oxucu kütlələrinə çatdırılması ictimai elm nümayəndələrinin qarşısında duran ən şərəfli vəzifələrdən biridir. Oxuculara təqdim edilən məcmuə dialektik və tarixi materializmin, elmi kommunizmin bir sıra mühüm problemlərinə dair Lenin ideyalarının şərhinə və bu ideyaların müasir dövr üçün əhəmiyyətinin göstərilməsinə həsr edilmişdir.

Məcmuənin hazırlanmasında Azərbaycan SSR EA Fəlsəfə və Hüquq İnstitutunun əməkdaşları ilə yanaşı Bakı Ali Partiya məktəbinin, D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun, S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin, V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun və H.Zərdabi adına Kirovabad Pedaqoji İnstitutunun fəlsəfə kafedralarının professor-müəllim heyəti iştirak etmişlər.

Müəlliflər belə hesab edirlər ki, məcmuə marksizm-leninizm fəlsəfəsini öyrənən oxucu kütləsi üçün, ali məktəb tələbələri, habelə fəlsəfə və elmi kommunizmdən dərs deyən müəllimlər üçün faydalı olacaqdır.

Məcmuə haqqında oxucuların mülahizələri minnətdarlıqla qəbul ediləcəkdir.

FƏLSƏFƏ VƏ HÜQUQ İNSTİTUTU
AZƏRBAYCAN SSR ELMLƏR AKADEMİYASI

# LENİN İDEYALARI VƏ MÜASİR DÖVR

"ELM" NƏŞRİYYATI
BAKI — 1970

Azərbaycan SSR Elmlər Akademiyası Redaksiya-Nəşriyyat Şurasının qərarı ilə çap olunur

Redaksiya heyəti:
F. Köçərli,
M. Səttarov,
C. Əhmədli

1-5-2(3)

1-69Y

# LENİNİZM MÜASİR DÖVRÜN MARKSİZMİDİR

> "Marksizm haqqında Leninin dediyi sözləri bu gün biz tam əsasla onun öz təlimi haqqında deyirik: bu təlim, hər şeyə qadirdir, ona görə ki, düzgündür[1].

Bütün mütərəqqi bəşəriyyət V.İ.Leninin anadan olmasının 100 illiyini bayram etməyə hazırlaşır. Marks və Engelsin yaradıcı davamçısı kimi Leninin adı dövrümüzün ictimai həyatının bütün sahələri ilə sıx surətdə bağlıdır. Lenin dialektik və tarixi materializmi, marksist siyasi iqtisadı və elmi kommunizm nəzəriyyəsini yeni tarixi şəraitə uyğun şəkildə inkişaf etdirmiş və zənginləşdirmişdir.

Dahi mütəfəkkir Lenin qalibiyyətli sosialist inqilabı ilə nəticələnən inqilabi hərəkatın və ümumiyyətlə beynəlxalq kommunist hərəkatının rəhbəri olmuşdur. Leninin təlimindən dərs alaraq dünya xalqlarının avanqardı olan onlarca fəhlə və kommunist partiyaları yaranmışdır ki, bunlar da hazırda leninizm ideyalarını rəhbər tutaraq beynəlxalq azadlıq və inqilabi hərəkata başçılıq edirlər.

"Dünya sosializminin, fəhlə və milli azadlıq hərəkatının bütün təcrübəsi marksizm-leninizm təliminin beynəlxalq əhəmiyyətini təsdiq etmişdir. Bir qrup ölkədə sosialist inqilabının qələbəsi, dünya sosializm sisteminin yaranması" kapital ölkələrində fəhlə hərəkatının nailiyyətləri, keçmiş

---

[1] Vladimir İliç Leninin anadan olmasının 100 illiyi haqqında. Kommunist və fəhlə partiyaları Beynəlxalq müşavirəsinin müraciətindən.

müstəmləkə və yarımmüstəmləkə xalqlarının müstəqil ictimai-siyasi fəaliyyətinin meydana çıxması, antiimperializm mübarizənin misilsiz yüksəlişi — bütün bunlar zəmanəmizin əsas tələbatını ifadə edən leninizmin tarixi doğruluğunu sübut edir”[2].

* * *

Əsas məzmunu kapitalizmdən sosializmə keçid prosesindən ibarət olan müasir dövrün ən səciyyəvi cəhətlərindən biri müxtəlif ictimai quruluşlu iki sistem arasında gedən ideoloji və siyasi mübarizədir. Burada bir-birinə zidd ideologiya, iki dünyagörüşü qarşı-qarşıya durur. Bir tərəfdən cəmiyyətin mütərəqqi inkişafını, kapitalizmdən sosializmə keçidin zəruriliyini, ümumiyyətlə ictimai inkişafın obyektiv qanunlar əsasında baş verən təbii-tarixi bir proses olduğunu göstərən, onu elmi dialektik metodla əsaslandıran marksizm-leninizm dünyagörüşü, digər tərəfdən isə ölməkdə olan kapitalizm cəmiyyətinə xidmət edən, onun ömrünü uzatmaq üçün müxtəlif vasitələrdən istifadə edən, cəmiyyətin mütərəqqi inkişafını dayandırmağa çalışan müasir burjua ideologiyasıdır. Burjua ideoloqları marksizmə qarşı mübarizələrinin əsas istiqamətini dialektikaya yönəltmişlər, çünki “öz rasional şəklində dialektika burjuaziyada və onun doktrinabaz ideoloqlarında ancaq hiddət və dəhşət doğurur, çünki mövcud olanın pozitiv anlayışına eyni zamanda onun inkarı, hökmən məhv olacağı anlayışını da daxil edir, həyata keçirilmiş olan hər bir formanı hərəkətdə nəzərdən keçirir, deməli, həmçinin onun keçici cəhətini də nəzərdən keçirir, o heç bir şey qarşısında boyun əymir və öz mahiyyətinə görə tənqidi və inqilabidir”[3].

V.İ.Lenin materialist dialektikanı “marksizmin canı”

---

[2] Vladimir İliç Leninin anadan olmasının 100 illiyi haqqında. Kommunist və fəhlə partiyaları Beynəlxalq müşavirəsinin müraciəti. «Azərbaycan kommunisti» jurnalı, № 7, 1969, səh. 35.
[3] K.Marks. Kapital, 2-ci nəşri, Bakı, 1969, cəh. 22.

adlandırır. Bu da özlüyündə aydındır, çünki marksizmin inqilabi mahiyyəti, onun xarici aləmi və xüsusən də ictimai həyatı, ictimai, iqtisadi, siyasi quruluşu dəyişdirmək funksiyası məhz dialektika təlimi ilə, "tənqidi və inqilabi" dialektika təlimi ilə bağlıdır.

Marksizmə qarşı hələ Marks və Engelsin yaşayıb yaratdıqları dövrdən başlanan mübarizə XIX əsrin axırı və XX əsrin əvvəllərində daha kəskin bir xarakter almışdı. Bu zaman marksizmi çox müxtəlif "əsaslara" görə tənqid etmək məqsədini güdən "nəzəriyyə" və "təlimlər" yaranır. Məhz ona görə də proletariatın dünyagörüşü olan marksizmi bu hücumlardan müdafiə etmək, onun saflığını ardıcıllıqla qoruyub saxlamaq, onu yeni dövrün tələblərinə müvafiq surətdə inkişaf etdirmək, zənginləşdirmək çox ciddi və son dərəcə əhəmiyyətli bir vəzifə kimi qarşıya çıxır.

V.İ.Lenin nəzəriyyəni ehkam deyil, fəaliyyət üçün rəhbərlik hesab edirdi. O, sözün geniş mənasında yaradıcı marksist olmuşdur. Yaradıcı marksist olmaq isə marksizm nəzəriyyəsini hər bir yeni şəraitdə inqilabi hərəkatın yeni təcrübəsi ilə zənginləşdirməyi, nəzəriyyəni həyatla, inqilabi praktika ilə əlaqəli surətdə inkişaf etdirməyi, həyatın qətiyyətlə irəli sürdüyü ən mühüm məsələlərə cavab verməyi bacarmaq deməkdir. V.İ.Lenin marksizmin hərfinin əsiri olmamış, onun inqilabi ruhunu həmişə əsas tutmuşdur.

Məlumdur ki, kapitalizmin dinc inkişafı dövründə yaşamış Marks və Engelsin o dövr üçün doğru olan bir sıra müddəaları sonralar kapitalizmin son mərhələsi olan imperializm dövründə öz gücünü itirmişdi. Həmin müddəaların yeni şəraitdən doğan yeni müddəalarla əvəz edilməsi vəzifəsini tarix V.İ.Leninin öhdəsinə atmış və o bu vəzifəni böyük məharətlə yerinə yetirmişdir.

V.İ.Lenin kapitalizmin son mərhələsi olan imperializm haqqında, yeni tipli partiya, sosialist inqilabı, proletar diktaturasının müxtəlif formaları, sosialist demokratiyası, fəhlə

sinfinin kəndlilərlə və bütün zəhmətkeşlərlə ittifaqı, milli məsələ və aqrar məsələsi, sosializm cəmiyyəti qurmaq yolları haqqında təlimlə marksizmi zənginləşdirmişdir. Bununla bərabər V.İ.Lenin marksizmin hər cür təftiş edilməsinə qarşı amansız mübarizə aparmışdır. Marksizmin prinsiplərinin əsassız olaraq köhnəlmiş olduğunu elan edənləri, onu guya “daha tam”, “daha hərtərəfli” və “müasir” nəzəriyyə ilə əvəz etmək cəhdində olan hər kəsi V.İ.Lenin kəskin tənqid etmişdir. V.İ.Lenin marksizmi yaradıcı surətdə inkişaf etdirərək imperializm və proletar inqilabları dövrünün marksizmi olan leninizmi yaratmışdır.

Marksizm fəlsəfəsinin hər cür təhriflərdən müdafiə və inkişaf etdirilməsi sahəsində V.İ.Leninin xidmətləri olduqca böyükdür. 1905-ci il inqilabının məğlubiyyətindən sonra marksizmin düşmənləri və hətta inqilabın gedişində partiyaya qoşulmuş bir sıra cığırdaşlar arasında marksizmi təftiş etmək dəb olmuşdu. İnqilabın məqlubiyyətinin səbəblərini “araşdırarkən” onlar belə nəticəyə gəlirdilər ki, guya buna əsas səbəb inqilabın nəzəri əsaslarının düzgün olmaması imiş. Guya marksizm-leninizmin bir sıra “vaxtı keçmiş” müddəalarının tənqidsiz, kor-korana tətbiq edilməsinin nəticəsidir ki, əməli fəaliyyətdə fəhlə sinfi və onun partiyası müvəffəqiyyətsizliyə uğradı. Buna görə də onlar öz qarşılarına marksizmi “köhnəlmiş müddəalardan təmizləmək”, onda olan “ziddiyyətli cəhətləri” aradan qaldırmaq və onu daha yeni, daha təkmil bir nəzəriyyə ilə əvəz etmək vəzifəsini qoymuşdular.

Burjua “tədqiqatçıları” və təftişçilər bunun üçün bir çox vasitələrdən istifadə edirdilər; əvvəla, marksizmi keçmiş materialist fəlsəfi nəzəriyyələrlə (Feyerbax və Ditskenin baxışları ilə) eyniləşdirərək onların məhdud və çatışmayan cəhətlərini marksizmə şamil edirdilər. Onlar bu istiqamətdə daha irəli gedərək marksizmi keçmiş fəlsəfi sistemlərdən Hegel dialektikası ilə Feyerbax materializminin mexaniki surətdə birləşdirilməsi kimi qələmə verirdilər. Burjua “tədqiqatçıları”nın və təftişçilərin bu fikrini alt-üst etmək üçün

onların fəlsəfi sistemlərini elmi nöqteyi-nəzərdən öyrənmək, fəlsəfə tarixindəki mövqeyini düzgün qiymətləndirmək və beləliklə, marksizmin həmin sistemlərdən köklü fərqini, fəlsəfənin inkişafında inqilabi çevriliş olduğunu göstərmək lazım idi.

Sonra, burjua "tədqiqatçıları" və təftişçilər bir çox keçmiş filosofların sistemlərindən ixtiyari olaraq biryanlı istifadə edir, onların idealist fikirlərini özlərinin irəli sürdükləri müddəaların sübutu üçün əsas gətirir və beləliklə öz nəzəriyyələrini "ən yeni" fəlsəfə kimi təqdim etməyə çalışırdılar.

XIX əsrin sonu və XX əsrin əvvəllərində idealizm əsasən idrak nəzəriyyəsi məsələlərində kök salmışdı. Marks və Engelsin dövründə başlıca diqqət fəlsəfənin baş məsələsinin birinci tərəfi sahəsində idealizmə qarşı mübarizəyə yönəldilmişdisə, bu dövrdə onun ikinci tərəfini təşkil edən məsələlərə, yəni idrak nəzəriyyəsi məsələlərinə cəlb edilmişdi. Bu dövrdə Max və Avenariusun yaratdıqları "ən yeni" fəlsəfə, guya istər materializmdən, istərsə də idealizmdən yuksəkdə duran və ancaq "tənqidi təcrübəyə" əsaslanan fəlsəfə — empiriokritisizm fəlsəfəsi burjua ziyalıları içərisində geniş yayılmışdı. Marksizmi təftiş edənlər də empiriokritisizmdən bərk yapışıb, onu ən yeni və ən təkmil bir nəzəriyyə kimi özlərinə bayraq etmişdilər.

Marksizmi müdafiə etmək, onun bütövlüyünü saxlamaq və proletariatın əməli fəaliyyətində ondan istifadə etmək ünün təftişçiliyin nəzəri əsası olan empiriokritisizmi əsaslı surətdə tənqid etmək, əvvəlki subyektiv idealist fəlsəfədən onun heç bir prinsipial fərqi olmadığını göstərmək lazım idi.

Bundan əlavə, həmin dövrdə təbiətşünaslığın inkişafında köklü bir sıçrayış olmuşdu. Fizika, kimya və başqa elmlər sahəsində edilən bir çox kəşflər bu elmlərin bir sıra müddəalarına uyğun gəlmir, yeni kəşflər həmin müddəaları rədd edir və yeni ümumiləşdirmələr, yeni ifadə formaları tələb edirdi. Bu kəşfləri izah etməkdə aciz qalan təbiətşünaslar əsasən iki

yerə bölünmüşdülər. Onlardan bir qismi təbiətşünaslığın köhnə müddəalarını ortodokscasına müdafiə edir, yeni kəşfləri isə tamamilə rədd edirdilər; digər qismi isə köhnə müddəaları rədd edir, onların subyektiv olduğunu və kafi əsas olmadan uydurulan müddəalar olduğunu iddia edir və yeni kəşflərə tərəfdar çıxırdılar. Lakin məsələ belə olduqda yeni kəşflərin özlərinin də obyektiv reallığı əks etdirməsini söyləmək üçün heç bir əsas qalmırdı, çünki gələcək inkişafda onlar özləri də ya qismən və ya tamamilə təkzib edilə bilərdi. Qısa desək, təbiətşünaslıq böhran keçirirdi, yeni kəşflər idealistcəsinə şərh edilərək, materialist fəlsəfənin və xüsusən marksizmin əsas müddəalarının doğru olmadığını sübut etməyə yönəldilirdi.

Bu vəziyyəti aradan qaldırmaq və təbiətşünaslıqda olan böhrandan çıxış yolunu göstərmək üçün yeni kəşfləri ümumiləşdirmək, onları dialektik materialistcəsinə təhlil etmək və bundan düzgün nəticələr çıxarmaq lazım idi.

Bu möhtəşəm vəzifəni öz dövrü üçün dahi V.İ.Lenin yerinə yetirdi. 1909-cu ildə çapdan çıxan "Materializm və empiriokritisizm" əsəri o qarma-qarışıqlıq, ideya hərc-mərcliyi dövründə marksizmin düşmənlərinə ölümcül bir zərbə, marksizm-leninizmin inkişafı üçün isə güclü bir məşəl oldu.

V.İ.Lenin həmin əsərində göstərdi ki, rus təftişçiliyinin nəzəri əsası olan empiriokritisizm Berkli, Yum, Fixte və b. subyektiv idealist filosofların Max və Avenariusdan çox-çox əvvəl söylədiklərindən başqa bir şey deyildir. Burada olsa-olsa köhnə məzmun yeni sözlərlə pərdələnmişdir. Əgər Berkli xarici aləmdəki şeyləri insan duyğularının kombinasiyası adlandırırdısa, Max duyğuları element adlandıraraq, şeyləri elementlərin kompleksi hesab edirdi. Fixte "Mən"lə "qeyri-Mən"in[4] əlaqəsindən danışarkən "Mən"i əsas, təyinedici, "qeyri-Mən"i isə ondan asılı qəbul edirdisə, Avenarius özünün "prinsipial koordinasiyası"nda mərkəzi üzvlə əks-üzv arasındakı

[4] Fixte «Mən» dedikdə subyekti, insan şüurunu, «qeyri-Mən» dedikdə obyekti, insanı əhatə edən xarici aləmi nəzərdə tutur.

əlaqədən danışarkən mərkəzi üzvü (insan şüurunu) əsas, təyinedici, əks-üzvü, xarici aləmi isə asılı, təyinolunan kimi qəbul edirdi. Bütün bu cənabların hamısını vahid subyektiv idealist xətt ətrafında birləşdirən odur ki, onlar xarici aləmi insan şüurunun, duyqularının məhsulu hesab edirlər, bizdən və bizim şüurumuzdan asılı olmayaraq mövcud olan obyektiv gerçəkliyi qəbul etmirlər.

Ümumiyyətlə, materialist fəlsəfənin, xüsusən marksist materializmin əsas müddəası isə, məlum olduğu kimi, məhz insandan asılı olmayan obyektiv reallığın əzəli və əbədiliyini qəbul etməkdən ibarətdir. Bu müddəanı və marksizmin bundan irəli gələn çoxlu digər müddəasını V.İ.Lenin saysız-hesabsız "nəzəriyyə" və cərəyanların hücumlarından qoruyub saxlamış, onu daha da inkişaf etdirib zənginləşdirmişdir.

Hazırda marksizm-leninizmə qarşı mübarizə keçmişdə olduğundan daha kəskin şəkil almışdır. Bunu bir neçə səbəblə izah etmək olar: *əvvəla,* Böyük Oktyabr sosialist inqilabının qələbəsi, sosialist cəbhəsinin yaranması və inkişafı, ikinci dünya müharibəsindən sonra bir sıra yeni ölkələrin sosializm sisteminə daxil olması və milli azadlıq hərəkatının müvəffəqiyyətləri nəticəsində kapitalizm və onun ideologiyası daha da mürtəceləşir, ölümə məhkum olmuş quruluşu mühafizə etmək üçün marksizm-leninizm nəzəriyyəsinə qarşı mübarizəni daha da gücləndirir; *ikincisi,* sosializm cəmiyyəti meydana gələnə qədər marksizm-leninizm nəzəriyyəsi hələ praktikada tamamilə sınaqdan çıxmış bir nəzəriyyə deyildi. Oktyabr sosialist inqilabının qələbəsi və ölkəmizdə sosializm quruculuğunun başlanması ilə marksizm-leninizm nəzəriyyəsi həyatda təcəssümləşir, ictimai həyatın inkişafının obyektiv qanunları marksizmin əvvəlcədən söylədiyi şəkildə fəaliyyət göstərir, marksizm nəzəriyyəsi əsasında qurulan, bu nəzəriyyədən rəhbərlik alan sosializm quruluşu kapitalizm sisteminə daxil olan ölkələrə öz təcrübəsilə əhəmiyyətli təsir göstərərək, oradakı inqilabi qüvvələrdə özlərinə inam və ruh yüksəkliyi yaradır.

Məhz ona görə də burjua ideoloqları sosializm quruluşuna və marksizm-leninizm nəzəriyyəsinə qarşı mübarizəni ölüm-dirim mübarizəsi səviyyəsinə qaldırır, burjua ideologiyasının rəhbər prinsipi aptikommunizm olur; antikommunizm get-gedə daha artıq dərəcədə kapitalist dövlətləri başçılarının həm də siyasi silahına çevrilməklə, nəiiki kommunist ideyalarına qarşı, həm də sosializm və kommunizmə qarşı yönəldilmişdir. Antikommunizm həmçinin imperializmin ən təcavüzkar və avantürist xarici siyasət tədbirlərinin örtüyü və bayrağıdır; nəhayət, *üçüncüsü,* son illərdə Qərb ziyalılarında marksizm-leninizm fəlsəfəsinə, sosialist ölkələrinin nailiyyətlərinə, elmin və texnikanın sürətli inkişafına çox böyük maraq oyanmışdır. Məhz ona görə də bir qisim burjua ziyalıları müasir kapitalizmin ictimai həyatının müxtəlif sahələrini, oradakı böhranları tənqidi təhlil etməyə çox böyük səy göstərir, yəni burjua ziyalılarının özündə hadisələrin inkişafına obyektiv nöqteyi-nəzərdən yanaşmaq meyli güclənir. Marksizm-leninizmin burjua ziyalılarına təsirini aradan qaldırmaq, yaxud heç olmazsa onu zəiflətmək uçün burjua ideoloqlarının mürtəce qolu mübarizəni daha da gücləndirir, bu mübarizəni "müvəffəqiyyətli" etmək üçün yeni "üsul" və "metodlar" axtarırlar.

Burjua ideoloqlarının bu metodlarından və bilavasitə mübarizə üsullarından danışmazdan əvvəl belə bir cəhəti qeyd edək ki, marksizm-leninizmin tənqidində burjua cərəyanlarının nümayəndələri müxtəlif üsullardan istifadə edirlər. Lakin bununla belə marksizm-leninizmə qarşı mübarizə edən burjua fəlsəfi cərəyanlarının hamısının az və ya çox dərəcədə istifadə etdikləri bəzi üsullar, onların hamısının mübarizəsi üçün ümumi olan bəzi cəhətlər göstərilə bilər.

Həmin üsullardan biri dialektika ilə materializmi bnr-birinə qarşı qoymaqdır. Məlum olduğu kimi, bu üsul yeni və müasir burjua filosoflarının istifadə etdikləri orijinal bir üsul deyildir. Hələ əsrimizin əvvəllərində maxizm (empiriokritisizm) və xüsusən rus maxizmi, sonralar, müxtəlif mövqelərdən olsa da,

menşevik idealizm və mexanisizm bu üsuldan geniş istifadə etmişdir. Dialektikanı materializmə qarşı qoyan hər bir filosof labüd surətdə əvvəl onları təhrif edir, bayağılaşdırır, necə deyərlər, özlərinə əlverişli bir şəklə salır, sonra isə asanlıqla onlara qarşı "müvəffəqiyyətli" mübarizə aparır. Bu cür filosoflar bir qayda olaraq materializmi metafizik materializm, dialektikanı isə anlayışlar, ideyalar dialektikası ilə əvəz edir, sonra bu "yeni yaradılmış dialektik materializmdə" daxili ziddiyyət axtarıb tapır və onun elmə zidd olduğunu böyük bir canfəşanlıqla söyləyirlər. Hələ vaxtı ilə marksizmə qarşı mübarizə aparan empiriokritiklər materializmə ümumiyyətlə yanaşaraq Marks və Engels materializmini Feyerbax, Ditsken və Plexanov materializminə müncər edir, sonra da ona qarşı hücuma keçirdilər. V.İ.Lenin özünün "Materializm və empiriokritisizm" əsərində bu üsulu çox ciddi tənqid atəşinə tutur, onun qeyri-elmi və yolverilməz bir üsul olduğunu açıb göstərir. Buna baxmayaraq müasir burjua fəlsəfi cərəyanları həmin üsuldan yapışırlar. Marksizmin neotomist "tənqidçiləri" İ.Bohenski və Q.Vetter tərəfindən ön plana çəkilən bu üsul digər cərəyanların — pozitivizm və onun müxtəlif qolları, praqmatizm, ekzistensializm və b. nümayəndələri tərəfindən də həvəslə qəbul edilir.

Burjua ideoloqlarının, onların ardınca da muasir ehkamçı və təftişçilərin geniş istifadə etdikləri mübarizə üsullarından biri də leninizmi marksizmə, "müasir sovet marksizmini" isə leninizmə qarşı qoymaq, guya onlar arasında ciddi ziddiyyət olduğunu söyləməkdən ibarətdir. Bunun üçün onlar əvvəl marksizmin müdafiəçiləri libası geyinib əsas zərbəni leninizmə qarşı çevirirlər. Onların fikrincə K.Marks və F.Engels kapitalizmin ahəngdar və yüksələn xətlə inkişaf etdiyi bir dövrdə yaşamışlar, onların həmin dövr üçün söylədikləri fikirlər və nəzəriyyələr doğrudur. Lenin isə guya marksizmin dövlət, siniflər və sinfi mübarizə, ictimai inqilab və xüsusilə sosialist inqilabı, proletar diktaturası və s. haqqındakı fikirlərini təhrif etdiyinə görə

leninizm müasir dövrə tətbiq edilə bilməz.

Bu qəbildən olan digər filrsoflar əsas zərbəni müasir marksizmə vurmaq üçün müasir sovet filosoflarının marksizm-leninizmi bayağılaşdırdıqlarını, ehkamlaşdırdıqlarını, sxolastikləşdirdiyini söyləyirlər. Məhz ona görə də guya sovet marksizminin əsil marksizmlə heç bir ümumi cəhəti yoxdur. Bu iddia özlərini əsil marksist-leninçi adlandıran müasir Çin rəhbərlərinin də lap ürəyindəndir.

Qərbi Almaniya sosial-demokratı F.Şternberqin "Marks və müasirlik", yenə də Qərbi Almaniya professoru Marks Langenin "Marksizm. Leninizm. Stalinizm", H.Markuzenin "Sovet marksizmi", İ.Bohenskinin əməkdaşı H.Bleklinin "Sovst sxolastisizmi" və s. əsərlərə diqqət yetirsək görərik ki, müəlliflərin əsas məqsədi marksizmin köhnəliyini, onun yeni şəraitdə tətbiq edilə bilməyəcəyini sübut etməkdir. Onların fikrincə, marksizmi müdafiə edən hər bir şəxs xüsusilə də Lenin və sovet filosofları "ehkamçı" marksistlərdir. Lange göstərir ki, Marksın iris kommunistlər tərəfindən bayağılaşdırılmışdır. Bunu o əsas etibarı ilə fəlsəfənin siyasətlə birləşdirilməsində görür. Lange Kommunist partiyasının rəhbər rolunu "fikir azadlığının məhdudlaşdırılması", fəlsəfənin inzibatlaşdırılması kimi qiymətləndirir. Təxminən bu fikirlər İezuit ordeninin üzvü Qustav Vetterin "Dialektik materializm" adlı əsərində də irəli sürülür.

Müasir burjua filosoflarının yekdilliklə şərik olduqları məsələlərdən biri də materialist dialektikanın özəyi olan əksiliklərin vəhdəti və mübarizəsi qanununu əsas hədəfə çevirməkdir. Bunu etmək üçün onlar ən asan və "əsaslı" yolu materialist dialektikadakı əkslik anlayışını formal məntiqdəki əkslik anlayışı ilə eyniləşdirməkdə və beləliklə də, materialist dialektikanı məntiqin ziddiyyət qanununun pozulmasında ittiham etməkdə görürlər. Müxtəlif fəlsəfi cərəyanlara məxsus olan Q.Vetter, İ.Bohenski, B.Rassel, R.Karnap, A.Ayer və b. bir ağızdan marksizmi, əvvəla, onda təqsirləndirirlər ki, o, əslində

heç bir ziddiyyət olmayan yerdə ziddiyyət və əkslik görür, ikincisi də, onlar real aləmdə, gerçəklikdə olan əkslik və ziddiyyətləri formal məntiqin bəhs etdiyi adi təfəkkür sahəsinə keçirməklə dialektikanı formal mənada başa düşülən məntiqə müncər edirlər.

R.Kariş "Xristian və dialektik materializm" adlı əsərində göstərir ki, marksistlər məntiqi (formal mənada) və dialektik ziddiyyətlər arasında fərqi qəbul etməklə, guya ikinci mənada ziddiyyəti "əkslikə" eyniləşdirməkdə səhv edirlər. Ziddiyyət dedikdə, Kariş yalnız kontradiktor mühakimələri, məsələn, "bu kağız qaradır" və "bu kağız qara deyil" tipli mühakimələri nəzərdə tutur. Əkslik dedikdə isə o, kontrar mühakimələri, yəni "bu kağız ağdır", "bu kağız qaradır" tipli mühakimələri nəzərdə tutur.

Buradan çox aydın görünür ki, Kariş dialektik əksliyi məhz formal məntiqi əkslik kimi izah edir, ona görə də həmin əksliyin tərəfləri ("bu kağız ağdır", "bu kağız qaradır") arasında nə vəhdət, nə də mübarizə tapa bilmir[5].

Marksizmdə isə bu məsələ həll edilmiş və hazırda sovet filosofları tərəfindən onun müxtəlif tərəf və cəhətləri müfəssəl tədqiq olunmaqdadır. Hələ F.Engels və V.İ.Lenin göstərmişlər ki, formal məntiqin bəhs etdiyi qanunlar yalnız adi həyatda, adi təfəkkür dairəsində fəaliyyət göstərir və bizə xidmət edirlər. Elə ki, biz adi təfəkkür çərçivəsindən kənara çıxaraq elmi təfəkkür sahəsinə keçirik, burada formal məntiq qanunları işləmir, bizim nəzəri-elmi və əməli fəaliyyətimiz dialektik məntiq qanunlarına əsaslanır. Deməli, söhbət bu iki sahənin birinin digərinə müncər edilməsindən yox, onlar arasında olan dialektik qarşılıqlı əlaqəni düzgün anlamaqdan, onların birinin digərini necə tamamladığını aydın dərk etməkdən gedir.

Üçüncüsü, müasir burjua filosofları marksizm-leninizmə qarşı mübarizədə yeni kantçıların idioqrafik konsepsiyasından

---

[5] Против современных буржуазных фальсификаторов марксистско-ленинской философии. М., 1964, səh. 69—70.

geniş istifadə edirlər. Marksizm fəlsəfəsinin mühüm hissələrindən olan tarixi materializmi elmi əsasdan məhrum etmək üçün onlar hətta marksizmə müəyyən "güzəştə" getməyi üstün tuturlar. Təbiət elmləri ilə bağlı olduğuna görə dialektik materializmin müəyyən müddəalarının "zəkayauyğunluğunu" qəbul etdikləri halda, onlar nə tarixi materializmi, nə də tarixi bir elm kimi qəbul etmirlər. Buna əsas isə, onların fikrincə, odur ki, təbiət hadisələrində təkrarlanma olduğu halda, cəmiyyət hadisələrində, tarixdə təkrar yoxdur, ictimai hadisələr bir dəfə baş verir, onlar təbiət etibarı ilə təkcədir. K.Popper özünün "Açıq cəmiyyət" və "Tarixiliyin yoxsulluğu" adlı əsərlərində belə bir nəticəyə gəlir ki, tarixin heç bir mənası yoxdur. Tarixi inkişafın qanunları formulə edilə bilməzlər, çünki hər bir qanun bir sıra təkrarlanan halların ümumiləşməsi olduğu halda, tarixdə bu cür təkrarlanan hallar yoxdur. İctimai tarixi inkişafın qanunları təkcə obyektə (cəmiyyətə) aiddir, deməli, onlar heç bir elmi mənaya malik deyillər[6].

Burada biz məsələnin iki cəhətdən dolaşdırıldığını aydın görürük: a) qanun heç də Popperin dediyi kimi, təkrarlanan halların sadəcə ümumiləşdirilməsi deyildir. Qanun dərin təhlil nəticəsində hadisələrdə olan ümumi, zəruri, mühüm, sabit və təkrarolunan əlaqə və münasibətlərin aşkar edilməsi deməkdir, o, hadisələrin mahiyyətinin açılması nəticəsində müəyyən edilir; b) cəmiyyətin vahid olması hələ ictimai hadisələrin təkrar olunmamasına dəlalət etmir. İctimai həyat müxtəlif sahələrdən ibarətdir ki, bu sahələrdən hər birinin spesifik cəhətlərilə yanaşı ümumi cəhətləri də vardır, bunlar da cəmiyyətin mahiyyətilə bağlı olmaqla ümumsosioloji qanunların əsasını təşkil edir Bundan əlavə, hər bir ictimai həyat sahəsinə daxil olan hadisələrin özləri həm zamanda, həm də məkanda təkrar olunandırlar. İctimai həyat hadisələrindəki təkrar, əlbəttə, təbiət hadisələrindəki təkrardan xeyli fərqlidir və özünün bir sıra

---

[6] Против современных буржуазных фальсификаторов марксистско-lенинской философии. М., 1964, səh. 69—70.

spesifik xassələrinə malikdir. Lakin bu fərqə əsasən ictimai həyat hadisələrindəki təkrarı inkar etmək tamamilə mənasızdır.

Nəhayət, müasir burjua filosofları dialektik və tarixi materializmi, xüsusilə də materialist dialektikanın əsas qanunlarını ehkam adlandırır, onun heç bir təcrübə vasitəsilə yoxlana bilmədiyini iddia edirlər. Onların fikrincə, dialektikanın əsas qanunları heç bir mümkün empirik təcrübə ilə təkzib edilə bilməz, ona görə də onların heç bir elmi əhəmiyyəti yoxdur. A.Ayer yazır ki, dialektika qanunlarının guya "faktlara ehtiyacı yoxdur, əgər müəyyən edilsə ki, faktlar o qanunlara tamamilə etinasızdır, bu halda da vəziyyətdən çıxış yolu tapılacaqdır". Bir təbiət prosesi başqasını inkar edir, yaxud onlar ali sintezdə həll edilir deməyin, kəmiyyətin keyfiyyətə keçməsi haqqında danışmağın müvafiq konkret hadisələri dəqiq müəyyən edincəyə qədər heç bir mənası yoxdur... Bu prinsipləri çox geniş, istənilən hər şeyi əhatə etməyə qadir şəkildə düşündükdə onlar heç bir funksiya yerinə yetirə bilməzlər. Hədsiz dözümlülük onları hər cür məzmundan məhrum edir"[7].

Başa düşmək çətin deyildir ki, bu sətirlərin müəllifi neopozitivistdir, həm də o, dialektikanın qanunlarına neopozitivizmin verifikasiya prinsipi və hissi verilmə kimi məhdud anlaşılan mümkün empirik təcrübə meyarı ilə yanaşır. Halbuki verifikasiya prinsipi elmi yararsızlığını artıq büruzə vermiş və ona görə də əvvəllər həmin pripsipi rəhbər tutan filosofların çoxu artıq ondan imtina edir.

Marksizm-leninizm fəlsəfəsinə qarşı müasir burjua fəlsəfi cərəyanlarının apardığı mübarizənin ümumi qısa mənzərəsi belədir. Sov.İKP Proqramında göstərildiyi kimi, müasir dövrdə imperializmin ideya-siyasi silahı antikommunizmdir, onun əsas məzmunu isə sosializm quruluşuna böhtan atmaqdan, kommunist partiyalarının siyasət və məqsədlərini, marksizm-leninizm təlimini saxtalaşdırmaqdan ibarətdir. Məhz ona görə də hazırda partiyamız ictimai elmlər qarşısında çox mühüm

---

[7] Журн. «Вопросы философии», 1962, № 1, səh. 98—99.

vəzifələr qoyur. Bunlardan biri, sosializm sisteminə daxil olan ölkələrdə sosializm və kommunizm quruculuğu təcrübəsini ümumiləşdirmək, bu prosesdə nəzəriyyə ilə praktikanı maksimum uzlaşdırmaq, sosializm və kommunizm quruculuğunun ümumi və spesifik qanunauyğunluqlarını, onların hər ölkənin şəraitindən irəli gələn təzahür müxtəlifliyini müfəssəl araşdırmaqdır; digəri isə sosializm quruluşuna və marksizm-leninizmə böhtanlar yağdıran, ona hücum edən müasir burjua fəlsəfəsi və ideologiyasını ifşa etmək, onun əsassız, qeyri-elmi və mürtəce mahiyyətini geniş kütlələrə açıb göstərməkdir. Əlbəttə, bu iki vəzifəni bir-birindən ayrı təsəvvür etmək olmaz, onlardan birini yerinə yetirmədən digərini müvəffəqiyyətlə həyata keçirmək olmaz. Məhz ona görə də oxucuya təqdim edilən bu məcmuədə həmin iki vəzifənin yerinə yetirilməsi diqqət mərkəzində durur. Burada marksizm-lennnizm fəlsəfəsinin bu və ya digər aktual probleminin işlənilməsi sosializm və kommunizm quruculuğu təcrübəsinin ümumnləşdirilməsi və müasir burjua fəlsəfəsi və ideologiyasının tənqidi baxımından aparılır.

Leninizm beynəlxalq fəhlə hərəkatının rəhbər ideologiyası olmaqla bir yerdə dayanıb durmur. Fəhlə hərəkatının inkişafı və sosialist ölkələrindəki quruculuq təcrübəsinin ümumiləşdirilməsilə o, daim yeni müddəalarla zənginləşir. Həyatın mütərəqqi inkişafının və ən müxtəlif təzahürlərinin hududu olmadığı kimi, marksizm-leninizm nəzəriyyəsi inkişafının da, bu nəzəriyyənin yeni təcrübə ilə və yeni müddəalarla zənginləşməsinin də hüdudu yoxdur.

SSRİ-də qalibiyyətli sosializm və kommunizm quruculuğu, sosializmin dünya sisteminə çevrilməsi leninizmin böyük təntənəsidir. Leninizm özünün hər şeyə qalib gələn gücünü sosializm və kommunizm quruçuluğu təcrübəsində hər gün, hər saat parlaq surətdə nümayiş etdirir.

Leninizm xalqlar dostluğu, sosialist humanizmi və proletar beynəlmiləlçiliyi bayrağıdır. Bu bayraq altında ölkələrin

milyonlarla xalqı imperializm və müharibə əleyhinə, sülh, demokratiya və sosializm uğrunda mübarizə aparırlar.

Leninizm ideyaları bütün bəşəriyyətin tarixi inkişafına dünya inqilab hərəkatının gedişinə qüdrətli təsir göstərir, xalqları imperializmə qarşı sosializm uğrunda mübarizəyə ruhlandırır. Leninizm bütün ölkələrin zəhmətkeşlərinə azadlıq yolunu göstərir, yeni cəmiyyət quruculuğu yolunu işıqlandırır. Leninin adı yeni, azadlıq dünyasının rəmzi olmuşdur.

V.İ.Leninin ölməz ideyaları şanlı Kommunist partiyasının, qəhrəman sovet xalqının kommunizm quruculuğu işində bütün sosializm cəbhəsi ölkələrinin nailiyyətlərində bütün dünya kommunist və fəhlə partiyalarının yeni cəmiyyət uğrundakı mübarizəsində yaşayır və qalib gəlir.

Əsrimiz leninizm ideyalarının, kommunizm ideyalarının bütün dünyada təntənəsi əsridir.

# V. İ. LENİN MATERİALİST DİALEKTİKANIN ƏSAS QANUNLARI HAQQINDA. QANUNLARIN TƏSNİFATI

Elmi biliyin inkişafında, xüsusilə onun hazırkı mərhələsində qanun problemi ciddi metodoloji əhəmiyyətə malikdir, zira qanunun kəşfi elmi idrakın son məqsədidir. Digər tərəfdən, dərk edilmiş qanunlar məqsədəuyğun ictimai fəaliyyətin əsasında durduğundan bu problem habelə mühüm əməli əhəmiyyət kəsb edir. Məhz ona görə də qanun problemi V.İ.Leninin fəlsəfi yaradıcılığında mərkəzi yerlərdən birini tutur.

V.İ.Leninin fəlsəfi irsində qeyd edilən məsələnin tutduğu yeri və onun həllində V.İ.Leninin adı ilə bağlı olan yeni cəhətləri bariz göstərmək üçün birinci növbədə qanun anlayışının məzmununu açmalıyıq.

*Qanun* aləmin obyektiv, mühüm, zəruri, ümumi, sabit və təkrar olunan, müəyyən şərait daxilində həmişə hadisənin inkişaf istiqamətini müəyyən edən əlaqələrini ifadə edən fəlsəfi kateqoriyadır.

Belə bir tərif əlbəttə qanun anlayışının başlıca xüsusiyyətləri haqqında bizdə ancaq ümumi təsəvvür yaradır.

Qanun kateqoriyasının məzmunu haqqında hərtərəfli, dərin dialektik təsəvvür yaratmaq üçün tərifdə göstərilən hər bir xüsusiyyət üzərində qısaca da olsa xüsusi dayanmalıyıq.

Qanunların obyektivliyi məsələsi fəlsəfənin əsas məsələsinin həlli ilə bağlıdır. V.İ. Lenin göstərirdi ki, təbiətdəki qanunauyğunluğu, "...qayda və zərurəti xarici obyektiv aləmin deyil, şüurun, zəkanın, məntiq və sairənin nəticəsi hesab etmək, nəinki insan zəkasını təbiətdən ayırır, nəinki birincini ikinciyə qarşı qoyur, hətta təbiəti məkanın *bir hissəsi* sayır, halbuki zəkanı təbiətin kiçik bir hissəsi saymaq lazım idi". "Zərurəti, səbəbiyyəti, qanunauyğunluğu və sairəni təfəkkürün nəticəsi hesab etmək idealizmdir". "Təbiətin obyektiv

qanunauyğunluğunu və bu qanunauyğunluğun insan beynində təqribən düzgün əks etdiyini qəbul etmək”, “təbiətin zərurətini qəbul etmək və təfəkkür zərurətini onun nəticəsi hesab etmək materializmdir”[8].

Qanun probleminin izahındakı idealist təlimlərin təfərrüatına varmadan göstərə bilərik ki, onlar ümumiyyətlə iki qismə ayrılır: bir qismi xarici aləmdəki hadisələri təsadüflərin mexaniki yığını kimi, heç bir qayda və qanuna tabe olmayan qarma-qarışıq bir yığın kimi qələmə verərək, qanun və qanunauyğunluğu tamamilə inkar edir; digər qismi isə xarici aləmdəki qanunların mövcud olduğunu və təsir göstərdiyini qəbul etsə də, onların obyektivliyini inkar edir, onları insanın idrak aparatının məhsulu kimi izah edir. Bu axırıncı fikri aydın təsəvvür etmək üçün aşağıdakı iki müddəanı misal gətirmək kifayətdir. Kant “Proleqomenlər” adlı əsərində yazır ki, “...Təbiətin ali qanunvericiliyi bizim özümüzdə, yəni bizim fəhmimizdə olmalıdır və biz ən ümumi qanunları təcrübə vasitəsilə təbiətdə axtarmamalıyıq, əksinə, özünün ən ümumi qanunauyğunluğu halında təbiəti yalnız bizim hissiyyat və fəhmimizdə olan mümkün təcrübə şərtlərindən hasil etməliyik”[9]. Daha bariz şəkildə həmin fikir maxist K. Pirson tərəfindən söylənmişdir: “Sözün elmi mənasında qanun, mahiyyət etibarı ilə insan ruhunun, insandan kənarda mənası olmayan məhsuldur. O, öz varlığı ilə insan ağlının yaradıcı qüdrətinə borcludur. İnsan təbiətə qanun verir deyən iddiada buna əks olan və təbiət insana qanunlar verir, deyən iddiaya nisbətən daha çox məna vardır”[10].

Göründüyü kimi, idealist nöqteyi-nəzərlər sözdə, ifadə tərzində, bəzi hallarda isə mühüm olmayan məsələlərin həllində bir-birindən az-çox fərqlənsələr də, “...əsas məsələdə: təbiətin obyektiv qanunauyğunluğunu inkar etməkdə ... onların fikri birdir...”[11] — qanun və prinsiplər subyektiv fəaliyyətdən

---

[8] V. İ. Lenin. Materializm və empiriokritisizm, 1968, səh.169
[9] İ. Kant. Soçinenil v şesti tomax, t. 4, çastv 1, M., 1965, səh. 139,
[10] K. Pirson. Qrammatika nauki. SPb, 1911, səh. 111.
[11] V. İ. L e n i n. Materializm və empiriokritisizm, səh. 169.

törəmədir, təbiət və insan isə bu prinsip və qanunlara uyğunlaşmalı olur. "Bəs təfəkkür bu prinsipləri haradan alır? Öz-özündənmi?"[12]. Bəli, idealist filosoflara görə, öz-özündən alır. İşin əslində isə "təfəkkür ... heç bir zaman bu formaları öz-özündən hasil edə bilməz, ancaq xarici aləmdən hasil edə bilər. Beləliklə, məlum olur ki, bütün nisbət tamamilə əksinədir: prinsiplər tədqiqatın çıxış nöqtəsi deyil, onun son nəticəsidir, bu prinsiplər təbiətə və bəşər tarixinə tətbiq edilmir, onlardan abstraksiya edilir; təbiət, bəşəriyyət prinsiplərə uyğunlaşmır, əksinə, prinsiplər yalnız təbiətə və tarixə uyğun gəldiyi dərəcədə düzgündür. Məsələyə yeganə materialist baxışı bundan ibarətdir..."[13].

Qanunların obyektivliyini inkar edən nöqteyi-nəzər klassik pozitivizmin baniləri olan O. Kant və H. Spenserin təlimindən, pozitivizmin "inkişafında" ikinci mərhələ olan empiriokritisizm fəlsəfəsindən və müasir neopozitivizm sistemindən əsas xətt olaraq keçir. Bertran Rassel "İnsan idrakı" əsərində qanunları bir sıra instinktiv etiqadlarla bağlayır; "səbəbiyyət əlaqəsinə inam, az və ya çox daimi obyektlərin olmasına inam, xatirələrə olan şərti inam, səbəbiyyət qanunlarının fəza və zamanca arasıkəsilməzliyinə inam və sairə"[14] (Yumun səbəbiyyət təlimindəki "vərdiş" anlayışı ilə müqayisə et) onun fikrincə, qanunun əsasını təşkil edir. Daha sonra "Səbəbiyyət əlaqələri" adlandırdığı başlıqda isə Rassel sübut etməyə çalışır ki, səbəbiyyət obyektiv olaraq mövcud deyil, onun mövcudluğu induksiya yolu ilə təcrübədən çıxarılmır, yalnız bizim buna inanmamıza əsaslanır[15]. "Bu gün biz müəyyən edirik ki, bizim təbiət qanunları hesab etdiklərimizin çoxu əslində insan şərtilikləridir"[16].

Rassel və bir sıra başqa pozitivistlər hələ Kantdan gələn belə

---

[12] F. Enkels. Anti-Dürinq, səh. 30.
[13] Yenə orada, səh. 31.
[14] Bax: B. Rassel. Çeloveçeskoe poznanie. M., 1957, səh. 193—203.
[15] Bax: Yenə orada, səh. 344—355.
[16] B. Rassel. Poçemu ne xristianin? M., 1958, səh. 13—14.

bir ideyanı davam etdirirlər ki, əsil elmi qa- nunlar ancaq riyazi dəqiqliklə tənliklərdə ifadə edilən qanunlardır. Səbəbiyyət Rasselin nəzərincə, artıq köhnəlmişdir, hadisələr isə müxtəlif zamanlarda müxtəlif qanunlara — differensial tənliklərə tabe olur.

Riyaziyyatın xarici aləmlə hər cür əlaqəsini tamamilə inkar edən V. Cems "Psixologiyanın prinsipləri" əsərində yazır ki, apriori elmlər adlanan məntiq və riyaziyyat barəsində mənim tezisim ondan ibarətdir ki, bunlar təbiətdə bizə bəlli olan dünya qaydasının təbii elmlərdən də daha az dərəcədə nəticəsidir... Xalis elmlər təcrübənin genezisinə heç bir dəxli olmayan müddəalar sistemindən ibarətdir[17].

Müasir pozitivizmin geniş yayılmış cərəyanlarından olan praqmatizm fəlsəfəsində qanun məsələsindəki subyektivizm xətti daha aydın şəkildə özünü göstərir. Praqmatizmin əsasını qoyanlardan biri olan V. Cems qanun məsələsində materializmin idealizmə tam əks olduğunu görür və bütün gücü ilə materializmi təkzib etməyə cəhd edir. O yazır ki, materializm spiritualizm və ya teizmin tam əleyhinədir. Materializm iddia edir ki, hadisələrin gedişi təbiətin fiziki qanunları ilə idarə olunur... Spiritualizmə görə ruh təkcə dünya proseslərinin şahidi və qeydedicisi deyil, həm də şeylərin gedişinə fəal təsir edir[18]. Subyektivizm praqmatizmin idrak nəzəriyyəsində, xüsusilə həqiqəq haqqındakı təlimində daha aydın görünür. Praqmatistlər idrakı subyektivistcəsinə izah edilən təcrübə[19] ilə bağla- yaraq qanun və kateqoriyaları insan fəaliyyətinin alətləri adlandırırlar. Deməli, bu alətlər insanın subyektiv meylindən və iradəsindən asılı olaraq müxtəlif məzmunlu ola bilər.

Beləliklə, biz görürük ki, Kant fəlsəfəsi, pozitivizm (klassik pozitivizm, maxizm və neopozitivizm) və bir sıra müasir burjua fəlsəfi sistemləri üçün ümumi olan, onları ümumi düşmən olan materializmə qarşı mübarizədə birləşdirən fikir bundan ibarətdir

---

Praqmatizm filosofii imperializma. M., 1955,
[18] V. Djems. Praqmatizm. SPb, 1910, səh. 61.
[19] Bax: V. I. Lenin. Materializm və empiriokritisizm, səh.169

ki, təbiətin özünə xas olan ... obyektiv qanunauyğunluq yoxdur, o ancaq "mütləq əqlin", "mütləq ruhun", "insan şüurunun" məhsuludur.

V.İ.Lenin göstərir ki, bütün bu qəbildən olan fəlsəfi "izmləri" ümumiləşdirən onların hamısı üçün "ümumi olan əsas ideyanı qəbul etməkdir, yəni təbiətin obyektiv qanunauyğunluğunu inkar etməklə bu və ya başqa "təcrübə şəraitini", bu və ya başqa bir prinsipləri, postulatları, müddəaları təbiətin deyil, subyektin, insanın şüurunun məhsulu hesab etməkdir"[13].

Lakin gerçəklik, mütəfəkkirlərin onu necə izah etmələrindən asılı olmayaraq, nəinki insan, hətta ümumiyyətlə üzvi aləm olmadıqda belə özünün obyektiv qanunları əsasında inkişaf etmiş, insan isə təbiətin inkişafının müəyyən mərhələsində yaranmışdır. Deməli, insan, onun iradəsi, istək və arzusu, ümumiyyətlə şüuru xarici aləmin qanunauyğunluğunun yaradıcısı ola bilməz. V.İ.Lenin yazır: "Dünya materiyanın qanunauyğun hərəkətidir, təbiətin ən yüksək məhsulu olan idrakımız da bu qanunauyğunluğu yalnız əks etdirə bilər"[14].

Təbiət və cəmiyyətdəki obyektiv qanunauyğunluğun qəbul edilməsi bizi əhatə edən aləmdəki predmet və hadisələrin obyektivliyinin qəbul edilməsi ilə, başqa sözlə desək, fəlsəfənin əsas məsələsinin materialistcəsinə və ya idealistcəsinə həll edilməsi ilə sıx surətdə əlaqədardır. V.İ.Lenin L. Feyerbaxın şəxsində həmin cəhətə işarə edərək yazır ki, onun "təbiətdəki obyektiv qanunauyğunluğu qəbul etməsi şüurumuz tərəfindən əks etdirilən xarici aləmin, predmetlərin, cisimlərin, şeylərin obyektiv reallığını qəbul etməklə qırılmaz surətdə əlaqədardır"[15]. Materializmin nöqteyi-nəzəri "xarici aləmin və xarici təbiət qanunlarının obyektiv reallığını qəbul etməkdən ibarətdir..."[16].

Aləm qanunlarının obyektivliyi, əvvələn, onların subyektin arzu və istəklərindən asılı olmadan mövcud olmasında, V.İ.Leninin dediyi kimi, subyekt və bəşəriyyət tərəfindən nə

məhv edilə, nə də yenidən yaradıla bilməməsində təzahür edir. İnsanlar öz istək və arzularından asılı olaraq mənafelərinə “uyğun gəlməyən” qanunları “uyğun gələnləri” ilə əvəz edə bilməz.

Qanunların obyektivliyi, ikincisi, onda təzahür edir ki, həmin qanunların təsiri bizim onları bilib-bilməməyimizdən asılı deyildir. Materiyanın qanunauyğun təkamül tarixinə, idrakın irəliləməsi ilə materiyanın müvafiq formalarının, qanunlarının kəşf və dərk edilməsi prosesinə nəzər salsaq görərik ki, yüz və min illər ərzində insanların təbiət və cəmiyyət qanunları haqqında təsəvvürləri belə olmamışdır. Lakin insanlar həmin qanunları bilib-bilməmələrindən, əksər hallarda müxtəlif qanunların tələblərinə kortəbii olaraq uyğunlaşıb, ondan empirik şəkildə istifadə etmələrindən asılı olmadan onlar obyektiv surətdə mövcud idilər. F. Engels yazır: “Sürtünmənin istilik törətməsi, tarixdən əvvəlki insanlar — ola bilsin ki, 100.000 il bundan əvvəl —sürtünmə vasitəsilə od əldə etmək usulunu kəşf etdikləri zaman, ondan daha əvvəl isə, bədənin soyumuş hissələrini ovuşdurmaq vasitəsilə qızdırdıqları zaman, praktikada onlara məlum idi. Lakin bununla, sürtünmənin ümumiyyətlə istilik mənbəyi olduğunun kəşf edilməsi arasında kim bilir neçə min il keçmişdir”[20].

Bu fikri ictimai həyat qanunauyğunluqlarına da eyni dərəcədə aid etmək olar. V.İ.Lenin göstərir ki, Marks ictimai inkişaf qanunauyğunluqlarını kəşf edənə qədər xalq kütlələri öz ictimai münasibətlərinə şüursuz uyğunlaşdırdılar[18].

Dərk edilmiş qanunla, hələ naməlum olan qanun arasında onların obyektivliyi nöqteyi-nəzərindən əsla fərq yoxdur. Fərq ancaq dərk edilmiş qanunlarla dərk edilməmiş qanunların insanların əməli fəaliyyətində oynadığı rolun müxtəlifliyindədir. F. Engels “Təbiətin dialektikası” əsərində yuxarıda göstərilən iki cür qanun arasındakı təzahür fərqlərini qeyd etmişdir: “...Bir dəfə müəyyən edilmiş qanunun təməlinə biz müəyyən qüvvə

[20] F. Engels. Təbiətin dialektikası, səh. 195.

əlavə etməklə, bundan həmin qanuna və onun obyektivliyinə, yaxud onun təsiri obyektivliyinə zərrə qədər yeni obyektivlik əlavə olunmur; burada ancaq bizim belə bir *subyektiv iddiamız* əlavə olunur ki, həmin qanun hələlik əsla məlum olmayan hər hansı bir qüvvə vasitəsilə təsir göstərir... "Qüvvə sözündə bizim bəzən sığınacaq axtarmağımızın səbəbi o deyildir ki, bpz qanunu tamamilə dərk etmişik, səbəbi məhz odur ki, biz onu dərk *etməmişik,* həmin hadisələrin "çox dolaşıq şəraitini hələ *aydınlaşdırmamışıq".*

Dərk edilmiş qanunlarla hələ dərk edilməmiş qanunlar ictimai-əməli fəaliyyət nöqteyi-nəzərindən tamamilə müxtəlif rol oynayır. Əgər insan qanunları dərk etmişsə, onda onların təsir dairəsini məhdudlaşdıra və ya genişləndirə bilər, təsir istiqamətini dəyişdirə bilər. Beləliklə də həmin qanunlar bir növ "cilovlanır" və insanın məqsədlərinə xidmət edən bir qüvvəyə çevrilir. Əksinə, Əgər qanunlar dərk edilməmişsə, insanlar onların kortəbii təsirinə məruz qalır.

Üçüncüsü, qanunların obyektivliyi onların təsirinin bizim mənafeyimizə uyğun gəlib-gəlməməsindən, bizə xeyirli və ya zərərliliyindən asılı olmamasındadır.

Qanunların obyektivliyi, nəhayət, o deməkdir ki, insanlar ancaq həmin qanunların tələbinə uyğun prosesləri həyata keçirə bilərlər.

V.İ.Lenin "Xarici dünyanın, təbiətin qanunlarını... insanın məqsədəuyğun fəaliyyətinin əsasları"[21] adlandırmışdır. "Obyektiv prosesin iki forması: təbiət (mexaniki və kimyəvi təbiət) və insanın məqsədgüdən fəaliyyəti"[22] bir-birilə düzgün uzlaşdırıldıqda, yəni onların qanunlarından düzgün istifadə edildikdə insan təbiətin ağasına çevrilir. Əks halda isə o, obyektiv qanunlarla "ziddiyyətə" girir və bu ziddiyyət qanunların xeyrinə həll edilmiş olur. V.İ.Lenin yazır: "...nə qədər ki, biz təbiət qanununu bilmirik, bu qanun idrakımızdan

---

[21] V. İ. Lenin. Əsərləri, 38-ci cild, səh. 189.
[22] Yenə orada.

asılı olmayaraq və ondan xaricdə mövcud olub təsir göstərir və bizi "kor zərurətin" qulu edir. Elə ki, biz... iradəmizdən və şüurumuzdan **asılı olmayaraq** təsir göstərən bu qanunu bildik, — təbiətin ağası oluruq"[23].

Hər bir qanun nəticə etibarı ilə müəyyən tip əlaqədir. Bu əlaqə ya eyni sinfə daxil olan müxtəlif hadisələr arasında, ya müxtəlif sinfə daxil olan predmet və hadisələr arasında, yaxud eyni sinfə daxil olan çoxlu hadisələrin müxtəlif tərəfləri, xüsusiyyətləri (xüsusiyyət özü də müəyyən əlaqə və münasibətdə təzahür edir) arasındakı əlaqə ola bilər.

Lakin predmet və hadisələr arasındakı bu əlaqələr çox müxtəlifdir. Onların bəziləri mühüm, bəziləri qeyri-mühüm, bir qismi zəruri, digər qismi təsadüfi, nisbətən daimi və keçici əlaqələrdir. Qanun bunların hamısını yox, ancaq mühüm əlaqələri əhatə edir. V.İ.Lenin göstərir ki, "qanun-**münasibətdir**

**Mahiyyətlərin** münasibəti və ya mahiyyətlər arasında münasibətdir"[24]. **"Qanun** və **mahiyyət** yekcins (bir sırada duran) və ya, daha doğrusu, eyni dərəcəli anlayışlardır, bu anlayışlar hadisələrin, dünyanın etc insan tərəfindən dərk olunmasının dərinləşdiyini ifadə edir"[25].

**"Qanun** anlayışı dünya prosesindəki **vəhdət** və **əlaqənin, qarşılıqlı asılılıq** və bütövlüyün insan tərəfindən dərk edilməsi pillələrindən **biridir"[26].**

"Qanun hadisələrin qanunu"dur.

"Qanun hadisədə (qalan) sabitdir".

"Qanun hadisədəki eyniyyətdir".

"Qanun = hadisələrin sakit inikası N. V"[27].

"Qanun sakiti götürür — buna görə də qanun, hər cür qanun məhduddur, natamamdır, təqribidir".

"Qanun mühüm hadisədir".

---

[23] V. İ. Lenin. Materializm və empiriokritisizm, səh. 198.
[24] V. İ. Lenin. Əsərləri, 38-ci cild, səh. 153.
[25] Yenə orada, səh. 151.
[26] Yenə orada, səh. 150.
[27] Yenə orada, səh. 151.

“(Qanun universumun hərəkətində mühümün inikasıdır)”[28].

“Hadisə bütövlükdür, totallıqdır (qanun-hissə) (hadisə qanundan **zəngindir)”[29].**

“...Növ anlayışı “təbiətin mahiyyətidir”, **qanundur...”[30].**

“...Qanunlar boş bir qılaf deyil, obyektiv dünyanın **inikasıdır”[31].**

V.İ.Lenin gətirdiyimiz bu təriflərdə qanun kateqoriyasının məzmununa, habelə onun dialektikanın digər kateqoriyaları ilə əlaqə və münasibətinə dair çox qiymətli fikirlər söyləmişdir. V.İ.Lenin həmin təriflərdə bir tərəfdən, qanunun obyektiv aləmin özünə immanent xas olan əlaqə və münasibət forması olduğunu, digər tərəfdən, qanunun əlamətlərinin dialektikanın digər kateqoriyaları ilə vəhdət və əlaqəsini, qarşılıqlı münasibətini göstərmişdir.

Yuxarıda verdiyimiz tərifdən göründüyü kimi, qanun kateqoriyası zəruri və ümumi əlaqələrin ifadəsidir. Burada zərurətlə təsadüfin dialektik vəhdəti nəzərə alınarsa, aydın olar ki, qanun zəruri əlaqələri ifadə etməklə təsadüfi inkar etmir. Burada ancaq hadisələrin təsadüfi cəhətlərindən bu və ya digər şərait kompleksinə nəzərən sərfnəzər edilir və zəruri cəhətləri ümumiləşdirilir. Başqa sözlə desək, zəruri əlaqələri ifadə edən qanunun dərk edilib istifadə olunması əslində mümkün ola biləcək təsadüfi halların maksimum nəzərə alınması deməkdir. Mümkün ola biləcək təsadüflər nə qədər çox nəzərə alınarsa, zəruri əlaqələr, qanun bir o qədər bariz şəkildə üzə çıxar.

Lakin zərurət qanundan geniş anlayış, “varlığın ümumisi” (varlıqda ən ümumi)[31] olduğundan, qanun və hər cür zəruri əlaqələri deyil, yalnız mühüm və ümumi xarakter daşıyan, hadisələrin dəyişilməsində sabit qalan və deməli, onlarda təkrar olunan zəruri əlaqələri ifadə edir. Bir sıra statistik proseslərin qanunauyğunluqlarında ifadə olunan zəruri əlaqələrə gəldikdə,

---

[28] Yenə orada.
[29] Yenə orada.
[30] V. İ. Lenin. Əsərləri, 38-ci cild, səh.281.
[31] Yenə orada, səh. 182.

bu halda zərurət orta, məcmu nəticəsini göstərərək obyektiv surətdə mövcud olur.

F. Engels qanunu təbiətdəki ümumilik forması adlandırmışdır. Bu ümumilik gerçəklikdəki saysız predmet və hadisələrin bir-birilə qarşılıqlı əlaqə və münasibətindən irəli gəlir. Predmet və hadisələrə, əlaqə və münasibətlərə oxşarlıq və ümumilik baxımından yanaşdıqda, onları bir-birindən ayıran spesifik cəhətlərlə yanaşı, müəyyən qrupa və ya sahəyə aid olan əlaqə ümumiliyini görmək olar. Qanunda ifadə olunan əlaqələrin ümumiliyinin iki mühüm cəhətini qeyd etmək olar: bir tərəfdən, qanun ya xarici aləmdə olan bütün hadisələri və hətta insan təfəkkürünü belə (ən ümumi qanunlar) və yaxud müəyyən sahədəki hadisələrin hamısını muəyyən cəhətdən ifadə edir (ümumi və xüsusi qanunlar). Əgər belə demək mümkünsə, bu, fəzadakı ümumilikdir; digər tərəfdən isə qanunun ifadə etdiyi əlaqələr müəyyən qrup hadisələrin inkişafında, onların bir-birini əvəz etməsində əvvəldən axıra qədər və onların hamısında təzahür edir və ya onun müəyyən mərhələlərində təzahür edir, təkrar olunur, başqa sözlə, bir-birini əvəz edən eynicinsli hadisələrin hamısında mövcud olur. Bu ümumilik isə zamanda olan ümumilikdir.

Ümumi əlaqə və münasibətləri ifadə etməklə qanun əslində tək hadisələri ifadə edir, lakin onların fərdi xüsusiyyətlərinə, ümumi əlaqə və münasibətlərinə görə ifadə edir. Bir sözlə, qanun abstrakt ümumini deyil, "özündə əlahiddənin, fərdinin, ayrıcanın zənginliyini (əlahiddənin və ayrıcanın bütün zənginliyinin) təcəssüm etdirən ümumini"[32] ifadə edir.

Qanun kateqoriyasına V. İ. Leninin verdiyi təriflərin hər birində qanun dialektika kateqoriyalarından ayrılıqda deyil, onlarla qarşılıqlı vəhdət və münasibət halında şərh sdilir. V.İ.Lenin göstərir ki, "hər bir anlayış ilə **bütün** başqa anlayışlar arasında müəyyən **münasibət,** müəy- yən əlaqə vardır"[33].

---

[32] V. İ. L e n i n. Əsərləri, 38-ci cild, səh. 92.
[33] Yenə orada, səh. 198.

V. İ. Leninin bu sözlərindən çıxış edərək qanun və qanunauyğunluq kateqoriyalarının qarşılıqlı nisbətini araşdıraq. Marksizm klassikləri qanunauyğunluq dedikdə, materiyanın müəyyən qayda və ardıcıllıqla, qarşılıqlı əlaqə və asılılıqda, özhərəkətdə mövcudluğunu, dəyişdiyini və müəyyən qanunlar əsasında inkişaf etdiyini nəzərdə tuturlar. V.İ.Lenin yazır: “hər şey... vasitələnmişdir. Vəhdət halında əlaqələnmişdir, keçidlərlə əlaqədardır. Göyü rədd et — **bütün (prosesin)** dünyanın qanunauyğunluğun əlaqəsi”[34].

Göründüyü kimi, qanunauyğunluq ümumi dünyagörüşünü ifadə edərək maddi dünyanın hadisə və proseslərinin kənar qüvvənin təsirinə ehtiyacı olmadığını, onun əlaqəli tam kimi arasıkəsilməz hərəkətini, dəyişməsini və inkişaf meylini göstərmək üçün işlədilən fəlsəfi kateqoriyadır.

Qanunauyğunluq anlayışını bu cür işlətdikdə onun qanun anlayışı ilə qarşılıqlı nisbəti yalnız bir mənalı şəkildə müəyyən olunur. Belə olduqda, qanunauyğunluq obyektiv əlaqə və münasibətlərin yeganə mümkün olan formasına çevrilir. Yəni bu halda qanunauyğunluq daha geniş anlayış, qanun isə ondan dar olan anlayış kimi çıxış edir. Qanunauyğun əlaqələr qanunda kəmiyyət və keyfiyyətcə müəyyənləşdirilmiş olur. Beləliklə, qanunauyğunluq və qanun kateqoriyalarının qarşılıqlı nisbətinə birmənalı yanaşmaq, işin əslində, onlar arasındakı ümumi və fərqli xüsusiyyətlərdən sərf-nəzər etmək deməkdir.

Nəhayət, bu iki kateqoriyanın qarşılıqlı nisbətini ümumi ilə təkin nisbəti kimi izah etmək də düzgün olmazdı. Çünki bu halda da qanunauyğunluqla qanunun hər birinin məzmunu ayrılıqda açılmır və əksər hallarda bu cür münasibət onlardan birinin digəri içərisində əridilməsinə, - birinin digərinin təzahürü olması iddiasından ibarət biryanlılığa gətirib çıxarır.

Bizim fikrimizcə, qanun və qanunauyğunluq kateqoriyaları arasındakı nisbəti müəyyən edərkən onları birtərəfli şişirtmək, təbiət və cəmiyyətdəki əlaqə və münasibətlərin bütün növlərini

[34] Yenə orada, səh. 97.

qanunauyğunluğun tərkibinə daxil etmək düzgün deyildir. Xarici aləm hadisələrinin bir münasibətdə təkcə, təsadüfi, digər münasibətdə isə ümumi və zəruri kimi çıxış etməsini nəzərə alsaq bu fikir özü-özündən aydın olar. Təkcə və təsadüfi əlaqələri konkret nöqteyi-nəzərdən təhlil etdikdə onlar öz təbiətini saxlayır və deməli, qanunauyğunluğa daxil edilə bilməz. Bundan başqa təkcə və təsadüfinin inkişafın sonrakı gedişində ümumi və zəruri əlaqələrə çevrilə bilməsinin potensial imkanı ilə onun indiki mövcudluğunu müqayisə etdikdə də həmin əlaqələrin qanunauyğunluğa aid edilməsi özü imkan şəklində ola bilər. Bunun üçün mövcud varlıq, mövcud əlaqə və münasibət tam bir sıra inkişaf mərhələlərini keçməli, öz əvvəlki halında ciddi keyfiyyət dəyişilmələrinə məruz qalmalıdır.

Beləliklə, qanunauyğunluq dedikdə biz, hökmən ümumi əlaqələrin müəyyən formasını, həm də **qanunla ölçülən formasını** nəzərdə tutmalıyıq. Belə olduqda isə qanunauyğun əlaqələrlə digər əlaqələr arasında qəti sərhəd qoyulmur, onlar arasındakı vəhdət və ziddiyyət nəzərə alınaraq hər birinə konkret yanaşılır. Qanunauyğun əlaqələrlə qanunda ifadə olunan əlaqələri bir-birindən mütləq hədlərlə ayırmaqdansa (bu mümkün deyildir), real şəraitin təhlili əsasında onlardan hər birinin ümumi tərifə və konkret qanunauyğunluğa nə dərəcədə aid olmasını aydınlaşdırmaq daha münasibdir. Bu cür yanaşma, bizə qanun və qanunauyğunluq kateqoriyalarının eyni məzmunu ifadə edən kateqoriyalar olduğunu söyləməyə əsas verir. Lakin qanunauyğunluq bu məzmunu ümumi şəkildə, konkretləşdirmədən, müəyyən ölçüyə salmadan ifadə etdiyi halda, qanun həmin məzmunu müəyyən konkret şrkildə ifadə edir, məhz ona görə də qanunauyğunluğun ölçüsü kimi çıxış edir. Bu fikir qanunauyğunluq sözünün özündən də aydın olur.

Qanun və qanunauyğunluq kateqoriyaları arasındakı diadektik nisbəti birmənalı şəkildə müəyyən etmək qeyri-mümkündür, çünki hər iki kateqoriyanın məzmununu təhlil etdikdə, qanunauyğunluq anlayışının ən ümumi, ümumi və

xüsusi mənalarda istifadə olunduğunu açıq-aşkar görmək olar. Ən ümumi mənada qanunauyğunluq anlayışı maddi və ruhi aləmdəki universal əlaqəni ifadə edir, ona görə də bu halda o bütün qanunların məcmusunu əhatə edir. Bu mənada qanunauyğunluğun məzmununa qanunun tələblərinə cavab verməyən əlaqələr daxil olmur və o, qanuna nisbətən daha geniş anlayış olub, bütün (real və potensial mövcud olan, məlum və naməlum olan) qanunlar məcmusunu ifadə edir, qanunauyğun əlaqələr bu halda nə konkretləşdirilir, nə də hissələrə ayrılır. V.İ.Lenin "Fəlsəfə dəftərləri"ndə göstərir ki, "anlayışlar, qanunlar... daim hərəkətdə olan və inkişaf edən təbiətin universal qanunauyğunluğunu şərti surətdə, təqribən **əhatə edir"[35].**

İkinci mənada qanunauyğunluq dedikdə, maddi və ruhi aləmin bu və ya digər sahəsinin qanunlarla ifadə oluna biləcək əlaqələr sistemi başa düşülür: təbiətin qanunauyğunluğu, cəmiyyətin qanunauyğunluğu, üzvi aləmin qanunauyğunluğu və s. Bu halda da qanunayuğunluq kateqoriyası qanun kateqoriyasından genişdir, çünki özündə müvafiq sahənin qanunlarının məcmusunu birləşdirir. Lakin yenə də onu müvafiq hissələrinə parçalamadan, ümumi şəkildə əks etdirir.

Nəhayət, üçüncüsü, xüsusi halda isə qanunauyğunluq bu ya digər qanunla ifadə edilən tamamilə konkret tip əlaqəni ifadə edir. Məsələi, məhsuldar qüvvələrlə istehsal münasibətləri arasındakı əlaqə, bazislə üstqurum, səbəblə nəticə arasındakı əlaqə qanunauyğundur və müvafiq qanunlarda ifadə olunmuşdur. Bu halda qanunauyğunluq və qanun kateqoriyaları öz məzmunları cəhətdən mütabiq gəlirlər.

V.İ.Lenin Hegelin "Məntiq" kitabını konspektləşdirərkən onun "kəmiyyət təriflərini ümumi formaya yüksəltmək lazımdır ki, onlar qanun və ya ölçü momentləri olsun" fikrini bəyənərək yanında yazmışdır: Gesetz oder Mab"[36], V.İ.Leninin bu fikrini

---

[35] V. İ. Lenin. Əsərləri, 38-ci cild, səh. 183-184.
[30] «Qanun və ya ölçü». V. İ. L e n i n. Əsərləri, 38-ci cild, səh. 117.

qanun və qanunauyğunluq anlayışlarının nisbətini müəyyənləşdirmək üçün əsas kimi götürdükdə aydın olur ki, qanunauyğunluq elə əlaqələri ifadə edir ki, qanun onun ölçüsü kimi çıxış edir, yəni qanun qanauyğun əlaqələri konkretləşdirməklə, qanunauyğun əlaqələri kəmiyyət və keyfiyyət hüdudlarında müəyyənləşdirməklə, onu qanun əlamətləri miqyasında ölçür.

Qanun və qanunauyğunluqları bilməyin böyük nəzəri-əməli və dünyagörüşü əhəmiyyəti vardır. Qanunlar haqqında bilik olmadan nə əməli, nə də elmi-nəzəri fəaliyyət düzgün istiqamətləndirilə bilməz, dünyagörüşünün əsas məsələləri birtərəfli və yanlış həll edilər. Məhz buna görə də V.İ.Lenin yazır ki, **“qanunların** elmdən qovulması işdə yalnız **din qanunlarını yeritmək** deməkdir”[37].

Öz məzmununa görə hər bir qanun ümumi əlaqələrin ifadəsidir, aləmdə olan ümumiliyin formasıdır. Lakin bununla yanaşı qanunlar ən ümumi, ümumi və xüsusi qanunlara ayrılır. Bu cür bölgünün əsasında ifadə edilən əlaqələrin ümumilik dərəcəsinin müxtəlifliyi və qanunların fəaliyyətini təmin edən şəraitin “məhdudluq dərəcəsi” durur. Zamanca və fəzaca qeyri-məhdud təsir şəraitinə malik olan ən ümumi qanunlardan ayrıca bəhs edəcəyimizdən, yalnız ümumi və xüsusi (spesifik) qanunların nisbəti məsələsinin V.İ.Lenin tərəfindən həlli üzərində dayanacayıq.

Qanunların ümumi və xüsusi qanunlara ayrılmasını ancaq nisbi mənada qəbul etmək və onu ancaq materiyanıi müxtəlif hərəkət formalarına və konkret obyektə nəzərən konkret məzmun üçün tətbiq etmək lazımdır. Başqa sözlə, ancaq müəyyən halda və müəyyən münasibətdə qanunun ümumi və xüsusi olmasından danışmaq olar. Bu münasibətdən kənarda aparılan bölgü bir halda materiyanın bir hərəkət formasına aid olan qanunların digər hərəkət forması qanunlarına müncər edilməsinə, digər halda isə materiyanın bir hərəkət forması daxilində hər hansı bir obyektin, əlaqə və münasibətin digər

obyektə, əlaqə və münasibətə nəzərən spesifikliyinin nəzərə alınmamasına səbəb olur. Məsələn, Arximed qanunu ilə biogenetik qanunu və ictimai varlığın ictimai şüuru müəyyən etməsi qanununu onların ümumilik dərəcəsinə görə bölgü baxımından müqayisə etmək olmaz. Çünki birinci qanun materiyanın fiziki hərəkət formasının, ikincisi bioloji hərəkət formasının, üçüncüsü isə ictimai hərəkət formasının qanunudur. Onları yalnız həmin hərəkət formasına xas olan qanunlarla müqayisə etmək olar. Eynilə bir hərəkət formasına aid olan qanunların bölgüsü də konkret obyekt və konkret münasibət çərçivəsində aparılmalıdır. Fərz edək ki, tamam müxtəlif idraki məqsədlər xatirinə bir sıra saxlanma qanunlarının ümumilik dərəcəsinə görə bölgüsünü aparmaq istəyirik. Əgər idrak obyektimiz bir halda elektrik hadisələridirsə, onda bu hadisələr üçün elektrik yükünün saxlanması qanunu ümumi qanun olacaqdır. İdrak obyektimiz müxtəlif barion yüklərinin qarşılıqlı çevrilmələri olduqda isə bu prosesin özünə məxsus qanunu — barionların saxlanması qanunu ümumi olacaqdır. Lepton yüklərinin çevrilmələrində isə həmin ümumi qanun yalnız lepton yüklərinin çevrilmə zamanı saxlanmasını ifadə edən qanun olacaqdır. Göründüyü kimi, hərəkət formalarının hər birinə daxil olan əlaqə və münasibətlərin əhatə dairəsini və spesifikliyini nəzərə aldıqda, onun qanunları bir halda ümumi, digər halda isə xüsusi kimi çıxış edir.

Deyilənlərdən aydın olur ki, qanunların ümumilik dərəcəsini müəyyən edərkən qanunlara və idrak obyektinə konkret və nisbi yanaşmaq lazımdır. Doğrudan da, Əgər bölgü ümumilik nöqteyi-nəzərindən aparılarsa, onda istənilən qanun ümumilik forması (F. Engels) olmaqla, müəyyən predmet və hadisələr qrupundakı əlaqə və münasibətləri ifadə edəcəkdir. Bunu biz qanunların fəzaca ümumiliyi adlandırmışdıq. Lakin söhbət qanunların ümumilik dərəcəsinə görə bölgüsündən getdiyindən, nəzərə alınmalıdır ki, qanunlar ifadə etdikləri əlaqə və münasibətlərin ümumi xarakter daşımasına görə deyil, onların

əhatə etdikləri hadisə və proseslərin həcm ümumiliyinə görə fərqləndirilməlidir.

Məsələn, biz istehsal münasibətlərinin məhsuldar qüvvələrin xarakterinə uyğunluğu qanununu nisbi mənada deyil. Mütləq mənada ümumi qanun kimi müəyyən etsək, onda dialektikanın ən ümumi qanunlarının öz həcmi etibarı ilə sonsuz hadisə və proseslər qrupunu əhatə etdiyini unutmuş olardıq. Halbuki, həmin qanunların fəaliyyət sahəsinə təbiət, cəmiyyət və insan təfəkküründə baş verən bütün hadisə və proseslər daxil olduğundan, onlar bütün qanunlardan ümumidirlər. Deməli, adını çəkdiyimiz qanun öz ümumilik dərəcəsinə görə dialektik materializmin əsas qanunlarına nisbətən xüsusi, ayrı-ayrı formasiyaların qanunlarına nisbətən isə ümumi qanundur.

Həm ümumi, həm də xüsusi (spesifik) qanunlar, hər şeydən əvvəl, hadisələrdəki mahiyyət spesifikliyini əks etdirməlidir. Qanun onsuz da mahiyyətlər münasibəti və ya mahiyyətlər arasındakı münasibətdir. Lakin xüsusi qanunlarla ifadə edildikdə mahiyyət spesifikləşir və yeni forma alır. Bu hal əsasən mahiyyətin özündəki nisbilikdən, şeylərin, proseslərin mahiyyətinin ziddiyyətli olmasından törəyən yeni əlaqə və münasibətlərin qanunları üçün xarakterikdir. Əgər bu cəhət xüsusi qanunların məzmun spesifikliyidirsə, həmin qanunların ikinci mühüm cəhəti ifadə olunan əlaqə və münasibətlərin geniş və ya məhdud olmasından ibarət olacaqdır. Bizim fikrimizcə, bolgüdə bu sonuncu cəhəti çıxış nöqtəsi hesab etmək mümkündür.

Beləliklə, həm təbiətdə, həm də ictimai inkişafda bütövlükdə hadisə və proseslərin inkişafını müəyyən edən ümumi qanunlarla yanaşı, təbiətin və ictimai həyatın bu və ya digər pilləsinin özünə məxsus xüsusi, spesifik qanunları da vardır. Dialektik idrak zamanı yalnız müəyyən predmet və hadisənin tabe olduğu ümumi qanunları bilməklə kifayətlənmək əslində həmin predmet və hadisənin konkret məzmunu haqqında bilikdən məhrum olmaq deməkdir. İnkişaf prosesinin məhz

hansı cəhətlərdən təşkil olunduğunu, hansı əksliklərdən və onların qarşılıqlı mübarizəsindən törəndiyini, onun nəticəsinin nə olacağını anlamaq üçün hökmən həmin inkişafın spesifik xüsusiyyətlərini araşdırmaq, onun spesifik qanunlarını öyrənmək lazımdır. V.İ.Lenin ictimai inkişaf qanunauyğunluqlarından danışarkən tövsiyə edir ki, əsas vəzifə ümumi qanunlarla yanaşı "müəyyən bir ictimai orqanizmin törəməsini, yaşamasını, inkişafını və ölməsini və daha yüksək orqanizmlə əvəz olunmasını nizama salan xüsusi (tarixi) qanunları aydınlaşdırmaqdan ibarətdir"[37].

Ümumi və spesifik qanunların əməli və idraki fəaliyyətdəki rolu müxtəlifdir. Belə ki, ümumi qanunlar xüsusi qanunlara nisbətən daha mücərrəd, konkretlikdən daha uzaq olduğuna görə onların əhəmiyyəti xüsusi qanunlara nisbətəi az olur. Məsələn, cəmiyyətin ümumi sosioloji qanunları əsasında hazırlanan idrak metodu ilə spesifik bir ictimai hadisə olan dili, onun fəaliyyət və inkişaf qanunauyğunluqlarını öyrənmək qeyri-mümkündür. Bunun üçün həmin hadisənin ciddi spesifikliyə malik olması, habelə özünəməxsus qanunların hərtərəfli öyrənilməsi tələb olunur. Həm də idrakın ümumi inkişaf qanunauyğunluğu nöqteyi-nəzərindən də ümumi qanunlar birdən-birə kəşf və dərk olunmur, əvvəlcə müəyyən bir hadisənin qanunauyğunluğu haqqında bir sıra sadə, təkcə və xüsusi mühakimələr söylənilir, bu mühakimələrin əhatə dairəsi genişlənir, məzmunca zənginləşərək ümumi qanun şəklində formalaşır. Ümumi qanunlar əksər hallarda bir sıra xüsusi qanunların vasitəsi ilə və onlardan sonra dərk olunur. Məhz ona görə də istənilən bir hadisə və prosesi təkcə ümumi qanunlarla başa düşmək olmaz. K. Marks yazır: "İstehsalın bütün pillələri üçün ümumi olan və təfəkkür tərəfindən ən ümumn şəkildə qeyd edilən təriflər vardır: lakin hər bir istehsalın ən **umumi şəraiti** adlanan şərait yalnız həmin abstrakt cəhətlərdən ibarətdir ki, bunların vasitəsilə

---

[37] V. İ. Lenin. Əsərləri, 1-ci cild, səh. 163.

istehsalın heç bir həqiqi tarixi pilləsini başa düşmək olmaz"[38].

V.İ.Lenin göstərir ki, müəyyən sahədəki qanunların təsirini onların təzahürlərini qarşılıqlı təsir şəraitində tədqiq etmək, bu məsələdə də bütün başqa sahələrdə olduğu kimi dialektik mövqedən çıxış etmək lazımdır, çünki xarici aləmdəki predmet və hadisələr bir-biri ilə qarşılıqlı əlaqə və asılılıq münasibətindədir. Bu əlaqələr isə müxtəlif qanunlarda ifadə olunduğundan, həmin qanunlar da qarşılıqlı olaraq təsir göstərir. Elə bir qanun təsəvvür etmək olmaz ki, o, necə deyərlər, "saf şəkildə" təzahur etsin.

Real həyatda qanunlar vahid bir sistem kimi, dialektik bütöv kimi təsir göstərir. Ona görə də bizim o qanunlar haqqında, onların qarşılıqlı əlaqəsi və qarşılıqlı təsiri haqqında biliyimiz nə qədər geniş və ətraflı olarsa, əməli fəaliyyətimiz də o qədər müvəffəqiyyətli olar. Qanunların qarşılıqlı əlaqə və təsirini bilmək iki nöqteyi-nəzərdən vacibdir: birincisi, bu qanunlardan bir qismi digərinin təsiri üçün şərait yaradır, onu sürətləndirirsə, onlardan müsbət istiqamətdə istifadə etmək üçün; ikincisi, bir qisim qanunlar başqalarının təsirinə mane olur, onu məhdudlaşdırırsa, yenə onlardan məqsədəuyğun şəkildə istifadə etmək üçün lazımdır. Məsələn, məlumdur ki, üzvi aləmin inkişafında irsiyyət və dəyişkənlik qanunları bir-birinin ziddinə təsir göstərən qanunlardır. Bununla belə, onların biri digərsiz mövcud ola bilməz. Deməli, hər hansı bir heyvan və ya bitki növünün inkişafına məqsədəuyğun istiqamət vermək üçün bu qanunların konkret təzahürü, onların qarşılıqlı əlaqəsi dərindən öyrənilməlidir.

Qarşılıqlı əlaqə və qarşılıqlı təsir materiyanın müəyyən hərəkət formasını ifadə edən qanunlarla bərabər, müxtəlif hərəkət formalarını ifadə edən qanunlar arasında da olur[39].

---

[38] K. Marks. Siyasi iqtisadın tənqidinə dair. Bakı, Azərnəşr, 1955, səh. 199.

[39] Bu məsələnin mühüm cəhətlərindən birini ictimai qanunlarla təbiət qanunlarının qarşılıqlı münasibəti təşkil edir. Burada iki cəhət diqqətəlayiqdir. Əvvələn, cəmiyyətin inkişafı hərəkətin son dərəcə mürəkkəb forması olduğuna görə bütün başqa hərəkət formalarının təsiri təbiət qanunları ilə qarşılıqlı surətdə baş verir. İkincisi, təbiət qanunlarının dərk olunmasının və əməli fəaliyyətdə

Birinci halda həlledici, təyinedici rolu inkişafda olan hadisənin, hadisələr qrupunun və ya müəyyən bir sahənin əsas qanunu, ikinci halda isə materiyanın daha mürəkkəb hərəkət formasının qanunları oynayır. Məsələn, kapitalizmin əsas iqtisadi qanunu onun başqa qanunlarının təsirini müəyyən edir. Məhz maksimum gəlir əldə etmək üçün imperialist inhisar birlikləri arasında mübarizə gedir, kapitalizm cəmiyyətinə xas olan üsullarla əmək məhsuldarlığı yüksəldilir, imperializmin əsas xüsusiyyətlərinin təzahürü nəticəsində kapitalist ölkələri iqtisadi və siyasi cəhətdən qeyri-bərabər inkişaf etməyə başlayır.

Ümumi və xüsusi qanunlar arasındakı fərq, vəhdət və münasibət məsələsinin şərhində mövcud fəlsəfə ədəbiyyatında fikir ayrılığı vardır. Bəzi müəlliflər ümumi və xüsusi qanunların nisbətindən danışarkən, həmin qanunlar arasındakı vəhdət və münasibəti nəzərə almadan iddia edirlər ki, ümumi qanunlar vəhdəti, xüsusi qanunlar isə fəaliyyət və inkişafı göstərir. İ. S. Kon, N. B. Bikkenin və başqaları ictimai inkişafın ümumi və spesifik qanunlarından bəhs edərkən bu fikir üzərində xüsusilə israr edirlər. Məsələn, İ. S. Konun fikrincə, ümumsosioloji qanunlar müxtəlif formasiyalar arasında olan obyektiv əlaqəni və bəşər tarixinin vəhdətini, xüsusi qanunlar isə ayrı-ayrı formasiyaların inkişafını göstərir[40]. Eyni fikir başqa ifadə tərzi ilə N. B. Bikkenin tərəfindən təkrar edilir: "Spesifik qanunlar materiyanın bu və ya digər hərəkət formasının mahiyyətini ifadə edərək bütövlükdə materiyanın vəhdətini ifadə edə bilməz, onun ayrı- ayrı formalarını və bir hərəkət formasından digərinə, bir ictimai orqanizmdən digərinə **keçidin şəraitini** aşkar edə bilməz"[41].

Bizim fikrimizcə, məsələyə bu cür yanaşmaq qəti düzgün deyildir. Əvvələn, ona görə ki, ümumi və xüsusi qanunlar

---

istifadə edilməsinin ictimai inkişafın gedişində, onun qanunlarının təsiri dairəsinin daralıb genişlənməsində əhəmiyyətli rolu vardır.

[40] İ. S. Kon. O deistvilx zakonov v antoqonistiçeskix formaiinx. «Voprosı istorii», № 1, 1954, səh. 118.

[41] N. B. Bikkenin. K probleme sootnoşenin obşix i spenifiçeskix zakonov razvitii. «Vestnik MQU (serin zkonomiki, filosofii i prava)», № 3, 1957, səh. 114.

onlardan birinin vəhdət və əlaqəni, digərinin inkişafı göstərməsi ilə deyil, onların hər birinin ifadə etdiyi əlaqə və münasibətlərin həcmi ilə fərqlənir. İkincisi, dialektik materializm bu iki qanunların fərqini göstərməklə bərabər, onların qarşılıqlı əlaqə və vəhdətini də qeyd edir. Çünki təkcə qanunlar deyil, obyektiv dünyanın bütün hadisə və prosesləri vahid tamın müxtəlif tərəfləri kimi qarşılıqlı əlaqə və vəhdətdədir. Vəhdət prinsipi ümumiyyətlə inkişaf prinsipindən ayrı deyildir, müəyyən mənada onlar bir-birini tamamlayır. V.İ.Lenin yazır: "...Ən ümumi inkişaf prinsipini **dünyanın,** təbiətin, hərəkətin, materiyanın *ets* **vəhdəti** prinsipindən ibarət ən ümumi prinsiplə birləşdirmək lazımdır"[42].

İstənilən hadisə və prosesə diqqət etsək görərik ki, onun mövcudluğunu, fəaliyyətini müəyyən edən qanunlar həmin hadisə və prosesin öz hərəkəti, öz inkişafı nəticəsində labüddən onun inkarına gətirib çıxarır. K. Marks kapital yığımının tarixi meylindən danışarkən, kapitalizmin fəaliyyət qanunlarının inkişaf prosesində zəruri surətdə onun məhvinə gətirib çıxartdığını göstərərək yazırdı: "Kapitalist istehsalı, təbiət prosesi qədər labüd olaraq özünün inkarını doğurur"[43]. Bir tərəfdən, istehsalın ictimailəşdirilməsi, habelə iri kapitalist birliklərinin gəlir və sərvətinin artması kapitalistlər arasındakı mübarizəni kəskinləşdirir, digər tərəfdən isə yoxsulluq, zülm, əsarət və istismar artır, bununla birlikdə, getdikcə inkişaf edən, təcrübələnən və mübarizə əzmində olan proletariatın hiddəti artır. Beləliklə, "kapital inhisarı ... istehsal üsulu üçün bir buxov olur. İstehsal vasitələrinin mərkəzləşməsi və əməyin ictimailəşməsi elə bir səviyyəyə çatır ki, daha öz kapitalist qabığına sığa bilmir. O zaman bu qabıq partlayır. Kapitalist xüsusi mülkiyyətinin sonu çatır. Əmlakdan məhrum edənlərin özlərini əmlakdan məhrum edirlər"[44].

Deyilənlərdən belə nəticə çıxır ki, kapitalist istehsalının öz-

---

[42] V. İ. Lenin. Əsərləri, 38-ci cild, səh. 267.
[43] K. Marks. Kapital, 1-ci cild, səh. 670.
[44] K. Marks. Kapital, 1-ci cild, səh. 670.

özünü inkar etməsi bilavasitə “kapitalist istehsalının öz daxili qanunları nəticəsində”[45] əmələ gəldiyindən, onun spesifik qanunları eyni dərəcədə inkişaf və tənəzzül qanunları hesab edilməlidir. Deməli, ictimai inkişafda fəaliyyət göstərən ümumi və spesifik qanunlar vəhdət şəklində bəşər cəmiyyətinin irəliyə doğru inkişafını və bir formasiyadan digərinə keçidi zəruri edən qanunlardır. Onlar arasındakı fərq ancaq konkret obyektə tətbiq edilmələrindədir. A. Y. Qureviç haqlı olaraq yazır ki, “öz aralarında tarixi prosesə universal tətbiqi nöqteyi-nəzərindən onların hamısı bəşəriyyətin ümumi hərəkə- tində ya bir formasiya üçün, ya onlardan bir neçəsi üçün, ya da bütöv tarixi proses üçün inkişaf qanunlarıdır”[46].

Ümumi və spesifik qanunların qarşılıqlı əlaqə və təsiri məsələsinin həllində də vahid nöqteyi-nəzər yoxdur.

Mövcud nöqteyi-nəzərdəki xırda çalarlardan sərf-nəzər etsək, onları iki yerə ayırmaq olar: 1) ümumi qanunlar müstəqil çıxış etmədən spesifik qanunlar vasitəsi ilə təzahür edir (M. M. Rozental, S. F. Anisimov və başqalarının nöqteyi-nəzəri); 2) ümumi və spesifik qanunlar vəhdət və əlaqədədir, lakin hər iki tip qanunlar müstəqil, yanaşı fəaliyyət göstərir (V. P. Tuqarinov, V. P. Rojin, A. M. Orleanski və başqalarının nöqteyi-nəzəri).

A. P. Şeptulin “Dialektikanın əsas qanunları” kitabında hər iki nöqteyi-nəzəri təhlil edərək belə nəticəyə gəlir ki, obyektiv gerçəklikdə həm ümumi qanunların yalnız spesifik qanunlar vasitəsilə təsir göstərməsi, həm də onların yanaşı təsir göstərməsi hallarına rast gəlmək olur. “Ümumi qanunlar xüsusi qanunlarla eyni əlaqə və münasibətlərə aid olduqları zaman spesifik və xüsusi qanunlar vasitəsi ilə təzahür edir. Ümumi qanunlar o vaxt xüsusi vasitəsilə təzahür etmirlər ki, onlar müxtəlif əlaqə və münasibətlərə aid olur”[47].

Lakin məsələyə bu cür ümumi mövqedən yanaşmaq yenə də

---

[45] Yenə orada.

[46] A. I Qureviç. Obtii zakon i konkretnan zakonomernostv v istorii. «Voprosı istorii», № 8, 1965, səh. 15.

[47] A. P. Şeptulin. Osnovnıe zakonı dialektiki. M,, 1966. səh. 34.

həmin qanunların vəhdət və əlaqəsini inkar etməyə gətirib çıxara bilər. Ona görə də bu məsələnin həllində ümumi və xüsusinin dialektikasına əsaslanmaq onların nisbətini ümuminin xüsusiyə nisbəti kimi qəbul etmək daha məqsədəuyğun olardı. Belə olduqda ümumi və spesifik qanunların ayrı mövcud olmadığı, onların birinin fəaliyyət göstərməsinin digərinin təsirini müəyyən etməsi, dialektik bir vəhdətdə onların bir-birinə nüfuz etməsi, çulğalaşması aydın görünər. Ümumi və xüsusinin nisbəti miqyasında istənilən ümumi qanun müəyyən münasibətdə spesifik qanun kimi çıxış edir, eyni zamanda hər hansı spesifik qanun ümuminin bu və ya digər tərəfinin konkretləşdirilməsi, onun müəyyən ölçülərlə təzahür etməsi deməkdir. V. İ. Lenin yazır: **"Ümuminin** mənası ziddiyyətlidir: o ölüdür, saf deyildir, natamamdır ets, ets, lakin məhz o, **konkretin** dərk edilməsinə doğru bir **pillədir,** zira konkreti biz heç vaxt **tamam** dərk etmirik. Ümumi anlayışların, qanunların ets **sonsuz** məcmusu **konkreti** dolğunluğu ilə verir"[48]. Buna görə də ümumi qanunlarla yanaşı, ümumiliyə doğru aparan yolda bir pillə olan və bir konkret halın spesifik fəaliyyət və inkişaf qanunlarını da öyrənmək zəruridir.

* * *

F. Engels və V.İ.Lenin dialektikanın tərifini verərkən onun vahid və bütöv elm olduğunu, onun qanun və kateqoriyalarının bir sistem halında təzahür etdiyini göstərməklə, dialektika qanunlarının daxili əlaqə və asılılığının öyrənilməsini dialektikanın işlənməsi sahəsindəki başlıca vəzifələrdən biri hesab etmişlər. Yalnız bu yolla obyektin ümumi dialektik inkişaf mənzərəsini bütöv halda yaratmaq, V.İ.Leninin dediyi kimi, ən sadə hadisələrdə belə dialektikanın bütün qanunlarının təzahürlərini əlaqəli şəkildə araşdırmaq olar.

İlk baxışda belə görünə bilər ki, bu, dialektika elminin əsas prinsiplərindən və ruhundan irəli gələn bir tələbatdır, bunu

[48] V. İ. Lenin. Əsərləri, 38-ci cild, səh. 294.

xüsusi olaraq bir daha qeyd etməyə ehtiyac yoxdur. Lakin dialektika elminə, dialektika problemlərinə və xüsusilə dialektika qanunlarına olan münasibətin təhlili aydın göstərir ki, V.İ.Leninin dövründə olduğu kimi, hazırda da bu məsələni tədqiq etməyə ciddi ehtiyac vardır, çünki inkişafın ən ümumi qanunlarından bəhs edilərkən bir qayda olaraq məhz bu cəhət unudulur.

V.İ.Lenin K. V. Plexanovun dialektikaya həsr olunmuş əsərlərinə ümumiyyətlə yüksək qiymət verməklə yanaşı, onun dialektika məsələlərinə, xüsusilə ən ümumi qanunlara yanaşma üsulunu ciddi tənqid etmişdir. Araşdırdığımız məsələ ilə əlaqədar olaraq V.İ.Leninin bir qeydi üzərində xüsusi dayanacağıq. O göstərir ki, K. V. Plexanov dialektikaya "misallar cəmi" kimi baxmaqla, onu bütöv bir elm, bir nəzəriyyə kimi, müəyyən qanunlar və kateqoriyaların üzvi bir sistemi kimi öyrənmir. Ona görə də təbiət, cəmiyyət və insan təfəkkürü inkişafının ümumiləşdirilməsi və abstraksiya edilməsi yolu ilə oradan çıxarılmalı olan qanunlar sanki misallar vasitəsilə "sübut edilir".

Bu vəziyyət son vaxtlarda materialist dialektikaya dair buraxılmış bir sıra tədris vəsaitlərində də özünü aydın göstərir. Əvvəlcə, məsələn, kəmiyyət dəyişmələrinin keyfiyyət dəyişmələrinə keçməsi qanunu şərh edilir. Bu qanuna "aid edilən" müddəa və anlayışları — kəmiyyət, keyfiyyət, ölçü, sıçrayış, kəmiyyət dəyişmələrinin keyfiyyət dəyişmələrinə keçməsi və s. — sübut etmək üçün müxtəlif sahələrdən müəyyən miqdar "əlverişli", "asan başa düşülən" misallar seçilir. Sonra isə əksliklərin vəhdəti və mübarizəsi qanununun şərhinə keçilir. Burada da yenə bu qanunla əlaqədar hesab edilən nəzəri müddəalar sadalandıqdan sonra onları "sübut etmək" üçün misallar kətirilir. Səciyyəvi cəhət budur ki, indi əvvəlki qanunui şərhilə əlaqədar gətirilən misallar deyil (yəqin o misallar yeni qanunun müddəalarını o qədər də aydın "nümayiş etdirmir"), tamamilə yeni misallar, şərhi verilən qanunun başa düşülməsi

üçün “əlverişli” olan misallar gətirilir. Bu vəziyyət eynilə inkarı inkar qanununun şərhində də müşahidə edilir.

Dialektikanın “misallar cəmi” kimi başa düşülməsinə qarşı çıxış etməklə, V.İ.Lenin heç də ümumiyyətlə misallardan istifadə edilməsinə əks çıxmırdı. O, dialektika ünsürlərini ən sadə misallarda axtarmağa çağırırdı. V.İ.Leninin etirazı burada başqa cəhətədir.

Dialektikanın qanun və kateqoriyalarının şərhini verərkən misallardan istifadə etmək lazımdır. Lakin unudulmamalıdır ki, təbiət, cəmiyyət və təfəkkür sahələrindən gətirilən misallar yalnız köməkçi bir vasitədir, onlar həmin qanun və kateqoriyaların başa düşülməsini ancaq asanlaşdıra bilər, onları sübut edə bilməz. Misallar, ümumi xarakter daşıyan dialektika qanunları və kateqoriyalarının sonsuz konkret təzahürlərindən yalnız biri olduğu üçün, bu qanunun və kateqoriyaların ən ümumi mahiyyətini əsla aça bilməz. Ona görə də hər bir dialektik müddəa üçün yeni misal gətirmək əvəzinə hər bir misalda dialektika qanun və kateqoriyalarının əlaqəli təzahürünü axtarıb tapmaq lazımdır.

Bununla əlaqədar olaraq V.İ.Lenin iki başqa cəhəti da xüsusi qeyd edir: əvvələn, təbiət, cəmiyyət və insan təfəkkürünün inkişafından elə mürəkkəb misallar gətirmək və onların izahını elə çevirmək olar ki, onlar dialektika qanunlarını sübut etmək deyil, sanki təkzib edər (məsələn, dialektik materializmin burjua “tədqiqçiləri” F. Frank, S. Huk, A. C. Ayer, Vetter və b. etdikləri kimi); ikincisi, bu və ya digər dialektik müddəanın sübutu üçün nə qədər çoxlu misal gətirsək də biz tamlıq əldə edə bilmərik. Formal da olsa həmin müddəanı təkzib edə biləcək yeni bir faktın, misalın ortaya çıxa biləcəyini istisna edə bilmə rik.

Dialektik materializmin pozitivist tənqidçiləri bu cəhətdən möhkəm yapışırlar. Onların mühakimələrinin gedişi təxminən aşağıdakı kimidir: fərz edək ki, bu və ya digər dialektika qanun və prinsipinin sübutu üçün *p* qədər (p məhdud ədəddir) misal gətirilmişdir. Lakin misalların sayından asılı olmayaraq (yəni n-

in aldığı sonlu qiymətlərdən asılı olmayaraq), biz həmin qanun və prinsipin ümumi əhəmiyyətə malik olması haqqında qəti fikir söyləyə bilmərik, çünki bu qanun və prinsipin ümumiliyini təkzib edə biləcək p+1-ci misalın ortaya çıxmaq ehtimalı heç vaxt istisna edilmir. Əgər məsələ belədirsə, onda dialektikanın qanun və prinsipləri, necə deyərlər, "məhəlli" əhəmiyyətə malikdir. Hər hansı konkret hadisəyə nəzərən onlar müəyyən məzmuna malik olsalar da, ümumiyyətlə hər cür məzmundan məhrumdur. Məsələn, söhbət konkret bir hadisə və prosesdə kəmiyyət dəyişmələrinin keyfiyyət dəyişməsinə keçməsindən, yaxud müəyyən bir hadisənin kauzal əlaqəliliyindən gedirsə, bununla pozitivistlər də razılaşırlar. Lakin ümumiyyətlə kəmiyyət dəyişmələrinin keyfiyyət dəyişməsinə keçməsi qanununu və ümumiyyətlə hər bir hadisənin müəyyən səbəbə malik olmasını rədd edirlər. Ona görə də məsələni alternativ şəkildə irəli sürürlər: ya dialektikanın ümumi qanun, prinsip və postulatları həqiqi məzmuna malikdir, bu halda onların konkret hadisə və proseslərdən ibarət təzahürləri məzmunsuz hesab edilməlidir (bunun mümkün olmadığını pozitivistlər lap yaxşı bildiklərindən məsələni belə qoyurlar); yaxud konkret hadisə və proseslər həqiqi hesab edilməlidir, bu halda ümumi qanun və prinsiplər məzmundan məhrum olunurlar (pozitivistlərin də istədikləri məhz budur). C. Ayer yazır: "Həmin etirazı, mənim nəzərimcə, dialektika qanunları təbiəti idarə edir deyən nəzəriyyəyə qarşı da irəli sürmək olar. Müvafiq konkret hadisələr dəqiq müəyyən edilməyincə, bir təbiət hadisəsi başqasını inkar edir və ya onlar sonra ali sintezdə həll edilir, yaxud kəmiyyət keyfiyyətə keçir deməyin heç bir mənası yoxdur. Biz bilməliyik ki, fiziki proseslər terminlərində inkar nə deməkdir, sintez dedikdə nəyi götürmək lazımdır, müxtəlif səviyyələri necə dərk etmək lazımdır, məhz hansı şeylər dəyişilir və dəyişmə necə baş verir"[49].

[49] А.Dж. Аиер. Философиа и наука. «Вопросы философии», № 1 1962, səh. 98.

Əgər Ayerin fikrini bir qədər də məntiqi surətdə tamamlanmış şəkildə söyləsək, onda belə çıxır ki, inkar, səbəb, qanun və s. kimi fəlsəfi anlayışların hər bir konkret sahədəki mənasını bilməliyik. Əlbəttə, prinsip etibarı ilə fəlsəfi qanun və prinsiplərin konkret sahələrdəki təzahürlərini bilməyin əsla zərəri yoxdur, bu, hətta müəyyən mənada zəruridir. Lakin bu bilik artıq fəlsəfənin obyekti deyil, konkret elmlərin obyekti olur. Məsələ burasındadır ki, fəlsəfi, o cümlədən dialektik müddəalar forma və məzmun ümumiliyinə malik olduqlarından, onlar konkret, xüsusi formada ifadə oluna bilməzlər. Bu fikir eynilə ayrı-ayrı elmlərdə formula edilən qanunlara və onların konkret təzahürlərinə də aiddir. Qanun həmişə ümumi əlaqələri ifadə etdiyindən, onun tərifində təzahür müxtəlifliyindən sərf-nəzər edilir, qanunu onun konkret təzahür formalarına müncər etmək olmaz. Ümumilik dərəcəsindən asılı olmayaraq, hər bir qanun hökmən "faktik məzmuna" malik olur, çünki o, son nəticədə real gerçəkliyin, real fakt və hadisələrin ümumiləşdirilməsi nəticəsində müəyyən edilmişdir.

Beləliklə, aydın olur ki, dialektikanı "misallar cəminə" müncər etməyə qarşı çıxış etməklə V.İ.Lenin onun qanun və prinsiplərinin ümumi xarakterdə olduğunu, qarşılıqlı əlaqə və nüfuzetmə şəraitində fəaliyyət göstərdiklərini tədqiq etməyi ciddi bir vəzifə kimi qarşıya qoyur. Müxtəlif sahələrdən götürülmüş misallar dialektika qanunlarının ən ümumi xarakterini əsla sübut edə bilməz, bunun üçün mümkün qədər geniş ümumiliyə malik olan hadisələr sinfinin, müxtəlif səviyyəli sistemlərin və nəhayət, bütün aləmin (qanunların ümumilik dərəcəsi də həmin ümumiliyin səviyyəsindən asılıdır) mühüm, zəruri və sabit cəhətlərini təhlil etmək, onların fərqli və oxşar cəhətlərini məntiqi yolla qruplaşdırmaq əsasında birincilərdən abstraksiya etmək, ikinciləri isə ümumiləşdirmək lazımdır. Yalnız bu yolla müəyyən edilən qanunlar həm məzmun, həm də forma ümumiliyinə malik olur. Yalnız bu halda əksliklərin vəhdəti və mübarizəsi "misallar cəmi" kimi yox,

obyektiv aləmin və insan idrakının qanunu kimi götürüləcəkdir (V.İ.Lenin). Bu isə o deməkdir ki, **"...bütün** hadisələrdə və proseslərdə"[50], ziddiyyətli, qarşılıqlı istisnaedici, əks tərəflərin, cəhətlərin, meyllərin olması ən ümumi qəbul edilməlidir. Buradan isə bizim idrakımızın aşağıdakı şərti irəli gəlir: "Dünyadakı bütün prosesləri onların **"özhərəkəti"** halında, onların spontan inkişafı halında, onların canlı həyatı halında dərk etmək şərti, onları əksliklərin vəhdəti kimi dərk etməkdir"[51].

F. Engels "Təbiətin dialektikası" əsərində yazır ki, dialektikanın qanunları təbiət, cəmiyyət və insan təfəkkürünün tarixi inkişafından abstraksiya edilmişlər. "Həmin qanunlar tarixi inkişafın bu hər iki fazasının, habelə təfəkkürün özünün məhz ən ümumi qanunlarından başqa bir şey deyildir"[52]. "...Dialektika **hər cür** hərəkətin ən ümumi qanunları haqqında elm kimi götürülür. Bu o deməkdir ki, onun qanunları həm təbiətdəki və bəşər tarixindəki hərəkət üçün, həm də təfəkkürün hərəkəti üçün qüvvədə olmalıdır"[53].

Yuxarıda göstərildiyi kimi, qanunun ehtiva etdiyi predmet və hadisələrin həcmi zamanca və fəzaca müxtəlif ölçüdə olur. Elə qanunlar var ki, onlar hər zaman və hər bir şəraitdə, gerçəkliyin bütün sahələrində təsir göstərir; elə qanunlar var ki, gerçəkliyin müəyyən sahəsinə daxil olan bütün hadisələrin inkişafında əvvəldən axıra qədər təsir göstərir; nəhayət, elə qanunlar var ki, onlar müəyyən qrup hadisələrdə və ya ancaq onların müəyyən inkişaf mərhələsində təsir göstərir. Birinci növ qanunları ən ümumi, ikinciləri ümumi, üçüncüləri isə xüsusi qanunlar adlandırırıq.

Ən ümumi qanunlar elə qanunlara deyilir ki, onların təsir dairəsi nə zamanca, nə fəzaca məhdud deyildir. Bunlar aşağıdakı qanunlardır: əksliklərin vəhdəti və mübarizəsi, kəmiyyət

---

[50] V. İ. Lenin. Əsərləri, 38-ci cild, səh. 382.
[51] Yenə orada.
[52] F. Engels. Təbiətin dialektikası, səh. 43.
[64] Yenə orada, səh. 236.

dəyişmələrinin keyfiyyət dəyişmələrinə keçməsi və inkarı inkar. Yuxarıda deyiləndən aydın görünür ki, bu qanunlar əbədi və mütləq qanunlardır, maddi gerçəklikdə və insan təfəkkürünün inkişafında baş verən hər bir sonrakı dəyişiklik bu qanunları daha da təsbit edəcəkdir, onların son dərəcə ümumi olan məzmun və forması isə ciddi dəyişiklikliyə məruz qala bilməz.

Ən ümumi qanunların təsir dairəsinin qeyri-məhdud olmasının iki tərəfi vardır: birincisi, bu qanunlar bütün sahələrdə — təbiətdə, cəmiyyətdə və insan təfəkküründə — və istisnasız olaraq, bütün hadisə və proseslərdə fəaliyyət göstərir; ikincisi, həmin qanunlar hadisə və proseslərin inkişafının əvvəlindən axırına qədər aramsız fəaliyyət göstərirlər. Onların əbədi və sonsuz ümumiliyi təsir şəraitləri olan maddi aləmin özünün əbədi və sonsuz olmasından aydın olur. Həmin təsir şəraiti əbədi olduğuna görə söhbət ən ümumi qanunların fəaliyyətdən düşməsindən deyil, şəraitin dəyişilməsilə əlaqədar olaraq onların fəaliyyətində əmələ gələn təzahür müxtəlifliyindən gedə bilər.

Dialektikanın göstərilən ən ümumi qanunlarının qarşılıqlı əlaqə və asılılığını araşdırarkən iki cəhətə xüsusi diqqət yetirilməlidir: birincisi, bu qanunlar arasında mövcud olan subordinasiyanı və onun obyektiv əsasını müəyyən etmək; ikincisi, bu qanunlar arasındakı əlaqəni konkret timsallarda bariz şəkildə göstərmək lazımdır. Əgər bunlardan birincisi məsələnin ümumi fəlsəfi səpkidə işlənilməsini, onun dialektik məntiq prinsipləri əsasında açılmasını tələb edirsə, ikincisi konkret bir sahənin, hadisələr qrupunun və yaxud prosesin bu qanunların qarşılıqlı təsiri nöqteyi-nəzərindən tədqiq edilməsini tələb edir.

Birinci cəhəti bir qədər ətraflı nəzərdən keçirək.

Lap əvvəldən qeyd edək ki, burada söhbət dialektika qanunlarının hansının əvvəl, hansının sonra şərh edilməsindən, yaxud onların hansının formal birinciliyindən getmir. Mətləb onlardan hansının dialektika qanunlarının fəaliyyətində təyinedici rol oynadığını aşkar etməkdən və bunu əsaslandırmaqdan ibarətdir.

Fəlsəfi ədəbiyyatımızda (xüsusilə dərsliklərdə, tədris vəsaitlərində və qanunlara həsr olunmuş əsərlərdə) bu məsələyə münasibətdə iki mövqe aydın görünür: bir qrup müəlliflər ən ümumi qanunların şərhinə kəmiyyət dəyişmələrinin keyfiyyət dəyişmələrinə keçməsi qanunundan başlayır. Onlar belə bir cəhəti rəhbər tuturlar ki, varlıq və onun keçici formalarının necə və nə səbəbdən inkişaf etdiyindən danışmazdan əvvəl onun ilkin tərifini vermək lazımdır. İlkin müəyyənlik isə keyfiyyət, kəmiyyət və ölçü kateqoriyaları vasitəsilə açıldığından əvəlcə bu kateqoriyaların məzmunu və onlar arasındakı nisbət açılmalıdır. İkinci qrup müəlliflər isə əksliklərin vəhdəti və mübarizəsi qanupunun şərhini birinci növbədə verirlər. Bizim fikrimizcə, ikinci qrup müəlliflərin yolu düzgün hesab edilməlidir. Bu, marksizm-leninizm klassiklərinin müxtəlif münasibətlərlə həmin məsələ haqqında söylədikləri müddəalardan da aydın görünür.

Məsələyə formal yanaşmalı olsaq, bu iki mövqedən çıxış edən müəlliflərin hamısı öz mühakimələri üçün əsas gətirirlər. Doğrudan da, F. Engels və V.İ.Lenin bu qanunlardan danışarkən onları müxtəlif ardıcıllıqda göstərmiş və ona görə də ilk baxışda belə gələ bilər ki, onlar özləri də dolaşıqlığa yol vermişlər. Lakin diqqətli təhlil göstərir ki, marksizm-leninizm klassikləri problemin hansı cəhətinin onları bu halda daha çox maraqlandırdığından asılı olaraq gah bir qanundan, gah da başqa qanundan əvvəlcə danışmışlar. Məhz bu səbəbdən də marksizm-leninizm klassiklərinin əsərlərində rast gəldiyimiz ifadə müxtəlifliyi dialektika qanunlarının subordinasiyasında variant müxtəlifliyi üçün əsas ola bilməz. Subordinasiyanı düzgün aparmaq üçün dialektikanın ən ümumi qanunlarının inkişaf prosesindəki rolu və yeri dəqiq müəyyən edilməlidir.

Bütün deyilənləri nəzərə alsaq, dialektikanın ən ümumi qanunları içərisində əsas yeri, təyinedici və aparıcı rolu məhz əksliklərin vəhdəti və mubarizəsi qanununa verməliyik. Bu qanunlar inkişafın qanunlarıdır, inkişaf prosesinin müxtəlif

cəhət və tərəflərini səciyyələndirir. Ona görə varlığın və onun keçici hallarının kəmiyyət və keyfiyyət müəyyənliyi özlüyündə son dərəcə əhəmiyyətli olsa da, inkişafın xarakteristikasında əsas rol oynaya bilməz. Məhz bu səbəbdən də V.İ.Lenin inkişafın xarakteristikasında əsas və müəyyənedici rolu həmişə əksliklərin vəhdəti və mübarizəsi qanununa vermişdir. Fikrimizi aydın etmək üçün V.İ.Leninin dialektikaya verdiyi aşağıdakı təriflərə nəzər salaq:

**"Dialektika əksliklərin** necə **eyniləşə** bilməsi və necə gəlib **eyni** olması (eyninə çevrilməsi), hansı şəraitdə onların bir-birinə çevrilib bir-birinin eyni olması, — nə səbəbə insan ağlının bu əkslikləri ölgün, donuq deyil, bir-birinə çevrilən canlı, şərti, hərəkətli əksliklər kimi götürməsi haqqında təlimdir"[54].

"Dialektikaya qısaca olaraq belə tərif verilə bilər ki, o, əksliklərin vəhdəti haqqında təlimdir. Bununla dialektikanın nüvəsi qavranılmış olar..."[55].

"Əsil mənada dialektika, **şeylərin mahiyyətinin özündəki** ziddiyyəti öyrənməkdir..."[56].

"Vahidin ikiyə bölünməsi və onun bir-birinə zidd hissələrinin dərk olunması... dialektikanın **məğzidir** (dialektikanın "mahiyyətlərindən" biridir, onun əsas xüsusiyyəti olmasa da, əsas xüsusiyyətlərindən və ya cəhətlərindən biridir"[57].

"İnkişaf əksliklərin "mübarizəsidir"[58].

"Dialektika **məhz** (Hegelin və) marksizmin idrak nəzəriyyəsidir..."[59].

Gətirilən təriflərdən aydın görünür ki, V.İ.Lenin vahidin iki əks tərəfə, meylə, qütbə ayrılmasını və bu tərəflər arasındakı mübarizəni inkişafın və inkişaf haqqında təlim olan dialektikanın məğzi, özəyi, nüvəsi, mahiyyəti adlandırır. Bu isə

---

[54] V. İ. Lenin. Əsərləri, 38-ci cild, səh. 104.
[55] Yenə orada, səh. 226.
[56] Yenə orada, səh. 265.
[57] Yenə orada, səh. 381.
[58] Yenə orada, səh. 382.
[59] Yenə orada, səh. 384.

o deməkdir ki, dialektikanın digər iki qanunu — kəmiyyət dəyişmələrinin keyfiyyət dəyişməsinə keçməsi və inkarı inkar qanunu — birinci qanunla sıx rabitəli surətdə fəaliyyət göstərir. Bir qisim müəlliflər tərəfindən söylənilən bu fikirlərdən çıxarılan belə bir səhv nəticənin qarşısını alaq ki, guya qanunlar arasındakı göstərilən rabitə ikinci nə üçüncü[60] qanunu müstəqil təsir və fəaliyyət göstərməkdən məhrum edir. Hər iki qanun əsas qanundan müəyyən mənada asılı olmaqla yanaşı müstəqil surətdə fəaliyyət göstərir. Bizim fikrimizcə, ən ümumi qanunlar arasında olan əlaqələrdə iki cəhətə diqqət yetirilməlidir: birincisi, kəmiyyət dəyişmələrinin keyfiyyət dəyişməsinə keçməsi qanunu kəmiyyətlə keyfiyyət arasında olan, inkarı inkar qanunu isə yeni ilə köhnə arasında olan zidd münasibətləri ifadə etdiklərinə görə onların fəaliyyətini müəyyən mənada əksliklərin vəhdəti və mübarizəsi qanununun təzahürü kimi qiymətləndirmək olar. Lakin hər iki qanunun məzmununu təkcə göstərilən münasibətin ifadəsinə müncər etmək olmaz, bu onları müstəqillikdən məhrum edərdi. Buradan da ikinci cəhət irəli gəlir: hər bir qanun digərləri ilə əlaqədar surətdə fəaliyyət göstərsə də müstəqil məzmuna malikdir. İkinci qanunda bu məzmun kəsilməzliyin kəsilməsindən, yəni sıçrayışdan, üçüncü qanunda isə bu, yüksələn xətt üzrə olan tsiklik inkişafdan ibarətdir.

Hələ vaxtı ilə Hegel qanunların əlaqəsini və qarşılıqlı fəaliyyətini çox gözəl şəkildə ifadə etmişdir. O yazırdı ki, hər hansı predmet və hadisənin yaranması onda olan əksliklərin rüşeym halında da olsa üzə çıxması deməkdir (bu halda həmin predmet və hadisə öz-özünün eynidir), onun kəmiyyəti ilə keyfiyyətinin uyğun olması deməkdir ("kəmiyyətli keyfiyyət"), onun özündə özünün inkarının olması deməkdir. Həmin hadisə və predmetin inkişaf edib öz məhvinə gəlməsi ondakı ziddiyyətlərin mübarizə yolu ilə həlli deməkdir, onun keyfiyyət

[81] Qanunların bu cür nömrələnməsi yuxarıda gətirdiyimiz ardıcıllıqdan başqa bir şeyi göstərmir.

və kəmiyyət müqabilliyinin pozulması (sıçrayış) deməkdir, onun özünün başqası ilə inkar olunması (inkarı inkar) deməkdir.

Dialektikanın ən ümumi qanunları inkişafın, qarşılıqlı təsir şəraitində fəaliyyət göstərən və bu fəaliyyətləri ilə bir-birini tamamlayan qanunları olduğuna görə dialektik inkişaf konsepsiyası həmin qanunların tələblərinə əsaslanmalıdır. Bu ideya V.İ.Leninin inkişafın iki konsepsiyasına verdiyi xarakteristikada özünün çox gözəl aydın ifadəsini tapmışdır:

Biz obyektiv gerçəklik və insan təfəkkürünün inkişafını izlədikdə bütün predmet və hadisələrin bir-birinə zidd olan iki tərəfdən — müsbət və mənfi, vaxtı keçmiş və gələcəyi olan, ölüb getməkdə və yeni yaranmada olan tərəflərdən təşkil olunduğunu görürük. Bu tərəflər arasındakı münasibət, onların mübarizəsi inkişafın mənbəyini təşkil edir.

Maddi gerçəkliyin dialektik qanunlarla inkişafı predmet və hadisələrə daxilən xas olan əksliklərin törəməsi, onların mübarizəsi vasitəsilə həll olunması prosesdir. Eyni mövcudluq daxilində biri digərini istisna etməyən bir-birinə zidd olmayan, əksliklərin eyniyyəti və fərqində mövcud olmayan predmet və hadisəni nə təbiətdə, nə cəmiyyətdə, nə də insan təfəkkürünün inkişafında tapmaq qeyri-mümkündür.

Hadisə və proseslərə xas olan əksliklərin qarşılıqlı surətdə vasitələnməsi və mübarizəsi onların mövcudluq və inkişafının əsasında durur.

Əksliklərdən danışarkən iki cəhət — onlar arasındakı vəhdət və mübarizə üzərində xüsusi dayanmaq lazımdır. Əksliklərin vəhdəti, hər şeydən əvvəl, ziddiyyətin hər iki tərəfinin qırılmaz qarşılıqlı əlaqəsini, onlardan hər birinin digərinə keçə bilməsini, birinin digərini tələb etməsini göstərir... İkincisi isə əksliklərin vəhdətində qarşı tərəflərin müəyyən ziddiyyətdə olmasını ifadə edir. F. Engels yazır: “...Əgər şeyə əkslik xasdırsa, onda bu şey özü-özünə *ziddir;* bu eynilə də həmin şeyin fikirdəki ifadəsinə aiddir”[61].

---

[61] F. Engels. Anti-Durinq, səh. 352.

Əksliklər arasındakı vəhdəti mütləqləşdirməklə onlar arasındakı mübarizəni inkar etmək ifrat biryanlılığa gətirib çıxarır. Əksliklərin eyniyyəti, həmin eyniyyətə daxilən xas olan fərqə və ziddiyyətə görə yalnız nisbi xarakter daşıyır. Əksliklərin eyniyyəti metafizikcəsinə başa düşülən abstrakt eyniyyət *(A=A)* olmadığından, əks tərəflər oxşar olduğu qədər də fərqlidir, vəhdətdə olduğu qədər də mübarizədədir. Beləliklə, əksliklər bir-biri üçün şərt olmaqla bərabər, biri digərini istisna edir, yəni öz təbiəti etibarı ilə onlar əks qütblərdə dayanır. Bu səbəbdən də bir-birilə vəhdət halında olan əksliklər həmçinin daimi mübarizədə olur. V.İ.Lenin yazır: "Əksliklərin vəhdəti (mütabiqliyi, eyniyyəti, əvəzlənməsi) şərtidir, müvəqqətidir, keçicidir, relyativdir. İnkişaf, hərəkət mütləq olduğu kimi, bir-birini istisna edən əksliklərin mübarizəsi də mütləqdir"[62].

V.İ.Lenindən gətirdiyimiz bu sözlərdə əksliklərin vəhdətinin rolu heçə endirilmir, əksinə əks meyllərin, tərəflərin vəhdətinin inkişaf prosesindəki rolu, şeyin, hadisənin bir eyniyyət halından digərinə keçməsi, daim yeni vəhdətə doğru can atması, yeniləşməsi qeyd olunur. Əksliklərin mübarizəsi onlar arasındakı vəhdət olmadan mümkün deyildir. Əks tərəflərin vəhdəti yalnız müəyyən şərait üçün, predmet və hadisələrin nisbi sükunət və müvazinət halı üçün düzgündür. Bu hədlər xaricində hər bir konkret vəhdətin əks tərəflərinin tam üst-üstə düşməsindən, eyniyyətindən, eyni dərəcədə bərabər fəaliyyətindən danışmaq olmaz. Əksliklər daim mübarizədə olduğundan son nəticədə sükunət, müvazinət halı pozulur və deməli, əvvəlki vəhdət daxilindəki əksliklər yeni vəhdət daxilindəki əksliklərlə əvəz olunur. Beləliklə, əksliklərin mübarizəsi köhnə vəhdətin daimiliyini pozur, onu əvvəlki vəhdət hüdudundan çıxararaq, yeni, yüksək əsasa malik olan əksliklərin vəhdətinə daxil etməklə vəhdəti nisbi və relyativ edir. Bu hal özü predmet və hadisələrdəki sükunətin, müvazinətin nisbiliyini, hərəkətin, dəyişmənin, inkişafın isə mütləqliyini

[62] V. İ. L e n i n. Əsərləri, 38-ci cild, səh. 382.

göstərir. Başqa sözlə desək, hərəkətin kəsilməzliyi və kəsilənliyi əksliklərin nisbi vəhdətdə və daim mübarizədə olmasını şərtləndirən əsas amildir. F. Engels yazır ki: "...şeyin öz olduğu kimi qalıb eyni zamanda arası kəsilmədən dəyişilməsi, şeyin "eyni şey olaraq qalması ilə" dəyişkənlik arasında əkslik olması **ziddiyyətlidir"[63].**

Hələ Marks yazmışdır ki, iki, qarşılıqlı surətdə bir-birinə zidd olan tərəfin yanaşı mövcud olması, onların mübarizəsi və bir-birinə qovuşması dialektik hərəkətin mahiyyətini təşkil edir[64]. V.İ.Lenin həmin fikri inkişaf etdirərək yazır ki, "inkişaf əksliklərin "mübarizəsidir"[65].

Yuxarıda qeyd etdiyimiz kimi, inkişafın əsasında əksliklərin mübarizəsi durur. Lakin bu prosesin fəlsəfi ədəbiyyatda şərhində obyektiv prosesin dialektik axıcılığı və dəyişkənliyi ilə onları ifadə edən anlayışların nisbi "muhafizəkarlığı" arasındakı məlum ziddiyyətin təzahürü görünür. Məsələ burasındadır ki, əksliklərin mübarizəsinin mütləqliyi onların əbədiliyinə dəlalət etmir. Ümumiyyətlə, əksliyin olması və müxtəlif əksliklər arasındakı mübarizə əlbəttə əbədidir. Lakin bu əbədilik müvəqqəti mövcud olan, yəni yaranan, inkişaf edərək öz yüksək nöqtəsinə çatan və mübarizə nəticəsində başqaları ilə əvəz edilən əksliklərdən ibarətdir. Məhz ona görə də əksliklərə biz donmuş, dəyişməz, qəfildən hazır şəkildə yaranan və qəfildən həll olunan kimi yox, daim yaranan və həll olunan, daim yeniləşməkdə və inkişafda olan bir şey kimi baxmalı və onun inkişafındakı müxtəlif mərhələləri xüsusi qeyd etməliyik.

Yaranan hər bir predmet və hadisədə əksliklər (onda olan ziddiyyət) eyniyyət təşkil edir, yəni ondakı ziddiyyət hələ potensial şəkildə özünü göstərir, o, hələ əksliklərə parçalanmamışdır. Lakin bu eyniyyət öz daxilində əksliklərə parçalanmaq imkanına malikdir. Bu parçalanmanın ilk pilləsi fərqdir. Fərq səviyyədə zidd tərəflər hələ qütbi əkslik xarakteri

---

[63] F. E n k e l s. Anti-Dürinq, səh. 352.
[64] Bax: K.Marks i F. Enqelns. Soç., t. 4, səh. 136.
[65] V. İ. L en in. Əsərləri, 38-çi cild, səh. 382.

almamışdır.

Dialektik eyniyyət əslində eyniyyətlə fərqin vəhdətidir. Lakin bu vəhdətdə eyniyyət həm fərqin, həm də ziddiyyətin sonrakı mərhələlərinin əsasını təşkil edir. Deməli, fərq eyniyyətdən törəmədir. Predmet və hadisə özü-özündən fərqlənmədən əvvəl eyniyyət təşkil etməlidir, yəni keyfiyyət müəyyənliyinə malik olmalıdır. Bu eyniyyət səviyyəsində belə o, öz əksinə çevrilmək meylini saxlayır. V.İ.Lenin yazır ki, "...Marksist dialektikasının əsas müddəası, əlbəttə, ondan ibarətdir ki, təbiətdə və cəmiyyətdə olan bütün hədlər şərtidir və hərəkətdədir, heç elə bir hadisə yoxdur ki, müəyyən şəraitdə öz əksinə çevrilə bilməsin"[66].

Hələ F. Engels də göstərmişdir ki, "Hegelə görə özündə varlıqda, inkişaf etməmiş müəyyən bir şeydə, müəyyən bir prosesdə, müəyyən bir anlayışda gizli qalan əksliklərin ilkin eyniyyəti vardır; özü üçün varlıqda isə bu gizli ünsürlərin fərqi və ayrılığı meydana çıxır və bunların arasında mübarizə başlanır"[67].

Ziddiyyət predmet və hadisələrdə olan əks tərəflərin münasibətidir. Ziddiyyətin bu cür öyrənilməsi yalnız dialektik məntiqdə mümkündür. Məlum olduğu kimi, formal məntiqin ziddiyyət qanununa görə eyni bir predmet və hadisə haqqında eyni bir vaxtda, eyni münasibətdə bir-birinə zidd olan iki mühakimə söyləmək olmaz, onlardan biri hökmən yanlış olacaqdır.

Adi şüur çərçivəsində düşündüyümüz və davrandığımız zaman göstərilən bu formal məntiq qanununun məhdudluğu və dəqiq desək, predmet və hadisələri, onların xassələrini bəsitləşdirdiyi bizə o qədər də aydın olmur. Çünki həmin çərçivədə bizim nəzəri və əməli fəaliyyətimizin tələbləri də bu qanundan kənara çıxmır. Lakin elə ki biz elmi təfəkkürün fəaliyyət göstərdiyi sahəyə, yəni müxtəlif səviyyəli mahiyyətlər

[66] V. İ. Lenin. Əsərləri, 22-ci cild, səh. 327.
[67] F. Engels. Anti-Düring, səh. 55.

aləminə qədəm qoyduq, formal məntiqin bütün qanunları kimi ziddiyyət qanunu da fəaliyyətdən düşür. Burada predmet və hadisə eyniyyət halında olduğu dövrdə belə onun haqqında ilk baxışda bir-birinə zidd görünən mühakimələr söyləyə bilərik. Predmet və hadisəni hansı əlaqələr sistemində, hansı mahiyyətə nəzərən götürməyimizdən asılı olaraq bu mühakimələrin hər ikisi həqiqi olacaqdır.

Dialektik məntiq tələb edir ki, biz predmet və hadisəni eyniyyət, bərabərlik halında götürərkən, onu eyni zamanda özündən fərqli, özünə bərabər olmayan kimi götürək. Yalnız bu mövqedən biz təkcə xarici hərəkəti və dəyişməni deyil, habelə "daxili, əsil özhərəkəti, ümumiyyətlə impulsu" izah edə bilərik. Özhərəkət isə müəyyən bir münasibətdə bir şeyin həm özlüyündə mövcud olması, həm də onun inkarının mövcud olması deməkdir[68].

Əksliklərin mübarizə yolu ilə həll edilməsi özlüyündə köhnə vəhdətin tamam atılması, puç edilməsi deyil, ondakı müəyyən cəhətin, müsbətin, mütərəqqinin hifz olunmasıdır. Hegelin sözləri ilə deyilsə, "həll olunmuş ziddiyyət müsbət ilə mənfinin vəhdəti olmaq etibarı ilə" əsasdır, mahiyyətdir[69].

Əgər əksliklərin vəhdəti və mübarizəsi qanunu bizə inkişafın mənbəyini, onun hərəkətverici qüvvəsini, əksliklərin qarşılıqlı surətdə bir-birinə necə çevrildiyini predmet və hadisənin öz əksliyinə, öz inkarına necə çevrildiyini açıb göstərirsə, kəmiyyət dəyişmələrinin keyfiyyət dəyişmələrinə keçməsi qanunu inkişaf prosesinin necə getdiyini, mümkün inkarın gerçək inkara necə çevrildiyini ümumiyyətlə hər bir hadisənin öz əksliyinə çevrilməsinin ümumi qanunauyğunluğunu, bir keyfiyyət halının başqası ilə əvəz olunmasının nə şəkildə və hansı formalarda baş verdiyini göstərir.

V.İ.Lenin göstərir ki, əksliklərin vəhdəti "sıçrayışlara", "tədricilikdə fasilələrə" açar verir, köhnənin öz keyfiyyət

---

[68] Bax: Гегель. Соч., т. в, с. 521.
[69] Yenə orada, səh. 514.

hüdudundan çıxaraq yeniyə çevrilməsinin açarını verir[70]. Əvvəlki izahımızda göstərdik ki, əksliklərin ziddiyyəti həll olunurkən yeni vəhdət daxilində, yeni keyfiyyət və kəmiyyət çərçivəsində yeni əksliklərə keçid prosesi baş verir.

Kəmiyyət dəyişmələrinin keyfiyyət dəyişmələrinə keçməsi qanunu ziddiyyətlərin həlli prosesində bir keyfiyyətdən digərinə necə keçilməsini, predmet və hadisələrin kəmiyyət dəyişmələrinin köklü keyfiyyət dəyişmələrinə səbəb olduğunu, ziddiyyətlərin sıçrayışlara, kəsilməzlikdə kəsilənliyə necə gətirib çıxartdığını öyrənir.

Predmet və hadisələrin keyfiyyəti ilə kəmiyyəti vəhdətdə olduğu kimi, öz daxili təbiətlərinə görə (keyfiyyət daha mühafizəkar olduğu halda, kəmiyyət tez dəyişəndir) onlar predmet və hadisə daxilində ziddiyyət təşkil edirlər.

Keyfiyyət müəyyənliyi ancaq kəmiyyət daxilində, ona müvafiq surətdə öz nisbi sabitliyini saxlayır, onun dəyişməsi də kəmiyyətin dəyişməsi nəticəsində olur.

Keyfiyyətlə kəmiyyətin üzvi vəhdəti və uyğunluğu materialist dialektikada ölçü kateqoriyasında ifadə olunur. Ölçü keyfiyyətlə kəmiyyətin qırılmaz əlaqəsini, qarşılıqlı asılılıq və vasitələnməsini göstərir. Ölçü daxilində şey özlüyündə qalır, onun pozulması ilə şey özlüyündən çıxır, başqa şeyə çevrilir. Məhz ona görə də Hegel ölçünü "keyfiyyət kəmiyyəti" adlandırır. Bu o deməkdir ki, ölçü keyfiyyət və kəmiyyətin varlıq hüdududur, bu hüdudun pozulması isə həm keyfiyyətin, həm də kəmiyyətin dəyişməsi deməkdir.

Deməli, eyni varlığın hüdudları daxilində mövcud olan kəmiyyətlər bir-birilə məlum münasibətdədir. Kəmiyyətin ölçüsünün pozulması bir sıra daim dəyişən parametrlərdən asılıdır. O, əvvəlcə keyfiyyət üçün fərqsiz görünür, lakin müəyyən həddə çatdıqda bu, fərqə çevrilir və beləliklə də köhnə keyfiyyətdən yenisinə keçid baş verir. Hegelin sözləri ilə desək, "fərqsiz bir sərhəd kimi götürüldükdə kəmiyyət elə bir tərəfdir

---

[70] Bax: V. İ. L e n i n. Əsərləri, 38-ci çild, səh. 382.

ki, buradan mövcud bir şey gözlənilməz hücuma məruz qalır və o məhv edilir”[71].

Əksliklərin mübarizəsi yolu ilə baş verən kəmiyyət dəyişmələri nəhayət sıçrayışa gətirib çıxarır. “Böhran nöqtəsi”, “ölçü nisbətlərinin düyün xətti” (Hegel) deyilən bu nöqtədə köhnə keyfiyyət yeni keyfiyyətə keçir, tədricilikdə sıçrayışlar[72] baş verir.

K. Marks yazır: “hər cür inkişafı, onun məzmunundan asılı olmayaraq, bir-birilə əlaqəli elə müxtəlif inkişaf pillələri kimi təsəvvür etmək olar ki, onlardan biri digərinin inkarıdır”[73].

Materialist dialektika inkişaf prosesinə inkarı zəruri bir ünsür kimi daxil edir. Çünki o, “...mövcud hər şeyin pozitiv anlayışına onun inkarı, hökmən məhz olacağı anlayışını da əlavə edir, vücuda gələn hər bir formanı hərəkətdə götürür, deməli onu eyni zamanda keçici hesab edir, o heç bir şey qarşısında boyun əymir və öz mahiyyəti ilə tənqidi və inqilabidir”[74]. V.İ.Lenin də özünün “Fəlsəfə dəftərləri”ndə göstərir ki, inkar dialektikanın mühüm ünsürlərindən birini təşkil edir.

Dialektikcəsinə anlaşılan inkar şeyin büsbütün məhv edilməsi deyildir, bu cür inkar həm özünüinkar, həm də qərarlaşmadır. Özü-özündən inkar edilən köhnə yeninin meydana gəlməsi üçün zəmin təşkil edir. Başqa sözlə, əvvəlki inkişafın nəticəsi olmaq etibarı ilə hər bir inkar edən pillə sonrakı inkişaf üçün moment rolunu oynayır.

F. Engels göstərir ki, dialektikada inkar sadəcə “yox” demək və ya predmet və hadisəni məhv olmuş qələmə verməkdən ibarət deyil, əksinə, elə inkardır ki, bu, sonrakı inkar üçün imkan verir. V.İ.Leninin göstərdiyi kimi, “...quru inkar, əbəs inkar, *skeptik* inkar, tərəddüd, şübhə dialektikada xarakterik və mühüm *deyildir,* yox, dialektikada şübhəsiz ki, inkar ünsürü vardır, həm də bu onun çox mühüm ünsürüdür, — dialektikada inkar əlaqə

---

[71] Гегель. Соч., т. в, с. 391.
[72] Bax: V. İ. Lenin. Əsərləri, 38-çi cild, 118.
[73] K. Marks və F.Engels. Soç., t. 4, səh. 296—297.
[74] K. Marks. Kapital, I cild, səh. XXIV.

momentidir, müsbətin saxlanması ilə, yəni büsbütün tərəddüdsüz, tamamilə eklektikasız inkişaf momentidir”[75].

V.İ.Lenindən gətirdiyimiz bu sözlərdə inkarın iki mühüm cəhətinə vurğu edilmişdir: birincisi, dialektikcəsinə anlaşılan inkar inkişafın bir momentidir; ikincisi, o, köhnə ilə yeni arasında əlaqə momentidir.

V.İ.Lenin inkişaf prosesində bu cür inkarın məzmununu açaraq qeyd edir ki, “(sadə və ilkin, “birinci” müsbət iqrarlara, müddəalara ets. münasibətdə “dialektik moment” ... fərqin, əlaqənin, keçmənin göstərilməsini tələb edir. Bunsuz sadə müsbət iqrar natamamdır, cansızdır, ölgündür, “2-ci”yə, mənfi müddəaya münasibətdə “dialektik moment” **“vəhdətin”** göstərilməsini: yəni mənfinin müsbət ilə əlaqəsinin göstərilməsini, mənfidə bu müsbətin tapılmasını tələb edir. İqrardan inkara doğru — inkardan iqrar edilənlə “vəhdətə” doğru, — bunsuz dialektika quru inkar olar, oyun və ya skepsis olar)”[76].

Ümumi inkişaf prosesində moment kimi çıxış edən inkar həm mütləq, həm də nisbi olmaqla, sonsuzla sonlunun vəhdətində aşkar olunan təbiətə malikdir. Onun mütləq olmasını ancaq bu mənada başa düşmək lazımdır ki, inkişaf prosesi inkar olmadan baş verə bilməz. Onun bir-birinə əks olan meyllərinin, tərəflərinin, daxili ziddiyyətlərinin mübarizəsi köhnə məzmunun yeni, yüksək məzmunla əvəz olunmasına gətirib çıxarır[77]. Daxili ziddiyyətlərin mübarizəsi mütləq olduğu qədər həmin mübarizənin zəruri nəticəsi olan inkar da mütləqdir. Hegel çox düzgün demişdir ki, əksliklərin üzə çıxması inkardır, onların mübarizə yolu ilə həll edilməsi isə inkarı inkardır. İnkar ümumiyyətlə inkişaf prosesinin zəruri amillərindən biri olub, müəyyən bir şeyin bir anda bu, digər anda isə başqası olduğunu göstərir.

İnkarın nisbiliyi onun aşağıdakı iki xüsusiyyəti ilə izah oluna

---

[75] V. İ. Lenin. Əsərləri, 38-ci cild, səh. 230—231.
[76] V. İ. Lenin. Əsərləri, 38-ci cild, səh. 231.
[77] Bax: Гегель. Соч., t.v, səh. 3.

bilər: birincisi, inkar heç vaxt inkarolunanın mütləq mənada məhvi, onun bir dəfəlik ortadan çıxması demək deyildir. Bu cür inkar inkarolunanın müəyyən cəhətlərini atsa da, onun başqa cəhətlərini yeni hadisəyə keçirir, sonrakı inkişafda onlardan istifadə edir. Engels yazır ki, “mən nəinki bir şeyi inkar etməliyəm, habelə yenidən bu inkarı bərtərəf etməliyəm. Deməli, mən birinci inkarı elə etməliyəm ki, ikinci inkar qalsın və ya mümkün olsun”[78]. İkincisi, predmet və hadisələrin hamısı və bütün hallar üçün tətbiq olunan, eyniyyət təşkil edən mütləq bir inkar yoxdur. Predmet və hadisələrin inkişafında “inkar üsulu prosesin, əvvələn, ümumi, sonra isə xüsusi təbiəti ilə müəyyən edilir. Hər bir təsəvvür və ya anlayış növü kimi, hər bir şey növünün də öz xüsusi inkar növü vardır, məhz elə bir inkar növü vardır ki, burada inkişaf əmələ gəlir”[79].

Beləliklə, şərhimizin yekunu kimi deyə bilərik ki, inkişaf momenti olan inkarda inkaredən (yeni) inkarolunana (köhnə) nisbətən inkişafın yüksək mərhələsini təşkil edir. Predmet və hadisənin inkişaf zamanı kəsb etdiyi spesifiklik və mövcud şəraitin müxtəlifliyindən asılı olaraq hər bir hal üçün bu proses müxtəlif formalarda təzahür edir. Çox vaxt bu, intensiv surətdə gedir, bəzi hallarda isə bir neçə inkar tsiklindən sonra aşkar olunur, lakin keyfiyyət müxtəlifliyi nəzərə çarpmır. Bu isə böyük inkarlar daxilində öz növbəsində bir neçə və ya saysız xırda inkarların baş verməsi ilə izah olunmalıdır.

Yuxarıda biz V.İ.Leninin fikrinə istinad edərək inkarın inkişaf momenti olması ilə bərabər, onun köhnə ilə yeni arasında əlaqə momenti olduğunu da qeyd etmişik. Əgər inkişaf prosesində bir moment kimi başa düşülən inkar yeninin meydana gəldiyini və köhnədən inkişafca fərqləndiyini göstərirsə, əlaqə momenti kimi başa düşülən inkar isə yeni ilə köhnə arasında ümumi, oxşar cəhətlərin olduğunu, yeninin köhnədən hifz etdiyi və inkişafın yeni mərhələsində istifadə etdiyi cəhətləri göstərir,

---

[78] F. Engels. Anti-Düringq, səh. 141.
[79] F. Engels. Anti-Düringq, səh.141.

yeni ilə köhnə arasında mütləq ayrılığın olmadığını aydınlaşdırır. Əlaqə momenti kimi çıxış edən inkar göstərir ki, inkaredənin əsası inkarolunan hadisədədir, inkaredən heçdən yaranmır, elə hadisənin özünün daxili inkişafından irəli gəlir. Özinkar olan bu cür inkarın hərəkətverici qüvvəsi isə daxili əksliklərin mübarizəsindən ibarətdir.

Əlaqə momenti kimi çıxış edən inkar inkaredilənlə inkaredəni bir-birilə iki cür əlaqələndirir. Bir tərəfdən, o, köhnədə olan müsbət, gələcəyi olan səmərəli cəhətləri yeniyə köçürməklə onları məqsədəuyğun şəkildə dəyişdirib istifadə edir (bu, ümumi şəkildə deyilsə, varislik prinsipidir); digər tərəfdən, inkaredən — yeni köhnə içərisindən çıxdığına görə müəyyən müddət köhnədə olan mənfi cəhətlər də yenidə özünü göstərir. Birinci halda köhnə hadisələrin öz daxilində yaranan və getdikcə inkişaf edən, mahiyyəti etibarı ilə ona zidd olan və bu səbəbdən də onun məhvini, yeni inkarını şərtləndirən yeni cəhətlər, ikinci halda isə köhnə içərisindən çıxan yeninin öz üzərinə götürdüyü köhnədən irs qalmış "qara ləkələr", mənfi cəhətlər nəzərdə tutulur. Birincilər inkişafa təkan verir, ikincilər isə onu ləngidir, ona mane olur. Lakin burada bir cəhət diqqətəlayiqdir ki, yeniyə irsən keçən həm müsbət, həm də mənfi cəhətlər dəyişilməz şəkildə qalmır. Müsbət cəhətlər həm məzmun, həm də formaca yenidən dəyişdirilir. Bəzi hallarda isə hətta köhnə formadan, inkaredən hadisədə istifadə edilir. Bu halda da yeni məzmun köhnə formanı özü nə uyğunlaşdıraraq istifadə edir. Mənfi cəhətlər isə yeni hadisənin yarandığı vaxt və inkişafının ilk dövründə daha güclü olur, sonralar isə onların yaşaması və inkişafı üçün zəmin olmadığından tədricən ortadan çıxır.

İnkar kateqoriyası inkişafın sonsuzluğunu, fasiləsiz baş verən inkar prosesini göstərməklə inkarı inkar qanununun özəyini təşkil etsə də, təkcə onu göstərmək hələ inkişafın ən ümumi qanunlarından biri olan inkarı inkar qanununun mahiyyətini aşkar etmək demək deyildir. Bunun üçün inkarı inkar prosesinin nə olduğunu, onun bir sıra səciyyəvi cəhət və

xüsusiyyətlərini aydınlaşdırmaq, onun dialektika qanunları sistemində tutduğu yeri müəyyənləşdirmək lazımdır.

İnkarı inkar “təbiətin, tarixin və təfəkkürün son dərəcə ümumi və məhz buna görə də son dərəcə geniş fəaliyyət göstərən mühüm bir inkişaf qanunudur”. Bu qanun obyektiv gerçəkliyin və elmin bütün sahələrində, “heyvan və bitki aləmində, geologiyada, riyaziyyatda, tarixdə, fəlsəfədə özünü göstərən bir qanundur”[80].

Ən ümumi xarakter daşıyan inkarı inkar qanununun fəaliyyətini başa düşmək, inkarlarla gedən inkişaf prosesinin mahiyyətini açmaq üçün bu qanunun iki inkarla adlandırıldığını aydınlaşdırmaq lazımdır. İş burasındadır ki, bir inkar hər hansı bir predmet və hadisənin başqa birisi tərəfindən inkar olunduğunu göstərir. Lakin həmin inkaredən hadisənin özünün başqası tərəfindən inkar olunması hələ birinci inkardan məlum olmur. Bunu göstərmək üçün biz həmin prosesin adını iki inkarla — inkarı inkarla adlandırırıq. Deməli, prosesin özü obyektiv olaraq inkarı inkardan ibarətdir. Bizim tərəfimizdən ona verilən ad isə obyektiv prosesin bizim başımızda inikasının ifadəsindən başqa bir şey deyildir.

Deməli, dialektikcəsinə başa düşülən inkar yalnız bir anlıq, bir dəfə baş verən proses deyildir. İnkişaf hər hansı bir predmet və ya hadisənin meydana gəlməsi, qərarlaşması, sonra onun əksliklərin mübarizəsi yolu ilə öz başqası tərəfindən əvəz olunması, inkar olunması, daha sonra isə bu axırıncının da üçüncü tərəfindən əvəz olunması, inkarın inkar olunması prosesindən ibarətdir. İstənilən predmet və hadisə köhnəni inkar edərkən daha məzmunlu kimi, daha mükəmməl kimi yenə də öz daxili ziddiyyətləri hesabına mövcud olur, hərəkət və inkişafını davam etdirir. Bu zaman yenə də predmet inkişaf edərək öz əksliyinə çevrilir, bir daha özünün çıxış nöqtəsini inkar edir. V.İ.Leninin dediyi kimi, müəyyən şəraitdə inkişaf edib öz əksliyinə çevrilməyən hadisə yoxdur[82]. Fasiləsiz davam edən

---

[80] F. Engels. Anti-Dürinq. səh.140.

inkişaf gedişində hər bir predmet və hadisənin özündə potensial inkar imkanına malik olması məhz inkarı inkar qanununun mühüm tərəflərindən birini təşkil edir.

İnkarı inkar qanununun aşağıdakı xüsusiyyətlərini göstərə bilərik: birincisi, inkişaf irəliləyən, aşağıdan yuxarıya, sadədən mürəkkəbə gedən  xətt boyunca, yeninin köhnəni əvəz etməsi yolu ilə gedir; ikincisi, inkişafda keçmiş vəziyyətə sanki qayıtma, keçilmiş mərhələlərin bəzi xüsusiyətlərinin təkrarı müşahidə olunur. Üçüncüsü, inkişaf düzxətt boyunca və ya dairəvi şəkildə deyil, spiralabənzər şəkildə baş verir. Qısa da olsa bu xüsusiyyətlərin təhlili üzərində dayanaq.

İnkarın məzmunlu olması inkişaf prosesinin irəliləyən xətt istiqamətində getdiyini göstərir. İnkişaf momenti və köhnə ilə yeni arasında əlaqə kimi çıxış edən inkar sadəcə olaraq inkaredilənin atılması deyil, eyni zamanda onda olan müsbət cəhətlərin inkaredən tərəfindən mənimsənilməsi və inkişafda əsas kimi istifadə edilməsi deməkdir. Hər bir halda yeni, inkar edən hadisə mövcud şəraitə köhnə hadisədən daha çox müvafiq gəldiyi üçün inkişafda daha yüksək pillə olur.

İnkişafın irəliləmə şəklində olmasını bəsit şəkildə düşünmək olmaz, bu, son dərəcə mürəkkəb, girintili-çıxıntılı, irəliyə sıçrayış istiqamətindən əyintili, bəzən geriyə çəkilmələri olan dialektik bir prosesdir. “...Ümumdünya tarixini, bəzən geriyə doğru nəhəng sıçrayışlar olmadan düz və səlis bir şəkildə irəliyə gedən  bir tarix kimi təsəvvür etmək qeyri-dialektik, qeyri-elmi bir şey, nəzəri cəhətdən yanlış bir şeydir”[81].

Lakin istər təbiətdə, istərsə də cəmiyyətdə rast gələn bu cür geriləmə hallarının hamısı nisbi və keçici xarakter daşıyır, müvəqqəti olaraq inkişafı ləngitsə də, son nəticədə onlar ortadan qalxır, ümumi inkişaf istiqaməti yenə də öz yolunu davam etdirir.

İnkarı inkar qanununun ikinci xüsusiyyəti — inkişafın spiralvarı olması, sanki köhnəyə qayıtma — onun irəliləyən xətt

[81] V. İ. Lenin. Əsərləri, 22-ci cild. səh. 329.

boyunca olmasının fomasıdır. V.İ.Leninin qeyd etdiyi kimi, “düz xətt üzrə deyil, spiral xətt üzrə olan inkişaf”[82]. Əksliklərin eyniyyətini aşan inkişafın müəyyən bir mərhələsində elə bir inkar halı olur ki, onun nəticəsində yaranan yeni hadisə inkişafın birinci mərhələsinin bəzi xüsusiyyətlərini təkrar edir, inkişaf sanki köhnəyə qayıdır. Mütərəqqi inkişaf prosesinin təkrarlanan əlamətini göstərən bu xüsusiyyət ibtidaidən aliyə, sadədən mürəkkəbə doğru gedən proseslər üçün daha xarakterik haldır. Onu geriyə hərəkətlə, təkrarsızlıqla, başlanğıc nöqtəyə qayıtmayan hərəkətlə eyniləşdirmək olmaz. V.İ.Lenin də məhz bu cəhəti nəzərdə tutaraq həmin əlamətn dialektikanın ünsürləri sırasında göstərmişdir: “ali mərhələdə ibtidai mərhələnin məlum cəhətlərinin, xassələrinin təkrar olunması və guya köhnəyə qayıdılması (inkarın inkarı)”[83]

V.İ.Lenin həmin fikri “Fəlsəfə dəftərləri”idə davam etdirərək bir daha qeyd edir ki, inkişafın sanki başlanğıc nöqtəyə qayıdan təkrarlanmanı göstərməsi dialektikanın mahiyyəti, özəyi olan əksliklərin vəhdəti və mübarizəsi qanununun fəaliyyətindən irəli gəlir, “hərəkət və Werden (qərarlaşma— *müəllif)* ümumiyyətlə deyilsə, təkrarsız, başlanğıc nöqtəyə qayıtmayan ola bilər **və onda** belə bir hərəkət “əksliklərin eyniyyəti” olmazdı. Lakin həm astronomik, həm də mexaniki (yerdə) hərəkət, həm bitkilərin, həm heyvanların, həm də insanların həyatı — bütün bunlar yalnız hərəkət ideyasını deyil, məhz başlanğıc nöqtəsinə qayıdan hərəkət, yəni dialektik hərəkət ideyasını bəşəriyyətin beyninə yerləşdirmişdir”[84].

Dialektika, V.İ.Leninin sözləri ilə deyilsə, “gerçəkliyə saysız-hesabsız dərəcədə hər cür yanaşma, yaxınlaşma çalarlarına (hər bir çalardan artıb tama çevrilən fəlsəfə sisteminə) malik **canlı,** çoxcəhətli (həm də cəhətlərinin sayı daimi artmaqda olan) idrak kimi”[85] götürüldükdə, burada da

[82] V. İ. Lenin. Əsərləri, 21-ci cild. səh. 43.
[83] V. İ. Lenin. Əsərləri, 38-ci cild, səh. 226.
[84] Yenə orada, səh. 365.
[85] V. İ. L e n i n. Əsərləri, 38-ci cild, səh. 384—385.

inkarı inkar qanununun fəaliyyətini aydın görmək olar. Çünki "insanın idrakı düz xətt deyildir (...düz xətt üzrə getmir), bir sıra dairələrə, spirala sonsuz yaxınlaşan əyri xətdir"[86]. Bu xəttin hər bir parçası, spiralın hər bir dairəsi əvvəlkinin inkarını, yeninin bərqərar olmasını, bir sözlə, idrakın inkişafının sonsuz sayda inkarlardan təşkil olunduğunu göstərir. Bu prosesin dialektik gedişi "ümumiyyətlə *birinci* müddəanın inkarından, onu *ikincisinin* əvəz etməsindən ibarətdir. (Birincinin ikinciyə keçməsindən, birincinin ikinci ilə əlaqəsini göstərməkdən ibarətdir)"[87].

Bu cür qayıtma və köhnənin bəzi cəhətlərinin təkrarı ikinci, üçüncü, beşinci və s. sonsuz inkarlarda da baş vermək imkanına malikdir. Hegelin etdiyi kimi, onu "üçlük" çərçivəsi ilə məhdudlaşdırmaqla inkişafın üçüncü pillədə kəsildiyini iddia etmək düzgün olmaz. V.İ.Lenin "Fəlsəfə dəftərləri"ndə Hegeli bilərəkdən inkişafı "üçlük" altına salmağa görə tənqid edərək yazır ki, "dialektikanın "üçlüyü" onun xarici, səthi tərəfidir"[88], obyektiv aləm və onun idrakında "üçüncü", dördüncü və i. a. üçün mənbə olur, inkarı inkarlar bir-birini bu cür tamamlayır, sanki köhnəyə bu cür qayıdırlar.

Spiralvarı inkişafda hər iki cəhət — həm irəliləmə meyli, həm də müəyyən mənada dairəvilik özünü göstərir. Lakin bu dairəvilik bir xətt boyunca gedən deyil, onun hər dəfə dövr etməsində üst-üstə düşən nöqtələrdə müəyyən yüksəliş görünür. Hadisənin təbiətindən, əlaqə və münasibətlərin tipindən, inkişaf şəraitindən asılı olaraq bu yüksəliş az və ya çox dərəcədə nəzərə çarpır. Beləliklə, "sanki köhnəyə qayıtmaq" işin əslində geriyə mütləq formada qayıtmanı deyil, yeni əsas üzərində, həm də yüksək inkişaf mərhələsipdə başlanğıc nöqtənin ancaq bəzi cəhətlərini təkrar etməni ifadə edir. V.İ.Lenin bu xüsusiyyəti inkişaf prosesinin ümumi qanunauyğunluğuna daxil edərək yazır ki, "inkarı inkar" "keçilmiş pillələri sanki təkrar edən, lakin

---

[86] Yenə orada, səh. 385.
[87] Yenə orada, səh. 231.
[88] Yenə orada, səh. 234.

bunları başqa cür, daha yüksək bir əsas üzərində təkrar edən bir inkişafı"[91] göstərir.

Marksizmin yarandığı vaxtdan indiyə qədər bir qayda olaraq burjua ideoloqları onu Hegelçilikdə təqsirləndirirlər. "Kapitalın" birinci cildi çapdan çıxdıqdan sonra bu ideoloqlardan bir qismi onu sükutla qarşıladısa, digər qismi onda yeni bir şeyin olmadığını, onun Hegelin əsas müddəalarının, xüsusilə onun "triada" prinsipinin siyasi iqtisad sahəsinə tətbiqindən başqa bir şey olmadığını iddia edirdi. Bu qəbildən olan fikirləri rus xalqçısı Mixaylovski də təkrar edirdi. Onun fikrincə, Marks kapitalizm cəmiyyətinin məhv olacağının labüdlüyünü, onun sosializm cəmiyyəti ilə əvəz olunacağını Hegelin "triadası" əsasında söyləmişdir. Burada Mixaylovski Dürinqə nə qədər də oxşayır. Vaxtı ilə Dürinq də Marksa qarşı belə bir ittihamla çıxış etmişdir ki, guya onun mülkiyyət formalarının bir-birini əvəz etməsinin qanunauyğunluğu haqqındakı fikirləri Hegelçi hoqqabazlıqdan başqa bir şey deyildir. F. Engels o vaxt Dürinqin cavabını layiqincə verdiyi kimi, V.İ.Lenin də Mixaylovskini tutarlı cavabsız qoymamışdır.

Kapitalizm cəmiyyətinin labüd məhv olacağı və onun sosializmlə əvəz olunacağı haqqında Marksın fikri heç də Hegel "triada"sının ictimai həyatın inkişafına tətbiqi nəticəsi deyildir. Marks ictimai inkişafı və xüsusilə kapitalizmin inkişafını dərin elmi təhlil etdikdən, onun əsas qanunlarını kəşf etdikdən sonra belə bir nəticəyə gəlmişdir ki, kapitalizmin məhvi və sosializmin qələbəsi eyni dərəcədə labüd və qanunauyğundur. Ancaq bundan sonra müəyyən olunmuşdur ki, bu proses də inkarı inkar qanunu əsasında baş verir. Başqa sözlə, Marks xarici aləmin inkişafını hazır müddəalar çərçivəsinə salmır, obyektiv inkişafın özündə onun qanunauyğunluqlarını müəyyən edir. "Marks heç bir zaman, heç bir şeyi Hegel triadaları ilə "sübut" etməyi heç fikrinə də gətirməmişdir. Marks ancaq həqiqi prosesi öyrənmiş və tədqiq etmişdir, nəzəriyyənin həqiqətə uyğun olmasını nəzəriyyə üçün yeganə ölçü olaraq qəbul etmişdir. Bəzən bu və

ya başqa bir ictimai hadisənin inkişafı Hegelin: olan şey — inkar — inkarı inkar sxemi- [89] nə uyğun gəlirdisə, burada təəccüb ediləcək heç bir şey yoxdur, çünki təbiətdə bu ümumiyyətlə az tapılan bir şey deyildir”[90].

* * *

Qanunları ümumilik dərəcəsinə görə təsnif edərkən bu təsnifatın nisbiliyinin qanunların aid olduğu fəaliyyət sahəsinin genişliyi ilə, onlara daxil olan hadisələrin fəzadakı ümumiliyi ilə şərtləndiyini göstərdik. Bununla yanaşı, müxtəlif qanunları məzmununa, onlarda ifadə olunan əlaqə və münasibətlərin hansı şərait zəminində reallaşmasına, başqa səzlə, bu qanunların aid olduqları obyektlər arasındakı fərqə görə də təsnif etmək olar. Bu cür fərq lap əvvəldən təbiət və cəmiyyət hadisələri arasında mövcud olmuş və qanunların məzmunca fərqlənməsinin əsasında durmuşdur. Belə ki, təbiət hadisə və prosesləri əvvəldən axıra qədər özünü yetkin şəkildə təzahür etdirdiyindən, təbiət qanunları da özünü bu cür büruzə verir. Bu halı cəmiyyət hadisələrinə aid etmək olmaz. Çünki təbiətdən fərqli olaraq, cəmiyyət hadisələri insanların qarşılıqlı fəaliyyətinin məhsulu olmaqla məhz həmin fəaliyyət vasitəsilə təzahür etdiyindən, onların qanunları da ictimai münasibətlərin yetkinliyindən daha çox asılıdır. Bu səbəbdən də materialist dialektika təbiət hadisələrinin qanunları ilə cəmiyyət hadisələrinin qanunları arasında məzmunca fərq olduğunu göstərir, hər iki tip qanunların ümumi və spesifik cəhətlərini ayırd edir[91].

K. Marks və F. Engels cəmiyyəti təbiətşünaslıq qanunları vasitəsilə izah edənlərə, təbiətlə cəmiyyət arasında mühüm

---

[89] V. İ. Lenin. Əsərləri, 21-ci cild, səh. 43.
[90] V. İ. Lenin. Əsərləri, 1-ci cild, səh. 159.
[91] Fəlsəfə tarixində bu məsələnin həllində müxtəlif cür yanlış nöqteyi-nəzərlər olmuşdur. İctimai həyatın üzvü nəzəriyyəçiləri, sosial, darvinistlər, neomaltusçular, rus empiriokritikləri, sosiologiyada psixoloji cərəyan və b. təbiət və cəmiyyət arasında heç bir fərq görmədən onların qanunlarını bir-biri ilə eyniləşdirir, bunları bir-birinə müncər edirdilər. V. İ. Lenin bu qəbildən olanları A. Boqdanovun şəxsində tənqid edərək göstərir ki, ümumiyyətlə təbiət elmlərinin anlayışlarını ictimai elmlər sahəsinə keçirmək ibarəçilikdir.

keyfiyyət fərqlərini görməyənlərə qarşı çıxaraq göstərirdilər ki, təbiətlə cəmiyyət arasında, onların inkişaf qanunları arasında ümumi cəhətlərlə yanaşı mühüm fərqlər də vardır.

K. Marks insanın təbiətlə əlaqəsini göstərərək yazırdı ki, **"insan** bilavasitə təbii **mövcudluqdur.** Təbii mövcudluq, eyni zamanda canlı təbii mövcudluq olmaqla, o, xeyli dərəcədə **təbiət qüvvələyrilə, həyat qüvvələri** ilə ayrılan, **fəaliyyətdə** olan təbii mövcudluqdur..."[92]. Təbiət inkişafının müəyyən pilləsində meydana gələn bəşər cəmiyyəti bir tərəfdən, təbiət kimi dialektikanın ümumi qanunlarına tabedirsə, onlar arasında qarşılıqlı əlaqə və asılılıq mövcuddursa, digər tərəfdən isə o, təbiətdən tamamilə fərqlənən bir ictimai orqanizmdir.

Məhz bu cəhəti nəzərə alaraq marksizmdə cəmiyyətə V.İ.Leninin dediyi kimi: "(mexaniki surətdə birləşmiş və buna görə də ayrı-ayrı ictimai ünsürlərin hər cür ixtiyari kombinasiyalarına yol verən bir şey kimi deyil) daim inkişafda olan canlı bir orqanizm kimi baxılır, bu orqanizmi öyrənmək üçün də həmin ictimai formasiyanı təşkil edən istehsal münasibətlərini obyektiv surətdə təhlil etmək, onun yaşaması və inkişafı qanunlarını tədqiq etmək lazımdır"[93].

Məlumdur ki, marksizmdən əvvəlki filosof, sosioloq və iqtisadçıların istisnasız olaraq hamısı cəmiyyətin ictimai-iqtisadi qanunlarının mahiyyətini anlaya bilməmiş, təbiət və cəmiyyət arasındakı keyfiyyət fərqini anlamadıqlarına görə, ya cəmiyyətə naturalist baxış mövqeyində qalmış, ya da tamamilə idealizmə yuvarlanmışdılar. V.İ.Lenin bu qəbildən olanları iqtisadçıların şəxsində səciyyə edərək yazır ki, onlar "iqtisadi qanunları fizika

---

[92] К. Маркс и Ф. Энгельсь. Из ранных произведений. М., 1956, səh. 631.

[93] V. İ. Lenin. Əsərləri, 1-ci cild, səh. 161. Bu anlayışların köməkliyi ilə ictimai hadisələri heç cür tədqiq etmək, ictimai elmlər metodunu heç cür aydınlaşdırmaq olmaz (bax: V. İ. Lenin. Materializm və empiriokritisizm, səh. 350, 351, 354, 358, 359). Digərləri isə İ. Kantın «əsas səhvi»ni düzəltmək pərdəsi altında tarixi hadisələri sırf fərdi hadisələr toplusu adlandıraraq cəmiyyətdə qanunun olmadığını qnoseoloji cəhətdən «əsaslandırmağa» çalışırdılar. Neokaptçılığın Baden məktəbi (V. Vindelband, H. Rikkert və b.) və onun müasir davamçıları bu qəbildəndir. V. İ. Lenin neokantçılığın immanentlər məktəbi ilə, maxizm və praqmatizm ilə əlaqəsini göstərmiş, onları ciddi surətdə tənqid etmişdir (bax: V. İ. Lenin. Materializm və empiriokritisizm, səh. 26).

və kimya qanunları ilə müqayisə edərkən, bu iqtisadi qanunların təbiətini anlamırdılar”[94].

“İnsanların qarşılıqlı ictimai fəaliyyətinin məhsulu” (K. M a r k s) olan cəmiyyət təbiətdən burada məqsədəuyğun istehsal fəaliyyətinin əsas yer tutmasına görə fərqlənir. Heyvanlar ancaq təbiətə uyğunlaşırsa, ondan tamamilə asılıdırsa və təbiətdən ancaq hazır nemətləri alırsa, insanlar bununla kifayətlənmir, onlar təbiətlə mübarizə şəraitində onda olmayan nemətləri istehsal edirlər. “...İnsan nəinki təbii mövcudluqdur, — o **bəşəri** təbii mövcudluqdur... Deməli, **bilavasitə insana verildiyi** şəkildə olan **insani** predmetlər, təbii predmetlər deyildir...”[97]. Marks burada belə bir cəhəti göstərmək istəyir ki, insanın öz həyatını davam etdirmək üçün istifadə etdiyi predmetlər “təbii predmetlər” deyildir, onlara təbiətdə hazır şəkildə rast gəlinmir, insan çalışmalı və özü üçün yaşayış vasitələri istehsal etməlidir.

İnsanın heyvandan ayrılması, yəni meymunun insana çevrilməsi prosesində əməyin başlıca rol oynaması aydın göstərir ki, məhz əmək fəaliyyəti, maddi nemətlər istehsalı prosesi bəşər cəmiyyətini heyvanlar aləmindən fərqləndirən mühüm cəhətdir. Buna görə də insan cəmiyyətinin özünə məxsus fəaliyyət və inkişaf qanunları vardır. “heyvanlar ən yaxşı halda **toplamaq** dərəcəsinə çatır, insan isə **istehsal edir;** insan elə yaşayış vasitələri (sözün ən geniş mənasında) yaradır ki, bunları təbiət onsuz istehsal edə bilməzdi. Bu isə, heyvan cəmiyyətinin yaşamaq qanunlarını, müvafiq qeyd-şərtsiz insan cəmiyyətinə nə şəkildə olursa olsun köçürməyi qeyri mümkün edir... heyvanat aləmindən götürülən kateqoriyalar burada — inkişaf vasitələrinin ictimai istehsalında — daha heç tətbiq oluna bilməz”[98].

Deməli, təbiət tarixi ilə cəmiyyət tarixi arasında sıx əlaqə və oxşarlıqla yanaşı bir sıra spesifik fərqlər də vardır. Təbiət tarixindən fərqli olaraq cəmiyyət tarixinnn şüurlu və məqsədəuyğun insan fəaliyyətindən, ictimai istehsal

---

[94] V. İ. Lenin. Əsərləri, 1-ci cild, səh. 163.

fəaliyyətinin nəticəsindən təşkil olunması, təbiətdə isə kor və düşüncəsiz qüvvələrin fəaliyyət göstərməsi — bütün bunlar təbiətlə cəmiyyəti bir-birindən fərqləndirdiyi kimi, onların qanunlarının da fərqli cəhətlərinin əsasını təşkil edir. Ona görə də təbiət və cəmiyyətin obyektiv qanunlarından danışarkən onların spesifik xüsusiyyətlərini nəzərə almaq lazımdır. Bunsuz nəzəri və əməli fəaliyyətdə zərərli nəticələrə və müvəffəqiyyətsizliklərə düçar olmaq olar.

İndi isə cəmiyyət qanunlarının spesifik cəhətlərini təhlil edək, onların ontoloji və qnoseoloji fərqlərinp araşdıraq.

Cəmiyyət qanunlarını təbiət qanunlarından fərqləndirən **birinci** xüsusiyyət ondan ibarətdir ki, təbiət qanunlarının mövcudluğu və fəaliyyət göstərməsi insanların ictimai istehsal fəaliyyətindən asılı olmadığı halda, cəmiyyət qanunları insanların ictimai fəaliyyətinin məhsulu olub həmin fəaliyyətdə təzahür edir, yəni cəmiyyət qanunları öz mövcudluğunun zəruri şərti kimi şüura və düşüncəyə malik olan insanların ictimai fəaliyyətini tələb edir.

Hələ cəmiyyət meydana gəlməmişdən əvvəl də materiyanın üzvi və qeyri-üzvi formalarının qanunları obyektiv surətdə mövcud olub təsir göstərmişdir, onların mövcudluğu və təsir göstərməsi üçün şüurlu insana ehtiyac olmamışdır.

İctimai həyat qanunları isə insan cəmiyyəti, insanların istehsal fəaliyyəti və ictimai münasibətlər olmadan fəaliyyət göstərə bilməz. Deməli, həmin qanunların mövcud olub təsir göstərməsi üçün cəmiyyətin mövcudluğu zəruri əsasdır.

Cəmiyyətin tarixi insanların məqsədəuyğun istehsal fəaliyyətindən və bu zəmində təşəkkül tapan ictimai münasibətlər tarixindən ibarətdir. Həm istehsal prosesi, həm də ictimai münasibətlərin formalaşması ictimai əmək fəaliyyətində baş verən prosesdir. K. Marks yazır ki, "ümumdünya tarixi adlandırılan tarix insanın insan əməyi ilə yaradılmasından başqa bir şey deyildir..."[95].

---

[95] К. Маркс и Ф.Энгель. Из ранных произведении, səh. 598.

Birgə əmək fəaliyyətində yaşayış vasitələri istehsal edən insanlar "öz məhsuldar qüvvələrini inkişaf etdirməklə, yəni yaşamaqla bir-birlərinə qarşı müəyyən münasibətləri inkişaf etdirirlər"[96], insanların ictimai fəaliyyəti isə bu qanunlara müvafiq şəkildə baş verir. Məsələn, bazar üçün müəyyən məhsullar istehsal edən və onu mübadilə edən istehsalçılar, bununla nə şeylərin əmtəə formasını yaratdıqlarını, nə də mübadilə zamanı dəyər münasibətini inkişaf etdirdiklərini başa düşmürlər. Onlar bazara çıxarıb mübadilə etdikləri məhsullarla ancaq öz zəruri ehtiyaclarını ödəyir və ona görə də bu prosesə adi şüur səviyyəsi ilə yanaşaraq burada yalnız şeylər arasında münasibət görürlər. Əslində isə şeylər münasibəti kimi görünən bu zahirilik arxasında sadə məhsul mübadiləsindən geniş əmtəə münasibətlərinə çevrilən müəyyən ictimai münasibətlər gizlənir. K. Marks yazır: "...Əmtəə forması, habelə əmək məhsullarının bu formanı ifadə edən dəyər münasibəti əsla şeylərin fiziki təbiətinə və onların bu təbiətindən doğan münasibətinə bənzəməz. Bu ancaq insanların öz arasında olan müəyyən ictimai münasibətdir və yalnız onların nəzərində şeylər arasındakı münasibət kimi qeyri-təbii bir forma alır"[97].

Buradan aydın olur ki, insanlar əmək prosesində özlərindən asılı olmayan ictimai münasibətlərə girirlər ki, ictimai inkişaf qanunları da bu münasibətlərin qanunları kimi, insanların ictimai fəaliyyətinin əsasında durur.

Təbiət və cəmiyyət qanunlarının müqayisəsindən görünür ki, insanlar təbiət qanunlarına nəzərən yalnız icraçı olmaqla, onların təzahürünə müəyyən dərəcədə təsir göstərə bilir, cəmiyyət qanunlarına nəzərən isə onlar həm yaradıcı, həm də icraçı kimi çıxış edirlər[98].

Marksın sözləri ilə desək, insanlar öz ümumtarixi

---

[96] K. Marks və F. Engels. Seçilmiş məktublar, səh. 28.
[97] K. Marks. Kapital, I c., səh. 34.
[98] C. Vikonun dediyi kimi, bəşəriyyət tarixinin təbiət tarixindən fərqi ondadır ki, onlardan birincisini biz yaratmışıq, ikincisini isə biz yaratmamışıq. Bax: K. M a r k s. Kapital, I c., səh. 304, 89-cu qeyd.

dramlarının həm müəllifi, həm də aktyorlarıdır, onlar öz tarixlərini özləri yaradır, lakin onu öz şüur və iradələrindən asılı olmayan bir əsasla — tarixi qanunauyğunluq, zərurət əsasında yaradırlar.

İctimai qanunlar həm obyektiv, həm də subyektiv cəhətlərin vəhdətindən ibarətdir. İnsanlar fəaliyyətə başlayarkən heç də yeni bir qanun yaratmaq məqsədini güdmürlər, lakin fəaliyyətin nəticəsi ictimai varlıq və onun qanunlarında təkamülün olduğunu göstərir. V.İ.Lenin yazır: "Sizin yaşamağınızdan və təsərrüfatla məşğul olmağınızdan, uşaq törətməyinizdən və məhsul istehsal etməyinizdən, bu məhsulları mübadilə etməyinizdən hadisələrin obyektiv zəruri silsiləsi əmələ gəlir, sizin **ictimai** şüurunuzdan asılı olmayan, şüurunuzun heç bir zaman tamamilə qazramadığı inkişaf silsiləsi əmələ gəlir. Bəşəriyyətin ən yüksək vəzifəsi — təsərrüfat təkamülünün (ictimai varlığın təkamülünün) bu obyektiv məntiqinin ümumi və əsas cəhətlərini qavramaqdır ki, öz ictimai şüurunu... **ona** mümkün qədər daha açıq, daha aydın və tənqidi surətdə uyğunlaşdırsın"[103].

Fəlsəfi ədəbiyyatda cəmiyyət qanunlarında obyektiv və subyektiv cəhətlərin nisbətini metafizikcəsinə anlamaqla ondan yanlış nəticə çıxaran iki biryanlı səhv nöqteyi-nəzər müşahidə olunur. Birinci nöqteyi-nəzərin tərəfdarları obyektiv momenti şişirdərək iddia edirlər ki, insanlar tarixin obyektiv qanunlarının aciz xidmətçiləridir, onlar "Dünya Əqlinin hiyləgərliyi" (Hegel) qarşısında heç bir şeyə qadir deyillər. Tarixi prosesi fatalistcəsinə izah edən bu baxışın nümayəndələri insanların öz ictimai fəaliyyətində yaratdığı obyektiv qanunları nə isə fövqəlmaddi bir qüvvənin yaradıcılığına isnad verməklə, insanlara qanunun "hökmünü" gözləməyi tövsiyə edir və passivlik əhvali-ruhiyyəsi yayırlar. İkinci qəbildən olanlar isə "insanlar öz tarixlərini özləri yaradır" fikrindən belə bir səhv nəticə çıxarırlar ki, guya insanlar istədiyi ictimai quruluşu və buna müvafiq olan qanunları seçməkdə sərbəstdir, onlar həmin

qanunlarla istədiyi şəkildə rəftar edə bilər, öz arzu və istəyinə müvafiq olaraq istənilən qanunu yarada və məhv edə bilər. Həm də burada bir qayda olaraq yaradıcı rol ümumiyyətlə insanın deyil, "böyük adamların", "tənqidi düşünən" şəxsiyyətlərin şüur və iradəsinə şamil edilir. V. İ. Lenin yazırdı: "subyektivistlər məhz belə bir fikir yeridirdilər ki, ictimai hadisələr çox mürəkkəb və müxtəlif olduğuna görə, bu hadisələrin mühümlərini mühüm olmayanlardan ayırmayınca, onları öyrənmək olmaz, belə ayırma üçün isə "tənqidi düşünən" və "mənəvi cəhətcə inkişaf etmiş" şəxsiyyətin nöqteyi-nəzəri lazımdır"[104].

"İctimai qanunlar insanların ictimi fəaliyyətində təşəkkül tapır" deməklə biz, əvvələn, təbiət və cəmiyyət qanunları arasında spesifik fərq olduğunu, ikincisi, bu qanunların qabaqcadan insan şüurundan keçmədən yarandığını və obyektiv xarakter daşıdığını göstərmiş oluruq. İctimai qanunlarda obyektiv və subyektiv cəhətlərin vəhdəti bu qanunların obyektiv xarakterinə xələl gətirmir. Həmin qanunlar insanın arzu və niyyətindən, iradəsindən asılı olmadan fəaliyyət göstərir. Lakin ictimai qanunların da obyektiv xarakter daşıması əsla onların avtomatik təsir göstərməsini, insanların bu qanunlar qarşısında aciz olmasını iddia etməyə əsas vermir. A. İ. Kertsenin sözləri ilə desək, insan taleyin əlində tarixin parçasını toxuyan nə iynə, nə də sap deyildir, o fəxr etməlidir ki, tarixin parçası onsuz toxunmur. İnsan "və keçmişin passiv qəbirqazanı, nə də gələcəyin şüursuz mamaçası olmaq istəmir; o, tarixə özünün şəxsi və zəruri işi kimi baxır"[99].

İnsanlar öz tarixlərini və onun inkişaf qanunlarını müəyyən şərait və zəmin əsasında yaradırlar. Onlar "...bütün tarixlərinin əsasını təşkil edən öz məhsuldar qüvvələrini seçməkdə sərbəst deyildirlər, çünki hər bir məhsuldar qüvvə əldə edilmiş qüvvədir, keçmiş fəaliyyətin məhsuludur. Beləliklə, məhsuldar qüvvələr insanların əməli səyinin nəticəsidir, bu səyin özünü isə

---

[99] А. И. Г е р и е н. Собр. соч. v 30-ти томах, том 20, səh. 442.

insanların yaşadığı şərait, hələ əvvəllər əldə edilmiş məhsuldar qüvvələr, bu insanlardan qabaq mövcud olan, bu insanların yaratmadığı, əvvəlki nəsillərin yaratmış olduğu ictimai forma müəyyən edir. Sonra meydana gələn hər nəsil əvvəlki nəsillərin əldə etdiyi məhsuldar qüvvələrə təsadüf edir və bu məhsuldar qüvvələr həmin nəslin əlində yeni istehsal üçün xammal olur, — belə bir sadə fakt sayəsində bəşər tarixində əlaqə yaranır...”[100].

Real ictimai tarixi yaradan insanlar arzu və düşüncəyə malikdir, onlar bu və ya digər sinfi təmsil edir, onun mənafeyini güdür. Bu arzu və istəklər son dərəcə rəngarəng olduğundan onlara nail olmağa yönəldilmiş səylər toqquşur, beləliklə də əldə edilən nəticə fərdi məqsədlərə uyğun olmur, müəyyən mənada tarazlaşmış bir orta nəticə hasil olur.

İctimai istehsalda şüurlu iştirak edən hər bir fərd öz şəxsi məqsədlərini izləyir, lakin fərdi istək, arzu və məqsədlə hərəkətlərin ictimai nəticəsi bir-birinə uyğun gəlmir. Beləliklə də insanlar öz ara-larındakı qarşılıqlı ictimai əlaqəni müəyyən zərurət üzündən yaratsalar da, bu əlaqənin nəticəsi yenə də təsadüflərlə tamamlanır. Həmin ictimai fəaliyyətin yekunu isə ictimai qanunauyğunluğun müəyyən etdiyi məcmu nəticəni ifadə edir. V.İ.Lenin yazır: “İnsanların ünsiyyətə girərkən bu ünsiyyətə şüurlu vücudlar kimi girmələrindən heç də belə bir *nəticə çıxmır* ki, ictimai şüur ictimai varlığın eyni olmalıdır. Az-çox mürəkkəb ictimai formasiyaların hamısında — xüsusən kapitalizm ictimai formasiyasında — insanlar ünsiyyətə girərkən bu zaman nə kimi ictimai münasibətlər yarandığını, bu münasibətlərin nə kimi qanunlarla inkişaf etdiyini və i. a. *başa düşmürlər”*[101].

*Bütün* dediklərimizdən belə nəticəyə gəlmək olar ki, sinifli cəmiyyətlərdə tarixi qanunauyğunluq və zərurət insanların öz fəaliyyətlərində təzahür etməsinə baxmayaraq, onlara yad bir qüvvə kimi çıxış edir, insanların öz ictimai fəaliyyətlərində

---

[100] K. M a r k s və F. E n g e l s. Seçilmiş əsərləri, II c., Bakı, 1953, səh. 447—448.
[101] V. İ. L e n i n. Materializm və empiriokritisizm, səh. 344—345.

yaratdıqları qanunlar özgələşərək onların özlərinə qarşı çevrilir. A. Y. Qureviç haqlı olaraq göstərir ki, tarixi qanunauyğunluq insanların öz fəaliyyətlərində yaranmasına baxmayaraq, yenə də insanlardan "kənarda" və onlar "üzərində" hökmranlıq edir. Çünki "o hər hansı qrupun, hökumətin və fərdin **şüurlu fəaliyyətinin məhsulu deyil,** nə isə onların izlədikləri məqsədlərdən tamamilə fərqlənən bir zərurətin məhsulu kimi çıxış edir və onunla razılaşmaq lazım gəlir"[102].

İnsanın ictimai fəaliyyəti ilə bu fəaliyyətdən doğan ictimai qanunlar arasındakı əlaqə qarşılıqlı surətdə çevrilən səbəb—nəticə əlaqəsi xarakterindədir. İctimai fəaliyyət həm bu və ya digər ictimai hadisə və prosesin səbəbi, həm də nəticəsidir, çünki insanın fəaliyyətini təyin edən amillər onun istək və arzusundan asılı deyildir (ictimai fəaliyyətin bu ikili xarakteri onun tabe olduğu qanunlara da öz təsirini göstərir). Cəmiyyətin özü insanı insan kimi necə yaradırsa, eləcə də insan cəmiyyəti yaradır[103]. Buna görə də insanların ictimai fəaliyyətində təzahür edən qanunlar həm də onların tabe olduqları qanunlardır, insanların şüurlu fəaliyyəti ilə tarixi qanunauyğunluq və zərurət birlikdə mövcuddur, onlar bir-birini tələb edir. F. Angels təbiətin inkişaf tarixi ilə cəmiyyətin inkişaf tarixini müqayisə edərək yazır: "...təbiətdə... bir-birinə təsir edən qüvvələr ancaq kor, düşüncəsiz qüvvələrdir və ümumi qanunlar bu qüvvələrin qarşılıqlı təsirində təzahür edir. Burada heç yerdə: nə üzdə görünən hədsiz-hesabsız zahiri təsadüflərdə, nə də bu təsadüflər daxilində qanunauyğunluğun mövcud olduğunu sübut edən qəti nəticələrdə düşünülmüş, arzu edilən bir məqsəd yoxdur. Əksinə, cəmiyyət tarixində, düşüncə ilə və ya ehtirasın təsiri altında hərəkət edən, öz qarşılarına müəyyən məqsədlər qoyan şüurlu adamlar iş görür. Burada düşünülmüş niyyət olmadan, arzu edilən məqsəd olmadan heç bir iş görülmür. Lakin bu fərq tarixi tədqiqat üçün... nə qədər mühüm olsa da, tarixin gedişinin

---

[102] А. И. Гуревiч. Обшии закон и коnкретнан закономерность в истории. «Вопросы истории», № 8, 1965, səh. 47.

[103] Маркс и Ф.Энгель. Из ранных произведении.

ümumi daxili qanunlara tabe olduğu faktını əsla dəyişdirmir. Həqiqətdə bu sahədə də, bütün ayrı-ayrı adamların şüurlu arzu etdikləri məqsədlərə baxmayaraq, hadisələrin səthində ümumiyyətlə və bütünlüklə, görünür, təsadüf hökm sürür. Arzu olunan şey çox az hallarda yerinə yetir; çox hallarda isə adamların öz qarşılarına qoyduğu məqsədlər, qarşılıqlı toqquşma və ziddiyyətə rast gəlir və ya qismən öz mahiyyətinə görə, qismən də onları yerinə yetirmək üçün vəsait çatışmadığına görə edilə bilmir. Saysız-hesabsız ayrı-ayrı cəhdlərin və ayrı-ayrı hərəkətlərin toqquşması tarix sahəsində də cansız təbiətdə hökm sürən vəziyyətin tamamilə eyni olan bir vəziyyətə gətirib çıxarır. Hərəkətlərin arzu edilən müəyyən məqsədi olur; lakin işdə bu hərəkətlərdən doğan nəticələr, qətiyyən arzu edilməz olur"[104].

Cəmiyyət qanunlarını təbiət qanunlarından fərqləndirən ontoloji xüsusiyyətlərdən ikincisi onların təsir müddətinin təbiət qanunlarına nisbətən qısa olmasıdır. Bu, hər şeydən əvvəl, cəmiyyət qanunlarının təsir dairəsi və fəaliyyət şəraitinin təbiət qanunlarının təsir dairəsi və şəraitindən fərqli olması ilə izah olunur. Cəmiyyətin fəaliyyət və inkişaf qanunları insan cəmiyyəti ilə meydana gəldiyinə və onların təsir şəraiti ictimai həyat və xüsusən ictimai münasibətlər olduğuna görə təbiət və cəmiyyət qanunlarının həm təsir dairəsi və fəaliyyət şəraiti, həm də təsir müddəti bir-birindən fərqlənir.

Qanunun fəaliyyət dairəsi ona tabe olan hadisə və proseslərin məcmusunu əhatə edir və o, qanunun mövcud olması və təsir göstərməsi üçün lazım olan şəraitlə sıx əlaqədardır. Bu deyilənlər baxımından təbiət və cəmiyyət qanunlarının fəaliyyət dairəsi xeyli fərqlənir; təbiət qanunlarının təsir dairəsinə təbiətdəki hadisə və proseslər, cəmiyyət qanunlarının təsir dairəsinə isə bəşər cəmiyyəti və buradakı ictimai münasibətlər aid olur. Bunlar arasındakı keyfiyyət fərqlərindən ətraflı bəhs edilmişdir. İndi isə şəraitə nəzərən təbiət və cəmiyyət

[110] K. Marks və F. Engels. Seçilmiş əsərləri, II c., Bakı, 1953, səh. 392—393.

qanunlarına nəzər salaq.

Materiyanın hərəkət formalarını aşağıdan yuxarıya doğru təhlil etdikdə görmək olur ki, aşağı hərəkət formalarına daxil olan hadisə və proseslər bir qayda olaraq eyni fəaliyyət şəraitində mövcud olduğundan, proseslərin şəraiti ləng dəyişilir. Hərəkət formaları mürəkkəbləşdikcə, hadisələrin gedişinə daha müxtəlif spesifik amillər qarışır və bütün bunlar həmin hadisələrin şəraitini daha da mütəhərrik edir, onlar daha qısa zaman ərzində fəaliyyət göstərirlər. Materiyanın hərəkət formalarının aşağıdan yuxarıya, ibtidaidən aliyə doğru getdikcə mürəkkəbləşməsində izlənilən bu qanunauyğunluq ictimai qanunların mövcud olduğu şəraiti daha da spesifikləşdirir.

Cəmiyyət təbiətin inkişafının müəyyən pilləsində meydana gələn tarixi bir kateqoriya olmaqla, nisbətən tez dəyişilən və qısa müddət ərzində mövcud olub təsir göstərən spesifik qanunlara malikdir. Burada fəaliyyət göstərən qanunların əksəriyyəti müəyyən ictimai-iqtisadi formasiyanın qanunları olduğuna görə onların təsir dairəsi və müddəti də həmin formasiya ilə məhdudlaşır. Bir ictimai-iqtisadi formasiyadan digərinə keçildikdə əvvəlki formasiyaya aid olan qanunlar da aradan çıxır, onların yerini yeni formasiyaya uyğun olan ictimai qanunlar tutur.

F. Engels cəmiyyət qanunlarının bu xüsusiyyətini belə ifadə edir: "Bizim fikrimizcə, "iqtisadi qanun" deyilən qanunlar təbiətin əbədi qanunları deyildir, meydana gələn və yox olan tarixi qanunlardır..."[105].

V.İ.Lenin ictimai həyat və onun qanunlarının bu xüsusiyyətini anlamamaq üstündə Struveni tənqid edərək göstərir ki, "insan tarix boyunca dəyişilən *müxtəlif ictimai orqanizmlərdə* yaşayır, bu orqanizmlər isə ictimai istehsal sistemindən və deməli, bölgü sistemindən də asılıdır"[106]. Bu səbəbdən həmin hadisələrin qanunlarının da mütəhərrikliyi

[105] K. Marks və F. Engels. Seçilmiş məktublar, səh. 177—178.
[106] V. İ. Lenin. Əsərləri, 1-ci cild, səh. 477.

hökmən nəzərə alınmalı, cəmiyyət qanuplarına müəyyən tarixi dövrün qanunları kimi baxılmalıdır. “Hər bir tarixi dövrün öz qanunları vardır. ...Daha dərin təhlil göstərir ki, heyvan və bitki orqanizmləri kimi, ictimai orqanizmlər də bir-birindən olduqca fərqlidir”[107], ona görə də ictimai həyatı araşdırarkən başlıca vəzifə hər bir “ictimai orqanizmin meydana gəlməsini, yaşamasını, inkişafını və ölməsini, onun başqa, daha yüksək bir orqanizmlə əvəz olunmasını tənzim edən xüsusi (tarixi) qanunları aydınlaşdırmaqdan ibarətdir”[108].

Göründüyü kimi, çox qismi müəyyən ictimai-iqtisadi formasiyaya, onun müəyyən mərhələsinə mənsub olan cəmiyyət qanunları təbiət qanunlarına nisbətən tez dəyişilən və qısamüddətli qanunlardır. Onların bu cür tarixi xarakterə malik olması isə ümumiyyətlə cəmiyyət hadisə və proseslərinin mütəhərrik və dəyişkən şəraitlə vasitələnməsindən irəli gəlir.

Cəmiyyətin inkişafında həm bütün formasiyalarda fəaliyyət göstərən ümumsosioloji qanunlar, həm də bir neçə formasiyada fəaliyyət göstərən xüsusi qanunlar da vardır. Ümumsosioloji qanunların fəaliyyət şəraiti ümumiyyətlə cəmiyyətin meydana gəlməsi olduğu halda, xüsusi qanunlar cəmiyyətin müəyyən mərhələsində meydana çıxan, həm də bir sıra formasiyalarda mövcud olan şəraitlə bağlıdır.

Təbiət qanunları ilə cəmiyyət qanunlarını bir-birindən fərqləndirən **üçüncü** mühüm xüsusiyyət onların dərk edilməsi və istifadə olunmasına aiddir, yəni cəmiyyət qanunlarının dərk edilməsi və istifadə olunması ictimai mənafe ilə sıx surətdə əlaqədardır. Qanunların dərk edilməsi, onlardan istifadə olunması son nəticədə insanların əməli fəaliyyətinə xidmət etdiyindən, müxtəlif ictimai qruplar və siniflər qanunlardan istifadə edilməsinə müxtəlif münasibətdə olurlar. Bu fikir özlüyündə həm təbiət, həm də cəmiyyət qanunlarına aid edilə bilər. Ona görə ki, müxtəlif formasiyalarda təbiət və cəmiyyət

---

[107] V. İ. Lenin. Əsərləri, 1-çi cild, səh. 163.
[108] Yenə orada.

qanunlarından istifadə edilməsi heç də eyni cür olmamışdır. Elmin tarixi belə bir həqiqəti sübut edir ki, ictimai istehsalda müxtəlif mövqe tutan qruplar, siniflər qanunlara həmişə az və ya çox dərəcədə sinfi mənafe nöqteyi-nəzərindən yanaşmışlar. Göstərilən bu cəhət, dünyagörüşü[109] xarakteri daşıyan təbiət qanunları istisna edilərsə, təbiət qanunlarına nisbətən cəmiyyət qanunlarında özünü daha aydın şəkildə göstərir. Bunun səbəbi hər şeydən əvvəl ondan ibarətdir ki, təbiətdən fərqli olaraq cəmiyyətdə şüura, düşüncəyə malik olan, istehsal fəaliyyəti ilə məşğul olan və müəyyən sinfin mənafeyi uğrunda mübarizə edən insanlar fəaliyyət göstərir. F. Engels yazır ki, "iqtisadi vəziyyətin (və ya öz şəxsi vəziyyətinin, yaxud ümumi ictimai vəziyyətin) tələb etdiyi şeyi istəyən ayrı-ayrı adamların iradələri heç də istədikləri şeyə çatmayıb orta bir vəziyyət halında, ümumi bir əvəzləyici halında birləşir, — bundan heç də belə bir nəticə çıxarılmamalıdır ki, bu iradələr sıfra bərabərdir. Əksinə, hər bir iradə əvəzləyicidə iştirak edir və buna görə də həmin əvəzləyiciyə daxildir"[110].

Göründüyü kimi, cəmiyyət qanunları burada fəaliyyət göstərən müxtəlif iradə və mənafeyə malik insanların ictimai münasibətləri ilə əlaqədar olduğundan onların mənafeyinə bilavasitə toxunur. Məhz ona görə də cəmiyyət qanunlarının kəşf

---

[109] Müəlliflərdən bir qismi bu məsələdən danışarkən heç bir qeyd-şərt qoymadan təbiətşünaslıq qanunlarının sinfi mənafe nöqteyi-nəzərindən dərk edilməsinə fikir vermir və göstərirlər ki, təbiət qanunları həm istismarçılar, həm də istismar olunanlara eyni dərəcədə xidmət edir. Məsələnin bu cür biryanlı həllində belə bir cəhət nəzərdən qaçırılır ki, təbiətşünaslıq sahəsində kəşf edilən qanunlardan bir qismi dünyagörüşü cəhətdən hakim sinfin mənafeyinə toxunduğundan, bu qanunların istifadə olunması da sinfi mənafe ilə bağlı olur. Elmin inkişafı tarixinə nəzər salsaq görərik ki, burada da inqilabi rol oynayan bir sıra kəşflər heç də sakit şəkildə deyil, qızğın mübarizə şəraitində həyata keçirilmişdir. Məsələn, N. Kopernikin heliosentrik sistemini müdafiə etmək üstündə C. Brunonu odda yandırmış və Q. Qalileyi isə güclə öz fikrindən dönməyə məcbur etmişlər. Ç. Darvinin təkamül haqqında təlim uzun müddətli mübarizə meydanına çevrilmiş, hətta bəzi kapitalist ölkələrində Darvin təliminin öyrənilməsi qadağan edilmişdir. Deməli, təbiətşünaslıq sahəsində də dünyagörüşü sahəsinə aid olan qanunların dərk olunması və istifadə edilməsində sinfi mənafe vardır. V. İ. Lenin yazır ki, əgər «riyaziyyat həqiqətləri insanların mənafeyinə (daha doğrusu mübarizə aparan siniflərin mənafeyinə) toxunsaydı həmin həqiqətlərə qızğın etirazlar olardı» (Bax: V. İ. L e n i n. Əsərləri, 20-ci cild, səh. 200).

[110] K.Marks və F. Engels. Seçilmiş məktublar, səh. 445.

edilməsi və onlardan istifadə olunması sakit şəkildə deyil, qızğın sinfi mübarizə şəraitində həyata keçmişdir. İnsanlar təbiət qanunlarından getdikcə daha çox öz mənafeyi üçün istifadə etdikcə, onların ümumi yaşayış səviyyəsi də yüksəlir, bir sözlə onlar təbiət qüvvələri üzərində öz ağalığını möhkəmləndirirlər. Burada nə burjuaziya, nə proletariat, nə də kəndlilər üçün heç bir istisna yoxdur. Həmin qanunlardan istifadə olunması onların ictimai mənafeyinə bilavasitə yox, dolayı yolla, istehsal vasitəsi ilə toxunur, çünki təbiət qanunlarının dərk edilməsi və istifadə olunması sayəsində əldə edilən elmi-texniki nailiyyətlərin istehsala tətbiqi məhsuldar qüvvələrin hədsiz dərəcədə inkişaf etməsinə səbəb olur. Məhsuldar qüvvələrin sürətlə inkişafı isə istehsalın ümumi səviyyəsinin yüksəlməsinə, bununla yanaşı ictimai ziddiyyətlərin kəskinləşməsinə və beləliklə də istshsalda çalışan müxtəlif ictimai qrupların mənafeyinin bir biri ilə toqquşmasına gətirir. Sosializmdən əvvəlki formasiyaların hamısında belə olmuş və bu, siniflər arasındakı mübarizənin iqtisadi əsasını təşkil etmişdir.

Feodalizmə qarşı mübarizədə qalib gələn burjuaziya öz sinfi hökmranlığı dövründə təbiət qanunlarından istifadə etmək yolu ilə nəhəng məhsuldar qüvvələr yaratmışdı. Məhsuldar qüvvələrin inkişafı istehsalda da xeyli dərəcədə böyük çevrilişə səbəb olmuş, bunun sayəsində bilavasitə istehsalçılarla hakim siniflərin mənafeyi daha kəskin şəkildə bir-birinə zidd xarakter almağa başlamışdır. K. Marks və F. Engels "Kommunist partiyasının Manifesti"ndə bu məsələdən danışaraq yazırdılar: "Burjuaziya yüz ildən az bir müddətdən bəri davam edən öz sinfi hökmranlığı zamanı bütün əvvəlki nəsillərin yaratdıqlarının hamısından sayca daha çox və daha əzəmətli məhsuldar qüvvələr yaratmışdır. Təbiət qüvvələri insana tabe edilmiş, maşınlı istehsal yaradılmış, sənaye və əkinçilikdə kimya tətbiq edilmiş, buxar gəmiləri işə salınmış, dəmir yollar, elektrik teleqrafı çəkilmiş, yer üzünün ayrı-ayrı qitələrindən əkinçilik üçün istifadə edilməyə başlanmış, çaylar gəmiçilik üçün yararlı hala

salınmışdır, sanki yer altından böyük əhali kütlələri meydana gəlmişdir, — keçən əsrlərdən hansı güman edə bilərdi ki, ictimai əmək daxilində bu qədər məhsuldar qüvvələr vardır”[111]. Lakin məhsuldar qüvvələrin inkişafı ilə yanaşı ictimai ziddiyyətlərin yaranması və kəskinləşməsi prosesi də gedir, bu proses daha da dərinləşərək burjuaziya ilə proletariat arasında şiddətli sinfi mübarizəyə səbəb olur, bu mübarizə isə burjuaziyanın məhv olması ilə nəticələnir.

Təbiət qanunlarından istifadə olunması, göründüyü kimi, dolayı yolla — istehsala təsir vasitəsilə siniflərin mənafeyinə toxunur.

Cəmiyyət qanunlarında başqa bir mənzərənin şahidi oluruq. İctimai münasibətlər sistemində həm hakim, həm də məzlum ictimai qrupların, siniflərin öz mənafe və məqsədləri vardır. Bunlar həmin mənafedən çıxış edir, ona nail olmağa can atırlar. F. Engelsin sözləri ilə desək, “hər bir cəmiyyətin iqtisadi münasibətləri hər şeydən əvvəl, mənafelər kimi təzahür edirlər”[112]. Ona görə ictimai-iqtisadi münasibətlərin qanunları olan cəmiyyət qanunları da siniflərin mənafeyinə bilavasitə toxunur, onlardan istifadə olunması müxtəlif siniflərin mənafeyi boyasına burünmüş olur. Məsələn, əmək tələb və təklifi qanunu kapitalizm cəmiyyətində fəhlələrin mənafeyinə toxunur, onların əməyi kapitalistlər üçün nə qədər artıq sərvət yaradırsa, öz vəziyyətləri o qədər pisləşir, fəhlələrin ölü əməyi canlı əməyinin istismarçısına çevrilir (Marks), lakin fəhlələr bunu dərk etdikdə və həmin qanunun fəaliyyətinə qarşı mübarizə üçün birləşdikdə, kapital və onun vəkili olan iqtisadçı fəryad qoparıb deyirlər ki, “əbədi” və necə deyərlər, “müqəddəs” tələb və təklif qanunu pozulur... Kapital və onun bayağı fikirli Sanço-Pansası “müqəddəs” tələb və təklif qanununa qarşı hiddətlənir və cəbr tədbirləri vasitəsilə bu qanunun öhdəsindən gəlməyə çalışırlar”[113].

[111] K. Marks və F. Engels. Seçilmiş əsərləri, I cild.
[112] K. Marks i F. Znqelhs. Soç., t. 18, səh. 271.
[113] K. M a r k s. Kapital, I cild, səh. 557.

Cəmiyyət qanunlarının dərk edilməsi və istifadə olunmasında aşkara çıxan bu qnoseoloji xüsusiyyəti dəyər qanunu, sinfi mübarizə qanunu və başqalarında daha aydın müşahidə etmək olar. Klassik siyasi iqtisad məktəbinin nümayəndələri dəyərin əməklə ölçülməsi nəzəriyyəsini əsaslandıraraq göstərirdilər ki, əmək dəyər substansiyasıdır, cəmiyyətdə yaşayan bir sıra silklərin aməyi ev qulluqçularının əməyi kimi heç bir dəyər yaratmır[114], Buraya A. Smit dövlət məmurlarını, artistləri, rəqqasələri, ordu və donanmanı, nəhayət dövlət başçısını aid edirdi. Lakin burjuaziyanın ictimai vəziyyəti dəyişdikdən sonra həmin ideoloqlar dediklərindən geri çəkilməyə məcbur olmuşlar. Onların sinfi mübarizənin qanunauyğunluğu haqqındakı fikirləri barədə də eyni sözləri deyə bilərik. İzafi dəyərin mənbəyi məsələsini götürək. Yenə də həmin məktəbin nümayəndələri fəhmlə də olsa izafi dəyərin haradan əmələ gəldiyini duymuşdular. Lakin bu məsələni aşkar etməklə onlar mənsub olduqları sinfin iqtisadi qüdrətinə zərbə vura bilərdilər. Buna görə də onlar həmin məsələnin əsil elmi izahından sükutla keçmişdilər. K. Marks göstərir ki, "həmin burjua iqtisadçıları fəhmlə lap doğru duymuşdular ki, izafi dəyərin haradan əmələ gəlməsi kimi nazik bir məsələni çox dərindən təhlil etmək onlar üçün olduqca təhlükəlidir"[12;].

Deyilənlərdən aydın olur ki, cəmiyyət qanunları sinfi mənafelərə bilavasitə toxunduğuna görə onların dərk edilməsi və istifadə olunması qızğın sinfi mübarizə vasitəsilə həyata keçirilir. Bu qanunların kəşf edilməsində bu və ya digər mütəfəkkirin sinfi mənsubiyyətinin də böyük rolu vardır. Məhz buna görədir ki, müasir burjua filosof və sosioloqları ictimai həyat qanunauyğunluqlarından söhbət açarkən öz sinfi mənsubiyyətlərini ön plana keçirir, obyektiv ictimai gerçəkliyi saxta şəkildə izah etməyə çalışırlar. V.İ.Lenin "Materializm və empiriokritisizm" əsərində bu cür partiyalı münasibətdən

[114] Вах: А. Смит. Исследование о природе и причинах богатстза народов. Соч., том I, М., 1935, səh. 279.

danışaraq xəbərdarlıq edib deyirdi ki, "xüsusi tədqiqat sahəsində ən qiymətli əsərlər verə bilən **heç bir** siyasi iqtisad professorunun, ümumi siyasi iqtisad nəzəriyyəsindən söz düşdükdə, **bircə gəlməsinə də** inanmaq olmaz. Zira müasir cəmiyyətdə siyasi iqtisad da **qnoseologiya** kimi **partiyalı** elmdir. Ümumiyyətlə və bütünlüklə iqtisadçı professorlar kapitalistlər sinfinin alim xidmətçilərindən və fəlsəfə professorları teoloqların alim xidmətçilərindən başqa bir şey deyildir"[115].

[115] K.Marks. Kapital, I cild, səh. 437.

# MATERİALİST DİALEKTİKA KATEQORİYALARININ SUBORDİNASİYA PRİNSİPLƏRİ HAQQINDA

Kateqoriyalar insanların nəzəri və əməli fəaliyyəti zamanı təşəkkül tapır, onların əlində "predmet dünyası"nı[116] dəyişdirmək üçün ən böyük bir vasitə rolunu oynayır. Kateqoriyalar obyektiv dünyanı və onun inikası olan idrak prosesini ən ümumi əlaqə və münasibətləri cəhətindən əks etdirən ümumi anlayışlardır. V.İ.Lenin yazır: "İnsanın qarşısında təbiət hadisələri *şəbəkəsi* durur. İnstinktiv insan, vəhşi özünü təbiətdən ayırmır. Şüurlu adam ayırır, kateqoriyalar ayırmanın pillələridir, yəni dünyanı dərk etmək pillələridir, şəbəkə də düyün nöqtələridir ki, bunlar onu dərk etməyə, ona yiyələnməyə kömək edir"[117].

Kateqoriyalara yuxarıda verdiyimiz ilkin tərifdə onların iki cəhəti — ümumi və obyektiv xarakteri qeyd olunmuşdur. Bu iki əlamət onları bir tərəfdən insan təfəkkürünün abstraksiyaetmə qabiliyyətinin nəticəsi, idrakın yekunu kimi, digər tərəfdən isə obyektiv dünyanın obyektiv əlaqə və münasibətlərinin inikası kimi səciyyələndirir.

Kateqoriyalar elə ümumi abstraksiyalardır ki, onları insan təfəkkürü yalnız beynin uzun sürən analitik və sintetik fəaliyyəti nəticəsində çoxlu konkret predmet və hadisələrdən, onların xassələrindən, digər predmetlərlə çoxcəhətli əlaqə və münasibətlərindən çıxarır. İdrakın yekununu ümumiləşdirilmiş məntiqi formalarda ifadə edən kateqoriyalar həm insan praktikasının müxtəlif səviyyələrdə ümumiləşdirilməsi formaları, həm də dərk edilən prsdmetlərin, onların əlaqə və münasibətlərinin mahiyyətcə (birinci, ikinci, üçüncü və i. a. qəbildən olan mahiyyətlərin) aşkar edilməsi, məzmunca

---

[116] K. Марks и Ф.Энгель. Соч., том 3, səh. 627.
[117] V. İ. Lenin. Əsərləri, 38-ci cild, səh. 86.

müəyyənləşdirilməsidir. Bir sözlə, kateqoriyalar həm insan biliyinin “düyün nöqtələri”, onun inkişafının nəticəsi, yekunu, məcmusudur, həm də dərk edən subyektin sonrakı idrak fəaliyyətinin başlanğıc nöqtələridir. Deməli, kateqoriyalarda olan bu iki cəhəti, yəni onların həm idrakın yekunu, həm də onun sonrakı inkişafı üçün bir vasitə olmasını vəhdətdə götürməklə, biz kateqoriyaların insan biliyinin müxtəlif sahələrinin inkişafında oynadığı metodoloji rolu aşkar edə bilərik.

Kateqoriyalar həm obyektiv, həm də subyektiv momentləri ehtiva edir. Obyektiv varlığı, onun xassə və münasibətlərini əks etdirdiyinə görə kateqoriyalar məzmunca obyektivdir. “...Təfəkkür kateqoriyaları insanın vəsaiti deyildir, həm təbiətin, həm də insanın qanunauyğunluğunun ifadəsidir...”[118]. Bu əksolunmanın xarakter və nəticəsinə görə isə kateqoriyalar subyektivdir. Gerçəkliyi, onun xassə və münasibətlərini subyekt, insan və bəşəriyyət abstrakt məntiqi formalardan istifadə edərək əks etdirir. V.İ.Lenin yazır: “Məntiqi anlayışlar öz abstrakt formasında “abstrakt olaraq” qaldıqca subyektivdir, lakin eyni za-manda onlar özündə şeyləri də ifadə edir... İnsan anlayışları öz abstraktlığında, ayrı salınmış halında subyektivdir, lakin bütünlükdə, prosesdə, yekunda, meyldə, mənbədə obyektivdir”[119].

Konkret elmlərin kateqoriyaları kimi, materialist dialektika kateqoriyaları da insanların gerçəklik hadisələri ilə qarşılıqlı əlaqə və fəaliyyətindən törəyir, başqa sözlə, ictimai-əməli fəaliyyət prosesində formalaşır. V.İ.Lenin yazır ki, “...İnsanın praktikası milyard dəfələrlə təkrar olunaraq insanın şüurunda məntiq fiqurları halında təsbit olunur”[120].

Kateqoriyalar hərəkətsiz, donub qalmış anlayışlar deyildir, obyektiv aləmdə baş verən dəyişiklik və inkişafla birlikdə onlar da dəyişir və inkişaf edirlər. İdrak obyektinin dəyişkənliyi, mütəhərrikliyi bu obyektdəki əlaqə və münasibətləri əks etdirən

---

[118] V. İ. Lenin. Əsərləri, 38-ci cild, səh. 83.
[119] Yenə orada, səh. 210.
[120] Yenə orada, səh. 220.

kateqoriyaların dəyişilməsi və inkişaf etməsinin əsasında durur. Deməli, bu halda da şeylərin dialektikası, anlayışların, kateqoriyaların dialektikasını yaradır. *"Şeylərin* dialektikası *ideyalarım* dialektikasını yaradır, nəinki əksinə"[121]. Ona görə də şeylərin mahiyyətindəki ziddiyyət, dəyişiklik və inkişaf onun fikri inikaslarında da ifadə olunmalıdır. Əgər dialektikaya V.İ.Leninin irəli sürdüyü "dialektika, məntiq və idrak nəzəriyyəsi eyni şeydir" nöqteyi-nəzərindən yanaşsaq, onu misallar cəmi kimi anlamasaq, görərik ki, kateqoriyaların dəyişkən və mütəhərrik olması aşağıdakı üç amillə şərtlənir:

a) şeylər, onların xassə və münasibətləri daim hərəkətdədir, əksliklərin vəhdəti və mübarizəsi, ziddiyyətlərin əmələ gəlməsi və həll olunması əsasında baş verən inkişafdadır;

б) bu dəyişilmə və inkişafa müvafiq olaraq insan biliyi də dəyişilir, inkişaf edir, bu isə öz əksini kateqoriyalarda tapır. V.İ.Lenin göstərir ki, "...Əgər *hər şey* inkişaf edirsə, onda bu, ən ümumi *anlayışlara* və təfəkkür *kateqoriyalarına* aiddirmi? Əgər aid deyildirsə, deməli, təfəkkür varlıqla əlaqədar deyildir. Əgər aiddirsə, deməli, obyektiv əhəmiyyətə malik olan anlayışlar dialektikası və idrak dialektikası vardır"[122].

**F.** Engels dialektik təfəkkürün zəruriliyindən danışaraq göstərir ki, təbiətdə dəyişilməz kateqoriyalar və münasibətlər yoxdur. İctimai hadisə və prosesləri, onlar arasındakı əlaqə və münasibətləri əks etdirən kateqoriyalar da mütəhərrik olub tarixən keçici və şərtidir. K. Marks P. Annenkova məktubunda yazır ki, "...insanlar öz məhsuldar qüvvələrini inkişaf etdirməklə, yəni yaşamaqla bir-birlərinə qarşı müəyyən münasibətləri inkişaf etdirirlər və bu münasibətlərin xarakteri labüd surətdə, həmin məhsuldar qüvvələrin dəyişilməsi və artması ilə birlikdə dəyi- şilir... **İqtisadi kateqoriyalar** həmin həqiqi münasibətlərin yalnız **abstraksiyalarıdır** və yalnız həmin münasibətlər mövcud olduğuna görə həqiqətdir"[123].

---

[121] V. İ. Lenin. Əsərləri, 38-ci cild, səh. 198.
[122] Yenə orada, səh. 267.
[123]K.Marks və F. Engels. Seçilmiş əsərləri, II c., səh. 452.

XIX əsrin sonu və XX əsrin əvvəllərində müasir təbiətşünaslıqdakı kəşflərlə bpr sıra anlayışların, kateqoriyaların dəyişilməsi, yeni kateqoriyaların meydana gəlməsi də buna misal ola bilər.

в) bütövlükdə idrak prosesi mürəkkəb və çoxcəhətli bir prosesdir, onun müxtəlif mərhələlərinin müxtəlif tarixi dönrlər üçün xarakteri və səviyyəsi bu prosesin özündə ziddiyyətlərin daim əmələ gəlməsi və həll olunması ilə bağlıdır. Bu "insanın təbiəti dərk etməsi momentləri ( ="ideyalar")[124] olan "məntiq kateqoriyalarına da eyni dərəcədə aiddir". V.İ.Leninin ifadəsilə desək, "insanın fikrində təbiətin **inikasını** "ölgün", "abstrakt", **hərəkətsiz, ziddiyyətsiz** bir şey kimi başa düşmək deyil, hərəkətin, ziddiyyətlər əmələ gəlməsi və həll olunmasının əbədi prosesi kimi başa düşmək lazımdır"[125].

Məntiqi idrak spesifik qanunauyğunluqlar əsasında inkişaf edir. İnsanlar predmet, xassə, əlaqə və münasibətlərdəki ümumi, universal cəhətləri anlayışlarda, kateqoriyalarda birdən-birə ifadə etməmiş, onlar buna tədricən, idrakın tərəqqisində müvafiq tarixi mərhələlərə uyğun şəkildə nail ola bilmişlər. Məhz bu səbəb üzündən ümuminin, o cümlədən ümumini əks etdirən anlayış və kateqoriyaların mənşəyi və mahiyyəti məsələsinin həllində müxtəlif istiqamətləri müşahidə etmək olar.

Bir sıra əsas fəlsəfi kateqoriyaların sistem şəklində ilk tədqiqi Aristotelə mənsubdur. O, kateqoriyaları həm ontoloji, həm də qnoseoloji tərəflərin vəhdəti adlandıraraq göstərirdi ki, onlar obyektiv aləmin inikası olsalar da, onları formal məntiq prinsipləri əsasında məntiq formaları kimi sübuta yetirmək lazımdır. Aristotel kateqoriyaların mənşəyini materialistcəsinə şərh edərək yazırdı: "Anlayış heç bir halda şeylərin mövcudluğunun səbəbi deyildir, ancaq şey müəyyən mənada anlayışların həqiqiliyinin (müvafiqliyinin) səbəbidir"[126].

Aristotel varlığın əsaslarını dərk etməkdə böyük idrak

---

[124] V. İ. L e n i n. Əsərləri, 38-ci cild, səh. 196.
[125] Yenə orada.
[126] Аристотель. Категории, М., 1939, səh. 45.

əhəmiyyəti olan kateqoriyaları 10 böyük qrupa ayırmış, onlar içərisində mahiyyət, kəmiyyət, keyfiyyət, zaman, məkan, hal, nisbət, maliklik, fəaliyyət, iztirab kateqoriyalarının təhlilini vermişdir. Onun fikrincə, bütün başqa kateqoriyalar "birinci mahiyyəti" açmağa xidmət edir. Kateqoriyaları sistemləşdirərkən o, "Metafizika" əsərində göstərilən 10 kateqoriyanı da üç qrupa bölür: "mahiyyət, hal və nisbət. Birinci qrupa Aristotel "birinci" və "ikinci" mahiyyətləri", ikinci qrupa kəmiyyət və keyfiyyəti, üçüncü qrupa isə yerdə qalan kateqoriyaları aid edir.

Aristotelə görə, kateqoriyalar sisteminin əsasında "birinci mahiyyətlər" durmalıdır. "Əgər birinci mahiyyətlər mövcud olmasaydı, onda başqaları da mövcud ola bilməzdilər"[127]. Deməli, kəmiyyət, keyfiyyət, münasibət, zaman, məkan, hal, maliklik, fəaliyyət və iztirab kateqoriyaları "birinci mahiyyəti" aşkar etmək üçün mövcuddur.

Aristotelin kateqoriyalar haqqında təlimində müsbət cəhətlər çoxdur. Onun aləmdəki müxtəliflik içərisindən şeyi, xassəni, münasibəti ayıraraq, bunları kateqoriyala- rın təsnifatının əsası kimi qəbul etməsi, "birinci mahiyyəti", predmet və hadisəni dərk etməkdə kəmiyyət və keyfiyyət müəyyənliyinin başlıca rol oynaması, idrakın təkdən ümumiyə, konkret şeydən "növ"ə və ondan "cinsə" doğru irəliləməsi haqqındakı fikirləri son dərəcə qiymətlidir.

Beləliklə, Aristotel şeyləri "həqiqi anlayışların" səbəbi adlandırmaqla, kateqoriyaların obyektiv məzmun daşıdığını qəbul etmiş, kateqoriyaları sistemləşdirmək üçün obyektiv əsas tapmağa, mahiyyət, vəziyyət, münasibət və hərəkət kimi kateqoriyaların müəyyənedici rola malik olduğunu göstərməyə cəhd etmişdir.

Lakin bütün bu xidmətlərinə baxmayaraq, o, kateqoriyaları sistemləşdirərkən, onların daxili əlaqəsini, qarşılıqlı münasibətlərini, qarşılıqlı tabeçiliyini, yəni onların

---

[127] Аристотель. Категории, V fəsil.

subordinasiyasını müəyyənləşdirə bilməmiş, kateqoriyaları bir-birinin yanında sadəcə olaraq düzməklə, onlar arasında yalnız koordinasiya münasibəti olduğunu deməklə kifayətlənmişdir. Aristotel kateqoriyaların insanın obyektiv gerçəkliyi dərk etməkdə çıxış nöqtələri, düyün nöqtələri olduğunu anlaya bilməmişdir.

Kateqoriyalar haqqında təlimin inkişafında klassik alman fəlsəfəsinin iki böyük nümayəndəsinin (Kant və Hegelin) böyük xidməti olmuşdur. Kant bu məsələyə transsendental tənqidi idealizm mövqeyindən yanaşmış, fəlsəfənin əsas məsələsinin həllində tutduğu dualist mövqeyi kateqoriyalar haqqında təlimə də şamil etmişdir. Kant fəlsəfəsinin əsas prinsipi — dünyanı özündə şeylər aləmi və təzahürlər aləminə, subyekti — intelligibel subyektə və empirik subyektə bölməkdən ibarət olan dualizmdir. Məhz buna görə də Kantın kateqoriyalar haqqında təlimi də əsas fəlsəfi çıxış nöqtəsindəki dualizm üzündən həlledilməz bir ziddiyyətlə tamamlanmışdır. Kateqoriyalar Kant tərəfindən obyektiv aləmin (özündə şeylərin) adekvat inikası kimi qəbul sdilə bilməz. Bu, Kantın qəbul etdiyi ilkin çıxış müddəasına ziddir, zira “özündə şeylər” dərk edilən deyildir. Kateqoriyalar habelə hissi təcrübənin ümumiləşdirilməsindən də çıxarıla bilməz. Kantın fəlsəfəsində təzahürlər aləmi və mümkün olan təcrübə subyektdən asılı şəkildə mövcud olduğuna görə ümuminin heç bir əlamətini özündə daşımır. Deməli, ziddiyyətdən yeganə çıxış yolu kateqoriyaları insan zəkasına apriori xas olan, insan tərəfindən təzahürlər aləmindəki qarmaqarışıqlığı qaydaya salmaq üçün işlədilən anlayışlar hesab etməkdən ibarətdir. Özündə şeylər aləminə gəldikdə, onlar haqqında biz nə müsbət, nə də mənfi heç bir şey deyə bilmərik, onların mövcudluğuna yalnız fikrən inanmalıyıq. Təzahürlər aləmi isə özlüyündə hər cür səbəbiyyətdən, zərurətdən, qanunauyğunluqdan, vəhdət və s.-dən məhrumdur, orada yalnız qarmaqarışıqlıq və nizamsızlıq hökm sürür. Ümumi əlaqə və münasibət formaları olan səbəbiyyət, qanun, zərurət və s. insan

zəkasına apriori məxsusdur, zəka isə onları hissi aləmə diktə edir. İ. Kant bu cür kateqoriyalardan 12-sinin adını çəkir, onları "xalis zəka anlayışları" kimi hər birində üç kateqoriya olmaqla 4 qrupa ayırır: 1) vəhdət, çoxluq, ümumilik; 2) reallıq, inkar, məhdudlaşdırma; 3) substansiya, səbəbiyyət, qarşılıqlı təsir; 4) imkan, gerçəklik, zərurət.

İ. Kant kateqoriyaları subyektiv hissi seyr formaları adlandırarkən başlıca olaraq özünün "apriori idrak" prinsiplərindən çıxış edir. Onun fikrincə, apriori idrak empirik idrakdan hər cür təcrübədən məhrum olması ilə fərqləndiyindən, onun yekunu olan anlayış və kateqoriyalar da empiriyalardan ayrıdır, onların real məzmunu bizim özümüzdə, bizim fəhmimizdədir. "Anlayışlar fikrin özfəaliyyətinə əsaslanırlar", bizim idrakımız "heç bir təcrübədən asılı deyildir"[128].

Beləliklə də V.İ.Leninin sözləri ilə desək: "(1) Kantda idrak təbiət ilə insanı bir-birindən knmənar edir (ayırır); həqiqətdə o bunları birləşdirir; (2) Kantda şeylər haqqındakı biliyimizin getdikcə daha artıq dərinləşən canlı Gang Bewegung-u əvəzinə özündəşeyin *"boş abstraksiyası"*[i] vardır.

Empirik idrakla "aprior idrakı", gerçəklik əlaqə və münasibətlərini anlayış, mühakimə və əqli nəticələr formasında yekunlaşdırdığına görə Kant onları nəticələrinə görə bir-birindən formaca fərqləndirmir. Lakin o göstərir ki, idrakın birinci növü üçün predmet və ya hadisə bilavasitə lazımdır, hadisələri əhatə edən anlayışları formalaşdırmaq üçün bu idrak "predmetin həqiqi iştirakını tələb edir"[129]. Apriori idrak üçün isə heç bir gerçəklik məlumatı lazım deyildir, çünki o, öz məlumatlarını özündən alır. Beləliklə, empirik idrak "empirik anlayış", "apriori idrak" isə "xalis anlayış" yaradır. *İ.* Kant bu "anlayışların obyektivliyini qəbul edir (həqiqət onların predmetidir), lakin onları yenə də subyektiv anlayış olaraq saxlayır"[130].

---

[128] И. Кантt. Критика чистого разума. СПБ., 1897, səh. 28.
[129] V. İ. L e n i n. Əsərləri, 38-ci cild, səh. 84.
[130] V. İ. L e n i n. Əsərləri, 38-ci cild, səh. 169.

“Xalis anlayış” isə öz növbəsində “xalis elementar” anlayışlar (məkan və zaman) və “zəkanın xalis anlayışları” olmaqla iki qismə ayrılırlar. *İ.* Kant məhz “xalis zəkanın anlayış”larını kateqoriya adlandırır. Onlar xalis məntiqi anlayışlar olmaqla “obyekti öz-özlüyündə” əks etdirmirlər, hissi seyr formaları kimi subyektivcəsinə, zəka tərəfindən uydurulur və sonradan gerçəklnyə daxil edilirlər. “Məntiqi kateqoriyalar yalnız məntiqi funksiyalardır və elə belə obyekt haqqında öz-özlüyündə az da olsa anlayış vermirlər...”[131], “onlar xalis zəkavi formalardır”, “prinsipcə aprioridir”, “fəhm və zəkanın qaydalarıdır”[132]. “Kateqoriyalar yalnız hadisələrə, deməli bütün hadisələrin məcmusu kimi təbiətə qanunları apriori verən anlayışlardır... Kateqoriyalar təbiətdən çıxarılmırlar və surət kimi onlarla uyğunlaşdırılmırlar, çünki bu halda onlar yalnız empirik (təcrübədə məlum olan — *müəlliflər)* olardılar...”[133].

*İ.* Kantın kateqoriyalar haqqındakı təlimini yekunlaşdıraraq deyə bilərik ki, o, “özünü anlamanın tərifləri” adlandırdığı kateqoriyaları real məzmunundan, fikri real obyektdən, hadisəni mahiyyətdən məntiqi yollarla ayrı salmış “kateqoriyaların bir-birinə *keçməsi”*[134]*ni* göstərməmiş və bu sahədə də “inamı möhkəmlətmək” üçwn “zəkanın gücünü kiçiltmişdir”[135].

Klassik alman idealizminin ən görkəmli nümayəndəsi olan Hegelin məntiqində kateqoriyaların tədqiqinə geniş yer verilmişdir. Hegel məzmunun formadan, fikrin gerçək məzmundan ayrılmasına etiraz edərək, Kantı kateqoriyalara xalis məntiqi formalar kimi baxmaqda, onlardakı məzmun və formanı metafizikcəsinə ayırmaq üstündə töhmətləndirir. Onun fikrincə, kateqoriyalar insanın subyektiv fikrinin məzmunsuz formaları deyildir, onlar insan idrakının tarixi inkişafının nəticəsi olmaqla insanın gerçəkliyi sonsuz surətdə dərk

---

[131] И. Кант. Пролегомены, М., 1937, səh. 84.
[132] И. Кант. Критика чистого разума, səh. 77.
[133] И. Кант. Соч. v 6-ti томах, t. 3, М., 1964, səh. 212.
[134] V. İ. Lenin. Əsərləri, 38-ci cild, səh. 211.
[135] Yenə orada, səh. 170.

etməsinin getdikcə daha da dərinləşdiyini ifadə edir. Hegel qətiyyətlə belə bir fikri əsas tutur ki, kateqoriyaların insan təfəkkürü vasitəsilə dərk edilməsi, insan təfəkkürünün abstraksiyaetmə qabiliyyəti sayəsində formalaşması hələ ona dəlalət etmir ki, "onlar həmçinin predmetlərin özlərinin müəyyənliyi deyil, yalnız bizim təriflərimizdir"[136]. Hegel Kantı "məntiqi təriflər"ə, "mühüm subyektiv əhəmiyyət" verdiyinə görə tənqid edərək göstərir ki, "fikri təyinlər", "obyektiv qiymətə və mövcudluğa malikdirlər"[137]. "Quru idrak forması" kimi şərh olunan məntiqi inkar edərək o yazır ki, "Köhnə formal məntiq — sanki uşaq məşğələsi, ayrı-ayrı parçalardan şəkillər düzəltmək kimi sayılmazlığa düçar olmuşdur"[138]. Bu qüsuru aradan qaldırmaq, məntiqi formaları ölgün formalar kimi yox, onların üzvi vəhdətində, onların canlı konkret vəhdətində araşdırmaq üçün buraya fəlsəfənin məzmununu daxili özhərəkət formasında dərk edən dialektik metod daxil etmək lazımdır"[139].

"Məzmun, məzmunun həqiqi olub-olmaması vacibdir"[140]—- deyən Hegel "elə bir məntiq tələb edir ki, onda formalar məzmunlu formalar olsun, məzmunun canlı, real formaları, məzmunla qırılmaz surətdə bağlı olan formalar olsun"[141]. Onun fikrincə, anlayışlara, kateqoriyalara donub qalmış halda yanaşmaq düzgün olmaz, çünki belə olduqda onun əsil məzmunu, hərəkətdə aşkar olunan məzmunu dərk edilməmiş qalar. Əgər köhnə məntiq kateqoriyaların hərəkətini, onların daxili, zəruri əlaqəsini, birinin digərinə keçməsini əksliklərin vəhdətində və mübarizəsində qavraya bilmirsə, "Hegel təhlil edib göstərir ki, bunlarda hərəkət vardır. Sonlu? Deməli, sona doğru *hərəkət edən!* Nəisə? — deməli, digərinin olduğu *deyil.* Ümumiyyətlə varlıq? — deməli, elə bir qeyri-müəyyənlik ki, varlıq = yoxluğa- Anlayışların hərtərəfli, universal elastikliyi,

---

[136] Гегель. Соч., том I, səh. 89.
[137] Гегель. Соч., том *V,* səh. 29.
[138] Yenə orada, səh. 30.
[139] Yenə orada, səh. 25-33.
[140] Гегель. Соч., том I, səh. 90.
[141] V. İ. Lenin. Əsərləri, 38-ci cild, səh. 84—85.

əksliklərin eyniyyətinə çatan bir elastiklik, — budur əsil mətləb”[142]. həm də anlayışlar, məntiq fiqurları, kateqoriyalar Hegelin sistemində insan idrakının tarixindən çıxarılır, onların özhərəkəti və inkişafı fəlsəfə tarixindəki müvafiq dövrlərin inkişafına uyğun gəlir”. “...Hegel özünün anlayışlar, kateqoriyalar özüinkişafını bütün fəlsəfə tarixi ilə əlaqədar götürür. Bu, bütün Məntiqin daha bir *yeni* cəhətini verir”[143].

Məntiqin digər səmərəli cəhəti burada kateqoriyaların bütöv sistem kimi bir-birindən çıxarılması, birinin digərini tamamlamasından ibarətdir.

Kateqoriyaların Hegel sisteminin başlanğıc nöqtəsi, heç bir şeydə fərz edilməyən, özündə heç bir məzmuna malik olmayan, heç bir şeylə vasitələnməyən[144], işin əslində boş abstraksiya olan “xalis varlıq”dan ibarətdir. “Xalis varlıq” özünün bu mənasında heçliklə və ya qeyri-varlıqla eyni şeydir”[145]. Xalis varlıqla heçlik mübarizə vasitəsilə mütləq abstraktlıqdan, məzmunsuzluqdan “qərarlaşma”nı verir. “Qərarlaşma” kateqoriyası isə xalis varlıqla heçin qarşılıqlı mübarizəsi zamanı “mövcud varlığı” kateqoriyasını yaradır. Sonuncu artıq xalis varlıqdan fərqli olaraq tamamilə müəyyənləşmiş konkret varlıqdır. **“...nə göydə, nə yer üzündə heç yanda elə bir şey yoxdur ki, onda bunların hər ikisi — varlıq və yoxluq olmasın”[146].**

Hegel varlıqla yoxluğun vəhdətində aşkar olunan qərarlaşma kateqoriyasını qəsdən müsbət və mənfi inkar etmə ilə əlaqələndirir ki, onun mənasız iddiaları sübuta yetsin. Onun fikrincə qərarlaşmanın bərtərəf edilməsi — mövcud varlıqdır, mövcud varlıq isə müəyyən varlıqdır, başqalarından (dəyişkən və sonludan) ayrı bir keyfiyyətdir.

“Özü üçün bu cür təcridlənən müəyyənlik, **mövcud** müəyyənlik olmaq etibarilə — keyfiyyətdir... mövcudluq kimi

---

[142] Yenə orada, səh. 105.
[143] Yenə orada, səh. 109.
[144] Bax: Гегель. Соч., том V, səh. 53, 66—67.
[145] Bax: Yenə orada, səh. 67.
[146] Yenə orada, səh. 70.

fərqləndirilən keyfiyyət reallıqdır”[147]. İnkar olan müəyyənliyə gəldikdə Hegel onu da 1) nə isə və başqası; 2) digəri üçün varlıq və özü üçün varlıq olmaqla iki yerə ayırır. İnkarın birinci inkarı olmaq etibarilə **nə isə** —özünün özü ilə ziddiyyəti, ona təkan verən və onu öz hüdudlarından kənara çıxaran ziddiyyətlər nöqteyi-nəzərindən götürüldükdə sonludur[148]. **Nəisə,** bir tərəfdən, özü-özüdür, digər tərəfdən isə özbaşqasıdır. Bir halda o, özünü həqiqi varlıq kimi, reallıq kimi, başqa halda isə başqası üçün varlıq kimi aşkar edir. Deməli, nəisənin varlıq ziddiyyəti onun müxtəlif momentlərdə çıxış etməsinin əsasında durur. V.İ.Lenin Hegelin bu fikrini bəyənərək yazır: “Bu çox dərindir: özündəşey və onun digərləri üçün şeyə çevrilməsi... Özündə şey *ümumiyyətlə* boş, cansız, abstraksiyadır. Həyatda hərəkətdə hər şey digərinə münasibətdə həm “özündə”, həm də “digərləri üçün” olur, bir haldan digərinə çevrilir”[36].

Bundan sonra Hegel özü üçün varlıqla başqası üçün varlıq arasındakı onların daxili təbiətindən irəli gələn əlaqə və münasibəti şərh edir. Başqası üçün varlıq reallıqla, həqiqi varlıqla qarşılıqlı fəaliyyət və münasibətdə olaraq onun hüdudlarını müəyyənləşdirir, nəisəyə münasibətdə daxili olan bu inkar və ya qeyri-varlıq bütün hallarda mövcud varlığa keçir, ona nüfuz edir. hüdudun xarici müəyyənliyi kəmiyyət və keyfiyyət hüdudlarının bir-biri ilə çulğalaşmasına, onlardan hər ikisinin eyni bir zamanda mövcud olmasına əsasən müəyyən edilir.

Ona görə də Hegel öz mülahizələrində mövcud varlıq üçün hüdudu (sərhəddi) xarici hesab edərək belə nəticəyə gəlir ki, mövcud varlıq özünü keyfiyyətcə müəyyənləşdirməklə, həm də özünü məhdudlaşdırır, çünki, bir tərəfdən, onun keyfiyyətcə müəyyənliyi özünün reallığıdır, digər tərəfdən, qeyri-varlığıdır, yəni inkarıdır. İnkar nəticəsində elə bir nöqtə əldə edilir ki, nəisə öz hüdudlarını pozur, həm də özünün sonluluğunu göstərir. Beləliklə, şeylərin, proseslərin sonluluğu həm onların

---

[147] Гегель. Соч., том V, səh. 103.
[148] Yenə orada, səh. 125.

yoxluğunda aşkar olunan varlığını, həm də varlığıi həqiqəti olan sonluluğunu sübut edir[149].

Beləliklə, kateqoriyaların sonrakı hərəkət və ziddiyyətliliyindən sonlu kateqoriyası hasil olunur və o, sonsuz kateqoriyasının çıxarılması üçün zəmin təşkil edir. Hegelin fikrincə, nəisə, sonlu və i. a. saysız ziddiyyətlər hesabına elə dəyişikliyə gətirib çıxarır ki, o, hökmən sonsuzluğu öz daxili təbiətinə görə ortaya atır. "...Sonlunun özünün təbiəti ondan ibarətdir ki, öz hüdudu xaricinə çıxsın, öz inkarını inkar etsin və sonsuzlaşsın"[150]. "Sonlunu sonsuza çevirən heç də xarici qüvvə deyil, opun (sonlunun) öz təbiətidir"[151].

Göründüyü kimi, sonsuzla sonlu bir-birilə vəhdət halında mövcuddur. Onların müəyyənliyinə xas olan bu vəhdət hər birinin bərtərəf olmasını göstərir, çünki "sonluluq yalnız özündən xaricə çıxmaqdır; buna görə də onda özünün digəri olan sonsuzluq vardır"[152], "o, həm nəisaədir, həm də onun *başqasıdır,* bu proses bir-birinə gətirib çıxaran təriflərin əbədi və daim bir-birini əvəz etməsidir"[153].

Beləliklə, Hegel "nəisəni" inkar nəticəsində özünün başqası kimi çıxış edən, "özü üçün varlıq" kateqoriyasına qədər inkişaf etdirir, onu isə həm özünü inkar edən, həm də ideal olan kpmi izah edərək "tək" kateqoriyası ilə əlaqələndirir.

Keyfiyyət kateqoriyasının təhlili "bir" və "çox" kateqoriyalarının izahı ilə başa çatır və kəmiyyət (miqdar) kateqoriyasının izahına keçilir. Kəmiyyət kateqoriyasına keçid də əlaqəli və dialektik keçiddir, o da keyfiyyət kateqoriyasından *"birlərin"* digər "birlər"lə, çoxlarla qarşılıqlı münasibətindən çıxarılır. Belə ki, "özü üçün varlıq", "yəni bütün birlərin" keyfiyyət müəyyənliyi bərtərəf edilir və o, kəmiyyətə çevrilir. Özü üçün varlığın bütövlük momentlərinin hamısında

---

149 Вах: Гегель. Соч., том V, səh. 125.
150 Yenə orada, səh. 137.
151 Yenə orada.
152 Гегель. Соч., том I, səh. 160.
153 Yenə orada, səh. 147.

təzahür edən bu proses nə abstrakt nəisə, nə də abstrakt varlıqdan məhrum olmaq deyildir. O, yalnız varlığın müəyyənliyinə fərqsiz münasibət olmaq etibar ilə, bizim gündəlik şüurumuzda **"kəmiyyət** kimi çıxış edən haldır"[154].

Kəmiyyət də digər kateqoriyalar kimi, antinomik olmaqla bir- birinə əks olan iki momentin vəhdətində aşkara çıxır. Bu momentlər fasiləsizliklə diskretlikdən (fasiləlikdən) ibarətdir. "Özü üçün varlığın birinci nəticəsi kimi... kəmiyyət də cəzbetmə və itələmə proseslərinə malikdir. Ona görə də o, fasiləsiz olduğu qədər də diskretdir. **"Diskretlik də fasiləsizlik** kimi, kəmiyyət momentidir"[155].

Kəmiyyət müəyyənliyi və ya hüdudu olan kəmiyyətlilikdən bəhs edəp Hegel, onu keyfiyyətlə qarşılıqlı əlaqə və asılılıqda araşdırır. O yazır: "...Keyfiyyət Özündə kəmiyyətdir və əksinə, kəmiyyət, həmçinin Özündə keyfiyyətdir. Bu surətlə onlar ölçü prosesində bir-birinə keçir, lakin bu iki müəyyənliyin hər biri yalnız elə bir şeyə keçir ki, o əvvəldən özündə olmuşdur, biz isə indi öz müəyyənliklərində inkara məruz qalmış və ümumiyyətlə bərtərəf olmuş varlıq görürük ki, bu da mahiyyətdir"[156]. Mahiyyət, Hegelin fikrincə, daxili doldurulmuş varlığı ifadə edən, özü-özü ilə eyniyyət təşkil edən kateqoriya olmaqla, sadəcə olaraq hər şeyi deyil, bərtərəflənmiş, hifz edilmiş varlığı göstərir. Sadə eyniyyət təşkil edən mahiyyət kateqoriyası eyniyyət, fərq və ziddiyyət kateqoriyalarının izahı üçün əsas kimi qəbul edilir. Mahiyyət eyniyyət olmaq etibarilə özündə fərq müəyyənliyi daşıdığından, Hegel bu fərqi hər iki kateqoriyanın vəhdətindən hasil etməyə çalışır, şeylərin "nazını çəkən"lərə, abstrakt eyniyyəti (4=L) qəbul edənlərə, onlar arasındakı fərq və ziddiyyəti görməyənlərə istehza ilə yanaşır. O göstərir ki, şeylərin zidd olmamasına çalışanlar unudurlar ki, bu yolla ziddiyyət həll olunmur, yalnız başqa bir yerə, ümumiyyətlə

---

[154] Гегель. Соч., том I, səh. 169—170.
[155] Bax: Гегель. Соч., том V, səh. 127.
[156] Гегель. Соч., том I, səh. 189.

**subyektiv** və ya **xarici refleksiyaya keçirilir[157]. V.İ.Lenin** Hegelin bu fikrini bəyənərək yazır: "(Bu istehza qəşəngdir! Təbiətin və tarixin (filisterlər tərəfindən) "nazını çəkmək" — bunları ziddiyyətlərdən və mübarizədən təmizləməyə çalışmaq) ..."[4B].

Beləliklə, mövcud olan bütün şeylərin eyniyyətində fərq və ziddiyyətin olduğunu iddia edən Hegel onu öyrənməyi idrakın başlıca vəzifəsi sayırdı: "Düşünən zəka... fərqlinin, necə deyərlər, kütləşmiş fərqini kəskinləşdirib mühüm fərqə, əksliyə çatdırır. Kəskinləşməyə çatdırılmış müxtəlif ziddiyyətlər yalnız bu yolla bir-birinə nisbətdə hərəkətə gəlib canlılaşır və bunun daxilində elə bir mənfilik kəsb edir ki, bu mənfilik özhərəkətin və həyatiliyin daxili pulsasiyasıdır"[158]. "...Eyniyyət ancaq adi bilavasitənin, ölgün varlığın tərifidir; ziddiyyət isə **hər cür hərəkətin və həyatiliyin köküdür", "...bütün şeylər özü-özündə ziddiyyətlidir** və **...o, şeylərin həqiqətini və mahiyyətini** daha tez ifadə edir"[159].

Hegel ziddiyyətlərin həllini əsasda həm saxlanılan, həm də saxlanılmayan momentlər kimi göstərir. Onun nəzərində mahiyyət məhz əsasda öz müəyyənliyini tapır. Başqa sözlə, o, fərq və eyniyyətin vəhdətindən ibarət olmaqla müəyyən formaya malikdir. Deməli, mahiyyət forma ilə sıx surətdə əlaqəlidir, çünki mahiyyət öz bərtərəfləndirmə xüsusiyyətinə görə formanı tələb edir. Forma isə mahiyyətin "yalnız öz daxilində işıqlanmasıdır, ona xas olan öz refleksiyasıdır"[160]. Lakin forma ilə eyniyyət təşkil edən mahiyyət, özünü ondan fərqləndirir, ona nisbətən formasız mahiyyət kimi çıxış edir və bu halda, **"mahiyyət** (özü-özü ilə) formasız eyniyyət olmaq etibarilə **materiya[161]** olur". Materiya da formaya biganə qalmır. O, "formanın öz əsası və substraktıdır"[162].

---

[157] Гегель. Соч., том V, səh. 498.
[158] Гегель. Соч., том V, səh. 522—-523.
[159] Yenə orada.
[160] Yenə orada.
[161] Yenə orada, səh. 533.
[162] Yenə orada.

Materiya kateqoriyasını formaya nisbətən passiv hesab edərək Hegel sonrakı mülahizələrində materiyanı formalaşmış məzmuna gətirib çıxarır. “Materiya formalanmalıdır, forma isə maddiləşməlidir”[163].

Məzmun forma ilə materiyanın vəhdətindən ibarətdir, onların bu eyniyyəti məzmunun özünü **müəyyən əsasa** çevirməsidir. Real əsas taftalogiya deyildir, artıq o, “məzmunun digər tərifidir”[164] ki, hökmən əsaslandırılan olmasını tələb edir. Bu andan başlayaraq əsas kateqoriyası şərt kateqoriyasına daxil olur, çünki istənilən bir şeyin bütün şərtləri, başqa sözlə şəraiti olmazsa, o, mövcudluğa daxil ola bilməz.

Kateqoriyaları bir-birindən çıxaran Hegel mahiyyətlə təzahürün qarşılıqlı əlaqəsinə gəlib çatır; “hadisəni öz möncudluğunda olan mahiyyət, mahiyyətin təzahürü” adlandıran Hegel[165] mövcudluqla mahiyyətin vəhdəti olan[166] gerçəklik kateqoriyasını, sonra gerçəkliyin birinci andakı reallığı kimi çıxış edən imkan kateqoriyasını nəzərdən keçirir. Onun fikrincə, gerçəklik, — varlıqdan və mövcudluqdan yüksəyə göstərən bu kateqoriya, — imkanla vəhdətdə zərurət kateqoriyasını yaradır. “Bir şeyin mümkün və ya qeyri-mümkün olması öz genişlənməsində zərurət olduğu aşkara çıxan gerçəkliyin məzmunundan, yəni momentlərinin bütün məcmusundan asılıdır”[167]. V.İ.Lenin Hegelin bu sözlərini bəyənərək, onu dialektik idrakın mahiyyəti adlandırmışdır. “Gerçəkliyin momentlərinin bütün məcmusunun genişlənməsi MV=dialektik idrakın mahiyyəti”[168].

Hegel məntiqində kateqoriyaların sonrakı inkişafı zərurətin daxili hərəkəti və bilavasitəliliyi sayəsində substansiallıq və kauzallığın izah edilməsi ilə tamamlanır. Substansiallıq münasibəti varlığa bir səbəb kimi malpk olduğundan kauzallıq

---

163 Yenə orada, səh. 585.
164 Yenə orada, səh. 548—549.
165 Гегель. Соч., том V, səh. 572, 596.
166 B a x: yenə orada, səh. 636.
167 Гегель. Соч., том I, səh. 242.
168 V. İ. L e n i n. Əsərləri, 38-ci cild, səh. 157.

münasibətinə keçir. Hegelin fikrincə, səbəbiyyət münasibəti qarşılıqlı fəaliyyətdə aşkar olunur. Çünki *"fəaliyyətdə səbəbdəkindən başqa heç bir şey olmur* və əksinə...", *"eyni bir şey* bir halda səbəb olur, digər halda fəaliyyət, orada spesifik sabitlik kimi, burada bəllilik və ya bir başqasında təyin edilən kimi olur"[169].

Deməli, səbəbiyyət və fəaliyyət bütün hallarda bir-birini münasibətləndirir, biri digərini tamamlayır. Həmçinin, deyildiyi kimi, zərurət də səbəbiyyətdən ayrı salınmamışdır, bir tərəfdən, o, özünün əsası olan varlığın özünün özü ilə vəhdətidir, digər tərəfdən, o, yalnız zahirilik, münasibət və ya vasitələnmədir. "Səbəbiyyət ilkin varlığın, səbəbin zahiriliyə və ya sadə bəlliliyə və əksinə, bəlliliyin ilkinliyə bu yolla keçməsidir, lakin varlıq ilə zahiriliyin eyniyyətinin özü bir də daxili zərurətdir. Bu daxililiyi və ya özündə olan bu varlığı səbəbiyyətin hərəkəti bərtərəf edir; bununla da bir-biri ilə münasibətdə olan tərəflərin substansiallığı itir və zərurət aşkara çıxır"[170].

V.İ.Lenin "Fəlsəfə dəftərləri"ndə Hegelin səbəbiyyətə dair baxışlarına lazımi qiymət verərək yazır ki, "kauzallıq Hegel üçün universal əlaqənin təriflərindən yalnız *biridir* ki, bu əlaqəni o artıq qabaqca özünün *bütün* şərhində çox-çox dərin və hərtərəfli əhatə etmişdir, **həmişə** və ən başlanğıcdan bu əlaqəni, qarşılıqlı keçmələri ets, ets təkidlə qeyd etmişdir"[171].

Beləliklə, Hegel zərurət, səbəbiyyət və gerçəklik kateqoriyalarını onların bir-birinə keçmələri halında təhlil edərkən, yalnız və yalnız mistik bir formada real şeylərin dialektikasını varlığın ümumi formaları timsalında göstərməyə çalışmışdır.

İndiyədək, Hegel məntiqində kateqoriyaların mahiyyət daxilində düzülüşünü, onların hərəkət və inkişafındakı bir sıra əsas cəhətləri şərh etdik. Görək mahiyyət çərçivəsindən kənarda, anlayış "subyektivlik və ya azadlıq səltənətində" (Hegel)

---

[169] Гегель. Соч., том V, səh. 677—678.
[170] Гегель. Соч., том V, səh. 692—693.
[171] V. İ. Len i n. Əsərləri, 38-çi cild, səh. 162.

kateqoriyalar necə düzülmüşlər, onlar bir-birindən necə çıxarılırlar. Əvvəlcədən qeyd edək ki, Hegel burada da məntiq fiqurlarında canlı həyatı, obyektiv gerçəkliyin əlaqə və münasibətlərini axtarır. Onun fikrincə, "Əgər anlayışın məntiqi formaları fikir və təsəvvürlərin ölü, fəaliyyətsiz və laqeyd anbarı kimi təsəvvür edilsəydi, onda onların verdiyi bilik həqiqəti təsvir etmək üçün tamamilə lazımsız olardı...". İşin əslində "anlayış formaları... gerçək olanın canlı ruhudur..."[172].

Hegelə görə, anlayış özünə qayıtmış varlıqla mahiyyətin vəhdəti olmaq etibarı ilə qarşılıqlı əlaqə və asılılıqda ümumi, xüsusi və tək momentlərini öz məzmununa daxil edir. Anlayış bu üç momentin vəhdətində nəticələri təhlil edir, onların bir-birilə əlaqəsini, çəlpləşməsini, qarşılıqlı tabeçiliyini açıb göstərir. V, İ. Leninin dediyi kimi, burada Hegelin məqsədn "ümumidən xüsusiyə doğru nəticənin xüsusidən ümumiyə doğru nəticəyə *keçməsi.— əlaqə* və *keçmələrin* şərhidir"[173].

Anlayış bundan sonra özünün obyektivlik mərhələsinə daxil olur ki, bu mərhələdə o, kimyəvilik və teleologiya adlanan daha iki hal kəsb edir. Anlayışın obyektivliyə daxil olması onun daha konkret şəkildə çıxış etməsinə səbəb olur. Hegelin öz sözləri ilə deyilsə, obyektivliyin ikili mənası — "müstəqil anlayışa **qarşı duran** bir şey mənası, həmçinin **özündə və özü üçün mövcud olan bir** şey mənası..."[62] vardır. Elə buna görə də Hegel obyektivliyin iki müxtəlif mərhələsinin məqsədlə münasibətini araşdırır, məntiq kateqoriyaları ilə insanın əməli fəaliyyəti arasındakı uyğunluğun dialektikasını sezmə şəklində də olsa irəli sürür. Onun fikrincə, mexanikliyə və kimyəviliyə münasibətdə üçüncü hədd olan məqsəd həm də onların həqiqətidir. "Məqsədin qarşısında müəyyən bir obyektiv mexaniki və kimyəvi **dünya** durur ki, onun fəaliyyətinin həmin dünyaya münasibəti **bəlli bir şeyə** münasibət kimidir. Bu səbəbdən o hələ müəyyən dərəcə həqiqətən **dünya xaricində**

[172] Гегель. Соч., том I, səh. 267.
[173] V. İ. Lenin. Əsərləri, 38-ci cild, səh. 182.

mövcudluğa malikdir, məhz ona görə ki, ... obyektivlik ona qarşı durur”[63].

Obyektivliyin ikinci halı olmaq etibarı ilə teleoloji prosesə gəldikdə, Hegel onu aydın mövcud olan anlayışı obyektivliyə daxil etmək kimi qiymətləndirir və bundan sonra obyektiv və subyektivin, anlayış və reallığın vəhdəti olan ideyanı izah edir. Fikrin qəlizliyinə, sistemin pdealistliyinə və müxtəlif ibarə oyunbazlığına baxmayaraq, Hegel obyektivlik kateqoriyasından danışarkən, insanın əməli fəaliyyəti ilə məntiq kateqoriyalarının əlaqəsini, onun əhəmiyyətini göstərməyə çalışır və əksər hallarda tamamilə səmərəli fikirlər söyləyir. V.İ.Lenin Hegelin bu xidmətinə yüksək qiymət verərək yazır ki, “Hegel çalışıb — bəzən hətta: əlləşib və gücənib — insanın məqsədəuyğun fəaliyyətini məntiq kateqoriyalarına salmağa səy edərək, bu fəaliyyət — “nəticədir”... subyekt (insan) məntiqi “nəticə” “fiqurunda” filan “hədd” rolunu oynayır və s. dedikdə, **bu yalnız gücənmə deyildir, yalnız oyun deyildir. Burada çox dərin məzmun, xalis materialist məzmun vardır.** Tərsinə çevirmək lazımdır. İnsanın əməli fəaliyyəti insanın şüurunu bir çox milyard dəfələrlə müxtəlif məntiqi[174] fiqurların təkrar edilməsinə gətirib çıxarmalı idi ki, **beləliklə** həmin fiqurlar **aksiomalar** mənası **ala bilsin”.**

Adekvat, obyektiv həqiqi və ya özlüyündə həqiqi olan ideya anlayışla obyektivliyin vəhdətidir. Əvvəlki kateqoriya- lara nisbətən daha konkret olan ideya bir sıra mərhələlərdə özünü bərqərar edir. Mahiyyətcə proses olan ideya öz inkişafında üç pillədən keçir. “İdeyanın birinci forması **həyatdır...** İkinci forma... **idrak** olan ideyadır ki, bu **nəzəri** və **əməli** ideyanın ikili şəklində meydana çıxır. Fərqlə zənginləşmiş olan vəhdət idrak prosesi nəticəsində bərpa olunur, bu da üçüncü formanı, **mütləq** ideya formasını verir”[175].

V.İ.Lenin Hegelin bu sözlərinə diqqət yetirərək yazır:

---

[62] Bax: Гегель. Соч., том VI, səh. 161.
[175] V. İ. L e n i n. Əsərləri, 38-ci cild, səh. 192.

“İdeya, yəni **həqiqət,** bir proses olaraq... öz inkişafında... üç pillədən keçir: 1) həyat; 2) insan **praktikasını** və tex**nikanı** ehtiva edən idrak prosesi... 3) Mütləq ideya (yəni tam həqiqət) pilləsi.

“Həyat beyni doğurur. İnsanın beynində təbiət əks olunur. İnsan öz əməli işində və texnikada həmin inikasların düzgünlüyünü yoxlayaraq və tətbiq edərək, obyektiv həqiqətə gəlib çatır”[176].

Həyatı əvvəlcə canlı fərd kimi, sonra cins kimi, ümumi və azad olan kimi nəzərdən keçirən Hegel onlardan idraka keçmə momentini, idrak ideyasını çıxarır. Bu halda da ideya tamamlanmış vəhdəti ifadə etmədiyinə görə, hələlik onda obyektiv həqiqət reallaşmır, çünki onun qarşısında obyektiv dünya, onun bütün əlaqə və vasitələnmələri durur. “Subyektiv ideya ən dürüstü — **arzudur...** buna görə də arzunun müəyyənliyi vardır, bu müəyyənlik isə ondan ibarətdir ki, arzu öz subyektivliyini bərtərəf edir, özünün hələ abstrakt olan reallığını konkret reallığa çevirir və ona, subyektivliyi ilə... dünya məzmunu daxil edir... İdrak ideya olduğuna görə, o, bir məqsəd və ya subyektiv ideya olduğuna görə, fərz edilən dünyanın özündə mövcud kimi inkar edilməsi — **birinci** inkardır”[177].

Beləliklə, özünün ikinci mərhələsində subyektiv ideya öz anlayışınınköməkliyi ilə bu dünyanın konkret məzmununa müvafiq olan, obyektivliklə eyniyyət təşkil edən obyektiv dünyanın mahiyyətinə malik olur.

Nəzəri ideya şəklində formalaşan idrak ideyası, ümumi olan və müəyyənlikdən məhrum olan subyektiv anlayış kimi obyektlə qarşılıqlı münasibətdə ondan müəyyən məzmun əxz etməyə başlayır, özünü reallaşdırmağa çalışaraq çıxış edir. Məqsədin fəaliyyəti bəlli bir müəyyənliyi öz daxilində, özü vasitəsi ilə mənimsəməyə yönəldilmişdir, o, özünü burada aşkar etməlidir

---

[176] V. İ. L e n i n. Əsərləri, 38-ci cild, səh. 203.
[177] Гегель. Соч., том VI, səh. 248—249.

ki, xarici dünya müəyyənliklərini bərtərəf etməklə özünə xarici gerəklik formasında reallıq versin[178]. Nəzəri ideyada "İdrak özünü yalnız bir qavrama kimi, anlayışın özlüyündə özü ilə *qeyri-müəyyən* eyniyyəti kimi tanıyır; doğma, yəni özündə və özü uçün müəyyən olan obyektivlik idrak üçün verilmiş bir şeydir, həqiqi mövcud kimi də subyektiv fərzdən asılı olmayan nağd gerçəklik qəbul edilir"[179].

Bu andan sonra özünü obyektiv aləmdə reallaşdıran praktiki ideyadan özü-özünün eyni olan mütləq ideyaya keçilir. Hegel məntiqində kateqoriyaların düzülüşü və sistemi mütləq ideyada tamamlanır. Öz-özünə qayıtmış, bütün kateqoriyalardan konkret və zəngin olan bu kateqoriya idrakı bərpa edir, praktiki ideya ilə birləşir, gerçəklik artıq yerinə yetirilmiş mütləq məqsəd kimi müəyyən edilir. Bu dünyanın müəyyənləşməsi onun daxili əsası və gerçək mövcudluğu olan anlayışdan ibarətdir ki, məhz bu sonuncu mütləq ideyadır. Mütləq ideya ümumi olmaq etibarı ilə özünə yad olan bütün formaları ataraq öz ruhi təbiiliyinə qayıdır. Beləliklə də məntiq kateqoriyaları sistemi sona çatmış olur.

Beləliklə, Hegelin kateqoriyalar haqqında təlimini yekunlaşdırsaq deyə bilərik ki, o, kateqoriyaları aşağıdan yuxarıya, ibtidaidən aliyə yüksələn inkişaf prosesi halında, məzmunlu məntiqi formalar kimi tədqiq etmişdir. Onun nəzərində kateqoriyalar əvvəldən verilmiş, hazır şəkildə mövcud olan quru məntiq anlayışları, hissi seyrin təcrübədən əvvəlki formaları deyil, mütləq ideyanın özünü başqalaşdırması prosesində aşkar olunan, hərəkət və inkişafa malik fikri inikaslardır. Fikir tarixinin, insan idrakının yekunu olan kateqoriyalar bir-birinin yanında mexaniki surətdə düzülməmişlər; onları az məzmunludan daha çox məzmunluya yüksələn, birinci qəbildi mahiyyətlərdən ikinci və i. a. qəbilli mahiyyətlərə yüksələn məntiqi kateqoriyalar kimi çoxcəhətli insan idrakının daim təzahürdən mahiyyətə, daha dərin əsası

---

[178] Bax: Гегель. Соч., том VI, səh. 290.
[179] Yenə orada, səh. 292.

dərk etməyə doğru dərinləşdirdiyi proses kimi anlamaq olar. Kateqoriyaların mənşəyi və mahiyyəti barəsində İ. Kantı birtərəfli subyektivizmdə təqsirləndirən Hegel öz fəlsəfəsinin iki əsas prinsipinə (obyektlə subyektin eyniyyəti və inkişaf prinsipi) bu məsələnin həllində də sadiq qalmışdır. Kateqoriyalar Hegel tərəfindən ümumilik forması kimi verilir, inkişaf prinsipinə əsaslanır, onlar bir-birindən çıxarılır, necə deyərlər, inikasların dialektikasına tabedirlər. V. İ. Leiin yazır: "...Hegel anlayışların hərəkətində obyektiv dünyanın hərəkətinin inikasını izləməklə, Kantdan və başqalarından çox dərindir"[180].

Lakin Hegel Kantın kateqoriyalar haqqında subyektiv idealist təlimini bütün nöqsanlardan təmizləyə bilməmiş, onu daha ardıcıl obyektiv idealist kimi tənqid etmişdir. V.İ.Lenin*in* sözləri ilə deyilsə, *"Hegel Kantı məhz qnoseoloji cəhətdən* təkzib edir... Kantdakı ikiliyi, səbatsızlığı, onun empirizm (=materializm) ilə idealizm arasındakı, necə deyərlər, tərəddüdlərini ifşa edir, həm də Hegel bunları *bütünlüklə və yalnız daha ardıcıl* idealizm nöqteyi-nəzərindən əsaslandırır"[181].

Hegelin məntiqində kateqoriyalar sistemini nəzərdən keçirməkdə məqsədimiz yalnız onu göstərməkdən ibarət deyildir ki, Hegel ilk dəfə Aristotel və Kantdan fərqli olaraq kateqoriyaları öz tarixi əsası üzrə sistemləşdirmiş, onu real zəmin üzərinə qoymuş, onlara quru məzmuna malik olan formalar kimi deyil, məzmunlu, dialektik hərəkətə, inkişafa və qarşılıqlı əlaqəyə malik bir proses kimi baxmışdır. Məhz bu cəhətləri nəzərdə tutaraq V.İ.Lenin Hegelin "Məntiq" kitabını konspektləşdirərkən ona aşağıdakı qiyməti verir: "Hegelin məntiqinin yekunu və xülasəsi, son sözü və məğzi **dialektik metoddur** — bu olduqca diqqətəlayiqdir"[182].

Bununla bərabər, Hegel məntiqi kateqoriyalar barəsində bütün əvvəlki fəlsəfənin son nailiyyəti olsa da, həm system məhdudluqlarından, həm də digər idrak nəzəriyyəsi

---

[180] V. İ. L e n i n. Əsərləri, 38-ci cild, səh. 180.
[181] Yenə orada, səh. 169—170.
[182] Yenə orada, səh. 240.

qüsurlarından xilas ola bilməmişdir. Kateqoriyaların işlənilməsi tarixində Hegelin xidmətlərinə verdiyimiz yuxarıdakı şərhdən əsas məqsəd isə onu göstərməkdən ibarətdir ki, marksizm fəlsəfəsinin kateqoriyalar haqqında təlimi ilə hegelçilik arasındakı fərq aşkar olunsun, V.İ.Leninin bu klassik irsə necə qiymət verməsi, ondan nəyi mənimsəməsi, yeni əsasda bu təlimi necə tənqidi istiqamətdə işləyə bilməsi aydınlaşsın. Bu zərurət həm də onunla əlaqədardır ki, marksizm fəlsəfəsinin əleyhdarları indiki şəraitdə, məhz qnoseologiya sahəsində ixtisaslaşdığı bir zamanda, marksizmi hegelçilikdə təqsirləndirir, bəzi "sovetşünas" burjua filosofları hətta qabağa gedib marksizm fəlsəfəsini çevrilmiş Hegelçilik kimi qələmə verirlər. Öz fikirlərinin son nəticəsində isə hegeldən bir addım qabağa getməkdənsə, iki addım geriyə getməklərini sübut edirlər.

İşin əslində marksizm fəlsəfəsi özündən əvvəlki bütün nəzəri irsə, o cümlədən də Hegelin məntiq sisteminə elmi-materializm mövqeyindən yanaşmış, onun həm ləyaqətli, istifadəli cəhətlərini, həm də nöqsan cəhətlərini düzgün köstərmişdir. F. Engelsin göstərdiyi kimi, "...Hegeldə kateqoriyalar əvvəl gələn bir şey kimi, real aləmin dialektikası isə onların sadəcə işıltısı kimi meydana çıxır. Bu cür münasibət, ona verilən əsil qiymət V.İ.Leninin əsərlərində daha aydın surətdə nəzərə çarpır. V. İ. Lenin Hegelin "Məntiq"ini konspekt edərkən göstərir ki, o, "anlayışların dialektikasında şeylərin (hadisələrin, dünyanıp, *təbiətin)* dialektikasını dahiyanə bir surətdə sez*mişdir.* Məhz *sezmişdir,* ancaq bu qədər"[183.]

Kateqoriyaların mənşəyi və mahiyyəti, onların sistemləşdirilməsi tarixi haqqında bu qısaca izahdan aydın olur ki, fəlsəfə tarixində həmin problemin qoyuluşu və həllində Marksa qədərki filosoflar içərisində fikir ayrılığı olmuş, onlar məsələnin əsil dialektik materialistcəsinə həllinə nail ola bilməmişlər. İndiki halda problemin tarixini müfəssəl şəkildə

[183] F. Engels. Təbiətin dialektikası, səh. 176.

izah etmək imkanımız olmadığından, xülasə şəklində qeyd edək ki, I) Marksa qədərki filosofların heç birisi məntiqi kateqoriyaların obyektiv gerçəklikdəki mühüm və zəruri əlaqələrin dərk edilməsinə yönəldilən insan beyninin mürəkkəb və uzun müddətli abstraksiyaetmə fəaliyyətinin nəticəsi olduğu nöqteyi-nəzərində durmamışdır; 2) həmin filosoflar kateqoriyaları sistemləşdirməyə cəhd etsələr də, onların meydana gəlməsinin məntiqini araşdırmaq istəsələr də, anlamamışlar ki, məntiqi kateqoriyalarda gerçəklik ani, vasitəsiz, ölü və güzgü inikası kimi əks etdirilmir. Gerçəkliyin kateqoriyalarda əks olunması murəkkəb, canlı ziddiyyətlərin həll olunmasından ibarət dialektik bir proses olub, insanın vasitəli və vasitəsiz dialektik vəhdət təşkil edən çoxəsrlik əməli və idrakı fəaliyyətinin nəti- cəsidir; 3) onlar kateqoriyaların təşəkkülü nəticəsində idrakla praktikanın birləşdirilməsi zərurətini, onların dialektik vəhdət təşkil etdiyini anlamaqdan uzaq olmuşlar; 4) nəhayət, həmin filosofların hamısı idrakın yekunu kimi çıxış edən məntiqi formaların yeni idrak və fəaliyyət üçün əsas olduğunu, dünyanı tənqidi-inqilabi surətdə dəyişdirməkdə onların vasitə rolunu anlamaq səviyyəsinə yüksələ bilməmişlər.

Daim hərəkət və inkişafda olan maddi aləm çox müxtəlif xassə və münasibətlərə malik olmaqla, insanın əməli fəaliyyəti ilə sıx əlaqədar olan, idrak prosesinin yekunu kimi formalaşan əsas elmi anlayışlar, kateqoriyalar vasitəsilə əks etdirilir. Ümumiyyətlə kateqoriyalar, xüsusilə dialektik materializmin kateqoriyaları insan ağlının abstraksiyaetmə və ümumiləşdirmə qabiliyyətinin nəticəsi, onun gerçəkliyi dərketməsinin pillələridir. İctimai praktika zəminində başlayan və son nəticədə insanın əməli fəaliyyətinə xidmət edən idrak şeylərin ən sadə xassə və münasibətlərindən ən dərin mahiyyətinə nufuz etməkdən ibarət hərtərəfli, mürəkkəb və ziddiyyətli bir prosesdir. Bu prosesin müxtəlif pillələrində insan predmet və hadisələrin saysız tərəf və cəhətlərindən sərf-nəzər edir, zahirən

oxşar olan qarşılıqlı əlaqə və münasibətləri bir-birilə müqayisə etməklə, tutuşdurmaqla məntiqi idrakın köməkliyi ilə gerçək olanın bir sıra naməlum xüsusiyyətlərini kəşf edir, məlum olan xüsusiyyətləri isə ağlın obyektə daim nüfuz etməsi prosesi sayəsində dərinləşdirir, öz məlum biliklərini daha da zənginləşdirir, məlumdan naməluma keçir və i. a. Gerçək dünyanın insan ağlında əks olunma prosesi hissi seyrdən — empiriyadan abstrakt, məntiqi idraka və yenə də praktikaya doğru gedir. Ziddiyyətlərin həll olunması, bir-birinə keçid və biri digərini tamamlamaq xüsusiyyəti — elmi idrakın əsas prinsipləri bundan ibarətdir ki, bunların da nəticəsi ümumi anlayışlar, qanunlar və kateqoriyalardır.

Materialist dialektika öyrədir ki, kateqoriyalar elmi idrakın istinad nöqtəsi olmaq etibarı ilə insana özünü sonsuz əlaqə və münasibətlər aləmindən ayırmağa, onu dərk etməklə əməli fəaliyyətini düzgün istiqamətləndirməyə əsas verir. İş burasındadır ki, təbiət, cəmiyyət və ruhi həyatın bütün sahələrində hər addımda izlənilən və bu və ya digər şəkildə insanın əməli ehtiyacları ilə bağlı olan əlaqələr eyni tipli, bir mənalı əlaqələr deyildir. Onlardan bir qismi mühüm, digər qismi qeyri-mühüm, başqaları zahiri və keçici, üçüncülər isə sabit və dərin əlaqələrdir. Bir sözlə, obyektiv aləmin hər bir predmet və hadisəsi çox müxtəlif keçidlər vasitəsilə bir-birinə bağlıdır, onlar arasında ümumi, oxşar cəhətlərlə bərabər, onları bir-birindən fərqləndirən cəhətlər də vardır. Təfsilata varmadan göstərmək olar ki, obyektiv aləmin əlaqə və münasibətlərinin bu sonsuz sistemi təkcə hissi seyrlə, zahiri əlaqələrin müşahidə edilməsi ilə qavranılmır. İnsan zahiri əlaqələri müşahidə etməklə məhdudlaşmadan öz nəzəri və əməli tələbatını ödəmək üçün şeyin mahiyyətini öyrənməyə başlayır. Subyekt-obyekt münasibətində fəal üzv kimi çıxış edən insan obyektiv şey və hadisələri tutuşdurmaqla onların oxşar cəhətlərini və fərqini aşkar edir, şey və xassələr içərisində öz oxşar xüsusiyyətlərinə görə bir sinfə daxil olanları seçib ayırır. İnsan təcrübəsinin

predmet və hadisələrə münasibətini ifadə edən kateqoriyalar, bu halda onları idrak subyektinin fəallığı prizmasında əks etdirir. Özlüyündə aydındır ki, bütün əlaqə və münasibətləri birdən-birə dərk edib qurtarmaq olmaz, çünki onlar maddi dünyanın özü qədər hərtərəfli və çoxcəhətlidir. "Təbiət **həm** konkretdir, **həm də** abstrakt, **həm** hadisədir, **həm də** mahiyyət, **həm** andır, **həm də** münasibət"[184].

Beləliklə, gerçək aləmin kateqoriyalar vasitəsilə əks etdirilməsi prosesini sadə və sönük bir fəaliyyət kimi başa düşmək olmaz. Uzunmüddətli və mürəkkəb inikas prosesi yalnız bir nəfərin və ya bir nəslin təfəkkürünün işi deyil, ictimai-tarixi inkişafın bütün gedişi ilə şərtlənən, bəşəriyyətin kollektiv şüurunun, kollektiv idrakının məhsuludur. Ona görə də insan anlayışları, kateqoriyaları həm empirik, həm də nəzəri idrak səviyyəsində ümumiyyətlə insan biliyinin müxtəlif dövrlərdə nail olduğu səviyyəni xarakterizə etmiş, bir sözlə, kollektiv şüurun nailiyyətinin ən mühüm göstəricisi olmuşdur.

V.İ.Lenin anlayışları, kateqoriyaları "materiyanın yüksək məhsulu olan beynin yüksək məhsulu"[185] adlandıraraq belə bir fikri əsas tutur ki, onlar tədricən formalaşmış və addımbaaddım əks etdirmiş, insanın obyektiv əlaqə və münasibətləri getdikcə daha dərindən dərk etməsini ifadə etmişlər. İnsanın fikir tarixinin təhlili sübut edir ki, o, dərketmə fəaliyyətinin ilk anlarından başlayaraq öz ümumiləşdirmə qabiliyyətinin gücü ilə obyektiv prosesə müəyyən sözlərlə ifadə olunan adlar verə bilmişdir. Əvvəlcə, obyektiv prosesin bir hissəsində təkrarlanan, oxşar münasibətlər, sonra isə onun başqa bir hissəsindəki əlaqələr aşkar edilmiş, nəhayət istisnasız olaraq təbiət və ruhi həyatın bütün hadisə və proseslərində təkrarlanan, eyniyyət təşkil edən cəhətlər müəyyənləşdirilmiş, onlar müvafiq qanunlar, kateqoriyalar və s. şəklində formalaşdırılmışdır. Kateqoriyaların yaradılması zamanı fikir gerçəkliyin müxtəlif

---

[184] V. İ. Lenin. Əsərləri, 38-ci cild, səh. 210.
[185] V. İ. L enin. Əsərləri, 38-ci cild, səh. 167.

münasibətlərini eyni zamanda, birdən-birə əks etdirə bilmir, şeylərin ən adi münasibətlərindən başlayaraq, kəmiyyətə, keyfiyyətə, mahiyyətə doğru gedir. V.İ.Lenin yazır: "Əvvəlcə təəssüratlar *sayrışır,* sonra **nəisə** meydana çıxır, — sonra **keyfiyyət** anlayışı (şeyin və ya hadisənin tərifləri) və **kəmiyyət** anlayışı inkişaf edir. Sonra öyrənmə və düşünmə fikrə istiqamət verib eyniyyəti-fərqi-əsası-mahiyyəti Versus (buna müqabil) hadisəni, — səbəbiyyəti ets dərk etməyə doğru yönəldir. İdrakın bütün bu momentləri (addımları, pillələri, prosesləri) subyektdən obyektə yönələrək, praktikada yoxlanır və həmin yoxlama vasitəsilə həqiqətə... gəlib çıxır"[186].

V.İ.Leninin bu sözlərindən belə nəticə hasil olur ki, kateqoriyalara müxtəlif məzmunu ifadə edən anlayışlar kimi yanaşdıqda, onlar ümumiyyətlə insan idrakının, fikir tarixinin müxtəlif yekunlaşdırıcı mərhələləri kimi çıxış edirlər. Onlar obyektə daim yaxınlaşan dialektik idrakın məntiqi fiqurları kimi, həm materialist dialektikanın ən ümumi qanunlarında, həm də şeylərin tamam müəyyən, tamam konkret qarşılıqlı əlaqə və münasibətini ifadə edən nisbət kateqoriyalarında (və ya nisbətən məhdud qanunlarında — səbəb və nəticə, zərurət və təsadüf, məzmun və forma, mahiyyət və təzahür, imkan və gerçəklik, zərurət və azadlıq və s.) ifadə olunurlar. Şübhəsiz ki, bütün bu kateqoriyalar obyektiv aləmə xas olan maddi prosesləri əks etdirir, onların tərifləri isə universal əlaqə və qanunauyğunluğun əks olunduğu formalardan başqa bir şey deyildir. "...Məhz bu forma **anlayışlardır, qanunlardır, kateqoriyalardır** est "[187] (kursiv bizimdir —*müəlliflər).* Lakin bu ifadələrin heç birisi obyektiv məzmundan məhrum "xalis" bir şey deyildir. Çünki "təbiətdə" anlayışlar "bu azadlıqda" *(insanın* fikir və fantaziyası azadlığında!!) mövcud olmur. "Təbiətdə" onların, anlayışların "canı və qanı" vardır. — Bu çox gözəldir! Elə bu sözü məhz materializmdir. İnsanın anlayışları təbiətin *ruhudur* — bu yalnız

[186] Yenə orada, səh. 336.
[187] V. İ. L e n i n. Əsərləri, 38-ci cild, səh. 184.

belə bir fikrin mistikcəsinə təkrar nəql edilməsidir ki, insanın anlayışlarında təbiət **özünəməxsus** (buna NV: özünəməxsus və **dialektik!!)** bir surətdə əks edir"[188]. V.İ.Leninin dediyi kimi, "ən adi məntiqi "fiqurlar" ... şeylərin belə deməyə icazə verilsə, məktəbli əli ilə cızma-qara edilmiş ən adi münasibətidir"[189]. "İnsanın təbiəti dərk etməsi momentləri... məhz budur məntiq kateqoriyaları"[190]. "...Məntiqi formalar və qanunlar boş bir qılaf deyil, obyektiv dünyanın inikasıdır"[191].

Deyilənlərdən aydın göründüyü kimi, kateqoriyalar bu halda çoxcəhətli idrakın uzun müddətli ictimai inkişaf prosesində formalaşan nəticələri kimi çıxış edir. Materialist dialektikanın kateqoriyaları da məhz bu münasibət çərçivəsində nəzərdən keçirildikdə müəyyən tarixi dövrün idrak səviyyəsinin və məntiqi təfəkkür quruluşunun ümumiləşdirilməsindən başqa bir şey deyildir. Hegelin sözlərilə desək, fəlsəfi kateqoriyalarda dövrün idrak səviyyəsi, tarixi inkişafın gedişi fikirlə ifadə olunmuşdur[192]. Beləliklə, kateqoriyalar haqqında dialektik materialist təlim onu göstərir ki, kateqoriyalara təkcə formal məntiqi şəkildə götürülən ümumi anlayışlar kimi baxmaq olmaz, çünki onlar insan biliklərinin tarixi təkamülünü açıb göstərməklə, daim irəliləyən idrakın pillələri kimi çıxış edir, idrakın nailiyyətlərini ümumiləşdirməklə sanki təbiət, cəmiyyət və insan təfəkkürünün müxtəlif tərəf və cəhətlərinin yenidən canlandırılması, aşağıdan yuxarıya doğru inkişaf etməsi kimi səciyyələnir. Məsələnin qoyuluşuna bu cür yanaşdıqda məntiq sadəcə olaraq "təfəkkürün xarici formaları haqqında təlim deyil, "bütün maddi, təbii və ruhi şeylərin" inkişaf qanunları haqqında, yəni dünyanın bütün konkret məzmununun inkişafının və onun dərk edilməsinin qanunları haqqında təlimdir, yəni dünyanın dərk edilməsi **tarixinin yekunu, məcmusu, nəticəsidir"[84]**

---

[188] Yenə orada, səh. 299.
[189] Yenə orada, səh. 179.
[190] Yenə orada, səh. 199.
[191] Yenə orada, səh. 182.
[192] Bax: Гегель. Соч., том IX, səh. 55.

(kursiv bizimdir —*müəlliflər)*. Belə olduqda isə materializm məntiqi, dialektikası və idrak nəzəriyyəsi marksizm fəlsəfəsində vəhdət təşkil edərək bir-birinə uyğun gəlir. **V.İ.Lenin** dediyi kimi, "3 söz lazım deyil: bunlar bir-birinin eynidir"[85].

Lakin idrakın yekunu, fikir tarixinin ümumiləşdirilməsi kimi çıxış edən kateqoriyaların daha bir xüsusiyyəti də vardır. İzahımızda aydınlıq olsun deyə məsələnin bir qədər də təfsilatına varaq. Məlumdur ki, kateqoriyaların təşəkkülündən sonra idrak prosesi dayanıb durmur; idrak sanki iki bir-birilə rastlaşan istiqamətdə davam edir. Bir tərəfdən, hissi konkretdən abstrakta doğru yüksəlmək prosesi davam edir, çünki hər cür idrakın başlanğıc nöqtəsi canlı seyrdir, bunsuz idrak prosesinin özü mümkün ola bilməz; digər tərəfdən, idrak abstraktdan konkretə doğru gedir, lakin çıxış nöqtəsi kimi qəbul edilən hissi konkretə deyil, təfəkkürdə yenidən canlandırılan, təfəkkür yolu ilə bərpa edilən, K. Marks dediyi kimi, müxtəlif təriflərin birləşməsindən ibarət olan konkretə doğru gedir. Eyni zamanda abstrakt və konkretin özünü də nisbi mənada başa düşmək lazımdır. Ona görə ki, müəyyən hal üçün, bir əlaqə və münasibət daxilində abstrakt olan anlayış, başqa bir hal üçün, digər əlaqə və münasibət çərçivəsində konkret ola bilər və əksinə. Bu isə onlardan hansının idrak obyekti olmasından irəli gəlir (belə bir cəhəti də qeyd edək ki, abstraktdan konkretə yüksəlmək metodu, bütün hallarda hissi konkretdən abstrakta yüksəlməyi, yəni birinci mərhələnin olmasını hökmən tələb edir).

Beləliklə, fikrimizi yekunlaşdıraraq deyə bilərik ki, idrak abstraktdan konkretə doğru gedərkən kateqoriyalar idrak vasitələri kimi çıxış edirlər. Burada biz aydın şəkildə proses və nəticənin dialektikasını görürük. Birinci halda idrak prosesinin nəticəsi kimi formalaşan kateqoriyalar ikinci hal üçün öz növbəsində idrak prosesini təşkil edir, ona büsbütün daxil olurlar.

Kateqoriyaların təbiəti, funksiyası və mahiyyəti haqqındakı izahımızla biz onların sistemi və qarşılıqlı əlaqəsinin

öyrənilməsinə, dialektik materializm kateqoriyalarının subordinasiya münasibətinin öyrənilməsi məsələsinə sıxı surətdə yaxınlaşdıq. V. İ. Lenin ictimai-əməli fəaliyyətdə kateqoriyaların oynadığı rolu qeyd etməklə bərabər, onlardan düzgün istifadə etməyi, onları yerində tətbiq etməyi, onların qarşılıqlı əlaqə və sistemini müəyyənləşdirməyi tövsiyyə etmişdir. Məhz bunu o, dialektik təfəkkür tərzinin başlıca cəhəti adlandırır: "Anlayışların hərtərəfli, universal elastikliyi, əksliklərin eyniyyətinə çatan bir elastiklik... Subyektiv surətdə tətbiq edilən bu elastiklik = eklektika və sofistikaya. Obyektiv surətdə tətbiq edilən, yəni maddi prosesin hərtərəfliliyini və onun vəhdətini əks etdirən elastiklik —dialektikadır, dünyanın əbədi inkişafının düzgün əks olunmasıdır"[86].

Lakin bu, çox mürəkkəb məsələdir. Ona görə də kateqoriyaların sistemləşdirilməsində, onların subordinasiyasının tədqiqində vahid nöqteyi-nəzər tapmaq çox çətindir. Bir sıra iri həcmli monoqrafik tədqiqat əsərlərində, habelə dərsliklərdə və tədris vəsaitlərində adətən dialektikanın nisbət kateqoriyalarından danışılır. Lakin onların bir-birilə əlaqəsi müəyyənləşdirilmir, yaxud onların sistemləşdirilməsində Hegelçilik izi hissi olunur. Bəziləri isə, əksinə, Hegelə münasibətdə həddindən artıq ifratçılığa vararaq, onun bu barədəki mütərəqqi işini ucdantutma "tənqid" edirlər. Halbuki V.İ.Lenin dəfələrlə göstərmişdir ki, kateqoriyaları gerçəkliyin özündən çıxarmaq, onların düzülüşünü, sistemini nağıl etmək yox, onu sübuta yetirmək lazımdır. "Kateqoriyaları hasil etmək lazımdır (istənildiyi kimi və mexaniki surətdə deyil) ("Nağıl etməklə" deyil, "inandırmağa çalışmaqla" deyil, sübut etməklə, ən sadə əsasları (varlıq, heç, təşəkkül (daz werden) götürməklə (başqalarının götürmədən) hasil etmək lazımdır..."[87]. Məhz bu işdə Hegelin böyük xidmətləri olmuşdur. Ona görə də bu məsələdə Hegeli tənqid etməklə kifayətlənməkdənsə, onun irsini ciddi surətdə öyrənmək, onun qiymətli fikirlərini materialistcəsinə işləmək, elmin, texnikanın və ümumiyyətlə

idrakın tarixi məlumatlarını dialektikcəsinə işləyib hazırlamaq lazımdır. V.İ.Lenin yazır ki, bu sahədə "Hegelin və Marksın işinin davam etdirilməsi insan fikrinin, elmin və texnikanın tarixini *dialektikcəsinə* işləməkdən ibarət olmalıdır"[193].

Materialist dialektikanın kateqoriyaları sistemini düzgün başa düşmək üçün əvvəlcə onların qarşılıqlı əlaqəsini müəyyən etmək, bu cür sistemləşdirmədə çıxış nöqtəsi kimi qəbul edilə biləcək kateqoriyanı ayırd etmək lazımdır ki, onun köməkliyi ilə digər kateqoriyalara keçid aşkar edilə bilsin, müxtəlif məzmunu ifadə edən məntiqi formalar arasındakı dialektik nisbət aydınlaşdırılsın. Mövcud fəlsəfi ədəbiyyatda bu məsələ az işlənilsə də, kateqoriyaların sistemləşdirilməsinə doğru bir sıra ilk addım atılmışdır. Leninqradlı filosof V. P. Tuqarinovun bir sıra əsərində, xüsusilə "Dialektik materializmin kateqoriyalarının qarşılıqlı nisbəti" əsərində, prof. F. İ. Keorkiyevin "Materialist dialektikasının kateqoriyaları", A. P. Şeptulinin "Dialektika kateqoriyalarının sistemi", V. S. Biblerin "Dialektik məntiqin kateqoriyaları sisteminə dair", V. P. Kopninin "Dialektika məntiqdir" və b. əsərlərdə həmin məsələnin qoyuluşu və həllinə dair bir sıra qiymətli fikirlər söylənilmişdir. Lakin adları çəkilən müəlliflərin hər biri məsələyə müəyyən bir mövqedən yanaşaraq, öz nöqteyi-nəzərlərini əsaslandırmağa çalışdıqlarından, kateqoriyaların subordinasiyasının müəyyənləşdirilməsində fikir ayrılığı vardır. Bir qisim müəlliflər yalnız nisbət kateqoriyalarının sistemini (mahiyyət və təzahür, səbəb və nəticə, zərurət və təsadüf, qanun, məzmun və forma, imkan və gerçəklik, tək, xüsusi və ümumi, abstrakt və konkret, tarixi və məntiqi) təklif edirlər, digər qisim müəlliflər isə kateqoriyaları iki yerə: 1) ən ümumi növ anlayışları olan kateqoriyalara (Aristotelin başa düşdüyü kateqoriyalar); 2) ən ümumi anlayışlar olub əlaqələri ifadə edən nisbət kateqoriyalarına ayıraqla onları aşağıdakı şəkildə sistemə salmağı əsaslandırırlar.

---

[193] V. İ. L e n i n. Əsərləri, 38-ci cild, səh. 145.

Varlıq heç — Qərarlaşma

Keyfiyyət — Kəmiyyət — ölçü

Eyniyyət fərq — əsas — mahiyyət — təzahür — məzmun — forma

Səbəb – nəticə, zərurət.

Prof. V. İ. Tuqarinov göstərir ki, kateqoriyaları sistemləşdirərkən obyektiv gerçəklikdə mövcud olan **predmet, xassə və münasibət** kimi üç əsası bir-birindən fərqləndirmək, onları əks etdirən kateqoriyaları da bu əsasda qruplaşdırmaq lazımdır. Belə olduqda, birinci qrupa **substansional** kateqoriyalar (təbiət, varlıq, materiya, hadisə); ikinciyə **atributiv** kateqoriyalar (hərəkət, məkan, zaman, şüur, təfəkkür); üçüncüyə isə **relyativ, nisbət** kateqoriyaları (keyfiyyət, kəmiyyət, tədricilik — sıçrayış; əsas mahiyyət təzahür, məzmun — forma, ümumi — xüsusi — təkcə; eyniyyət vəhdət — fərq — əkslik —ziddiyyət — münaqişə; səbəbiyyət — zərurət-təsadüf — imkan —ehtimal — gerçəklik; zərurət — məqsədəuyğunluq — həqiqət —obyektiv — nisbi — mütləq) aid olacaqdır.

Daha bir sıra nöqteyi-nəzər sadalamaq olar. Lakin şübhəsiz ki, həmin nöqteyi-nəzərlərdən ən yaxşı halda birisi daha düzgün olar, qalanları isə ya qismən, ya da bütünlüklə təkzib edilə bilər. Bizim fikrimizcə, müxtəlif nöqteyi-nəzərləri sadalayıb bir-bir onlardan hansının düzgün, hansının isə səhv olduğunu araşdırmaqdansa, bu barədə V.İ.Leninin fikirlərini, yəni kateqoriyaların subordinasiya münasibəti üçün əsas götürülən prinsipləri göstərmək və yuxarıda gətirdiyimiz baxışları bu mövqedən təhlil etmək daha məqsədəuyğundur. Dialektik materializm səpgisində nəzərdən keçirilən həmin prinsiplər inkişaf prinsipi ilə daha düzgün uzlaşır, kateqoriyaların idraki funksiyalarını daha düzgün açıb göstərir.

*Əvvələn,* kateqoriyaların subordinasiyası obyektiv gerçəkliyin subordinasiyasına müvafiq olmalıdır, əks halda aparılan sistemləşdirmə obyektiv gerçəkliklə uyğun gəlməz, yalnız subyektiv konstruksiya olaraq qalar. *İkincisi,*

kateqoriyaların subordinasiyası onların tarixi inkişafını əks etdirməlidir, yəni dialektik məntiq kateqoriyalarını sistemləşdirərkən, müxtəlif dövrlərin idraki səviyyəsi nəzərə alınmalı, şeyin öz inkişafı, öz gedişi ilə onun əksi olan məntiqinin nisbəti düzgün müəyyənləşdirilməlidir. Başqa sözlə, dialektik məntiqin kateqoriyaları sistemi dialektika və idrak nəzəriyyəsinə daxil olmaqla kateqoriyaların tarixi inkişafının, insan idrakı tarixinin məntiqi şəkildə yenidən canlandırılmasından ibarət olmalıdır. V.İ.Leninin dediyi kimi, "məntiqdə fikir tarixi, ümumiyyətlə və bütünlüklə təfəkkür qanunlarına mütabiq **gəlməlidir"[194].**

*Üçünçüsü,* kateqoriyaların subordinasiyası sadədən mürəkkəbə, ibtidaidən aliyə yüksəlmə prinsipinə tabe olmalıdır. "...Dialektik məntiq təfəkkürün hərəkət formalarını... bir-bir saymaqla və tam rabitəsiz halda yan-yana qoymaqla kifayətlənmir. O, əksinə, bu formaların birini digərindən çıxarır, onların arasında koordinasiya münasibəti deyil, subordinasiya münasibəti müəyyən edir, aşağı formalardan yüksək formaları inkişaf etdirir"[195].

İnsan idrakının tarixi yolu bu cür olduğundan, kateqoriyalar da ən kütləvidən, ən sadədən ən mürəkkəbə, təkdən ümumiyə doğru getmək yolu ilə obyektiv aləmi əks etdirməlidir. V.İ.Leninin belə bir tövsiyyəsi unudulmamalıdır ki, "Marksın "Kapital"ında əvvəlcə burjua (əmtəə) cəmiyyətinin ən sadə, adi, əsas, ən kütləvi, hər an, milyard dəfələrlə təsadüf edilən **münasibəti:** əmtəə mübadiləsi təhlil edilir. Analiz bu ən sadəcə hadisədə (burjua cəmiyyətinin bu "hüceyrəsində") müasir cəmiyyətin bütün ziddiyyətlərini (qesr **bütün** ziddiyyətlərinin rüşeymlərini) aşkara çıxarır. Şərhin davamı bizə bu ziddiyyətlərin və bu cəmiyyətin, onun ayrı-ayrı hissələrinin cəmini, onun başlanğıcından axırınadək inkişafını **(həm** artmasını, **həm də** hərəkətini) göstərir"[196].

---

[194] V. İ. L e n i n. Əsərləri, 38-ci cild, səh. 335.
[99] F. E n g e l s. Təbiətin dialektikası, səh. 194.
[196] V. İ. L e n i n. Əsərləri, 38-ci cild, səh. 383.

MÜNDƏRİCAT

Redaktorlardan ............................................................................ 8
Leninizm müasir dövrün marksizmidir (F. Köçərli, C. Əhmədli) .............................................................................. 13
V. İ. Lenin materialist dialektikanin əsas qanunları haqqında. Qanunların təsnifatı (C. Əhmədli, Z. Bağırov, V. Paşayev, Ş. Quliyev) ............................................................................ 28
Materialist dialektika kateqoriyalarının subordinasiya prinsipləri haqqında (C. Əhmədli, V. Paşayev) ...................... 91

# F.ENGELS VƏ MARKSİZM FƏLSƏFƏSİNİN MÜASİR PROBLEMLƏRİ

**BAKI - 1971**

Elmi redaktor: fəlsəfə elmləri namizədi, V.Ə.Paşayev
Redaksiya heyəti: fəlsəfə elmləri doktoru, professor
C.T.Əhmədli
Fəlsəfə elmləri namizədi, V.Ə.Paşayev
Fəlsəfə elmləri namizədi, M.F.Cəlilov.

F.ENGELS VƏ MARKSİZM
FƏLSƏFƏSİNİN MÜASİR PROBLEMLƏRİ

Yığılmağa verilmişdir 19.10.70-ci il.
Çapa imzalanmışdır 9.11.71-ci il.
FQ 09193. Kağız formatı
Çap vərəqi 13,5.
Sifariş № 913.
Tirajı 2000.

# GİRİŞ

Bütün mütərəqqi bəşəriyyət K.Marksın ən yaxın dostu və silahdaşı, marksizm dünyagörüşünün yaradıcılarından biri, gözəl insan, böyük alim və mütəfəkkir, sadiq proletar inqilabçısı olan F.Engelsin anadan olmasının 150 illiyini təntənə ilə qeyd etməyə hazırlaşır. Əsas məzmunu kapitalizmdən sosializmə keçməkdən ibarət olan yaşadığımız dövrdə həmişə canlı, həyatı olan marksizm dünyagörüşünün formalaşdırılmasında F.Engelsin rolunun və onun ideya-nəzəri irsinin öyrənilməsinin, onun müasirdünya inqilabi hadisələrinin dərk edilməsi və habelə dünyanın inqilabi surətdə dəyişdirilməsi ilə təsdiq edilməsinin öyrənməyin həm nəzəri, həm də əməli əhəmiyyəti artmışdır.

F.Engelsin əsərləri bu gün də insanın insan tərəfindən hər cür istismarını aradan qaldırmaq, yəni sosializm və kommunizm cəmiyyəti qurmaq uğrunda mübarizə aparan bütün dünyanın inqilabi qüvvələri üçün həqiqi nəzəri silah rolunu oynayır. Elə buna görədir ki, marksizmin ideya əleyidarları cəbhəsindən çıxış edərək beynəlxalq irticaya xidmət edən opportunist və təftişçilər F.Engelsin çoxcəhətli nəzəri irsini hər vasitə ilə təftiş etmək, hər vəchlə onun əsassızlığını sübuta yetirmək istəyir, bu məqsəd üçün müxtəlif metodlardan istifadə edirlər. Onların bir qismi F.Engelsin ideya-nəzəri irsinin əhəmiyyətini azaltmaq üçün onun əsərlərini K.Marksın əsərlərindəki ideyaların populyarlaşdırılması kimi qələmə verir, digərləri isə F.Engelsin əsərlərindən öz məqsədləri xatirinə müxtəlif sıtatlar gətirərək onu Marksa nə Leninə qarşı qoymaq istəyirlər. Məsələn, onlar “Anti-Dürinq” əsərini “həqiqi marksizmi” təhrif edən bir əsər kimi qələmə verərək F.Engelsi siniflərə indeferent şəkildə yanaşan və burjua parlamentarizmi tərəfdarı olan bir mütəfəkkir kimi qələmə verirlər[197].

Halbuki marksizmin əsil ensiklopediyası olan həmin əsərdə

---

[197] *Bax: J. “Komunist”, № 14, 1970, səh. 74.*

Marksizm nəzəriyyəsinin qırx il ərzindəki spesifik inkişafı özünəməxsus şəkildə ümumiləşdirilmiş, marksizm nəzəriyyəsi və dialektik metodun ən mühüm cəhətləri müfəssəl şəkildə şərh edilmiş və konkret elmlərin inkişafında öz ifadəsini tapmışdır. V.İ.Leninin "Burada fəlsəfə, təbiət-şünaslıq və ictimai elmlər sahəsindən ən böyük məsələlər təhlil edilmişdir... Bu olduqca məzmunlu və ibrətli bir kitabdır"[198] sözləri bunu aydın göstərir.

V.İ.Lenin "Karl Marks" adlı məqaləsində F.Engelsin ideya-nəzəri irsinə ümumiləşdirilmiş qiymət verərkən qeyd etmişdir ki, "Engelsin bütün əsərlərini nəzərə almadan marksizmi başa düşmək və onu mükəmməl şərh etmək olmaz"[199].

F.Engelsin nəzəri irsinə müraciət etdikdə V.İ.Leninin dediklərinin elmin və inqilabi təcrübənin bütün nailiyyətləri ilə təsdiq olunduğunu, mahiyyət və məzmun etibarı ilə onun təbiət və ictimai elmlərin nailiyyətləri ilə zənginləşdiyini açıqca görmək olar. Məsələ burasındadır ki, F.Engels proletariatın dünyagörüşünü yaradarkən, beynəlxalq fəhlə hərəkatının nəzəriyyə və taktikasını işləyib hazırlayarkən elm xatirinə elm yaratmaq mövqeyində durmamış, insan təcrübəsi və elmi biliyin müxtəlif dövrlərdəki inkişaf səviyyəsini nəzərə almış, onu elmi idrakın metodoloji prinsipləri əsasında ümumiləşdirmişdir. Buna görə də F.Engelsin müxtəlif məsələlərin izahında maraq dairəsi yalnız bir elm çərçivəsində dayanıb qalmamış, çox müxtəlif bilik sahələrini əhatə etməklə ensiklopedik xarakter daşımışdır. Görkəmli proletar inqilabçısı və nəzəriyyəçisi Pol Lafarq öz xatirələrində yazır ki, elə bir elm sahəsi yox idi ki, onunla F.Engels maraqlanmasın.

F.Engels elmi biliyin müxtəlif sahələri ilə maraqlanarkən, hər şeydən əvvəl, burada yeni marksizm dünyagörüşünün əsaslandırılması üçün saysız miqdarda pozitiv materialın olduğunu nəzərə almış, ona görə də istər təbiətşünaslığın, istərsə də insanla

---

[198] *V.İ.Lenin. Əsərləri, 2-ci cild, səh 12.*
[199] *V.İ.Lenin. Əsərləri, 2-ci cild, səh 82.*

bağlı olan müxtəlif ictimai elmlərin məlumatlarına istinad etmişdir. Çünki marksizm dünyagörüşu özündən əvvəlki bütün elmlər sahəsində qazanılmış nailiyyətlərin qanuni varisi kimi həm təbii-elmi, həm də sosioloji biliklərə arxalanmalı idi. Buna görə də F.Engels özünün bütün tədqiqatlarında elmin və insan biliklərinin tarixən mövcud olan təkamülünü tədqit etmək əsasında belə nəticəyə gəlir ki, elmi dialektik-materialist dünyagörüşünü əsaslandırmaq üçün hökmən elmlərin tarixini öyrənmək, məntiqi yolla onun tarixən zəruriliyini sübuta yetirmək lazımdır. Müxtəlif elmlərin tarixini müfəssəl surətdə izləmək əsasında F.Engels özünün "Anti-Dürinq", "Təbiətin dialektikası", "L.Feyerbax və klassik alman fəlsəfəsinin sonu", "Ailənin, xüsisi mülkiyyətin və dövlətin mənşəyi" adlı əsərlərində, habelə bir sıra yazışmalarında belə qərara gəlir ki, həm təbiətdə, həm də cəmiyyətin, və insan idrakının müxtəlif sahərində hər şey dialektik surətdə əmələ gəlir və inkişaf edir. Deməli, bəşəriyyətin ictimai fikrinin və praktikasının inkişafı da nəzəri və əməli cəhətdən elmi sosializmə və kommunizm cəmiyyətinə keçilməsini labüd edir.

F.Engels marksizm dünyagörüşünü bəşəriyyətin elmi fikrinin davamı, onun qanuni varisi, habelə təbiət, cəmiyyət və insan idrakının ən ümumi inkişaf qanunauyğunluqlarını öyrənən bir elmi sistem adlandıraraq bu əsasda onun müxtəlif tərkib hissələrinə dair indi də öz elmi dəyərini tam şəkildə saxlayan bir sıra qiymətli fikirlər irəli sürmüş, onu insan təcrübəsi və elmi biliyin nailiyyətləri ilə subuta yetirmişdir.

K.Marksın sözləri ilə desək, əsil bir ensiklopediya olan, gündüz və gecə vaxtı, yeməkdən sonra və ya ac qarına, hər bir hal da işləməyi bacaran, sürətlə yazan və şeytan kimi fəhmli olan bu adamın (yəni F.Engelsin—red.) çoxşahəli nəzəri irsinə müraciət etdikdə onun biliyinin genişliyi, maraq dairəsinin əhatəliliyi, fikrinin dərinliyi, məntiqinin güclülüyü ilk nəzərdən gözə çarpır.

F.Engelsin nəzəri fəaliyyətində üstün yer tutan sahələrdən biri təbiətşünaslığın fəlsəfi cəhətdən ümumiləşdirilməsindən və

dialektikanı bir elm və inkişaf nəzəriyyəsi kimi əsaslandırmaqdan ibarət olmuşdur. O, göstərir ki, dialektikanın maddi aləmin bütün sahələrində və idrakda fəaliyyət göstərən ümumi qanunları dialektik təfəkkür qanunları şəklində dərk edildikdə və əməli fəaliyyətdə onlardan düzgün istifadə edildikdə elmi tərəqqinin ən mühüm vasitəsi kimi çıxış edirlər. Dialektika qanunlarının xüsusi təbiətşünaslıq elmləri sahəsindəki fəaliyyətini izləmək nəticəsində F.Engels təbiəti dialektikanın məhək daşı adlandırır, dialektik metodu təbiətin müxtəlif bilik sahələrinə tətbiq etmək əsasında təbiətin obyektiv dialektikasını, bununla birlik də təbiətşünaslığın inkişaf meyillərini açıb göstərir.

F.Engels elmlərin klassik təsnifatını verərkən, elmi p qrakın inkişafı gedişində müxtəlif təbiət və ictimai hadisələri öyrənən aralıq elmlərin meydana gələcəyini qabaqcadan xəbər vermişdir. Bu, da elmlərin diferensiasiyası və eqrasiya etdiyi indiki şəraitdə tam mənası ilə sübut olunur.

F.Engels materialist dialektikanı cəmiyyət hadisələrinə ustalıqla tətbiq edərək cəmiyyət hadisələrinin dialektik maqerpalistcəsinə, tarixin materialist anlayışı əsasında öyrənilməsi zərurətini qeyd etmişdir. O, tarixin materialist anlaşılmasının mahiyyətini təhrif edən, marksizmi vulqar materializmin bir növü olan "iqtisadi materializm" adlandıran hər cür nəzəriyyələrə qarşı mübarizə apararaq, iqtisadi bazislə siyasi üstqurumun qarşılıqlı münasibətini bir-birinə bərabər olmayan qüvvələrin qarşılıqlı təsiri adlandırmış, ictimai həyatda mənəviyyatın və i. a. yüksək rolu olduğunu xüsusi qeyd etmişdir.

F.Engelsin istər fəlsəfə, istərsə siyasi iqtisad və elmi kommunizm nəzəriyyəsinə dair ideya irsi son dərəcə zəngin və çoxsahəlidir, o indiki şəraitdə müxtəlif aspektlərdə Sovet və xarici ölkə marksist filosofları tərəfindən tədqiq olunur. Oxucuya təqdim edilən bu məcmuənin müəllifləri isə F.Engelsin nəzəri irsindən yalnız bəzi məsələləri müasir elmi biliklər səpkisində şərh etməyi qarşıya qoymuşlar.

Məcmuənin hazırlanmasında D.Bünyadzadə adına Azərbaycan Xalqq Təsərrüfatı İnstitutu fəlsəfə kafedrasının, Azərbaycan SSR EA Fəlsəfə və hüquq İnstitutunun, S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti fəlsəfə kafedrasının əməkdaşları iştirak etmişlər.

Müəlliflərin fikrincə, F.Engelsin anadan olmasının 150 illiyinə həsr olunan məqalələr məcmuəsi həm mövzu, həm də tədqiq səviyyəsinə görə yekcins olmadığından, orada müəyyən nöqsanlar ola bilər və həmin nöqsanlara görə oxucu təqaqidini müəlliflər səmimi minnətdarlıqla qəbul edəcəklər.

# F.ENGELSİN "TƏBİƏTİN DİALEKTİKASI" ƏSƏRİNDƏ DİALEKTİKA MƏSƏLƏLƏRİ

Marksizmin başlıca fəlsəfi əsərlərindən olan "Təbiətin dialektikası"nda keçən əsrin 80-cı illərinə qədər təbiət "elmlərinin əldə etdiyi ən mühüm nailiyyətlər dialektik materializm fəlsəfəsi əsasında ümumiləşdirilmiş, materialik fəlsəfə ilə təbiətşünaslığın qarşılıtlı nisbəti, sonra mürəkkəb, və rəngarəng əhatəsi aşkar edilmiş, təbiət elmlərinin inkişafının maddi istehsaldan asılı olması və öz növbəsində istehsalın inkişafına onların fəal təsiri aydınlaşdırılmış, o zaman təbiətşünaslıqda mövcud olan metafizik, idealist-aqnostik nəzəriyyələrin ciddi elmi tənqidi verilmişdir.

XIX əsrin ortalarında təbiətşünaslıqda edilmiş üç böyük kəşfin – hüceyrənin kəşfi, energiyanın itməməsi və çevrilməsi qanunu və Darvinin üzvi aləmin inkişafı haqqındakı nəzəriyyəsinin təsiri ilə həmin əsrin ikinci yarısında da təbiət elmləri sürətlə inkişaf etməkdə idi. Təkcə bunu xatırlatmaq kifayətdir ki, Bunzen və Kirxhof tərəfindən spektral təhlilin kəşfi və bu əsasda rubidium, sezium və tallium elementlərinin aşkar edilməsi, A.M.Butlerov tərəfindən üzvi birləşmələrin kimyəvi quruluşu hapqındakı nəzəriyyənin irəli sürülməsi, D.İ.Mendeleyev tərəfindən kimyəvi elementlərin dövri qanununun (dövri sistemin) kəşfi və s. məhz bu dövrə təsadüf edir.

Təbiətşünaslığın belə sürətlə inkişafı, bir tərəfdən, metafizik təfəkkür üsulunun əsaslarını axtararaq onun dialektik təfəkkür üsulu ilə əvəz edilməsi zərurətini hazırlayırdısa, digər tərəfdən, köhnə təfəkkür üsulunun yaşamasında marağı olan təbiətşünaslar və bir sıra burjua ideoloqları tərəfindən müxtəlif mürtəce nəzəriyyələrin (mexanisizm və onun bir növü olan sosial-darvinizm, spiritualizm, fizioloji idealizm, "istilik ölümü" nəzəriyyəsi və s.) yaradılması üçün dolayı əsas kimi istifadə edilirdi.

Deməli, F.Engels "Təbiətin dialektikası" əsərini yazarkən

iki başlıça məqsəd güdürdü: birincisi, təbiətşünaslığın son nailiyyətlərini ümumiləşdirərək, onlardan dialektik materializmin təbiət elmi və təbiət tarixi cəhətdən əsaslandırılması üçün istifadə etmək və dialektik materializmin əsas prinsip və qanunlarını daha da inkişaf etdirmək; ikincisi, təbiətşünaslığın inkişafının təhrifindən yaranan və ondan qida alan mürtəcə nəzəriyyələri tənqid etmək.

K.Marksın və F.Engelsin yaratmış olduqları dialektik materializm təbiət, cəmiyyət və insan təfəkkürünün ən ümumi inkişaf qanunlarını öyrənən bir elmdir. Engels özü isə "Anti Dürinq"in ikinci nəşrinə müqəddimədə yazırdı ki, "təbiəti dialektikcəsinə və bununla birlikdə materialistcəsinə anlamaq üçün riyaziyyata və təbiətşünaslığa bələd olmaq lazımdır". Məhz buna görə də onlar təbiətşünaslığı öyrənməyə ciddi surətdə girişirlər. Həm də Marks diqqətini əsasən tətbiqi təbiətşünaslıq və riyaziyyat üzərində mərkəzləşdirirsə, Engelsin diqqət mərkəzində nəzəri təbiətşünaslıq durur.

F.Engels "Təbiətin dialektikası" üzərində fasilələrlə uzun illər işləmiş, əsərin girişini və bir neçə fəslini, ayrı-ayrı fratmentlərini yazmışdır. Lakin Marksın ölümündən sonra "Kapital"ın ikinci və üçüncü cildlərinin əlyazmasının çapa hazırlanması və beynəlxalq fəhlə hərəkatına rəhbərlik vəzifəsi tək Engelsin üzərinə duşdüyündən, o, bu əsəri başa çatdıra bilməmişdir. Buna baxmayaraq topladığı materialdan "Anti-Dürinq" və "Lüdviq Feyerbax..." əsərlərini yazarkən əhəmiyyətli dərəcədə istifadə etmişdir.

Planın ümumi qeydlərindən göründüyü kimi, F.Engels əsər də təbiət tarixini və təbiətşünaslığın inkişafını materiyanın hərəkətinin ibtidai forması olan mexaniki hərəkətin şərhindən başlayaraq, ictimai həyat hadisələrinin inkişaf dialektikasının, ictimai inkişafın mühüm amili olan əməyin şərhi ilə qurtarmaq niyyətində olmuşdur. Buradan hiss etmək olar ki, bu əsər "Kapital"ın bir növ əvvəli kimi nəzərdə tutulmuşdur.

"Giriş"in birinci hissəsində F.Engels İntibah dövründən başlamış əsərin yazıldığı dövrə qədər təbiətşünaslığın inkişafını tədqiq edir. Tədqiqat göstərir ki, təbiətşünaslığın inkişafı da dialektikanın inkarı inkar qanunu əsasında gedən bir prosesdir. Bu dövrdə təbiətşünaslığın əsasını təşkil edən metafizik metod tarixən qanunauyğun surətdə meydana gəlmiş və qədim mütəfəkkirlərin aləmə ümumi baxışını əvəz etmişdir. Metafizik təfəkkür tərzinə əsaslanan təbiətşünaslıq əldə edilmiş faktik materialın həcmi və sistemə salınması cəhətdən qədim yunan dövrünə nisbətən nə qədər yüksəyə qalxırdısa, bu materiala ideya cəhətdən yiyələnmək və təbiətə ümumi baxış mənasında ondan bir o qədər geri qalırdı. Metafizik dünyagörüşün "mərkəzini təbiətin qətiyyən dəyişilməzliyi haqqındakı təsəvvür təşkil edir. Bu baxışa görə, təbiət, hər hansı bir yolla yaranmış oloa da, bir halda ki, mövcuddur, bütün mövcud olduğu dövr ərzində həmişə dəyişilməz halda qalmışdır"[200]. Belə olduğu halda təbiətin haradan və hansı səbəb üzündən meydana gəldiyi sualına düzgün cavab tapa bilməyən təbiətşünaslıq "hələ də teologiya içərisində dərindən batıb qalır. O hər yerdə son səbəb olaraq, təbiətin özü vasitəsilə izah edilə bilməyən və kənardan burulan bir təkan axtarıb tapır"[201]. Nəzərdən keçirilən dövrün əvvəllərində Kopernik teologiya ilə vidalaşır. Nyuton isə ilk təkan anlayışı ilə həmin dövrü başa çatdırır.

Nəzərdən keçirilən dövrdə "təbiətşünaslığın qalxdığı ən yüksək ümumiləşdirici fikir, təbiətdə qoyulan qaydaların məqsədəuyğunluğu fikrindən, bayağı Volf teleologiyasından ibarət idi; bu teleologiyaya görə, pişiklər ona görə yaradılmışdır ki, siçanları yesinlər, siçanlar ona görə yaradılmışdır ki, pişiklər onları yesinlər, bütün təbiət isə ona görə yaradılmışdır ki, yaradıcının hikməti sübut edilsin"[202].

Təbiəti dəyişməz, donub qalmış bir halda təsəvvür edən

---

[200] *F.Engels. Təbiətin dialektikası, səh. 8.*

[201] *Yenə orada, səh. .*

[202] *Yenə orada, səh 9.*

mstafizik baxışa ilk zərbəni İ.Kant vurdu. İ.Kantın, Laplasın və Herşelin adı ilə bağlı olan "nebulyar hipoteza" sayəsində ilk təkan məsələsi aradan qaldırıldı, Yer və bütün Günəş sistemi zaman daxilində əmələ gəlmiş və daim dəyişməkdə olan bir şey kimi meydana çıxdı.

Həmin nəzəriyyənin mahiyyəti ondan ibarət idi ki, "əgər Yer əmələ gəlmiş bir şey idisə onda onun indiki geoloji, coğrafi, iqlim vəziyyəti, yer üzərindəki bitkilər və heyvanlar da bir zaman əmələ gəlmiş bir şey olmalı idi və yer kürəsinin yalnız bir-birinin yanında yerləşmək şəklində – məkan daxilində deyil, habelə birinin digərindən sonra gəlməsi şəklində – zaman daxilində də tarixi olmalı idi"[203].

Yer üzərindəki dəyişmə və inkişafı fövqəltəbii bir qüvvənin fəaliyyəti ilə bağlayan Küvyenin kataklizmlər nəzəriyyəsi həmin məsələləri Yerin yavaş-yavaş dəyişilməsinin tədrici təsiri ilə izah edən Lyaelin nəzəriyyəsi ilə sarsmış oldu. Mayer, Coul, Koldinq, Qrov tərəfindən kəşf edilmiş energiyanın itməməsi və çevrilməsi qanunu "sayəsində müxtəlif fiziki qüvvələr fizikanın, necə deyərlər, bu dəyişməz "növləri" – materiyanın müxtəlif yollarla diferensiallaşan və müəyyən qanunlar üzrə bir-birinə keçən hərəkət formalarına çevrildilər"[204]. Kimya və biologiya sahəsində də əldə edilən nailiyyətlər köhnə metafizik metodu tamamilə sarsıtmış və onun yeni dialektik metodla əvəz edilməsi zərurətini meydana gətirmişdi. Bir sözlə, empirik təbiətşünaslıq o qədər müsbət material toplamışdı ki, hər bir tədqiqaq sahəsində bu materialı sistemə salmaq, ümumiləşdirmək və deməli, ondakı qanunauyğunluğu müəyyən etmək, müxtəlif bilik sahələri arasında düzgün əlaqə yaratmaq qəti bir zərurətə çevrilmişdi. Bu vəzifəni müvəffəqəyyətlə yerinə yetirmək üçün isə metafizik təfəkkürdən dialektik təfəkkürə qayıtmaqdan başqa digər çıxış yolu yox idi. F.Engels yazır ki, "bu və ya başqa bir şəkildə burada metafizik təfəkkürdən dialektik təfəkkürə qayıtmaqdan başqa

---

[203] *F.Engels. Təbiətin dialektikası, səh. 10.*

[204] Yenə orada, səh. 12.

heç bir çıxış yolu, aydınlıq əldə etmək üçün başqa imkan yoxdur”[205]. Bununla yanaşı dialektikaya nifrət edilməsi cəzasız qalmır. “Hər cür nəzəri təfəkkürə qarşı nə qədər etinasızlıq göstərilsə də, hər halda nəzəri təfəkkür olmadan təbiətin heç ikicə faktını da bir-birilə əlaqələndirmək və ya onların arasında olan əlaqəni başa düşmək mümkün deyildir. Məsələ yalnız, bu halda düzgün düşünub düşünməməkdədir, – nəzəriyyəyə qarşı etinasızlıq göstərilməsi isə, özlüyündə aydın olduğu kimi, bir naturalist kimi düşünməyə və, deməli, yanlış düşünməyə doğru aparan ən müstəqim yoldur. Lakin ardıcıl surətdə axıradək yeridilən yanlış təfəkkür, çoxdan məlum olan dialektika qanununa əsasən, hökmən, onun başlanqıc nöqtəsinə açıqca zidd olan nəticələrə gətirib çıxarır. Beləliklə də, dialektikaya qarşı göstərilən empirik nifrətin cəzası bundan ibarət olur ki, ən sağlam düşünən empiriklərdən bəziləri ən vəhşi bir mövhumatın – müasir spiritizmin qurbanı olurlar”[206].

Təbiətşünaslığın dialektikaya yiyələnməsi zərurətini göstərdikdən sonra F.Engels bilavasitə dialektik metodun xarakteristikasını verir. Burada Engelsin məqsədi dialektik metodun müntəzəm şərhini verməkdən ibarət deyil, dialektikanın əsas qanunlarının konkret elm sahələrində də fəaliyyət göstərdiyini, yəni ümumi halda artıq müəyyən edilmiş qanunların xüsusi hal üçün də qüvvədə olduğunu sübut etmək olmuşdur. Həm də bu qanunları o, hazır qanunlar şəklində təbiətə qəbul etdirmək deyil, həmin qanunları tabiətin özündə axtarıb tapmışdır. “Biz hamımız bu fikirdəyik ki, hər bir elm sahəsində istər təbiət sahəsində, istərsə tarix sahəsində özümüzə məlum olan faktları əsas tutmaq lazımdır, deməli, təbiətşünaslıqda müxtəlif predmet formalarını və materiyanın hərəkətinin müxtəlif formalarını əsas tutmaq lazımdır, deməli, nəzəri təbiətşünaslıqda da əlatələr quraşdırmaq və bunları faktlara daxil etmək olmaz, bunları faktlardan hasil

---

205 *F.Engels. Təbiətin dialektikası, səh. 27.*

206 Yenə orada, səh. 41-42.

etmək və, tapdıqda, mümkün dərəcədə təcrübə yolu ilə sübut etmək lazımdır”[207].

Materialist dialektikanın ən ümumi qanunları olan əksliklərin vəhdəti və mübarizəsi qanunu, kəmiyyət dəyişmələrinin keyfiyyət dəyişmələrinə keçməsi qanunu və inkarı inkar qanununu təhlili, bu qanunlar arasındakı qarşılıqlı əlaqənin və asılılığın müəyyən edilməsi, konkret elm sahələrində dialektikanın əsas qanunlarının təzahür xüsusiyyətlərinin aşçara çıxarılması “Təbiətin dialektikası” əsərində başlıca yerlərdən birini tutur.

F.Engelsin fikrincə dialektik materializmin bu üç universal qanunu əlaqə və münasibətlərin ən ümumi xarakterini göstərməklə metafizikanın əksinə mövcud olan bir elmi – dialektikanı xarakterizə edir və həmin elmin məzmununa daxil olan ən ümumi qanunlar “təbiətin və bəşər cəmiyyətinin tarixindən... abstraksiya edilir. Həmin qanunlar tarixi inkişafın bu hər iki fazasının, (təbiət və cəmiyyət—C.Ə.) habelə təfəkkürün özünün məhz ümumi qanunlarından başqa bir şey deyildir”[208].

“Təbiətin dialektikası” əsərində müfəssəl tədqiq edilmiş məsələlərdən biri də materiya və hərəkət problemidir. F.Engels materiyanın movcudluq forması olan hərəkətin müxtəlif formalarının düzgün müəyyən edilməsinə, bu formalar əsasında mövcud olan subordinasiyaya son dərəcə ciddi əhəmiyyət vermişdir, çünki məhz hərəkətin müxtəlif formaları arasındakı nisbətin təhrif olunması, müxtəlif növ hərəkətlərin bir-birinə müncər edilməsi mexanisizm qəbilindən olan bir sıra nəzəriyyələrin meydana gəlməsinə səbəb olmuşdur. F.Engels XVIII əsrdən irs qalan və XIX əsrdə də davam etdirilən, hərəkət formalarının dialektik

---

[207] *F.Engels. Təbiətin dialektikası, səh. 29.*

[208] *F.Engels. Təbiətin dialektikası, səh. 43. Ətraflı məlumat üçün bax: C.Əhmədli. Materialist dialektikanın qanun kateqoriyası, Bakı, 1966: C.T.Əhmədli, Z.N.Bağırov, V.Paşayev, Ş.Quliyev. Materialist dialektikanın əsas qanunları. Qanunların təsnifatı, “Lenin ideyaları və müasirlik” məcmuəsi. Bakı 1970.*

qarşılıqlı əlaqə və mahiyyətini təhrif edən mexanisizmi xarakterizə edərək göstərir ki, "təbiətşünaslarda hərəkət həmişə mexaniki hərəkətlə, yerdəyişmə ilə eyniləşdirilir və bu eyniləşdirmə özlüyündə aydın olan bir şey hesab edilir. Bu eyniləşdirmə, kimyaya qədərki XVIII əsrdən irs qalmışdır və proseslərin aydın başa düşülməsini çox çətinləşdirir. Hərəkət materiyaya tətbiq edildikdə ümumiyyətlə dəyişiklik deməkdir. Hər şeyi mexaniki hərəkətə müncər etmək yolunda edilən qızğın səylər də yenə bu cür anlaşılmazlıqlardan irəli gəlir. Bununla da hərəkətin başqa formalarının spesifik xarakteri pərdələnir"[209].

Təbiət elmlərinin öyrəndiyi hərəkəti Engels başlıca olaraq dörd qrupa ayırır; mexaniki, fiziki, kimyəvi və bioloji (hərəkətin ən mürəkkəb forması olan ictimai hərəkətin şərhini F.Engels "Anti-Dürinq" və "Lüdviq Feyerbax və alman klassik fəlsəfəsinin sonu" əsərlərində vermişdir). Hərəkət formalarının bu ardıcıllıqla təsnifatını verərkən F.Engels belə bir cəhəti əsas tutmuşdur ki, təbiətin özünün inkişafında da ən sadə hərəkət forması olan mexaniki hərəkətdən daha mürəkkəb formalar olan fiziki, kimyəvi, üzvi həyat və s. formalara keçid müşahidə olunur. Həmin formaların bir-birinə keçməsi isə onların öz təsiri ilə sübut olunur. "Kütlələrin mexaniki hərəkəti istiliyə, elektrikə, maqnitizmə keçir; istilik və elektrik kimyəvi parçalanmaya keçir; kimyəvi birləşmə prosesinin özü, yenə də istilik və elektrik doğurur, elektrik vasitəsilə də maqnitizm doğurur, nəhayət, istilik və elektrik özü kütlələrin mexaniki hərəkətini törədir. Həm də bu, elə baş verir ki, hərəkətin bir formasının müəyyən miqdarına həmişə hərəkətin başqa formasının müəyyən miqdarı dürüst müvafiq gəlir..."[210] Həm də bu hərəkət formaları arasındakı qanunauyğunluq elədir ki, hər bir sonrakı hərəkət forması özündən əvvəlki formanı da əhatə edir. Lakin nə sadə hərəkət forması mürəkkəb formaya, nə də hərəkətin mürəkkəb forması sadə forma-

---

[209] *F.Engels. Təbiətin dialektikası, səh. 217-218.*
[210] *F.Engels. Təbiətin dialektikası, səh. 58.*

ya müncər edilə bilməz. F.Engels hərəkət formalarının subordinasiyasından danışarkən göstərir ki, aşağı və yuxarı, əsas və yardımçı hərəkət formaları arasındakı qarşılıqlı münasibət dialektik xarakter daşıyır. Belə ki, "hərəkətin yüksək formaları eyni zamanda hərəkətin başqa formalarını da törədir və necə ki, temperatur və elektrikhalı dəyişilmədən kimyəvi təsir mümkün deyildir, üzvi həyat isə mexaniki, molekulyar, kimyəvi, termik, elektrik və başqa bu kimi dəyişikliklər olmadan mümkün deyildir. Lakin bu ikinci dərəcəli formaların olması ilə götürülən hər bir halda başlıca formanın mahiyyəti bitmir"[211].

Hərəkət formalarının təsnifatı prinsipinə əsaslanaraq F.Engels belə bir mühüm nəticəyə gəlir ki, hərəkətin dərk edilməsi də sadə formalardan başlayıb daha mürəkkəb formalara keçməli idi. Təbiətşünaslığın sonrakı təhlili bu nəticənin tamamilə doğru olduğunu sübut etdi. "Doğrudan da biz gərürük ki, təbiətşünaslığın tarixi inkişafında hər şeydən əvvəl sadəcə yerdəyişmə nəzəriyyəsi, səma cisimləri və yer kütlələri mexanikası işlənib hazırlanır; onun ardınca molekulyar hərəkət nəzəriyyəsi, fizika, bunun da lap ardınca, demək olar, bununla yanaşı, bəzən də bunu qabaqlayaraq, atomların hərəkəti haqqındakı elm, kimya gəlir"[212]. Bu biliklər yüksək inkişaf pilləsinə çatandan sonra həyat prosesini təşkil edən bioloji hərəkət hadisələrinin öyrənilməsinə və izahına müvəffəqiyyətlə başlandı.

"Təbiətin dialektikası" əsərinin sonrakı bəhslərində yuxarıdakı prinsipi əsas tutaraq F.Engels ilk dəfə elmlərin çü içün materialist təsnifatını verir. O yazır ki, elmlərin nifahı eyni zamanda onların öyrəndiyi hərəkət formalarını özünə məxsus daxili ardıcıllığa müvafiq təsnifat olmalıdır. "Hərəkətin bir forması digər formasından inkişaf etdiyi kimi, həmin formaların inikası, müxtəlif elmlər də, zəruri olaraq bir-birindən irəli gəlməlidir"[213].

---

[211] *F.Engels. Təbiətin dialektikası, səh. 218.*
[212] Yenə orada, səh. 50.
[213] Yenə orada, səh. 219-220.

Beləliklə, elmlərin subordinasiyası aşağıdakı qaydada olmalıdır: mexanika, fizika və onun müxtəlif bəhsləri, kimya və onun sahələri, üzvi aləmin inkişafını öyrənən biologiya.

F.Engels müxtəlif elmlər arasındakı uçurumun aradan qaldırılmasını, bu elmlərin bir-birinə keçidlərinin öyrənilməsini təbiətşünaslığın ən başlıca vəzifəsi hesab edir. Müxtəlif hərəkət formalarının təmasını öyrənən yeni elmlərin yaranacağını və məhz bu sahələrdə xüsusilə böyük kəşflər olacağını Engels dahiyanə surətdə qabaqcadan söyləmişdir. Fiziki kimya, biologiya və s. bu qəbildən olan elmlərin meydana gəlməsi və nailiyyətləri Engelsin bu uzaq görənliyini sübut etdi.

Bütövlükdə təbiətşünaslığa aid olan ümumi nəzəri problemlərin şarhindən sonra F.Engels ayrı-ayrı elmlərin dialektikasını göstərir, müxtəlif təbii – elmi məsələlərin nəzəri izahında bir sıra idealist-aqnostik nəzəriyyələrlə mübarizə edir.

F.Engels çox böyük məharətlə riyaziyyatı obyektiv gerçəklik hadisələrindən ayıranlara, məsələn, sonsuz kiçilənlər hesabına tətbiq edilən kəmiyyətləri – diferensialları və müxtəlif tərtibli sonsuz kiçilənləri insan ruhunun xalis sərbəst yaradıcılığı məhsulu hesab edənlərə, obyektiv aləmdə bunlara heç bir şeyin mütabiq olmadığını iddia edənlərə qarşı çıxış edir. Bir sıra konkret hadisələrin timsalında o, sübut edir ki, xəyali kəmiyyətlərlə, abstraksiyalarla məşğul olan riyaziyyat ifrat dərəcəyə çatdırıldıqda öz obyektiv əsasından ayrılır və belə olduğu təqdirdə bütün abstraksiyalar mənasızlığa və ya öz əksliyinə çevrilir. Əslində isə riyazi sonsuzluq, inteqral və differensial gerçəklik nisbətlərindən götürüldüyünə görə ancaq gerçəklik əsasında izah edilə bilər, çünki "bizim subyektiv təfəkkürümüz və obyektiv aləm eyni qanunlara tabedir, buna görə də onlar öz nəticələri etibarı ilə bir-birinə zidd ola bilməz, onlar bir-birinə uyğun olmalıdır"[214].

Buradan aydın olur ki, sonralar təbiətşünaslıqdakı böhranı

---

214 *F.Engels. Təbiətin dialektikası, səh. 235.*

yaratmış səbəblərdən birini, yəni riyaziyyatın əks etdirdiyi obyektdən ayrılaraq, ifrat abstraktlaşdırılması qorxusunu F.Engels hələ keçən əsrin 70-ci illərində görmüş və ona qarşı ciddi mübarizə aparmışdır.

F.Engels təbiət elmlərindəki obyektiv dialektikanın insan şüurundakı inikasını, yəni subyektiv dialektikanı da tədqiq edir. Obyektiv dialektika bütün təbiətdə hökm sürür. Subyektiv dialektika, dialektik təfəkkür isə təbiət həyatı üçün şərt olan əksliklər yolu ilə bütün təbiətdə hökm sürən hərəkətin yalnız inikasıdır.

F.Engels bu dialektik prosesi hərəkətin və deməli, müxtəlif elmlərin öyrəndikləri müxtəlif sahələrdə izləyərək cəzbetmə və itələmənin, maqnitizmin polyarlığının, elektrikdə qarşılıqlı gərginliyin, canlı zülalın meydana gəlməsi zamanı polyarizasiyanın, irsiyyət və uyğunlaşmanın, tarixdə tərəqqinin, müsbət və mənfi meyllərin inkarı timsalında belə nəticəyə gəlir ki, "ya-ya" ilə birlikdə, habelə "həm o, həm də başqası"nı qəbul edən və əkslikləri vasitələndirən dialektika, təbiətşünaslığın (biz də əlavə edək ki, ictimaiyyətşünaslığın—C.Ə.) inkişafının hazırkı mərhələsinə uyğun olan, ən yüksək pillədə yeganə təfəkkür metodudur"[215].

İnikas nəzəriyyəsinin əsasını təşkil edən bu müddəanı rəhbər tutaraq F.Engels təbiət elmlərində qanunların dərk olunması yolunu açıb göstərmişdir. O, obyektiv əlaqələrin özlərinin təkcədən xüsusiyə və oradan isə ümumiyə yüksəldiyinə istinadən həmin əlaqələri ifadə edən qanunların dərk edilməsində də mühakimələrin təkcədən xüsusiyə, oradan da ümumiyə doğru getdiyini göstərmişdir. Bu cür mühakimələri dialektik məntiq öyrənir. "Köhnə, xalis formal məntiqin əksinə olaraq, dialektik məntiq, təfəkkürün hərəkət formalarını, yəni mühakimələrin və əqli nəticələrin müxtəlif formalarını bir-bir saymaqla və tam rabitəsiz halda yan-yana qoymaqla kifayətlənmir. O, əksinə, bu formala-

[215] *F.Engels. Təbiətin dialektikası, səh. 184-158.*

rın birini digərindən çıxardır. Onların arasında koordipasiya münasibəti deyil, subordinasiya münasibəti müəyyən edir, aşağı formalardan yüksək formaları inkişaf etdirir"[216].

F.Engels həmin fikri hərəkətin müxtəlif formaları haqqında insan biliyinin tarixi təkamül yolu ilə zənginləşməsi misalı ilə çox aydın şəkildə izah edir. O göstərir ki, sürtünmənin istilik törətməsinin əməli kəşf edilməsindən neçə min illər keçdikdən sonra elə bir vaxt çatmışdır ki, insan beyni: "sürtünmə istiliyin mənbəyidir" mühakiməsini, – mövcud varlıq mühakiməsini, həm də iqrari mühakiməni yeridə biləcək dərəcədə inkişaf etmişdir[217]. Daha bir neçə min il keçdikdən sonra Mayer, Çoul, Koldinq həmin xüsusi prosesi digər oxşar proseslərlə müqayisə edərək, "hər bir mexaniki hərəkət sürtübmə vasitəsilə istiliyə çevrilməyə qadirdir"[218] mühakiməsini irəli sürdülər. Üç il keçdikdən sonra isə daha ümumi mühakimə olan "hərəkətin hər bir forması hər bir hal üçün müəyyən şəraitdə, birbaşa və ya dolayı yolla hər bir başqa hərəkət formasına çevrilməyə qadir və məcburdur"[219] mühakiməsi irəli sürüldü. F.Engels göstərir ki, qanunun kəşf olunmasında birinci mühakiməni təkcə, ikincini xüsusi və üçüncünü ümumi mühakimə adlandırmaq olar. "Bu formaya gəlib çatdıqda qanun özünün son ifadəsinə yetişmişdir. Yeni kəşflər vasitəsilə biz qanuna yeni sübutlar, yeni, daha zəngin məzmun verə bilərik"[220].

Təbiət elmlərinin nailiyyətlərinin, xüsusilə maddənin quruluşu sahəsində (atomistika) əldə edilmiş nəticələrin dialektik materializm mövqeyindən ümumiləşdirilməsi Engel bir sıra dahiyanə fikirləri qabaqcadan söyləmək imkanı vermişdir. Məsələn, o dövrdə atomlar maddənin ən sadə və kiçicik hissəsi hesab edilirdi. Engels isə fizikanın və xüsusilə

---

[216] Yenə orada, səh. 194.
[217] Yenə orada, səh. 195.
[218] Yenə orada, səh. 196
[219] Yenə orada, səh.
[220] Yenə orada, səh.

kimyanın inkişaf meylinə əsaslanaraq göstərmişdir ki, atomlar heç də bəsit bir şey deyildir, maddənin bizə məlum olan ümumiyyətlə ən kiçik hissəcikləri deyildir”[221], atomlar mürəkkəb tərkibə malikdir. Fizika və kimya elmlərinin, xüsusilə atom və kvant mexanikasının inkişafı nəticəsində atomun mürəkkəb tərkibinin açılması, atom daxilində bir sıra elementar hissəciklərin kəşfi F.Engelsin irəlicədən dahiyanə surətdə söylədiyi sözləri tamamilə sübut etdi.

“Təbiətin dialektikası” əsərində materialist dialektikanın qanunlarına və kateqoriyalarına dair, idrak nəzəriyyəsinə, idrak prosesində analizin və sintezin, induksiyanın və deduksiyanın, hipotezin roluna, konkret elmlərin idrak metodlarına və bir sıra başqa mühüm məsələlərə dair son dərəcə qiymətli fikirlər vardır. Bu əsərin bütün zənginliyini oxucu ancaq onun özünü səbirlə, dərindən oxuyub öyrənməklə müəyyən edə bilər.

Engels bu əsərini yazarkən dövrünün təbii-elmi nəzəriyyə və təlimlərindən istifadə etmişdir. Həmin nəzəriyyə və təlimlərdən bir qisminin elmin sonrakı inkişafı nəticəsində təkzib edildiyinə (məsələn, efir nəzəriyyəsi və s.) yaxud dəqiqləşdirildiyinə görə əsərdəki bəzi müddəalar elmin müasir səviyyəsi nöqteyi-nəzərindən köhnəlmişdir. Lakin bu hal ancaq təfərrüata aiddir. Ümumi nəzəri məsələlər cəhətdən, fəlsəfi müddəalar və konkret elmlərin metodoloji məsələləri cəhətdən “Təbiətin dialektikası” əsəri öz əhəmiyyətini tam mənada bu gün üçün də saxlayır. Müasir burjua fəlsəfə və təbiətşünaslığındakı bir sıra mürtəce idealist cərəyanlara qarşı mübarizədə bu əsərdən istifadə edilməlidir.

---

[221] *F.Engels. Təbiətin dialektikası, səh. 239.*

# MARKSİST VƏ DİNİ ƏXLAQDA AZADLIQ VƏ ZƏRURƏT PROBLEMİNƏ DAİR

Azadlıq və zərurətin nisbəti, onların dialektik qarşılıqlı münasibətinin müəyyən edilməsi həmişə etikanın mühüm və aktual problsmlərindən olmuşdur. Elə bir etik sistem, əxlaqi baxış tapmaq çətindir ki, bu və ya digər dərəcədə, insan idrakının dünyaya və özünə münasibəti məsələsi ilə bağlı olan bu problemə toxunmasın, ondan büsbütün yan keçsin. Dini əxlaqda da belədir. F.Engelsin yazdığı kimi, "əxlaq və hüquqdan bəhs edərkən iradə azadlığı deyilən azadlıq, insanın ağlı başında olması, zərurətlə azadlıq arasındakı nisbət məsələsindən danışmamaq olmaz"[222]. Son illərdə isə sovet cəmiyyətində mənəvi amillərin rolu yüksəldikcə bu problemə-əxlaqi azadlıq və zərurətin nisbəti məsələlərinə maraq daha da artır.

Hələ çox qədimdən insan davranışlarında azadlıq və zərurətin münasibəti barədə mübahisələr gedir. İnsan davranışını hansı amillər həll edir? Obyektiv şəraitmi, yoxsa ilahi iradəmi həlledicidir? İnsan mənəvi azadlığa malikdir, yoxsa yox? Öz hərəkətlərinə görə insan cavabdehdir, məsuldur, yoxsa yox? Şəxsiyyətin mənəvi azadlığı nədir və onu necə əldə etmək olar? Bu məsələlər qədim dövrlərdən ta bu günə qədər bütün etik sistemlərinin diqqət mərkəzində durur. Bu suallara din xadimləri müxtəlif mövqedən yanaşmış, öz dini moizələrində onlara cürbəcür cavablar verməyə çalışmış, çox halda biri-birini rədd edən fikirlər söyləmişlər.

Xristianlıq, islam və digər dünya dinlərinin meydana çıxmasından hələ əvvəllərdə də insanın iradə azadlığı ziddiyyətli izah edilmiş, taleyə inam əsasında davranış normalarının mütləqliyi fikri qəbul olunmuşdur.

Sinifli cəmiyyətin meydana gəlməsi ilə insanların bir sıra təbiət qüvvələri və eləcə də istismar qarşısında gücsüzlüyü və

---

[222] *Yenə orada, səh. 112.*

acizliyi onların şüurunda tale qarşısında gücsüzlüz və acizlik kimi əks olunurdu. Məlumdur ki, təkallahlılıq dinlərində, allah "qadiri-küll", bütün canlıların həyatını əvvəlcədən təyin edən bir varlıq kimi izah olunur. Allah iradəsi ilə hər şeyin əvvəldən təyin olunması fikri əsasında allahın özünün hər şeyə qadir olması nəticəsi çıxarılır. Bütün dinlərdə allah həm hər şeyə qadir kimi, həm də mütləq ideya və ən yüksək mənəvi qüvvə kimi verilir. Bununla bərabər insan taleyinə inam mistik-dini pərdədə olsa da, bir sıra yeni və mühüm cəhətlər də kəsb edir. Bu inam özündə müəyyən şəxsin (peyğəmbər və b.) müdrik qabaqgörənliyini də, təbiət qüvvələrini şüurlu surətdə məqsədə yönəltmək bacarığını da birləşdirir. Bu yeni cəhətlər isə durmadan artan istismar nəticəsində xalq kütlələrini səbirli olmağa və ya dözməyə çağırmaq, onlarda müəyyən "xilaskara" inam yaratmaq ehtiyacından irəli gəlirdi.

İslam ruhaniləri və fanatik dindarlar daim təbliğ edirlər ki, hər şey allah iradəsindən asılıdır, əgər allah iradəsi olmasa həyatda heç bir şey əmələ gəlməz, heç bir dəyişiklik və yenilik baş verə bilməz. Quranda oxuyuruq: "Allahın iradəsi olmadan ağacdan bir yarpaq belə düşmür" (6, 59), "hər şeyin müəyyən olunmuş vaxtı var" (20, 129), "bizim başımıza ancaq o şeylər gəlir ki, onu allah bizim alnımıza yazmışdır" (9, 51), insan "xaliqin əvvəlcədən müəyyən etdiyi yolun yolçusudur", "onun sərbəst iradəsi yoxdur" (28, 68)[223].

Əgər hər şey allah iradəsi ilə yaranırsa, onda belə bir sual ortaya çıxır: insanın bütün davranışları əvvəlcədən allah tərəfindən təyin olunmamışdırmı? Allah hər hansı bir adamın düzgün və yaxud yalançı olmasını, onun pis və ya yaxşı yol tutmasını əvvəlcədən təyin etmirmi? Əgər dindarlar öz etiqadlarında ardıcıldırlarsa, onda gərək bu suala onlar müsbət cavab versinlər. Lakin onlar qeyd edirlər ki, allahın əvvəlcədən hər şeyi təyin etməsini şərti qəbul etmək lazımdır. Allah hər şeyi,

223 Bax: Коран, M., 1963. Birinci rəqəm Quranın surəsini, ikinci rəqəm isə ayəsini göstərir.

məsələn insanın xeyirlə şər arasında nəyi seçib götürəcəyini qabaqcadan görür və təyin edir. Lakin bu, işin mahiyyətini dəyişmir. Əgər allah insanı yaratmış və onun bütün hərəkətlərini əvvəlcədən müəyyən etmişsə, onda iradə azadlığı öz-özlüyündə formal və ya mümkün olmayan bir şeyə çevrilir. Artıq bu azadlıq yox, "azadlıq kimi bir şey", qeyri-real bir şey olur.

Din xadimləri arasında insanın təbiətinin başa düşülməsi, onun mahiyyətinin dərk edilməsi məsələsində də fikir birliyi yoxdur. İslam ruhanilərinin bəziləri belə iddia edirlər ki, insanın (Adəmin nəslinin) iradəsi anadan olandan korlanıb, insanda hər şey qabaqcadan, şər və yalnız şər arzu zəminində qurulmuşdur. İnsan xeyir əməl, yaxşılıq etmək iqtidarında deyildir. İnsan heç vaxt azad ola bilməz. Azad insan yalnız ilk insan, Adəm idi, bütün onun nəsli, yəni qalan insanlar xeyir əməl yolunda azalıqdan məhrumdurlar. İnsanın xeyir iş görməsi onun şəxsi fəaliyyəti, azad iradəsi nəticəsi deyil, allah iradəsi nəticəsində-insanın qəlbinə daxil olmuş, insanı "ilkin təbiətinə qaytarmış" xüsusi bir qüvvənin iradəsi nəticəsində baş verir. Beləliklə, dinə görə insan müəyyən bir iş tutarkən onun iradə azadlığı yoxa çıxır ki, guya bu da Adəmin zamanından irsi olaraq müəyyənləşmişdir.

Göstərmək lazımdır ki, hələ islam dininin yayıldığı və yüksək siyasi-dini (ideoloji) mövqe tutduğu ilk dövrlərdə belə, bu dinin tale təlimində, xüsusilə iradə azadlığına münasibətdə mühüm ziddiyyətlərin olduğu ciddi tənqid edilmişdir. Bu ziddiyyətin mövcudluğunu hətta müsəlman ruhanilərinin özləri də etiraf etməli olmuşlar. Çünki islam təliminə görə insanda iradə azadlığının olması inkar olunur, həyatda baş verən bütün yaxşı və pis əməllərin hamısı allahın adı ilə bağlanılır, hər şeyin törədicisi və səbəbkarı allah hesab edilirdi. Bu isə, o dövrdə feodal üsul-idarəsinə, islam təbliğatçılarına tabeçilikdən boyun qaçıran, azadlıq mübarizəsinə qoşulan zəhmətkeşlərin hərəkətlərinin əsil səbəbi haqqında yanlış təsəvvür oyadır, bütün bunların mənbəyinin "ilahi səbəblə" bağlı olması kimi yanlış

nəticə çıxarılırdı. Hakim sinfə isə daha mənfəətli ideoloji təlim lazım idi. Dinin tale təlimi onun mənafeyini tam ifadə etmirdi.

Elə buna görə də müsəlman ruhaniliyi içərisindən insanın iradə azadlığına malik olması, hərənin öz törətdiyi hərəkət, üçün cavab verməli olduğu fikrini təbliğ edənlər də meydana çıxmışdır. Belə ruhanilər iddia edirdilər ki, allah insanı yaratdıqdan sonra daha onun işinə qarışmır, həyatda hər şeyi (hərəkətləri) insanlar özləri törədirlər, bütün yaxşı və pis əməlləri şüurlu surətdə, öz iradələri ilə görürlər. İnsan bütün hərəkətlərində,–istər tərifəlayiq, istərsə də cinayətkar hərəkətlər olsun,–tamamilə sərbəstdir. Bu ideya ona görə yayıla bilmişdir ki, o, istismarçıların mənafeyinə uyğun idi. Çünki bu ideya "allahı istismarçılara qarşı mübarizənin ilk səbəbkarı kimi tanımaq imkanını" aradan qaldırırdı[224]. İradə azadlığını qəbul etmək yolu ilə hərənin öz əməli qarşısında cavab verəcəyi, məsuliyyətə cəlb olunacağı təbliğ olundu.

Məhz insanın hərəkət və davranışlarında sərbəstliyini, "iradi azadlığı"nın mövcudluğunu qəbul edən müsəlman ilahiyyatçıları, xüsusilə mötəzililər cərəyanına mənsub olanlar iddia edirdilər ki, "insanda yaxşı nə varsa allahdan, pis nə varsa onun özündəndir" (4, 81). Sinfi mənafe nöqteyi-nəzə rindən mötəzililər "pis əməllərinə görə insanın cavab verməsini" tələb edirdilər.

İnsan nə üçün müəyyən xeyir iş, yaxşı əməl görə bilər? Din xadimləri bu suala da qeyri-elmi, ziddiyyətli cavab verirlər. Onların bəziləri, xüsusilə, insanın azad iradəsinin olduğunu qəbul edənlər belə iddia edirlər ki, insan əgər müəyyən xeyir iş görürsə, bu yenə allahdandır, allah tərəfindən "təbiətən xeyirxah", "şərə meyl etməyən" yaradılmış ilkin insanın (Adəmin) əməllərinin təbii qalıqlarıdır. Məhz buna görə də guya insan xeyri seçməkdə də nə isə bir azadlıq kəsb edir.

Bütun dinlər kimi islamda da pessimizm, fatalizm, insanın qüvvəsinə inamsızlıq üstün yer tutur. K.Marksın ifadəsi ilə

---

[224] *Y. A. Belyayev. Müsəlman təriqətləri, Bакı, 1958-ci il, səh. 45.*

desək, fatalizm, “müsəlmanlığın məğzini təşkil edir”[225]. İslam dini dindarlara uzun zaman belə bir ideya aşıldmışdır ki, hər bir adamın öz taleyi vardır, “allah hərəyə bir bəxt vermişdir”. Buradan da belə nəticə çıxarılırdı ki, hamının taleyini əvvəlcədən ilahi qüvvə müəyyən etmişdir, allah hərəyə nə qədər lazımdırsa hamısını vermişdir, dəyişməz əbədi təbii və ictimai mühit yaratmışdır. Ona görə də adamların obyektiv zərurəti dərk edərək azad olmaları və ya başqa sözlə, təbiəti və ictimai mühiti dəyişdirmək uğrunda ciddi-cəhd göstərmələri, mübarizə aparmaları lazım deyildir, bəlkə də artıq və mənasızdır. Bu əhval-ruhiyyə isə, həmişə dindar insanı allah, tale qorxusu ilə yaşayan iqtidarsız, aciz oyuncağa çevirmiş, “canlını meyitlə əvəz etmişdir”. Böyük inqilabçı yazıçı M.Qorki yazırdı ki, min illər ərzində dinin “tale” təlimi əsasında tərbiyələnmiş zəhmətkeş insanda “həyata qarşı passiv, itaətkar olmaq ideyaları, mütilik əxlaqı formalaşır”[226].

Doğrudur, din xadimləri insanda azad iradənin olduğunu çox vaxt açıq-açığına inkar etmirlər. Onlar iddia edirlər ki, insan bir şeyi dərk edərkən, bir xeyir iş görmək istəyərkən, xeyir özü allah tərəfindən (əgər insan ondan istifadə etmək istəyirsə) ona yaxınlaşır. Bax buna görə insanın azad iradəsi ola bilməz. Bununla da din mahiyyət etibarilə insanın mənəvi azadlığının, azad iradəsinin olduğunu inkar edir. Əgər azadlıq varsa, bu xeyirlə şər arasındakı azadlıqdır və buradan da əgər xeyir iş tutmaq istəyirsənsə, allahın quluna çevrilməli və öz şəxsiyyətini itirməli, öz mənliyindən imtina etməlisən. “İnsan mahiyyəti öz şəxsi iradə azadlığından imtina etməklə təzahür edə bilər. O, mütləq “Mən”in iradəsinin ifadəçisidir”. Dinçilərin etik fəlsəfəsi bundan ibarətdir. Bu nəzəriyyəyə əsaslandıqda insanda Mübarizlik keyfiyyətləri tərbiyə etmək mümkün deyildir. Bu nəzəriyyədən belə yanlış nəticə çıxır ki, ümumiyyətlə tərbiyənin də heç bir əhəmiyyəti yoxdur. İnsan ancaq “allahın müəyyən'

[225] *К. Маркс* и *Ф. Энгелс.* Соч., т. 9, səh. 427.
[226] *M. Qorкi. Din haqqında. Bакı, 1940-cı il, səh. 121.*

etdiyi təbii yolun yolçusudur".

Doğrudan da, əgər insanın tərbiyəsi kənardan təyin olunursa, əgər onun azad iradəsi yoxdursa, onun təbiətində xeyirxahlıq yoxdursa, o təbiətən "şərə meyl edəndirsə", onda belə çıxır ki, insanı tərbiyə etmək, onu həyat zərurətini dərk etməyə sövq etdirmək nəyə lazımdır!? İnsan kor zərurətin quludur, o, azad ola bilməz, çünki ilahiyyatçılara görə, allah tərəfindən qabaqcadan təyip olunmuş davranış normalarını, qaydalarını poza bilməz. İradə mühitin, insanların və ümumiyyətlə hər hansı xarici qüvvənin təsirindən azaddır. İradə səbəbiyyət qanununa tabe deyildir. Mühit, şərait, tərbiyə təkan rolunu, iradəni təyin etməkdə vəsilə rolunu ifa edə bilər, onun səbəbi isə allahdandır. İlahiyyatçılar deyirlər ki, günah işlədəndən sonra insan iradəsi öz-özünü təyin edə, düzəldib istiqamətləndirə bilməz. Çünki o, artıq zədələnib, mütləq şərə doğru yönəldilmişdir. Şəxsin iradə azadlığını yenidən bərpa edə bilməsi üçün ancaq bir yol vardır: allaha möhmək etiqad! Onun qarşısında tövbə etmək!

Ümumiyyətlə, ruhanilərin gətirdikləri dəlillər bir-birilə ziddir. Məsələn, bəziləri ona əsaslanır ki, iradə ruhun xassəsidir və o da ruh kimi materiyadan asılı deyildir. Ruhun da materiyadan asılı olmamasını ilahiyyatçılar bir qayda olaraq sübut etmək üçün iradə azadlığına əsaslanırlar. Digər baxışda da məntiq yoxdur, əvvəlki mövqe inkar olunur; iradəni zərurətdən azad hesab etmək lazımdır. Çünki hər bir insanın öz hərəkətinə görə cavabdehlik hissi var. Buna görə də insan gərək öz hərəkətləri üçün cavab versin, çünki onun iradəsi azaddır. Öz mövqelərinin ziddiyyətliliyini başa düşərək, dinçilər çox zaman hər hansı bir dəlildən imtina edir və ya "dini təcrübəyə müraciət edirlər". İlahiyyatçılar aşkar ziddiyyətdən yan keçməyə çalışaraq, "allahın hər şeyə qadir olması" və "hüdudsuz iradə azadlığının" mövcudluğu haqqında fikir söyləyir, lakin unudurlar ki, bu anlayışlardan birini mütləqləşdirmək hökmən digərinin qurban verilməsi hesabına ola bilər. İradə azadlığı "allahın qadiri-küll" olmasını məhdudlaşdırır, nəticədə dini

təlimin böyük ziddiyyətlərindən birini ortaya çıxarır.

İlahiyyatçılar idrakın köməyi ilə dini ehkamları, xüsusilə allahın mahiyyətini dərk etməyi, deməli, insanın iradə azadlığını qeyri mümkün hesab edirlər. Müasir islam teoloqları dini ehkamları "dərkedilməz ilahi sirr" adlandırmağı çox sevirlər. "İnsan dərk etməkdənsə, etiqad etməlidir", – deyirlər. Onlar idrakın özünü qüdrətli ilahi qüvvənin insana təsiri formalarından biri hesab edir, idrakın ancaq allahın dərk edilməsinə yönəldilməsinİ tələb edir, "azadlıq" ancaq buraya qədər qəbul edirlər.

Lakin sual oluna bilər: əgər azad iradə haqqında ehkam dinçilərin özləri üçün çətinlik və anlaşılmazlıq törədirsə", bəs onda onlar bu ehkamdan nə üçün belə möhkəm yapışmışlar? Bu, birinci növbədə, həmin ehkamın ictimai mənası ilə bəllidir. İradə azadlığı haqqında olan ehkam həmişə müəyyən sinfi mahiyyət daşımışdır. Azad iradə haqqında olan təsəvvür cinayətin, şərin, ümumiyyətlə pis işlərin ictimai quruluşdan doğması məsələsini zahirən aradan qaldırır, qoca tədbirlərinə haqq qazandırır, inqilabi hərakata qarşı çıxmağa imkan verir. Bütün bu "yaramaz" əməllər üçün insandakı azad iradə, xüsusilə ateistlik günahlandırılır. İlahiyyatçılar belə hallarda insan iradəsinin zədələndiyini, "iradənin yolunu azdığını", azadlığın insanı düzgün yoldan, xeyir əməllərdən uzaqlaşdırdığını söyləyirlər. "Zədələnmiş", "yolunu azmış" insan iradəsini isə "günahlardan xilas etmək "üçün yeganə yol yenə də allaha müraciət etmək, dinə iman gətirmək hesab olunur.

İnsan əxlaqının, mənəvi azadlıq məsələlərinin həlli dinçilər tərəfindən mexaniki surətdə fatalizm və volyuntarizmlə birləşdirilir. İlahiyyatçıların əksinə olaraq marksizm bu problemi dialektikcəsinə həll edir. Fatalizmə və mütləq iradə azadlığına qarşı marksizm davranışın ictimai determinliyini və iradə azadlığının nisbiliyini irəli sürür. Dialektik materializm zərurəti hər hansı bir təzahür forması ilə bağlamır, onu dialektik determinizmin zəruri tələbi hesab edir. Marksizmə görə insan

obyektiv zərurəti daha dərindən dərk etdikcə, mənəvi cəhətdən bir o qədər azad olur. “Azadlıq-zərurətin dərk edilməsidir. Zərurət ancaq başa düşülüncəyə qədər kordur”[1]. Bu o deməkdir ki, əvvələn, istənilən şəraitdə həmişə insan öz əxlaqı davranışları üçün ob- yektiv düşünmək, “ölçüb-biçmək” imkanına, azad iradəyə malikdir. İradə azadlığı isə “işi bilmək əsasında bir qərara gəlmək qabiliyyətindən başqa bir şey deyildir... İnsan müəy- yən bir məsələ haqqında nə qədər azad mühakimə yeridirsə, bu mühakimənin məzmunu da o qədər böyük bir zərurətlə müəyyən olacaqdır[2]. İkincisi, insan bir şəxsiyyət kimi şüura malikdir, planlı, düşünülmüş, məqsədə yönəldilmiş fəaliyyətə lazım olmayan hadisələri dəf etmək imkanına malikdir. İnsan ona təsir edən amilləri dərk edir. Onun inamına uyğun gələn, uzlaşan təsirlərin ardınca gedir. Öz növbəsində insan onu əhatə edən mühit və şəraitə də təsir göstərir. F.Engels azadlığın miqyasını zərurətin dərk olunması və ondan əməli məqsədlər üçün istifadə edilməsi dərəcəsi ilə müəyyən edirdi.

F. Engels yazırdı ki, “azadlıq özümüzü xəyalən təbiət qanunlarından asılı saymamağımızdan ibarət deyil, ondan ibarətdir ki, həmin qanunlar dərk edilsin və bu bilik əsasında təbiət qanunları planauyğun bir surətdə müəyyən məqsədlər üçün işləməyə məcbur edilə bilsin. Bu həm xarici təbiət qanunlarına, həm də insanın özünün cismani və mənəvi varlığını idarə edən qanunlara aiddir”[227].

“Azadlıq təbiət zərurətlərini... dərk etmək əsasında özümüzə və xarici təbiətə hakim olmaqdan ibarətdir, buna görə də azadlıq tarixi inkişafın zəruri məhsuludur”,[228] – deməklə F.Engels heç vaxt iradə azadlığını mütləqləşdirmir, onu ictimai münasibətlərdən təcrid etmirdi. Marksist etika belə edir ki, iradə azadlığı heç vaxt mütləq deyildir. İnsan nə qədər azad olursa olsun, həmişə ictimai münasibətlərdən asılı olur. Mənəvi azadlıq həmişə ictimai münasibətlərdən asılıdır. Hər hansı bir şəxsiyyət

---

[227] *F. Engels. Anti-Durinq, səh. 113.*
[228] *Yenə orada.*

cəmiyyətin formalaşdırıcı qüvvələri tərəfindən yaranır. Bu hal ailədən başlamış, müxtəlif şənələr və snifi mənsubiyyətlərə də aiddir. İnsanın davranışlarına həmişə ictimai mühit, hakim əxlaq, ailə və sair təsir göstərir. Dini fatalizm və şəraitdən asılı olmamaq haqqında nəzəriyyə isə insanın tərbiyə olunmasının mümkün olmaması haqqındakı fikirlərə gətirib çıxarır. Əxlaqi davranış azadlığı haqqında marksist konsepsiya isə bunun tamamilə əksinədir. İnsan iradəsi mühitə təsir göstərir, hətta onu dəyişdirir də. O şəraiti insana "layiq olan" (Marks) formaya sala bilir. İnsan iradəsi zərurəti daha dərindən dərk edərək azad olduqca, o öz davranışlarında da daha çox sərbəst və azad olur. Buradan belə bir nəticəyə gəlmək olur ki, azad iradəyə malik olan insan öz şüurunu hər cür köhnə təsəvvür və zərərli davranışlardan təmizləyə bilər. Məsələnin bu cür marksistcəsinə həlli insana, onun gücünə inam əsasında qurulur və yeni insan tərbiyəsinin nəzəri əsasını təşkil edir.

Azadlıq və zərurət probleminin ən aktual və mühüm tərəflərindən biri də insanın öz əxlaqı, davranış və hərəkətləri üçün mənəvi məsuliyyət daşıması məsələsidir. Bu məsələ barədə də marksist və dini mövqe barışmazdır. Mənəvi qeyrət ilahiyyatçılara görə insanın allah qarşısında, insana "azad iradə verən" ilahi qüvvə qarşısındakı çavabdehliyinə əsaslanır. Onlar deyirlər: "mənəvi cavabdehlikdə baş verən mənfi hallar və çatışmazlıqlar allaha olan məhəbbətin az olmasından, dini etiqadın zəifləməsindən irəli gəlir".

Burada da məsələyə bir qədər ciddi yanaşmaq tələb olunur. Əgər insan azad iradədən məhrumdursa, ondan məsuliyyət hissi daşımağı tələb etmək olmaz, çünki belə tələb saxtakarlığa gətirib çıxarardı. Ona görə də din xadimləri yenə də, nəhayət, azad iradə haqqında ehkama qayıtmalı olurlar.

İradə azadlığının tələb etdiyi şəxsi məsuliyyət problemi həm də insanı bütün məsuliyyətdən kənar edən, onu məsuliyyətsiz bir "maşına" çevirən hər cür qeyri-elmi görüşləri də rədd edir. Əlbəttə, burada şəxsi məsuliyyəti şişirtmək, fərdi cavabdehliyi

ön plana çəkmək, çox zaman hadisənin səbəbini tapmağa, insan hərəkətinin həqiqi qiymətini verməyə imkan vermir.

Məsuliyyətin dini anlayışının mürtəce ictimai mənası vardır. Fərdi məsuliyyətin dərəcəsini həddən artıq şişirdən dini etika ictimai məsuliyyət haqqında məsələni tamamilə aradan götürür. Yəni mürtəce sinif və qrupların tarix və xalq qarşısında etdikləri cinayətin məsuliyyətini aradan qaldırmağa çalışır. İctimai məsuliyyət yükünü həqiqətən təqsiri olan şəxslərin, qrup və siniflərin üzərindən götürüb, zəhmətkeşlərin üzərinə atmaq dini konsepsiyanın əsasını təşkil edir. Mütləq fərdi məsuliyyət, şəxsi cavabdehlik, islam əxlaqi azadlıq ehkamının nəzəri və yekun ifadəsidir.

Çox zaman sinfi mövqedən çıxış edən din xadimləri fərdi məsuliyyət əsasında dindarların şüuruna təsir etməyə, onların beynində şəxsi günahkarlıq hissləri aşılamağa çalışırlar. Onlar insandakı günah əməlləri, bədxah işləri ictimai şərtlərdən asılı olmayan, anadangəlmə, aradan qaldırılması mümkün olmayan bir amil kimi qələmə verməyə çalışır, onların təmizlənməsi vasitəsini isə yenə də dində görürlər, onları "tövbə" etməyə çağırırlar.

İnsanın mənəvi məsuliyyətinin tam əsaslandırılması, ancaq zərurətlə azadlığın dialektik vəhdətdə götürülməsi şəraitində mümkündür. Təbii-tarixi zərurət yalnız insanların fikri və hərəkətləri vasitəsilə, onların əməllərində aşkar edilir. Şəxsiyyət cəmiyyətlə, siniflə, xalqla, kollektivlə bağlıdır. Yalnız ictimai əlaqələrin zəruriliyini möhkəmlətməklə, insan kimin qarşısında məsuliyyət daşımalıdır, sualına cavab vermək olar. Şəxsiyyət öz daxili aləmini, mənəvi simasını allahdan yox, dini ehkamlara kor-korana etiqaddan yox, onu əhatə edən ictimai varlıqdan alır. Buna görə də şəxsiyyət onu əhatə edən mühit qarşısında məsuliyyət daşıyır. Məsuliyyət hissi burada obyektiv zərurət kimi şəxsiyyətlə ictimai mühit arasındakı qarşılıqlı münasibəti ifadə edir. Dini etiqadda isə şəxsiyyətin maddi mühit və cəmiyyətlə olan zəruri əlaqəsi, bu zərurətin dərk edilməsi

məhsulu kimi meydana çıxan mənəvi azadlığı allaha olan uydurma etiqadla, bu etiqaddan doğan teleoloji baxışla əvəz olunur. İnsan öz davranışına görə allah qarşısında məsuliyyət daşıyır, cəmiyyət qarşısında yox. Allah qarşısında məsuliyyət isə məzlumların istismarçılar qarşısındakı məsuliyyəti kimi, müsəlmanların danışıqsız itaəti kimi təbliğ olunur.

İnsan nəinki təkcə şəraitin məhsuludur, o, eyni zamanda inqilabi təcrübə nəticəsində həmin şəraitin özünü də dəyişdirir. Buna görə də artıq inkişaf nəticəsində, təkcə xalq kütlələrinin deyil, eyni zamanda ümumi inkişafda öz yerini tapmış ayrıca bir şəxsiyyətin, fərdin də rolu artır. Odur ki, fərdi məsuliyyətin ictimai xarakteri getdikcə artır. İctimai məsuliyyət ön plana keçir.

Beləliklə, mənəvi davranışlarda azadlıq və zərurətin qarşılıqlı münasibəti insanda məsuliyyət, fəxr və ləyaqət hissləri tərbiyə etdiyi halda, dini əxlaq məsuliyyətsizlik və mütilik hissləri aşılayır. Dindarlara görə mənəvi azadlıq heç də insanın öz hərəkətləri üzərində tam sərbəstliyi, özünü müstəqil idarə etməsi demək deyildir. Müsəlman dini etiqadına görə allah insanı elə yaratmışdır ki, o, özü istədiyi hər hansı bir yaxşı işi görə bilməz və görmək istəmədiyi pis işdən isə imtina edə bilməz. Göründüyü kimi, burada mənəvi azadlığa yer qalmır. Dindarlara ancaq günah işlədib sonra da dua etməkdən, tövbə etməkdən başqa heç bir azadlıq verilmir.

Nə üçün dini əxlaq insanın mənəvi azadlığa malik ola bilməsini məhdudlaşdırır və ya rədd edir? Bunun əsaslı səbəbləri vardır. İlahiyyatçılara görə o adam mənəviyyatca azad hesab edilə bilər ki, o, inama, etiqada əsaslanaraq dini əxlaqın tələblərini yerinə yetirir. Əlbəttə, çox zaman insanın mənlik və ləyaqətini heçə endirən dini əxlaqın normalarını hər hansı bir şəxsin özünü məcbur etmədən, azad və könüllü surətdə yerinə yetirə bilməsi qeyri-mümkün olur. Bu əxlaq normaları insana, cəmiyyətə zidd xarakter daşıdığından onu yerinə yetirən şəxs mənəvi azadlıqdan məhrum olmaya bilməz. Din təbliğatçılarının

fikrincə mənəvi azadlığa çatmaqda əsas maneə hisslər və ehtiraslardır. Guya insanı özünə tabe edən həmin hiss və ehtiraslar onun azad iradəsini, sərbəst fəaliyyətini məhdudlaşdırır və ya aradan qaldırır.

Ona görə də ilahiyyatçılar sübut etməyə çalışırlar ki, bu cür hiss və ehtiraslar cilovlanmalı və səbr yolu ilə yatırılmalıdır. İnsan özü bunu sərbəst surətdə edə bilməz, o bunu allahın köməkliyi ilə etməlidir. Lakin ruhanilər və digər din təbliğatçıları unudurlar ki, insanın hər hansı bir şeyə can atması onun şüurlu həyatı ilə qırılmaz surətdə bağlıdır. Canatma tarixi proseslə əlaqədar yaranır, inkişaf edir və dəyişir, çoxtərəfli insan fəaliyyətinin təsirinə məruz qalır. Məhz buna görə də canatmanı təcrid olunmuş fərdi iş kimi götürmək olmaz. İctimai mühit, əmək ona gətirib çıxarır ki, canatma insanın bütün intellektual həyatına, onun mənəviyyatına daxil olur. Tarixi inkişaf nəticəsində canatma getdikcə insaniləşir və yeni-yeni arzu və tələblərlə zənginləşir, mənəviyyat inkişaf edir və beləliklə, insani olan hər şey şəxsiyyətin təbiətinə çevrilir. Marksizm belə hesab edir ki, insanın hisslər aləmi və hər hansı bir şeyə can atması şər və qeyri-əxlaqi hərəkətlərin mənbəyi ola bilməz hisslər insanın mənəvi həyatını tamamlayır, onun mənəni şüuruna parlaqlıq və möhkəmlik gətirir. Mənəvi azadlıq hissləri inkar etmək və boğmaq deyil, onları ağıllı surətdə tarazlaşdırmaq və idarə etmək deməkdir.

Buna görə də marksist etika mənəvi ideala ehtirassız, hiss və emosiyalardan, bütün fantaziyalardan məhrum olmuş bir şey kimi deyil, dolğun bir həyatla yaşayan, hərtərəfli inkişaf etmiş şəxsiyyətin idealı kimi baxır. Mənəvi azadlığın gücü və qüdrəti isə elmi-idrakı səviyyəyə yüksələn insanın özündə həm də əsl humanist xarakterlər, hiss və ehtiraslar tərbiyə etməsindədir.

MÜNDƏRİCAT

GİRİŞ ........................................................................... 127
C. Əhmədli. F.ENGELSİN "TƏBİƏTİN DİALEKTİKASI" ƏSƏRİNDƏ DİALEKTİKA MƏSƏLƏLƏRİ ..................... 132
MARKSİST VƏ DİNİ ƏXLAQDA AZADLIQ VƏ ZƏRURƏT PROBLEMİNƏ DAİR ...................................... 144

Азербайджанское Философское Общество Институт
Философии и права академии наук
Азербайджана Бакинский Государственный Университет
им. М. Э. Расул-заде

# НОВОЕ МЫШЛЕНИЕ И ФИЛОСОФИЯ

Материалы республиканской конференции философов

Баку–Элм–1994

**РЕДАКЦИОННАЯ КОЛЛЕГИЯ:**

**Ахмедли Дж. Т., д.филос.н.(председ.), (гл. ред.), Абасов А. С., д. филос. н., Гули-заде З. Л., д. филос. н., (Иманов Г. Р., д. филос. н Исмаилов А.А., к. филос. н., Касим-заде Ф. Ф., чл.-корр. АН Азербайджана, Кулиев Г. Г., д. филос. н., Микаилов Н. М., д. филос. н., Оруджев Х. Г., к. филос. н. (отв. секр.), Осман-заде Р. М., к. филос. н. зам.), Саттаров М, М., чл.-корр. АН Азербайджана, Ширалиев Г.И., д. филос.н., Багирова С.С., науч. сотр. секр.).**

**Ахмедли Дж. Т.**

*БГУ им. М. Э. Расулзаде*

# УРОВНИ И СТАТУС ЭКОЛОГИЧЕСКОГО СОЗНАНИЯ

1. Ныне все человечество знает о том, что нашей земле и цивилизации в целом грозит гибель. Причем опасность эта не сверхъестественного происхождения, а дело наших собственных рук, нашего бездумного, безответственного отношения к среде обитания. Однако не все хорошо себе представляют всю широту и глубину этой опасности, она не полностью им осознана. Только этим можно объяснить то обстоятельство, что люди продолжают безжалостно эксплуатировать природу.

Современное экологическое сознание своими слабостями и разноуровневостью обязано относительной «молодости» экономической проблемы, которая лишь в последние десятилетия приобрела общепланетарный масштаб и столь значительную опасность.

2. Вся предшествующая история прогресса человечества и развития взаимоотношения человека и природы способствовали выработке в сознании людей представления о внешних природных условиях как вполне преодолимых в любых масштабах посредством всемерного развития социальных и технических факторов. Другими словами, ни в теоретическом, ни в практическом плане перед человеком не стояла экологическая проблема как таковая с её сегодняшней остротой, а следовательно не было более или менее оформившегося экологического сознания. Ныне природа впервые предстала перед чело веком как сложная глобальная целостная система, которая развивается на

основе собственных системных законов и которая обладает вполне определенными и легко нарушаемыми со стороны техногенной деятельности человека условиями своей целостности и жизнеспособного состояния, своей всеобщей гармонии и равновесия. Стало очевидным, что человек должен знать не только законы освоения и преобразования природы, но, в еще большей мере, законы самосохранения и самовоспроизводства, словом, законы саморегулирования природы. Это обстоятельство и послужило основанием для формирования экологического сознания как отражения экологической ситуации. Именно поэтому экологическое сознание носит на себе печать сложности, многоплановости и противоречивости, характерных для современной экологической проблемы.

3. Основными компонентами экологического сознания являются экологическое знание, представляющее собой познание условий, законов, норм экологического бытия и убеждения людей, основанные на этих знаниях. Экологическое же сознание составляет основу целенаправленной экологической деятельности, включающей как оптимальное природопользование, так и воспроизводство природных возможностей, поддержание нормального функционирования природы как целостной системы.

4. Понятие «экологическое сознание» в нескольких плоскостях нуждается в пояснении: в чем сущность его и особенности, каково его место в общей системе форм общественного сознания, каковы пути и средства его формирования?

Прежде всего отметим, что мы не рассматриваем дологическое сознание как одну из форм общественного сознания, каждая из которых имеет четкий статус. Экологическое сознание мы рассматриваем как условное название сегодняшнего экологизированного сознания. Это

— скорее всего одна из существенных всеобщих характеристик общественного сознания, появившаяся в условиях НТР и означающая, что экологический угол рассмотрения вопросов и подхода к реалиям дня пронизывает все формы и уровни сознания и действия людей, т. е. дологическая оценка любого явления выступает важным параметром критерия его оценки, и в этом смысле все формы общественного сознания имеют экологическую окрашенность различных оттенков.

В этом, относительном, понимании экологическое сознание можно рассматривать как совокупность взглядов, теорий и эмоций, отражающих содержание, характер, состояние и особенности взаимоотношения общества и природы на каждой исторической ступени развития цивилизации.

5. Каковы же основные особенности современного экологического сознания?

Одной из главных характеристик современной экологической проблемы является ее глобальность, что, несомненно, отражается на глобальности экологического сознания, ибо в общегносеологическом плане экологическое сознание есть отражение экологического бытия. Глобальность экологического сознания включает два ракурса: **во-первых,** то что оно ныне не может ограничиваться лишь отражением отдельных локальных проблем, затрагивающих «интересы» той или иной части природы, отдельного региона или страны. Оно должно формироваться, развиваться и функционировать в **планетарных масштабах; во-вторых,** глобальное экологическое сознание должно превращаться в элемент или общую характеристику **всех уровней и всех форм** общественного сознания. Следовательно, первой важной особенностью экологического сознания является глобальность, из которой прямо вытекает и другая, не менее важная, особенность —

ее интегративность, синтетический характер. **В** настоящее время понятия «глобальная экология», «социальная экология» выражают не отдельную науку, а скорее **определенный общенаучный подход к решению фундаментальных теоретических и практических задач**. В этом смысле, в той или иной мере, все науки имеют экологическую окрашенность; разрешая свои конкретною **физические, химические, географические и др. задачи,** эти науки, непременно, должны учитывать их экологическое **«звучание»,** возможные экологические последствия. Экологическая обусловленность и мотивированность, стало быть, отныне выступает одним из существенных показателей успешности решаемых проблем. Эта же особенность обусловливает интеграцию наук и синтез знания.

Указанная особенность экологической проблемы на ходит свое отражение в таки важнейших особенностях экологического сознания, как системность и комплексность. Как бы велико ни было значение знания отдельных явлений, сопровождающих жизнь человека, оно не создает полного представления о поведении системы, которое порою не только резко отличается от поведения элемента, но оказывается противоположным ему. Именно поэтому экологическое сознание для успешного функционирования в своем развитии должно возвыситься до уровня системности. Оно же должно обладать комплексностью, т. е. отражать то обстоятельство, при котором псе глобальные проблемы составляют звенья единого комплекса, в частности, например, «чисто» экологическая проблема связана в единой цепи с демографической проблемой, проблемами продовольственного обеспечения населения Земли, войны и мира и другими проблемами современной глобалистики.

Важной особенностью экологического сознания является его мощное предвиденческо-прогностическое свойство. Оно должно опережающе отражать не только ближайшие позитивные или негативные следствия изменений, производимых в природе техногенной деятельностью человека, но предвидеть последствия более отдаленные от нас, прямые и обратные связи. Это тем более важно, что **довольно часто положительные при повседневной оценке, или при непосредственной отдаче, явления**, оборачиваются как крайне нежелательные и катастрофически вредные при оценке их с позиции перспективы человечества.

В связи с этим отметим еще одну особенность экологического сознания, вытекающую из предыдущей: в прошлом познание природы, а, следовательно, сознание человека были направлены на усиление целеположенного преобразования природы, на расширение границ природопользования. Экологическое же сознание в силу создавшейся ситуации призвано выполнять противоположную функцию — предельно ограничить преобразовательную нацеленность познавательной и практической деятельности человека на базе максимальной оптимизации природопользования.

Экологическое сознание должно ломать веками сложившийся стереотип отношения к природе, лейтмотивом которого было неограниченное изменение и использование природных богатств любыми средствами, оно должно стремительно формировать новый стереотип отношения к природе; сохранять и воспроизводить природные ресурсы, ее гармонию и равновесие, выработать оптимальные методы, формы и средства природопользования в допустимых самой природой пределах. Сохранение природы, как видим, является необходимым условием нового сознания и нового мышления.

Такая деятельность должна опираться на разумный учет требований объективных экологических законов и обеспечить, тем самым, сохранение природных условий жизни общества, достижение социально значимых целей. Это и будет означать свободу действий человека в условиях современной экономической ситуации.

6. Все вышеуказанные особенности экологической проблемы и экологического сознания должны лечь в основу современной экологической политики. Очевидно, современная экологическая политика не может быть локальной, она должна носить общепланетарный характер. «Парниковый эффект», «озоновая оболочка», чернобыльская катастрофа — их действительные и возможные последствия — яркое тому свидетельство.

7. Экологическая политика должна носить системный и комплексный характер, она должна включать систему и комплекс мер, охватывающих все сферы народнохозяйственного комплекса. Любые экономические, технические, технологические, демографические, социальные и другие решения должны быть экологически обоснованы, в целом же вся внешняя и внутренняя политика государства должна строиться с учетом мировой экологической ситуации.

**Ахмедли Дж. Т., Гусейнова Л. А.**

**БГУ, Институт социально-экономических проблем**

# СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ ПРОБЛЕМЫ КУЛЬТУРЫ ТРУДА И ТРУДОВАЯ АКТИВНОСТЬ ЛИЧНОСТИ

Важнейшей характеристикой культуры труда является социально-психологическое состояние производственного коллектива, проявляющееся в характере наиболее устойчивых социальных установок, позиций, ценностных ориентаций и других феноменов сознания, а также в характере межличностных, внутриколлективных отношений, в формах и способах общения. Естественно, что все эти феномены сознания, межличностные отношения находятся в разных коллективах на различных уровнях развития, и в этой связи можно говорить о социально-психологической культуре коллектива, отдельной личности как об одном из ответвлений культуры труда. Важнейшим элементом социально-психологической культуры труда является социально-психологический климат.

Социально-психологический климат коллектива является одним из решающих условий преодоления тех психологических барьеров, которые мешают развертыванию, реализации и развитию огромного творческого потенциала как отдельной личности, так и целых коллективов. Критерием здорового социально-психологического климата является преобладание атмосферы взаимопонимания, уважительного отношения к человеку, духа творчества, сочетающегося с высокой внутренней дисциплиной, принципиальностью и ответственностью, с

требовательностью к себе и к другим. Исходя из этого критерия оценки социально-психологического климата в коллективе, нами были проанализированы материалы социологического исследования, в одну из задач которого входило выяснение влияния различных компонентов климата на уровень трудовой активности личности.

Приведем некоторые результаты исследования[229].

Прежде всего отметим, что 68,9% опрошенных определили трудовую активность на низком уровне. В коллективах, где они трудятся, отсутствуют товарищеские взаимоотношения, взаимопомощь и сотрудничество, процветают эгоизм, индивидуализм, угодничество перед руководителем, т. е. весь тот комплекс отрицательных социально-психологических механизмов, которые сегодня серьезно тормозят процесс роста трудовой активности субъектов производства.

Важным социально-психологическим фактором формирования трудовой активности коллектива является такой элемент социально-психологического, как взаимоотношения членов коллектива. Суть вопроса в том, что межличностное общение выступает как условие существования и одновременно как потребность человека, и если человек испытывает на себе негативное отношение окружающей социальной среды, то, как следствие, у него эта потребность «затухает», уступая место психологической замкнутости, одиночеству, чувству неудовлетворенности и даже вражды. И здесь возможны два случая. В первом из них человек в подобной ситуации становится индифферентным, он апатичен в отношении к труду и делам коллектива, уровень его культурно-трудовой активности

---

[229] Исследование было проведено на 35 предприятиях промышленности с охватом 3500 человек. Результаты его отражены в научном отчете: Показатели социального развития трудящихся Азербайджанской ССР. – Баку, 1987.

весьма низок. Для второго случая характерна так называемая минусовая активность индивида, направленная на поступки и действия, наносящие пред коллективу и тормозящие рост культуры труда субъектов производства.

Далее, высокая степень включенности индивида в общение с коллективом в социально-психологическом плане, как показало исследование, является важным фактором эффективности коммуникативной деятельности как необходимого условия повышения трудовой активности коллектива. При этом весьма существенную роль играет социальный контроль, самоконтроль. Поскольку продуктом общения индивидов со своими коллективами является познание, то, очевидно, ухудшение социально-психологических условий общения отрицательно должно сказаться и на развитии сознания. Ибо сознание «есть вначале осознание ближайшей чувственно воспринимаемой среды и особенно ограниченной связано с другими лицами...»[230], и нарушение этой связи естественным образом ведет к ограничению возможностей развития сознания индивида со всеми вытекающими отсюда последствиями: как способ проявления человеческой сущности, как условие человеческого существования и как ограниченная человеческая потребность, общение индивидов со своими коллективами перестает играть роль во всех указанных качествах в процессе развита " трудовой активности личности.

Если коллектив плохо относится к какому-то своему члену, то зачастую возникающая обратная реакция индивида такова, что он перестает считаться с мнением самого коллектива. Разумеется, это не улучшает, а напротив, серьезно ухудшает социально-психологическую атмосферу развития трудовой активности коллектива. Так, 56,3% лиц, которые не считаются с мнением своего коллектива, дали

[230] Маркс К., Энгельс Ф. Соч., т.3, с.29

самую низкую оценку уровню трудовой активности последнего. Таковых среди лиц, считающихся с мнением коллектива — 27,9%. Соотношение — 2:1.

Таким образом, коллектив из-за невнимательной нечуткого отношения к отдельным своим членам, их повседневным нуждам несет значительный моральный урон. О высоком уровне трудовой активности может идти речь только лишь в отношении того коллектива, где прочно утвердилась эмоциональная непосредственность в гармоничном сочетании с устойчивой ориентацией на ценности социалистического образа жизни.

Одним из существующих противоречий в современном общественном развитии является то парадоксальное положение, когда, с одной стороны, набирают силу тенденции перестройки, а с другой — происходит усиление тенденции к накоплению и обострению социальных проблем, доставшихся, так сказать, в наследство от застойного времени. Так вот, зачислив эти проблемы в категорию «застойных», почему-то пытаются от них отмахнуться. Одной критикой дело не поправишь. Между тем эти проблемы столь же социально злободневны, как и проблемы, порожденные в ходе обновления социализма, и от решения их в наибольшей мере зависит судьба перестройки. Одной из таких проблем и является проблема, связанная с дестабилизирующим влиянием возникающих в производственных коллективах конфликтные ситуаций на уровень трудовой активности субъектов производства. Самоочевидно, что в коллективах, где часто случаются конфликты, отсутствует дух товарищеской взаимопомощи и сотрудничества, там вряд ли имеются условия и возможности для активного решения вопросов культуры труда, ибо для этого необходимы такие предпосылки, как хорошее самочувствие, психологический настрой и взаимопонимание между членами коллектива. Так, 16,7%

опрошенных лиц, которые постоянно находятся в состоянии конфликта с членами коллектива, дали крайне низкую оценку уровню трудовой активности и в то же время более чем в 2 раза меньше таких оценок среди тех, кто трудится в коллективах, где отсутствует конфликтная ситуация.

В исследовании были вскрыты и другие аспекты проблемы. Однако в рамках статьи не представляется возможным их полное изложение. В целом же отметим, что анализ различных социально-психологических факторов развития трудовой активности субъектов производства позволил заключить, что и в современных условиях в производственных коллективах проявляют себя множество негативных явлений, ухудшающих атмосферу межличностных отношений. Совокупность этих явлений отражает по существу уровень социально-психологической культуры как руководителей, так и подчиненных. Стало быть, исходной социальной проблемой в ходе обновления жизнедеятельности производственных коллективов является также проблема становления и развития социально-психологической культуры как составной части культуры труда субъектов производства.

**ОГЛАВЛЕНИЕ**

Ахмедли Дж. Т._БГУ им. М. Э. Расулзаде
УРОВНИ И СТАТУС ЭКОЛОГИЧЕСКОГО
СОЗНАНИЯ 161
Ахмедли Дж. Т., Гусейнова Л. А.
БГУ, Институт социально-экономических проблем
СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ ПРОБЛЕМЫ
КУЛЬТУРЫ ТРУДА И ТРУДОВАЯ АКТИВНОСТЬ
ЛИЧНОСТИ 167

AZƏRBAYCAN SSR ELMLƏR AKADEMİYASI FƏLSƏFƏ VƏ HÜQUQ İNSTİTUTU SSRİ FƏLSƏFƏ CƏMİYYƏTİNİN AZƏRBAYCAN ŞÖBƏSİ

# V.İ.LENİNİN FƏLSƏFİ İRSİ VƏ MÜASİRLİK

*(“MATERİALİZM VƏ EMPİRİOKRİTİSİZM” ƏSƏRİNİN 70 İLLİYİ)*

“Elm” nəşriyyatı” Bakı—1980

Azərbayçan SSR Elmlər Akademiyası Redaksiya-Nəşriyyat
Şurasının qərarı ilə çap olunur

Redaktorları: H.B.ABDULLAYEV,
C.T.ƏHMƏDLİ

© «ElM» Nəşriyyatı, 1980.

10104-000
L M — 655 — 80 2 — 80

# V. İ. LENİNİNİN İNİKAS NƏZƏRİYYƏSİ. İNİKAS VƏ İNFORMASİYA

Leninin idrak nəzəriyyəsi adı ilə məlum olan təlimə daxil olan məsələlər şəbəkəsində inikas prinsipi və onun üzərində qurulan inikas nəzəriyyəsi düyün nöqtələrindən birində yerləşməklə bütün digər məsələlərin həllinin istiqamət və xarakterini müəyyənləşdirir. Marksizm qnoseologiyasının düşmənləri öz mübarizələrində başlıca hədəf olaraq inikas nəzəriyyəsini seçir, onu məhv etməyə çalışır (obyektiv və subyektiv idealizmin müxtəlif məktəbləri, aqnostisizmə meyl edən bütün pöqteyi-nəzərlər), marksizm-leninizm klassikləri isə inikas prinsipi hücumlardan müdafiə etmək və onun müxtəlif tələblərini müfəssəl tədqiq etmək və əsaslandırmaq p.> zifəsini həmişə diqqət mərkəzində saxlamışlar. Deməli, inikas və informasiya anlayışlarının qnoseoloji rolu və onların ideyalar mübarizəsində daşıdıqı ideoloji funksiya problemin aktuallığına dəlalət edən mühüm cəhətlərdir. Problemin işlənməsi zərurətini əsaslandırmaq üçün iki cəhəti də qeyd etmək vacibdir. İnikas və informasiya problemləri ətrafında son zamanlar fəlsəfə ədəbiyyatında gedən mübahisələr və problemə daxil olan məsələlərin qoyuluşu və həllində mövcud olan müxtəlif nöqteyi-nəzərlər, bir tərəfdən, kibernetika, bionika, semşotika və s. elmlərin yaranması ilə inikas fəaliyyətinin özünün mürəkkəbləşməsini, digər tərəfdən, problemə diqqətin getdikcə artdığını göstərən amillərdəndir.

Bilavasitə inikas və informasiya probleminin şərhinə keçməzdən əvvəl tədqiqatda özül rolunu oynayan bir neçə məşhur fikirlərə istinad edək. Hələ Marks, Engels qeyd etmişlər ki, "bütün ideyalar təcrübədən götürülmüşdür, bunlar gerçəkliyin düzgün və ya təhrif olunmuş inikasıdır".[231]

Obyekt-subyekt münasibətini, subyektdən obyektə getmək

[231] F.Engels. Antı-Durinq, səh. 342.

istiqamətində araşdıran hekeli tənqid edərək, Engels yazırdı ki, onun "nəzərincə beynimizdəki fikirlər gerçək şeylərin və proseslərin az-çox abstrakt inikasları deyil, əksinə, şeylər və onların inkişafı, hekelin nəzərincə, ancaq hələ dünya əmələ gəlməmişdən əvvəl harada isə mövcud olan "ideyanın" təcəssüm etmiş inikasları idi".[232] Engels subyektiv dialektikanı obyektiv dialektikanın inikası sayaraq qeyd edir ki, "başın dialektikası" – real aləmin, həm təbiətin, həm də tarixin hərəkət formalarının yalnız inikasıdır. Empiriokritisizmin idrak nəzəriyyəsini tənqid edərkən V.İ.Lenin belə bir müddəadan çıxış edir ki, "bizdən xaricdə və bizdən asılı olmadan obyektlər, şeylər, cisimlər mövcuddur və bizim duyğularımız xarici aləmin surətləridir... Bütün materialistlərin fikrincə... "hadisələr" "bizim üçün şeylərdir" və ya "özlüyündə olan obyektlərin" surətləridir".[233] "İnsan idrakı insandan asılı olmayaraq mövcud olan təbiəti, yəni inkişaf etməkdə olan materiyanı əks etdirdiyi kimi, insanın ictimai idrak da... cəmiyyətin iqtisadi quruluşunu əks etdirir".[234]

İnikas prinsipini inkar edən maxistləri, yaxud inikas prinsiplərini şərti işarələrə, "simvollara" müncər edən simvolistləri tənqid edərək V.İ.Lenin göstərir ki, şüur daim hərəkət və inkişaf edən materiyanın məhsulu olmaqla onu inikas etdirir, deməli, idrak nəzəriyyəsində şeylərin dəyişməz mahiyyətindən və dəyişməz şüurdan yox, təbiəti əks etdirən şüurla şüurun əks etdirdiyi təbiət arasındakı uyğunluqdan və bu uyğunluğun dərəcəsindən bəhs edilməlidir. "Əks edənin əks etdirənlərdən asılı olmayaraq mövcud olması (xarici aləmin şüurdan asılı olmaması) materializmin əsas müddəasıdır... Əks edən şey olmasa, inikas ola bilməz, lakin əks edən şey əks etdirəndən asılı olmayaraq mövcuddur".[235]

Söylədiklərimizdən aydın görünür ki, V.İ.Leninin inikas nəzəriyyəsinin özül prinsipləri aşağıdakılardır: a) xarici aləm

[232] Yenə orada, səh. 19-20.
[233] V. İ. Lenin. Əsərləri, 14-cü cild, səh. 101—102.
[234] V. İ. Lenin. Əsərləri, 19-cu cild, səh. 5.
[235] Yenə orada, 14-cü cild, səh. 123.

obyektləri insandan və onun şüurundan əvvəl, ondan kənarda mövcuddur; b) xarici aləm predmetləri bizim hiss üzvlərimizə təsir etməklə şüurumuzda əks edir, onların surətləri, şəkilləri alınır; v) inikas formaları ilə inikas edən predmetlər arasındakı nisbət daim yaxınlaşmaqda olan adekvatlıq, identiklik nisbətidir; q) inikas formaları obyektiv aləmin subyektiv surətləridir, yəni onlar obyektivlə subyektivin vəhdətidir; d) inikasın əsasında nəzəriyyə ilə praktikanın vəhdəti durur.

Əlbəttə, göstərilən bu prinsiplər tədqiqatda mütləqləşdirilməməli, idrak obyektindən, idrakın həyata keçdiyi şəraitdən, ümumi və fərdi zəka səviyyəsindən asılı olaraq onlardan yaradıcı surətdə istifadə edilməlidir. İnikas nəzəriyyəsinin bazis anlayışı inikasdır. Ona görə də nəzəriyyənin özündən bəhs etməzdən əvvəl inikas anlayışının məzmun və həcmi barədəki fikirləri araşdırmalıyıq. Çıxış nöqtəsi kimi yenə də V.İ.Leninin inikas haqqındakı iki məşhur fikrinə istinad edəcəyik: "...Aydın şəkildə nəzərə çarpan duyğu materiyanın ancaq ali formaları ilə (üzvi materiya ilə) əlaqədardır və "materiya binasının lap təməlində" duyğuya bənzər bir qabiliyyət mövcud olduğunu ancaq ehtimal etmək olar".

V.İ.Leninin bu fikirləri inikas probleminin tədqiqi ilə məşğul olan filosoflar tərəfindən iki cür izah edilir. Onlardan bir qismi inikası materiyanın ümumi xassəsi sayır, ikinci qismi isə onu yalnız uzvi aləmə və insan cəmiyyətinə nəzərən qəbul etməklə qeyri-üzvi aləmdə inkar edirlər. Bu məsələ haqqında biz fikrimizi sonradan ətraflı şərh edəcəyik. Burada isə onu ilkin qeyd şəklində söyləməkdə məqsədimiz inikasa vahid cinsi tərif verməyin çətinliyini göstərməkdən ibarətdir. Hər halda bir şey şəksizdir ki, inikas anlayışı həm məzmununa, həm də gedişinə görə son dərəcə mürəkkəb, çoxcəhətli və çoxsəviyyəli bir anlayışdır. Məhz ona görə də biz inikas anlayışının tərifindən yox, onun ümumi xarakteristikasından çıxış edəcəyik.

1. Obyekt-orijinalla onun inikası arasındakı münasibət

birinci ilə ikincinin, asılı olmayanla törədilənin münasibəti kimidir. Başqa sözlə desək, bu münasibət istiqamətlidir, həm də funksional münasibət kimi qiymətləndirilə bilər.

2. Orijinalın strukturu ilə onun inikasının strukturu arasında uyğunluq münasibəti olmalıdır, həm də bu uyğunluq əsasında bir strukturdan digərin keçid funksiyasını ifadə edən qarşılıqlı təsir qanunauyğunluqları durur. Aydındır ki, bu uyğunluq inikasın müxtəlif səviyyələrində müxtəlif məzmun kəsb edir, ali fikri inikas formalarında isə daim zənginləşir və dəqiqləşir.

3. Hər hansı formadan və səviyyədən olan inikas "seçmə" ilə baş verir. Bu isə o deməkdir ki, qarşılıqlı təsir prosesində yalnız onun şəraitinə, qanunlarına və mexanizminə cavab verən müəyyən xassələr, əlamətlər, əlaqələr əks etdirilir. Bundan əvvəlki halda olduğu kimi, inikasın bu xassəsi də yüksəlməkdədir. Canlı aləmin və sonra insanın yaranması ilə bu cəhət ciddi keyfiyyət dəyişikliklərinə məruz qalaraq yeni prinsiplər əsasında həyata keçirilir – inikasda olan informasiyanın qavranılması, toplanması, işlənməsi və istifadə edilməsi məqsədyönlü olur.

4. İnikas prosesində əks edənin əks etdirəndə "izləri", nişanələri hökmən qalır. Qeyri-üzvi aləmdə bu, fiziki dönməzlik və dəyanətlilik, müntəzəmlik və dövrülülük kimi xassələrə əsaslanır. Həm də qeyri-üzvi aləmdə hadisələr getdikcə toplanan bu "izlərə" sanki biganə olur, ona görə də bu "izlər" əvvəlki qarşılıqlı təsirlərin nəticəsi kimi hazırkı qarşılıqlı təsirdə məcmu şəklində iştirak edir. "Qeyri-üzvi təbiətdə inikas prosesi: 1) birinci obyektin ikinciyə təsirini təsvir edən xətti asılılıq halında orijinalın strukturunun inikasın daşıyıcısına verilməsi şəklində; 2) iki cismin qarşılıqlı təsirini təsvir edən qeyri-xətti qanun üzrə orijinalın strukturunun dəyişilməsi şəklində surət alınmasından ibarətdir".[236]

5. V.İ.Leninin yuxarıda göstərdiyimiz fikirlərindən aydın

[236] Ленинская теория отражения и современность. София, 1969, səh. 190-195.

olur ki, inikas materiyanın ümumi xassəsi olaraq yalnız potensial imkan şəklində mövcuddur. Müəyyən şərait yarandıqda (qeyri-üzvi aləmdən üzvi aləm yarandıqda) bu imkan gerçəkliyə çevrilir. Bu səviyyədə yaranan inikas özü getdikcə inkişaf edir, mürəkkəbləşir və yüksək formalar alır. (Bu fikir, əlbəttə, sadə inikas formalarının bütövlüklə mürəkkəb formalara çevrilməsi demək deyildir).

6. İnikas həm proses, həm də nəticə olmaqla yalnız qarşılıqlı təsir zəminində baş verir (hər bir inikas qarşılıqlı təsir ünsürüdür, hər bir qarşılıqlı təsir isə inikasın olduğuna dəlalət etmir). Deməli, inikas etdirəndə inikas edənin bəzi xassə və əlamətlərinin yenidən yaradılması deməkdir. Söylənilənlərə yekun olaraq inikas probleminin görkəmli tədqiqatçısı Todor Pavlovun aşağıdakı fikrini gətirmək istərdik. "İnikas etdirən predmetin xüsusi daxili halı olan inikas inikas edən predmetlə inikas etdirənin qarşılıqlı təsiri prosesində baş verir. Xarici real predmet (inikas edən) yox olduqdan sonra da, yəni inikas prosesi dayandıqdan sonra da prosesin nəticəsi olan inikasın özü birdən-birə və mütləq şəkildə məhv olmur, bir iz kimi, sadə imkan, yaxud fərziyyə kimi, inikas etdirən predmetdə mövcud olmaqda davam edir".[237]

Son illərin fəlsəfi ədəbiyyatında materiyanın ümumi xassəsi olan inikas haqqında iki nöqteyi-nəzər aydın nəzərə çarpır: birinci nöqteyi-nəzərin tərəfdarları göstərirlər ki, qeyri-üzvi təbiət səviyyəsində sözün əsl mənasında inikas yoxdur, burada materiya yalnız müəyyən şərait daxilində gerçəkliyə çevrilən imkan şəkilli xüsusi qabiliyyətə malikdir.[238] Əsl mənada inikas isə üzvi aləmlə yaranır, insan təfəkküründə isə yüksək formalar alır. İkinci nöqteyi-nəzərin tərəfdarları isə, tərsinə, iddia edirlər ki, inikas materiyanın ən ümumi xassəsidir və ona görə də həm qeyri-üzvi, həm də üzvi aləmdə inikasdan danışmaq doğrudur.

---

[237] Т. П а в л о в. Избранные философские произведения, т. 3, М., 1962, səh. 614.

[238] Бах: В. С. Тюхтин. Отражение, системы, кибернетика. М., 1972, səh. 82-83.

Əlbəttə, bu ikinci nöqteyi-nəzərin tərəfdarları da bir tərəfdən inikasla qarşılıqlı təsir arasında, digər tərəfdən qarşılıqlı inikas, inikas və özinikas arasında (yaxud xarici və daxili inikas arasında), nəhayət, ibtidai və ali inikas formaları arasında fərq qoyurlar.[239]

Göstərilən bu nöqteyi-nəzərlərin şərhi və əsaslandırılması üzərində müfəssəl dayanmayacağıq. Lakin bir cəhəti göstərmək vacibdir, hər iki mövqenin tərəfdarlarının əsərləri ilə tanışlıq göstərir ki, onlar əslində prosesin real məzmununu eyni şəkildə başa düşür və izah edirlər. Lakin inikas sözünə müxtəlif məna verdiklərindən onlar arasında sanki ziddiyyət yaranır. İnikası materiyanın ümumi xassəsi hesab edənlər onu passiv və aktiv olmaqla iki yerə ayırır, passiv inikası qeyri-üzvi aləmə, aktiv inikası isə üzvi aləmə isnad edirlər. İnikası yalnız üzvi aləmin xassəsini hesab edənlər isə qeyri-üzvi aləmdəki prosesə, sadəcə qarşılıqlı təsir deyirlər. Lakin bunların hər ikisi göstərir ki, qeyri-üzvi aləmdə bu hadisə seçkisiz, passiv, funksional bölgüsüz, məqsədsiz olmaqla yalnız mexaniki refleksiyadır. Üzvi aləmə və insan cəmiyyətinə xas olan inikas isə məqsədli funksiyadır, yəni yuxarıda şərh etdiyimiz uyğunluq prinsipi – burada sözün geniş mənasında məqsədlilik prinsipi səviyyəsinə yüksəlir. İnkişaf etmiş psixik inikas formalarına (və bu inikasa daxil olan informasiya) xeyirlilik (heyvanlar üçün) və qiymətlilik (insanlar üçün) xasdır. Ali inikas formalarına, habelə ümumilik, abstraktlıq, mühümlük, qabaqlama funksiyası və s. xasdır ki, bu da insanın maddi dəyişdirici fəaliyyətində təzahür edən yaradıcı fəallığı ilə bağlıdır. Yuxarıdakı tərəflərin inikas terminini müxtəlif məna verməlləri və bu əsasda da anlayışın həcmi və məzmunu ətrafında apardıqları mübahisələr onların inikasa verdiyi təriflərdə də əksini tapmışdır. Bu təriflərdən bir neçəsinə nəzər salaq. Məsələn, V.S.Tüxtin hesab edir ki, inikas iki qarşılıqlı təsir edən cismin xassə və əlaqələri sıralarının, yaxud

[239] Бах: А. Д. Урсул. Отражение и информация. М., 1973, cəh. 27-31, Yenə onun: Информация, .М., 1970, səh. 134-157.

onların strukturlarının uyğunluğudur.[240]

V.A.Ştoffa görə isə inikas inikas edənin strukturunun inikas etdirənin strukturuna köçürülməsi və saxlanılmasıdır.[241] Gətirdiyimiz hər iki tərif göründüyü kimi, qeyri-üzvi təbiətdəki inikasa aiddir, çünki nə birinci, nə də ikinci halda ali fikri inikas formalarına xas olan fəallıq, seçməlik, məqsədlilik göstərilmir. V.P.Tuqarinov və A.D.Ursul inikasa tərif verərkən məzmun anlayışından çıxış etsələr də, onların verdiyi tariflərə də həmin naqislik xasdır. Tuqarinov göstərir ki, inikas bir hadisənin başqasına elə təsiridir ki, bu təsir əsasında mövcud mühitdə dəyişdirilmiş formada birinci hadisənin xarici görünüşü, funksiyaları, yaxud strukturunun ikinci hadisədə yaradılması deməkdir.[242] Ursul hesab edir ki, inikas maddi sistemlərin (yaxud onların hissələrinin) elə qarşılıqlı təsiridir ki, bu, sistemlər (yaxud alt sistemlər) arasında müəyyən eynilik yaradılmasına aparır, bir sistemin (inikas etdirənin) məzmunu digər sistemin (inikas edənin) məzmununa uyğun gəlir.[243] Bizim fikrimizcə gətirilən təriflərdə olan biryanlılıqdan yaxa qurtarmaq üçün inikas etdirənlə inikas edənin strukturu, məzmunu, sırası, qaydası arasındakı uyğunluğu qeyd etməklə yanaşı hökmən göstərmək lazımdır ki, inikas həm funksional bölünməmiş (qeyri-üzvi aləmdə), həm də funksional bölünmüş formada həyata keçir. Bu qeydi nəzərə alaraq, inikasa aşağıdakı tərifi vermək olar: inikas əks etdirən və əks edən obyektlər arasında – eynilik, uyğunluq yaradan, funksional bölünməmiş və funksional bölünmüş şəkildə həyata keçən bir prosesdir. Fikrimizcə, bu tərifin digərlərindən üstünlüyü ondadır ki, burada inikası səciyyələndirən struktur, məzmun, sıra eyniliyi və uyğunluğu ilə yanaşı inikasın müxtəlif səviyyələrinin baş verdiyi formalar da qeyd edilmişdir.

---

[240] В. С. Тюхтин. Теория отражения в свете современной науки. М., 1971, с. 14.
[241] В. А. Штофф. Моделирование и философия. L., 1966 с. 119.
[242] В. П. Т у г а р и н о в. Философия сознания (современные вопросы), М., 1971, с. 29.
[243] А. Д. Урсул. Информация. М., 1971, с. 139.

İnikas xarakterinə, həyata keçmə mexanizminə və nəticələrinə görə üç tipə ayrılır: qeyri-üzvi təbiətdəki inikas, canlılar aləmindəki inikas, insanın ictimai həyatı zəminində baş verən inikas. Qarşılıqlı təsir nəticəsində baş verən mexaniki deformasiya, işıq şüalarının (kütləsinin) təsiri nəticəsində səthin qızması, küləyin təsiri ilə pərlərin hərəkətə gəlməsi və s. qeyri-üzvi təbiətdəki inikasa misallardır. V.İ.Lenin inikası materiyanın ən ümumi xassəsi hesab edərkən məhz birinci növ inikasdan çıxış etmişdir. Bu cür inikas sonrakı növ inikasların genetik əsasını, onların funksional əsasını təşkil etməklə yanaşı informasiya daşıma imkanlarının təyin edilməsinə kömək göstərir.

İkinci tip inikasa canlılara məxsus genetik informasiya, sadə təkhüceyrəlilərin qıcıqlanması (xarici siqnala bütöv reaksiya) və heyvanların davranışını tənzimləyən bəsit psixi inikas, yaxud heyvani hissiyyat (duyğu, qavrayış) daxildir. Hazırda elmə məlumdur ki, bir sıra canlılar (insanabənzər meymunlar, delfinlər və s.) predmet və şeyləri yalnız duymurlar, onları qavrayırlar, hətta həyatları üçün zəruri olan bir sıra mühüm bioloji əlaqə və xassələri də qavrayırlar.

Nəhayət, üçüncü növ inikas cəmiyyətin yaranması ilə bağlı olmuşdur. Əmək prosesi nəticəsində insanda şüurun yaranması ilə hissi inikasın xarakteri ciddi surətdə dəyişmişdir. Əgər heyvanların hissi inikası təkcə xarici aləmə uyğunlaşmaq istiqamətində həyata keçirsə, insanın hissi inikası aləmin dəyişdirmək məqsədinə tabe olaraq, həm də təfəkkürün birbaşa nüfuz etməsi ilə baş verir. Bu cür inikasa ayrı-ayrı fərdlərin fəaliyyət və davranışlarını tənzim etməyə yönəldilmiş inikas, içtimai həyatın əsasını təşkil edən maddi ictimai varlığın inikası olan ictimai şüur və onun formaları – elm, incəsənət, hüquq, əxlaq və s., elm və texnikanın inkişafı ilə əlaqədar olaraq ümumi inikas xassəsi zəminində yaradılan süni sistemlər daxildir.

Üçüncü tip inikasın səciyyəvi cəhəti inikas formalarının ideal olmasıdır. İnikas formaları ilə inikas edən obyekt arasında

sadəcə bərabərlik işarəsi qoymaq olmaz, bu mürəkkəb bir prosesdir ki, istiqaməti surətin obyektə daim yaxınlaşmasıdır. V.İ.Lenin yazır ki, anlayışların, abstraksiyaların, kateqoriyaların yaranması idrakın dərinləşməsi deməkdir, daha yüksək tərtibdən olan mahiyyətlərin inikası deməkdir.

"Təbiətdəki bütün hədlər şərtidir, nisbidir, mütəhərrikdir, ağlımızın materiyanı dərk etməyə yaxınlaşdığını ifadə edir... Nisbi həqiqətlərin inkişafında, bunların məcmusundan mütləq həqiqət yaranır – nisbi həqiqətlər bəşəriyyətdən asılı olmayan obyektin nisbətən düzgün inikasıdır, – bu inikaslar getdikcə daha dürüstləşir, – hər bir elmi həqiqətin nisbi olduğuna baxmayaraq, onda mütləq həqiqət ünsürü vardır..."[244]

Ali inikas prosesinin məzmununun əsas səciyyəvi cəhətləri:

a) İnikas aparatına təsir edən gerçəkliyin xassə və keyfiyyət müxtəlifliyindən irəli gələn informasiya müxtəlifliyidir ki, buna modallıq deyilir. Hissi inikas səviyyəsində modallıq özünü onda göstərir ki, müxtəlif xassələr və onlara müvafiq təsirlər müxtəlif hiss üzvləri tərəfindən qavranılır. Həm də təsir obyektləri ilə inikas aparatının təbiəti də fərqli olduğundan inikas formaları ilə obyektlər arasında mütləq eyniyyət münasibəti deyil, uyğunluq, mütabiqlik münasibəti mövcuddur. Bu münasibətin düzgün anlaşılması nəticəsində fizioloji idealizm, psixi-fizioloji paralelizm, simvollar, heroqliflər nəzəriyyəsi və s. kimi qeyri-elmi "təlimlər" yaranır.

б) İnikas prosesinin mühüm səciyyələrindən biri; də obyektin strukturasıdır ki, o da kateqoriyalar, prinsiplər və elm qanunları sistemində açılır. Obyektin strukturası inikas formalarının strukturasını da təyin edir, əslində inikas elə obyektin strukturasının ideal surətlərdə proyeksiyasından ibarətdir. İnikasın strukturası elmi biliyin ümumi inkişafı ilə getdikcə təkmilləşir və obyektin strukturasına daha da yaxınlaşır. Buna elmdə uyğunluq, yaxud oxşarlıq prinsipi deyilir. Dialektik məntiq üçün bu uyğunluğun izomorfizm

[244] V. İ. Lenin. Əsərləri, 14-cü cild, səh. 295-324.

(birqiymətli uyğunluq), homomorfizm: (çoxqiymətli uyğunluq), avtomorfizm (çoxluğun özündə əksetməsi), homologiya (iki struktura o halda homolojidir ki, onlar müxtəlif çevrilmələr yolu ilə eyni strukturdan əmələ gəlmişlər) kimi növlərinin son dərəcə böyük idraki əhəmiyyəti vardır. Elmin müxtəlif sahələrində müvəffəqiyyətlə tətbiq edilən bu inikas formaları marksizm idrak nəzəriyyəsinin mühüm məsələləridir.

в) İnikasın mühüm səciyyələrindən biri əks edilən: obyektlərin kəmiyyət tərəfidir. Müəyyən hədlər daxilində kəmiyyət hiss üzvləri vasitəsi ilə, yaxud hiss üzvlərinin "davamı" olan xüsusi cihazlar və mexanizmlər vasitəsi ilə inikas edir. Lakin həmin hədlər kənarında kəmiyyət özü də mürəkkəb nəzəri hesablamalar və sistemlər vasitəsilə dərk edilir.

г) Nəhayət, inikasın mühüm xassələrindən biri də informasiyanın qiymətliliyidir ki, bu da öz növbəsində informasiyanın mötəbərlik və mühümlük dərəcəsindən asılıdır.

Deməli, şərhimizin tamlığı üçün inikas və informasiya anlayışlarının nisbətini, informasiya anlayışının məzmun və həcmini, bu məsələnin izahında fəlsəfi və xüsusi ədəbiyyatda olan nöqteyi-nəzərləri araşdırmalıyıq.

İnikas və informasiya anlayışlarının nisbəti və informasiya termini ilə ifadə edilən anlayışın məzmunu haqqında müasir ədəbiyyatda bir sıra nöqteyi-nəzərlər mövcuddur. Bunları təmsil edən müəlliflərin dəlil və arqumentlərini diqqətlə nəzərdən keçirməklə belə bir nəticəyə gəlirik ki, mübahisə və diskussiyaların əsasında informasiya termininin müxtəlif anlaşılması durur. Məhz ona görədə mübahisə edən tərəflərin mövqeləri inandırıcı görünür, onlar eyni məzmun ətrafında yox, müxtəlif məzmunlar ətrafında mübahisə aparırlar. Ona görə də sonrakı şərhimizi terminin məzmununun dəqiqləşdirilməsindən başlayacağıq. Bu məsələdə V.S.Tüxtinin mövqeyini daha əsaslı hesab etdiyimizdən məhz ona istinad edəcəyik.[245]

---

[245] Бах: В. С. Т ю х т и н. Отражение, системы, кибернетика, səh. 213—217; yenə onun: Отражение, образ, модель, знак и информация. В кн. «Ленинская теория отражения и современность». София, 1969, səh. 217—223.

V.S.Tüxtin qeyd edir ki, hazırda informasiya termini üç mənada işlənir: a) məlumat, bilik, təsəvvür, surət, hətta inikas mənasına mütabiq gələn adi gündəlik mənada. Göründüyü kimi, bu məna özlüyündə aydındır və əlavə şərhə ehtiyacı yoxdur. Adi, gündəlik həyatımızda informasiya termini çox yaxşı işləyir və onda heç bir – nə məntiqi, nə də semantik ziddiyyət müşahidə edilmir. Lakin bu mənada informasiya termini ciddi elmi yük daşımadığından təbiidir ki, o elmi biliyin obyekti və deməli, mübahisə obyekti də ola bilməz; b) “bu sözün ikinci mənası canlı təbiətdə, cəmiyyətdə və texnikadakı inikas və siqnalizasiya proseslərinin təbiəti ilə dərindən bağlıdır”.[246] “Bu informasiyanın (1) təşkilat, yəni sistemin həm səbatlı xassə və münasibətlərinin, həm də sistemin müxtəlif mövcudluq şəraitində yarana və məhv ola bilən səbatsız xassə və münasibətlərinin ideyası; (2) **struktura,** yəni sistemin invariant, səbatlı xarakter daşıyan elementlərinin qaydası kimi başa düşülməsidir”.[247] Məsələn, DNT molekullarında kodlaşdırılmış irsi informasiya, yaxud idarə edəndən idarə edilənə və əksinə (verilən siqnallar), yəni düz və əks əlaqə bu qəbildən olan informasiyadır. Beləliklə, bu cür informasiyanı “struktur informasiya” adlandırmaq olar ki, bu da əsasən innkas prosesinin məzmununu təşkil edir. İnformasiya termininin üçüncü mənası kibernetika ilə bağlı olub, əsasən informasiyanın kəmiyyətini əks etdirir. “Statistik informasiya adlanan bu üçüncü mənada informasiyanın məzmun cəhətindən daha çox onun kəmiyyət tərəfi (müxtəliflik, mürəkkəblilik, qeyri-müəyyənlik və s. bağlı olan) öyrənilmiş və şərh edilmişdir. Bu mənada infor|masiyanın çoxlu tərifinin olması da məhz göstərilən cəhətlə izah edilməlidir. İnformasiya probleminin həllindəki bir sıra mübahisəli cəhətlər, tərif çoxluğu və müxtəlifliyi oradan irəli gəlir ki, müxtəlif müəlliflər terminin başqa-başqa mənalarını, yaxud informasiyanı xarakterizə edən

[246] Yenə orada, səh. 214.
[247] Ленинская теория отражения и современность, сəh. 217.

başqa-başqa əlamətləri əsas götürürlər. Bu halın nəticəsidir ki, təriflərdən bir qiomi çox qeyri-müəyyəndir, digər qismi informasiyanın nə olmasından daha çox nə olmamasından bəhs edir, üçüncü növ təriflər isə biryanlı olduğundan yalnız bir-birini tamamlayan təriflər kimi öyrənilməlidir. A.Q. Volkov yazır: “İnformasiya elmi fəlsəfi abstraksiyadır ki, buna kerçəklikdə konkret maddi formalarda olan müxtəliflik uyğun gəlir”.[248] Yaxud buna bənzər (formaca) ikinci tərif: informasiya elmi abstraksiyadır ki, ona gerçəklikdə işarə sistemləri uyğun gəlir[249] hər iki tərifdə məntiqi qaydalar pozulmuş və informasiya üçün spesifik olan cəhətlər gətirilməmişdir. “Leninin inikas nəzəriyyəsi və kibernetika” kitabında yazılır: “İnformasiya müəyyən bir prosesdir, inikas xassəsinə əsaslanan və informasiya daşıyıcıları – siqnallar vasitəsi ilə həyata keçən maddi sistem əlaqəsi formasıdır”.[250] Bu tərifdə göstərilir ki, inikas obyektiv əlaqə formasıdır, o siqnal-daşıyıcı ilə bağlıdır, informasiya inikasdan ayrılmazdır, ona əsaslanır. Bunun heç birinə etiraz yoxdur, lakin bunlar informasiyanın tərifi yox, xarakteristikasıdır. Kibernetikanın yaradıcısı N.Viner isə yazır ki, “informasiya nə materiya deyil, nə də enerji, informasiya informasiyadır”.[251] İnformasiyanın nə materiya, nə də enerji olduğunu söyləmək nə qədər əhəmiyyətli olsa da, onun məzmunu haqqında bizə məlumat vermir. Göründüyü kimi, informasiyanın vahid tərifinin olmaması bu sahədəki tədqiqatların zəifliyindən daha çox informasiyanın özünün çoxcəhətliliyi ilə izah olunur. İnformasiyanı keyfiyyət-qnoseoloji cəhətdən məlumat kimi, ontoloji cəhətdən struktur, təşkilat kimi, kəmiyyət cəhətdən isə müəyyənlik, qaydalılıq ölçüsü kimi başa düşmək olar. İnformasiyanın bu axırıncı aspektini statistik nəzəriyyələr öyrənir, birmənalı

[248] А. Г. Волков. Управление, информация, семиотика. В кн. Семиотические проблемы языков науки, терминологии и информатики. М., 1971, səh. 24.
[249] Бах: И. А. Хабаров. Философские проблемы семиотики. М,, 1978. с. 141-142.
[250] Lенинская теория отражения и кибернетика, Киев, 1969, səh. 19.
[251] Н. В и н е р. Кибернетика, М., 1956, səh. 201.

determinasiyalı proseslərdə isə informasiyanı ciddi, dəqiq nəzəriyyələr vasitəsi ilə öyrənmək lazımdır.[252]

İnformasiyanın mahiyyəti və hədləri haqqında müasir ədəbiyyatda iki nöqteyi-nəzər mövcuddur: birinci nöqteyi-nəzərin tərəfdarları (A.İ.Berq, V.M.Qluşkov, B.N.Petrov, V.S.Siforova və b.) informasiya ilə inikasın əlaqəsini mütləqləşdirərək informasiyanı materiyanın ümumi xassəsi sayır, ifrat halda isə informasiya ilə inikası eyniləşdirirlər, ikinçi nöqtəyi-nəzərin nümayəndələri isə inikası yalnız üzvi aləmə, insan cəmiyyətinə aid edir, qeyri-üzvi aləmdə isə onun mövcudluğunu inkar edirlər, deməli, informasiya-nı fəal inikas və idarəetmə ilə bağlayırlar.[253]

Bu nöqteyi-nəzərləri diqqətlə nəzərdən keçirdikdə görürük ki, onlar vahid prinsiplərə əsaslanmırlar; bir halda nöqteyi-nəzərlər informasiya termininin müxtəlif mənalarına (məlumat, struktura, müxtəliflik və s.), yaxud informasiya anlayışının məzmununa müxtəlif yanaşmaya (sintaksik, semantik və praqmatik) və ya informasiyanın izahına müxtəlif yanaşmaya (gəmiyyət, keyfiyyət) əsaslanırlar. Daha mötədil müəlliflər isə qeyri-üzvi aləmdəki informasiyanı potensial, imkan, passiv, ölü, üzvi aləmdəki informasiyanı isə aktual, gerçək, fəal informasiya adlandırırlar. Əslində isə gətirilən nöqteyi-nəzərlərin hamısı "mövcudluq hüququna" malikdir.

Müasir dövrdə informasiya haqqındakı nəzəriyyələrdən ən inkişaf etmişi statistik nəzəriyyə və onun qollarıdır. Lakin biz məqalədə bu məsələpin üzərində dayanmayacağıq.

İnformasiyanın idraki funksiyalarını başa düşmək üçün "informasiya şəraiti" adlanan anlayışın məzmununu və informasiyanın toplanmasında, işlənməsində, saxlanmasında və istifadəsində işarələrin rolunu açmaq lazımdır. "İnformasiya şəraiti" dedikdə biz informasiya mənbəyi (idrak obyekti) ilə informasiyanı alan, ünvançı (idrak subyekti) arasında qarşılıqlı

---

[252] Бах: А. Д. Урсуl. Отражение и информация, səh. 36.
[253] Бах: В. С. Украинцев. Отображение в неживой природе, М., 1969, səh. 231–239.

təsiri başa düşürük ki, bu da aşağıdakı həlqələrdə həyata keçirilir:

а) mümkün olan məlumat çoxluğundan konkret birini seçən informasiya mənbəyi;

б) bu konkret məlumatı işarələr vasitəsilə əlaqə kanalının tələb etdiyi siqnallara çevirən keçirici (kodlaşdırıcı qurğu);

в) qarşılıqlı təsir mühiti, yaxud informasiya verilmə kanalı;

г) siqnalları yenidən məlumata çevirən, qəbul edən (kodaçan qurğu);

ğ) informasiyanı idarəetmədə istifadə edən ünvançı, informasiya alan.

Bu sxemdən aydın görünür ki, informasiya prosesi işarələrsiz həyata keçirilə bilməz, işarələr informasiy anın daşıyıcılarıdır.

İnformasiya ilə işarənin qarşılıqlı əlaqəsinin aşağıdakı cəhətlərini göstərə bilərik:

— işarə informasiyanı məna şəklində işarə etmək üçün istifadə edilən maddi vasitədir, informasiyanın daşıyıcısıdır;

— informasiya anlayışı işarə və işarə sistemi anlayışından genişdir, çünki işarəvi informasiyadan başqa peyri-işarəvi informasiya da mövcuddur;

— işarə mənasız mövcud ola bilməz (işarə kimi), məna isə işarədən kənarda, müstəqil şəkildə olmur;

— məna informasiyanın invariantıdır.

# NİSBİLİK NƏZƏRİYYƏSİNİN YARADILMASINDA METODOLOJİ PRİNSİPLƏRİN EVRİSTİK ROLU HAQQINDA

V.İ.Lenin özünün "Materializm və empiriokritisizm" əsərində XIX əsrin axırı – XX əsrin əvvəllərində fizikada yaranmış böhranın səbəblərini açıb göstərməklə yanaşı ondan çıxış yolunun fizikanın metafizik və kortəbii materializmdən elmi dialektik materializmə keçməsində olduğunu əsaslandırmışdır. V.İ.Leninin fikrincə, "yeni fizika azıb idealizmə keçmişdir, başlıca səbəbi də məhz odur ki, fiziklər dialektikadan bixəbərdilər".[254]

Müasiri olduğu təbiətşünaslığın son nailiyyətlərini ümumiləşdirən V.İ.Lenin bu əsasda dialektik materializm müddəalarını inkişaf etdirib zənginləşdirmiş, fizikanın bir sıra mübahisəli anlayışlarının dialektik materializm prinsipləri əsasında şərhini vermişdir. V.İ.Lenin bu əsərində dialektikanın idrak nəzəriyyəsinə, tətbiqinə, marksizm qnoseologiyasının əsası olan inikas nəzəriyyəsinin inkişafına, nisbi və müqləq həqiqətlərin, dialektikasına, konkret elmlərin, xüsusilə, fizikanın nəzəri-metodoloji problemlərinin işlənilməsinə xüsusi fikir vermişdir. V.İ.Lenin. yazır: "Müasir materializm, yəni marksizm nöqteyi-nəzərindən biliyimizin obyektiv, mütləq həqiqətə yaxınlaşma hədləri tarixən şərtidir, lakin bu həqiqətin mövcud olması şübhəsizdir, bu həqiqətə yaxınlaşdığımız şübhəsizdir".[255]

Bununla bərabər V.İ.Lennn göstərir ki, filosof konkret elmlərin nailiyyətlərinə əsaslanaraq materializmin qanun, kateqoriya və prinsiplərini dəqiqləşdirir, kamilləşdirir və yeni məzmunla zənginləşdirir.

---

[254] V. I. L e n i n. Əsərləri, 38-ci cild, səh. 273.
[255] Yenə orada, cəh. 136.

Lakin fəlsəfə konkret elmlərin predmetini əvəz edərək spesifik təbii elmi problemləri həll etməyə girişmir. "...Biz heç də fizikanın xüsusi nəzəriyyələrinə toxunmaq fikrində deyilik. Bizi ancaq bəzi müəyyən müddəalardan və hamıya məlum kəşflərdən çıxarılan qnoseoloji nəticələr maraqlandırır".[256]

Fizika mütəxəssisi isə bu və ya digər konkret fiziki kəşfi, hadisəni və qanunauyğunluğu, hipotezanı şərh etməli olduqda hökmən fəlsəfənin prinsiplərindən rəhbərlik alır. Təbiətşünas unutmamalıdır ki, konkret elmlərin anlayış, prinsip və hipotezaları, bunlar üzərində qurulan nəzəriyyələri fəlsəfənin özül prinsip və ideyaları üzərində qurulmuşdur. M.V.Mostepanenko göstərdiyi kimi, fəlsəfi sistemlər yaradılarkən ilkin şərt varlıq prinsipləridir, bunların əsasında isə idrak prinsipləri irəli sürülür. "İdrakda prinsip anlayışı nəzəri qurğular üçün başlanğıc, ilk əsasdır (yaxud özüldür)"[257]. Təbiətşünaslıqda prinsiplər fəlsəfədə olduğundan daha da konkretləşdirilmişdir. "Fizikanın prinsipləri fiziki hadisələrin müəyyən obyektiv qanunauyğunluqlarının ümumiləşdirilməsidir".[258] Əsas fəlsəfi və fiziki anlayışların qovuşuğundan yaranan metodoloji (requlyativ adlanan) prinsipləri də bu baxımdan nəzərdən keçirmək lazımdır. Məhz bu prinsiplər fəlsəfə ilə təbiətşünaslığın vəhdətini bariz şəkildə göstərir, yeni fiziki nəzəriyyələrin və fiziki prinsiplərin formalaşmasında və inkişafında fəlsəfənin mühüm prinsiplərinin evristik və özül rolunu nümayiş etdirir. Buna misal olaraq nüvə fizikası və kvapt mexanikası prinsiplərinin yaradılmasında çox ciddi rol oynayan V.İ.Lenin tərəfindən söylənmiş materiyanın tükənməzliyi prinsipini göstərmək olar. Digər bir misal olaraq A.Eynşteynin xüsusi və ümumi nisbilik nəzəriyyəsinin yaradılmasında metodoloji prinsiplərin (requlyativlərin)

---

[256] V. I. L e n i n. Əsərləri, 38-ci cild, səh. 263.
[257] М. В. М о с т е п а н е н к о. Философия и методы научного познания. Лениздат, 1972, с. 179.
[258] В. С. Готт. Удивительный, неисчерпаемый, познаваемый мир. М., 1974, с.175.

oynadığı xüsusi rolu göstərə bilərik.

Xüsusi nisbilik nəzəriyyəsinin (XNN) və ümumi nisbilik nəzəriyyəsinin (ÜNN) yaradılmasında requlyativ prinsiplərin evristik rolu çox böyükdür. Bu prinsiplər Eynşteynə öz nəzəriyyəsinin əsas müddəalarını məntiqi ardıcıl şəkildə şərh etməyə, bu müddəaları fikri eksperimentlə metodoloji cəhətdən düzgün əsaslandırmağa və beləliklə də, fiziki qanunauyğunluqlar haqqında əsaslandırılmış və mötəbər fikir söyləməyə kömək etmişdir. Requlyativlərin tədqiqi bizi belə bir əqidəyə gətirir ki, idrak prosesinin inkişaf məntiqi, hətta metodoloji requlyativlərin fəaliyyətində öz ifadəsini tapan ən alqoritmləşdirilmiş aspektində belə ehtimali və evristik məntiqdir.

Requlyativ prinsiplər içərisində müşahidə edilənlik prinsipinin (MP) xüsusi yeri və rolu vardır. Bu prinsipin evristik rolu ondan ibarətdir ki, o elmi tədqiqatın predmeti olaraq yalnız prinsipcə müşahidə olunan obyektləri müəyyənləşdirir. Məlumdur ki, Yum "öz-özünə" aydın hadisələrin təcrübədə yoxlanılmamış reallığı haqqındakı sxolastik müddəanı tədqid etmiş, Max isə MP-nin qələblərini məkaşvə zaman nəzəriyyəsinəşamil etmişdir. Öz idealist istiqamətinə baxmayaraq Yumun ideyaları və Nyuton mexanikasının maxist tənqidi A.Eynşteyndə, yalnız empirik materiallara əsaslanan və məntiqi sübuta malik olmayan hər bir fiziki müddəaya tənqidi münasibət yaratmışdır. Eynşteyn belə hesab edir ki, məntiqi cəhətdən əsaslandırılmış "təcrübi təsdiq", yaxud nəzəriyyənin müşahidə olunan hadisələrlə uyğunluğu nəzəriyyənin yalnız "xarici bəraətidir", zira, əsl elmi nəzəri prinsiplər nə "apriori aksiomlarla", nə də "dəlilsiz eksperimentlərlə" əsaslandırıla bilməz, hər bir nəzəri prinsip yalnız o zaman elmi dəyərə malikdir ki, o, ilk əvvəl heç olmasa fikri eksperiment yolu ilə məntiqi cəhətdən əsaslandırmış olsun. Sonra isə özünün məntiqi inkişafında bu prinsip eksperimentdə təsdiq olunur. Nisbilik nəzəriyyəsini yaradarkən bu müddəaya riayət edən Eynşteyn

sübut etdi ki, klassik fizika "xarici bəraət" meyarından məhrum olmuşdur, çünki elektrodinamik və optik eksperimentlər göstərirdi ki, efirə nəzərən cisimlərin hərəkəti müşahidə edilmir. Bu isə o demək idi ki, mütləq zaman, mütləq eynizamanlıq, mütləq hərəkət və mütləq məkan anlayışları qeyri-realdır. MP-dən çıxış edən Eynşteyn Lorensin[259] əksinə olaraq, həm dünya efiri anlayışından, həm də Nyuton fizikası prinsiplərindən imtina edərək, yeni fiziki nəzəriyyə – XNN Yaratdı. Bu nəzəriyyə həm məntiqi quruluşa ("daxili kamilliyə"), həm də müşahidə edilənliyə eksperimental məlumatlara əsaslanan "xarici bəraətə" malikdir.

Yum və Maxdan fərqli olaraq, Eynşteyn MP-ni materialistcəsinə şərh edirdi ki, bu da özünü XNN-nin izahında Minkovski fəzasının formalizmi vasitəsilə göstərir. Özünün həndəsi şərhində XNN müşahidə ilə dolayı bağlıdır. Max bu nəzəriyyəni metafizikcəsinə şərh edərək MP-yə uyğun olmayan həndəsi formalizm adlandırır və buna görə də qeyri-real hesab edir.[260] MP-ni A.Puankare də konvensionalist mövqedən şərh edir.[261]

MP-nin yuxarıdakılardan fərqli olaraq materialist Eynşteyn şərhi aşağıdakı cəhətlərə malikdir; a) praktiki idrak fəaliyyətində müəyyənləşdirilməmiş mahiyyətlərin elmi nəzəriyyəyə daxil edilməsi yolverilməzdir. Eynşteyn yazır: "Tətbiqi apriori zəruri, yaxud apriori əsaslandırılmış anlayışlar fizikada mövcud deyildir. Bu və ya digər anlayış yalnız o zaman mövcudluq hüququ qazanır ki, hadisələrlə və fiziki eksperimentlərlə aydın və birmənalı qarşılıqlı əlaqədə olur. Nisbilik nəzəriyyəsində mütləq eynizamanlıq, mütləq sürət, mütləq təcil və s. haqqındakı anlayışlar məhz ona görə rədd edilir ki, onların eksperimentlə birmənalı əlaqəsinin müəyyənləşdirilməsinin qeyri-

---

[259] Klassik nəzəriyyənin Mayкelson тəcrübəsinə uyğun olmadığı hələ Lorensə də məlum idi. Lakin Lorens bu uyğunsuzluğu müşahidə edilənlik prinsipinə rəğmən mövcud efir nəzəriyyəsi çərçivəsində aradan qaldırmağa çalışmışdır.
[7] Бах: Д. Хoлтон. Эйнштейн о физической реальности. «Эйнштеиновский сборник. 1969—1970», М., 1970, с. 215.
[261] Бах: А. П у а н к а р е. Ценность науки, М., 1906, с. 9—10.

mümkünlüyü sübut olunmuşdur;”[262] b) elmi metodologiyanın səciyyəvi cəhəti ondan ibarətdir ki, real obyekt idealizə edilmiş təsəvvür, onun müşahidə edilən empirik xassələri isə idealizə edilmiş mahiyyətinə isnad verilən özül fiziki anlayışlar sistemi kimi göstərilir; v) göstərilən bu anlayışlar fiziki kəmiyyətlər vasitəsilə əhatə edilərək ideal obyektləri xarakterizə edir, kəmiyyətlər isə abstrakt olmaqla ciddi müəyyən ölçüyə malik deyildir; q) ona görə də nəzəriyyənin maddi gerçəkliklə əlaqəsi üçün bu kəmiyyətləri real obyektlərin xassələrinə aid etmək zəruridir. Buna isə yalnız ölçmə zamanı nail olmaq olar ki, bu zaman obyektin öyrənilən əlamətləri aydın kəmiyyət xarakteristikası kəsb edir. Məsələn, klassik mexanikanın obyekti kütlə, koordinatlar və sürətlər, elektrodinamikanın obyekti elektrik və maqnit sahələri gərginliyi ilə, skalyar və vektor potensialları ilə, elektrik yükü sıxlığı ilə və s. müəyyən olur; d) hissi qavrayışlarda nəzəri anlayışlar arasında bir aydınlıq mövcuddur. “İlkin”, nəzəri anlayışlar bilavasitə və intuitiv surətdə hissi qavrayışlar kompleksi ilə bağlıdır, lakin onun eyni deyil. Ona görə də nəzəri müddəalar duyğu komplekslərindən yalnız məntiqi mühakimələr yolu ilə çıxarıla bilməz. Deməli, hər hansı məntiqi sistemin fiziki reallığını müəyyən etmək üçün zəruri surətdə tələb olunur ki, “onun bütün müddəalarını müstəqil şərh etmək və “operasionalistcəsinə yoxlamaq”[263] mümkün olsun və “...ondan irəli gələn müddəalar prinsipcə empirik yolla yoxlanıla bilsin”.[264] Lorensin elektron nəzəriyyəsinin özül müddəalarını operasionalistcəsinə yoxlayaraq Eynşteyn onların yararsızlığını müəyyən etmişdir, çünki bu sistemin əsaslandığı “efir”, “həqiqi zaman”, “həqiqi məkan” kimi “ilkin anlayışlar” operasionalistcəsinə müəyyən edilə bilmir.

Eynşteyn MP-lə əlaqədar olaraq saxtalaşdırıla bilmə

---

[262] А. Эйнштейн. Собр. научных трудов, т. 4, 1967, с. 550.
[263] Operasionalistcəsinə yoxlamaq — fiziki kəmiyyətlərin ölküldükləri əməliyyatlar məcmusunu göstərmək yolu ilə müəyyənləşdirilməsi deməkdir.
[264] А. Эйнштейн. Собр. научных трудов, т. 4, М., 1967, с. 306.

prinsipini də (SbP) irəli sürür. Eynşteynin fikrincə, SbP fiziki nəzəriyyə məlumatlarının eksperiment məlumatlarına uyğun olmasına nəzarət təşkil etmə metodudur. Obyektiv olaraq bu metodhadisə ilə onun nəzəri təsviri arasındakı münasibəti əks etdirir; SbP-nin istifadə edalməsi zərurəti yanlış, yaxud səlahiyyəti hədlərini itirmiş nəzəriyyəni eksperiment materiallarına uyğunlaşdırma imkanından ibarətdir. (Lorens elektron nəzəriyyəsini bu cür uyğunlaşdırmağa çalışmışdır) Eynşteyn məhz bu cür nəzəriyyələr haqqında yazmışdır ki, "...məkan-zaman yertutarlığına malik olan saxta obyektlər və bu obyektlərin tabe olduğu qanunauyğunluqlar haqqındakı fərziyyəyə əsaslanan kafi nəzəriyyələr mövcuddur".[265] Bu istiqamətdə saxtalıq MP ilə SbP arasındakı əlaqə həlqəsidir. "Saxtalıq" məntiqi olaraq subyekt kimi çıxış edən nəzəri modellər haqqında anlayışlardır ki, bu modellərə "müşahidə predikatları": koordinatlar, impuls və i. a. istinad verilir. Bu "predikatlarsız" "saxta" modellər fiziki reallıqdan məhrum olan abstrakt qurğulardan, fiksiyalardan başqa bir şey deyil. Məsələn, "kitab", "stol", "dəmir" və s. kimi obyektlər yalnız bu mənada saxtadırlar ki, müşahidə edilən onların özü deyil, müxtəlif "proeksiyaları", qavrayış variantlarıdır. SbP nəzəriyyədən obyektiv reallığı birmənalı inikas etdirmək tələb edir, hərçənd ki, müxtəlif dövrlərdə "reallığa" malik olmaq hüququna müxtəlif anlayış və təsəvvürlər malik olmuşlar. Məsələn, Nyutonun sistemində reallıq ifadəsi ilə "maddi nöqtə", Maksvell sistemində "kəsilməz sahə" göstərilmişdir.[266]

XNN və ÜNN-nin yaradılmasında mühüm rollardan birini nisbilik prinsipi (NP) oynamışdır. Fəlsəfi mənada Eyişteynin nisbilik prinsipinin evristik rolu belə bir müddəanı təsdiq etməkdədir ki, real məkan-zaman xassələri hərəkət edən materiyanın mövcudluq xüsusiyyətlərindən asılıdır. Bu isə o deməkdir ki, məkanın metrikası (həndəsi) məkanda baş verən

---

[265] А. Э й н ш т е й н. Собр, научных трудов, т. 4, с. 329.
[266] Yenə orada. səh. 136—138.

hadisələr çoxluğundan asılıdır. Fəlsəfi-fiziki requlyativ olan nisbilik prinsipi mütləq zaman-məkan haqqında Nyuton təsəvvürlərini, mütləq hesablama sisteminin mövcudluğunu inkar edir, məkan, zaman və hərəkətin nisbiliyi ideyasını əsaslandırır. Eynşteynin NP formalaşmasına Qalileyin, Dekartın, Spinozanın və Leybnisin ideyaları böyük evristik təsir göstərmişdir. 1904-cü ildə Puankare düz xətlə və inersiya ilə hərəkət edən cisimlərə nəzərən nisbilik prinsipini formulə etmiş, lakin bu prinsipi konvensional anlayış kimi şərh etmişdir. Hələ bir qədər əvvəl Lorens, Qaliley və Nyutonun nisbilik prnnsipindən istifadə edərək, elektron nəzəriyyəsini yaratmış və bu nəzəriyyə üçün riyazi aparat (Lorens çevrilmələri) hazırlamışdır. Bu aparat vasitəsi ilə bərabər sürətlə hərəkət edən oxşar sistemlərdə təbiət qanunlarını çevirmək mümkün olur. Lakin Lorens bir sıra əlavə hipotezalar irəli sürsə də, nisbilik prinsipi ilə işıq sürətinin sabitliyi prinsipi arasındakı, sabit efir nəzəriyyəsi ilə Maykel son təcrübəsinin mənfi nəticəsi arasındakı ziddiyyəti həll edə bilmədi. O, öz çevrilmələrinin nisbilik nəzəriyyəsinin əsaslandırılmasında ciddi əhəmiyyətini başa düşməmiş və onları klassik mexanika ruhunda şərh etmişdir. Puankare kimi, Lorens də qeyri-mütləq zamanın reallığını inkar edir və öz nəzəriyyəsinə mütləq və “qeyri nisbi” zaman anlayışlarını daxil edir.[267] Bu mənada Eynşteynin o dövrdə nisbilik konsepsiyasına gətirdiyi yenilik nisbilik prinsipi ilə işıq sürətinin sabitliyi prinsipinin evristik sintezinin a<L hos hipotezasından xilas olmaqdan; nisbilik prinsipinə təbiətin ümumi qanunu şəkli verməkdən və bu əsasda XNN məntiqi surətdə qurmaqdan; dünya efir “nəzəriyyəsini” rədd etməkdən ibarət olmuşdur.[268]

Eynşteynin fikrincə, nisbilik nə müşahidəçi, nə də ölçü cihazları tərəfindən yaradılmır, o, müşahidə və ölçü vasitəsi ilə yalnız müəyyənləşdirilir və dəqiqləşdirilir. XNN vasitəsi ilə izah

[267] А. Г р ю н б а у м. Философские проблемы пространства и времени. М., 1969, с. 105.
[268] Бах: М. Лауэ. Статьи и речи, М., 1969, с. 284—285.

edilən relyatnvist effektlər təbiətin, obyektiv aləmin özünün xassələridir. Eynşteyn Qalileyin mexaniki nisbilik prinsipini qeyri-mexaniki fiziki proseslərə nəzərən ümumiləşdirərək, XNN-nin birinci postulatını formulə etmişdir: istənilən inersial hesablama sistemində bütün fiziki hadisələr (mexaniki, optik, istilik, elektrik və i. a.) bərabər şəraitdə eyni cür baş verir. Metodoloji requlyativ olan NP fiziki-fəlsəfi planda aşağıdakı müddəalarla xarakterizə olunur: a) zaman nisbi xarakterlidir (eynizamanlılığın nisbiliyi); b) məkan nisbi xarakterlidir; v) Qaliley prinsipindən fərqlənən sürətlərin toplanması prinsipi (boşluqda işıq sürəti sabit və son həddir); q) Lorensin çevrilmə qrupları obyektivdir.

Buradan evristik mülahizələr yolu ilə aşağıdakı nəticələr çıxır: bir-birindən aralı olan iki hadisənin eynizamanlılığı anlayışının invariantlığı, habelə cisimlərin metrik müəyyənliyinin invariantlığı rədd edilir, yəni fizikanın əsaslarından mütləq zaman və məkan anlayışları, uzaq təsir prinsipi çıxarılır; hərəkət edən sistemin sürəti işıq sürətinə yaxındırsa, klassik mexanikanın qanunları dəyişilir və yeni formada fəaliyyət göstərir; sonsuz sayda inersial sistemlər üçün fiziki qanunlar tamamilə eynidir, bu sistemlərdə məkan-zaman ölçülərinin nəticələri bir-biri ilə Lorens çevrilmələri vasitəsilə bağlıdır; NP və ondan irəli gələn müddəalar kütlə ilə enerjinin ekvivalentliyi prinsipinin obyektivliyini evristik olaraq şərtləndirir.

Fəqət, NP XNN-də təbiətin ən ümumi qanunu kimi tam təcəssümünü almadı, çünki o, bir-birinə nəzərən təcillə hərəkət edən sistemlərə şamil edilmirdi. Bu məhdudluq Eynşteyn tərəfindən XNN yaradılarkən aradan qaldırılır və NP ümumi qanun xarakteri alaraq, bütün hesablama sistemlərinə, o cümlədən istənilən ixtiyari hərəkət edən sistemlərə də şamil edilir. NP-nin meydana gəlməsində Max prinsipi adlanan prinsip əhəmiyyətli rol oynamışdır.[269] Max yəqin başa düşmüşdür ki,

---

[18] Б. З е л ь д о в и ч, И. Д. Н о в и к о в. Релятивистская астрофизика. М.,

“cisimlərin inersiya və ağır kütləsinin bərabərliyi tələbi daha geniş mənada nisbilik postulatına gətirir”, çünki hər hansı bir koordinat sisteminə nəzərən, cismin düşməsinin qravitasiya sahəsinin olması ilə, yaxud hesablama sisteminin özünün təcili ilə şərtləndiyini eksperimental surətdə müəyyən etmək olmur.[270] Bu müddəaları şərh edərək Eynşteyn güman etmişdir ki, ətalət qüvvəsi sahəsi öz mənşəyinə görə bizdən çox uzaq olan ulduzların kütləsinə borcludur. İnersiya qüvvəsi sahəsi qravitasiya sahəsi ilə ekvivalent olduğundan, birincinin kütlələrdən əsaslılığına dəlalət edir. Daha dəqiq desək, məkan və zamanın əyriliyi tamamilə Kainatın məcmu kütləsi ilə müəyyən edilir və beləliklə, “materiya” qravitasiya sahəsini və deməli, zaman-məkan həndəsəsini təyin edir, bu axırıncı isə öz növbəsində materiyanın paylanması və hərəkətinin xarakterini müəyyən edir. Bu anlayış və müddəaları Eynşteyn XNN-nin differensial tənliklər sistemi ilə ifadə edir.

XNN-nin yaradılmasında mühüm rollardan birini də invariantlıq prinsipi (İP) oynamışdır ki, bu da əslində nisbilik prinsipinə çox yaxındır. Belə ki, əgər inersial hərəkətin nisbiliyi (Qalileyin nisbilik prinsipindən çıxış etsək) bütün inersial sistemlər üçün mexanika qanunlarının eyniliyi deməkdirsə, buradan belə çıxır ki, hərəkət tənlikləri koordinatların müvafiq çevrilmələrinə nəzərən invariantdır. İP-nin evristik rolu ondan ibarətdir ki, maddi aləmin vəhdəti və onun qanunlarının əsaslığı ideyası üzərində qurulan bu requlyativ, müəyyən riyazi çevrilmələr qrupuna nəzərən qanunların və ya qanunlar sisteminin dəyişməzliyi tələbini şərtləndirir. Bu prinsipi xarakterizə edərək, Eynşteyn yazır ki, tədqiqatçının İP-in tətbiq etmək zərurəti o vaxt yaranır ki, o, nəzəriyyəyə bəzi qrup xassələri istinad verməyə çalışır, yəni biz fərz edirik ki, eyni bir fiziki şərait müxtəlif üsullarla təsvir edilə bilər ki, bu üsulların hər biri eyni dərəcədə əsaslı sayılmalıdır.[271]

---

1967, с.586.

[270] Бах: А. Эйнштеин. Собр. научных трудов, т. 4, с. 31.

[271] Бах: А. Э й н ш т е й н. Собр, научных трудов, т. 4, с. 307—308.

XNN-də İP-nin evristik rolu təkcə onunla müəyyən edilmir ki, bu requlyativ bir inersial sistemdən digərinə keçdikdə fiziki qanunların dəyişməzliyini göstərir. Bu rol bir də onda təzahür edir ki, koordinat sisteminin seçilməsindən asılı olmayan kəmiyyətlərin, yəni tədqiq edilən obyektin daxili xassələrini xarakterizə edən komponentlərin təyin edilməsinə kömək edir. İnvariantlar metodunu işləyərkən, Eynşteyn bu requlyativin evristik funksiyasını xüsusilə qeyd etmişdir. Bu funksiya, müəyyən minimum eksperimentlərdən çıxış edərək, nəzəriyyə yaranarkən tətbiq edilən, "riyazi mümkün qanunlar müxtəlifliyini əhəmiyyətli məhdudlaşdırmaq" və bununla da bir neçə ekvivalent sistemdən ən yaxşısını seçmək imkanını şərtləndirir.[272]

Одной из главных характеристик современной экологической проблемы является ее глобальность, что, несомненно, должно отражаться и отражается на глобальности и эколо- логического сознания, ибо в общегносеологическом плане экологическое сознание есть отражение экологического бытия, Глобальность экологического сознания включает два ракурса: во-первых, то что оно ныне не может ограничиваться лишь отражением отдельных локальных проблем, затрагивающих «интересы» той или иной части природы, отдельного региона пли страны. Оно должно формироваться, развиваться и функционировать в **планетарных масштабах; во-вторых,** глобальное экологическое сознание должно превращаться в элемент, или общую характеристику **всех уровней и всех форм** общественного сознания. Следовательно, первой важной особенностью экологического сознания является глобальность, из которой прямо вытекает и другая, не менее важная, особенность — ее интегративность, синтетический

характер. В настоящее время понятия «глобальная экология», «социальная экология» выражают не отдельную науку, а скорее **определенный общенаучный подход к решению фундаментальных теоретических и практических задач.** В этом смысле, в той или иной мере все науки имеют экологическую окрашенность; разрешая свои конкретные **физические, химические, географические и др. задачи,** эти науки, непременно, должны учитывать их экологическое **«звучание»,** возможные экологические последствия. Экологическая обусловленность и мотивированность, стало быть, отныне выступает одним из существенных показателей успешности решаемых проблем. Эта же особенность обусловливает интеграцию наук и синтез знания.

Указанная особенность экологической проблемы находит свое отражение в таких важнейших особенностях экологического сознания как системность и комплексность. Как бы велико ни было значение знания отдельных явлений, сопровождающих жизнь человека, оно не создает полного представления о поведении системы, которое порою не только резко отличается от поведения элемента, по оказывается противоположным ему. Именно поэтому, экологическое сознание для успешного функционирования в своем развитии должно возвыситься до уровня системности. Оно же должно обладать комплексностью, т. е. отражать то обстоятельство, что все глобальные проблемы составляют звенья единого комплекса, а именно, скажем, «чисто» экологическая проблема связана в единой цепи с демографической проблемой, проблемой продовольственного обеспечения насёления Земли, проблемой войны и мира и другими проблемами современной глобалистики.

Важной особенностью экологического сознания является его мощное предвиденческо-прогностическое

свойство. Оно должно опережающе отражать не только ближайшие позитивные или негативные следствия изменений, производимых в природе техногенной деятельностью человека, но предвидеть последствия более отдаленные от нас, прямые и обратные связи. Это тем более важно, что **довольно часто положительные при повседневной оценке, или при непосредственной отдаче, явления,** оборачиваются как крайне нежелательные и катастрофически вредные при оценке их с позиции перспективы человечества.

В связи с этим отметим еще одну особенность экологического сознания, вытекающего из предыдущей: в прошлом познание природы, а, следовательно, сознание человека были направлены на усиление целеположенного преобразования природы, па расширение границ природопользования. Экологическое же сознание в силу создавшейся ситуации призвано выполнять противоположную функцию — предельно ограничивать преобразовательную нацеленность познавательной и практической деятельности человека на базе максимальной оптимизации природопользования.

Экологическое сознание должно ломать веками сложившийся стереотип отношения к природе, лейтмотивом которого было неограниченное изменение и использование природных богатств любыми средствами, оно должно стремительно формировать новый стереотип отношения к природе: сохранять и воспроизводить природные ресурсы, ее гармонию и равновесие, выработать оптимальные методы, формы и средства природопользования в допустимых самой природой пределах. Сохранение природы, как видим, является необходимым условием нового сознания и нового-мышления.

Такая деятельность должна опираться на разумный учет

требований объективных экологических законов и обеспечить, тем самым, сохранение природных условий жизни общества, достижение социально значимых целей. Это и будет означать свободу действий человека в условиях современной экологической ситуации.

6. Все вышеуказанные особенности экологической проблемы и экологического сознания должны лечь в основу современной экологической политики. Очевидно, современная экологическая политика не может быть локальной, она должна носить общепланетарный характер. «Парниковый эффект», «озоновая оболочка», Чернобыльская катастрофа — их действительные и возможные последствия — яркое тому свидетельство.

7. Экологическая политика должна носить системный и комплексный характер, она должна включать систему и комплекс мер, охватывающих все сферы народнохозяйственного комплекса. Любые экономические, технические, технологические, демографические, социальные и т. д. решения должны быть экологически обоснованы, в целом же вся внешняя и внутренняя политика государства должна строиться с учетом мировой экологической ситуации.

# ОГЛАВЛЕНИЕ

**Ахмедли Джалиль Теймур оглу**
**УРОВНИ И СТАТУС ЭКОЛОГИЧЕСКОГО СОЗНАНИЯ..............................................................268**

D-57

Elmi
nəzəri
praktik
jurnal

# DÜNYAYA BAXIŞ

2.2009

## ƏHMƏDLİ C.T.

*Pyotr Elmlər və İncəsənət Akademiyasının akademiki, əməkdar elm xadimi, f.e.d., proffessor*


## ELMLƏRİN İNTEQRASİYASI, BİLİYİN SİNTEZİ

Mürəkkəb sosial sistem olan elmin obyekti maddi və mənəvi gerçəkliyin komponentləri - təbiət, cəmiyyət və təfəkkürdür. Antik dövrdə bu elementlər bir-birindən ayrı təsəvvür edilmirdi, onların hamısı makrokosmos adlandırılan varlığın mikrokosmları idi. Təbiət də, cəmiyyət də, hətta ruh dünyası da bir-birilə bağlı olan müstəqil kosmik təşkillər kimi təsəvvür edilirdi. Ona görə də bu kosmosentrizm prinsipi əsasında strukturlaşmış aləm haqqındakı elmi (və elə qeyri-elmi) biliyə naturfəlsəfə deyilirdi.

Lakin elmin və sosial praktikanın sonrakı inkişafı prosesində insanların aləmi dərk və istifadə etmək yönümdəki tələbatı mürəkkəbləşir, qol-budaq atır, şaxələnir. Bilikdə bir növ parçalanmalar baş verir. Tələbatın hər bir növünün ödənilməsi gerçəkliyin müəyyən bir sahəsinin, bu sahəyə aid olan obyektlərin, xassələrin, əlaqə və bağlantılarm, bir sözlə, onların mövcudluğunun, hərəkət və inkişafının, durum və fəaliyyətinin əsasında duran qanunauyğunluqların dərk edilməsini zərurətlə tələb edir. Bu əsasda da bilik kütləsində diferensiallaşma baş verir. Naturfəlsəfə adlanan vahid bilik kütləsindən gerçəkliyin iri fraqmentlərini (materiyanın hərəkət formalarına müvafiq fraqmentlərini) öyrənən elmlər yaranır: mexanika- mexaniki hərəkət (sürtünmə, diyirlənmə, zərbə) qanunlarını; fizika - maddənin müxtəlif hallarını və onların enerjilərini; kimya - maddəni və onun növlərini, onların birləşmə və ayrılma

(assosiasiya və dissosiasiyası) qanunlarını; biologiya - həyat, onun yaranması, təzahürləri, inkişafı və ölüm qanunlarını; geologiya - yerin meydana gəlməsi, quruluşu, inkişafı qanunlarını; astronomiya - kainatı, onun struktur səviyyələrini, kosmik sistemlərin yaranma və məhvolma qanunlarını və s. və i.a. öyrənir. Sonrakı inkişafda sadaladığım bu elm sahələrinin hər biri daha dar və dərin tədqiqat sahələrinə parçalanır... Hazırda elmi biliyin müxtəlif həcmli və əhatə dairəli yüzlərlə qolları vardır ki, bunlar da şəksiz həm koordinasiya (üfüqi müstəvidə), həm də subordinasiya əlaqə (şaquli müstəvidə) şəbəkə sistemlərinin müvafiq komponentlərini təşkil edirlər.

Elmin (elmlərin) differensiallaşması tarixi inkişafın mütərəqqi bir meyli idi, çünki diferensiallaşma elmi biliyin gerçəkliyin daha dərin qatlarına nüfuz etməsi, yeni mahiyyət pillələrinin elmi tədqiqat dairəsinə cəlb edilməsi deməkdir. Təkcə fizika elminin timsalında bunu aydın görmək olar. Vaxtı ilə «Fizika» adı ilə yaranan bu elm hazırda onlarla daha dar statuslu hissələrə parçalanmışdır: bərk cisimlər fizikası, atom fizikası, elementar hissəciklər fizikası, optika fizikası, maqnit (elektromaqnit) fizikası və s.... Aydındır ki, bu «fizikaların» hər birinin yaranması o demək idi ki, fiziki idrak fiziki gerçəkliyin daha dar sahələrinə nüfuz edir, daha yüksək tərtibdən olan mahiyyətləri öz əhatə dairəsinə cəlb edir.

Elmi biliyin inkişafının müəyyən mərhələsindən sonra bütünlüklə mütərəqqi olan elmin diferensiallaşması prosesində (bu proses bu gün də davam edir və güman ki, gələcəkdə də davam edəcəkdir, onun dayanması elmin və biliyin sonu demək olardı. Bu isə mümkün deyildir, idrak daim nisbi və hədli xarakterli hadisədir) bəzi nöqsanlı məqamlar da üzə çıxır. İlk növbədə bu ondan ibarətdir ki, diferensiallaşmanın nəticəsi olaraq əlaqə və asılılığı, qarşılıqlı nüfuzetməni anlamaqda, əməli fəaliyyətdə bu ümumi qarşılıqlı əlaqə prinsipinə əsaslanmağa mane olur. Bu da elə bil ki, müxtəlif bilik növlərinin təmsilçiləri arasında bir

«yadlaşma» mühiti, bəzən hətta müxtəlif təsir güclü ziddiyyətlər də yaradır. Halbuki, həm tədqiqat obyektləri və predmetləri arasında olan yaxınlıq və «qohumluq» əlaqələri, həm də ümumi vəhdətdə olan bu dünyanın idrakının obyektiv məntiqi müxtəlif elm sahələrinin bir-birinə yaxınlaşmasını, hətta, birləşməsini tələb edir. Başqa sözlə, elmi-texniki inqilab şəraitində elmlərin obyektləri və predmetləri haqqındakı biliklər belə bir postulata əsaslanmalıdırlar elmlərin vəhdəti (inteqrasiyası) obyektiv real gerçəkliyin vəhdətinə, qarşılıqlı əlaqə və şərtlənməsinə əsaslanmalıdır.

Engels hələ vaxtı ilə göstərmişdir ki, «təbiətşünashğm predmeti hərəkət edən materiyadır... Hərəkətin müxtəlif formalarının idrakı elə cisimlərin idrakıdır. Beləliklə, həmin müxtəlif hərəkət formalarının öyrənilməsi təbiətşünaslığın başlıca predmetidir»[305]. Buradan belə məlum olur ki, təbiətşünaslığın predmeti indi də əvvəlki kimi materiyanın hərəkət qanunauyğunluqlarıdır. Bütövlükdə olduğu kimi qalan təbiətşünaslıq predmeti, eyni zamanda məzmunca önəmli surətdə başqalaşmışdır, ona görə ki, materiyanın hərəkət formalarının öyrənilməsi səviyyəsi əsaslı surətdə yüksəlmişdir. Bunu elmi idrakın öz daxili tələbatı və cəmiyyətin daim artmaqda olan maddi və mənəvi tələbatı şərtləndirmişdir.

İdrakın elmlərin obyekt və predmetlərinə daha çox nüfuz etməsi, mahiyyətlər ierarxiyasınm daha dərin laylarını aşkarlaması onlarda olan iki məqamın - dinamik (dəyişkənlik) və statik aspektlərin müəyyən edilməsinə kömək edir. İdrakda dinamik və statik məqamların vəhdəti əldə edilən bilikləri təbiətin, cəmiyyətin və insan təfəkkürünün qanunlarının kəşfinə yönəltməyə kömək edir. İdrakda dinamika ona dəlalət edir ki, idrak obyekti olan aləm daim dəyişmədə və inkişafda, yaranmada və məhvdə olduğuna görə idrakın gerçəkliyi adekvat əks etdirməsi

---

[305] К.Маркс, Ф.Энгельс. Соч., т.33, с.67-68

üçün o özü də hərəkətdə və inkişafda, yeni idrak vasitələrinin - anlayışların və s. Abstraksiyaların meydana gəlməsi, təkmilləşməsi, fəaliyyəti və digərləri ilə əvəzlənməsi prosesində, başqa sözlə, daim dinamik halda olmalıdır. İdrakda statik halın olması ona görə zəruridir ki, istənilən idrak obyekti özünün yetkin durumunda götürülür və sanki, «dayandırılır», «dondurulur». Onda olan hərəkət və inkişafdan sərfnəzər edilir. Obyektin statik halındakı parametrləri məntiqi-qnoseoloji əməliyyatlara cəlb edilir. Əks halda dünyadakı keyfiyyət müxtəlifliyini və onun stabilliyini şərtləndirən amil təyin edilməmiş qalar.

Obyektiv gerçəkliyin şüurda bu cür aktiv və yaradıcı inikası sosial fəaliyyətdə həm böyük nəzəri, həm də praktiki əhəmiyyətə malikdir. Həm də bu vəziyyət obyektiv dialektika ilə subyektiv dialektikanın yaradıcı vəhdətinin nümayişidir. Məhz bu vəhdət sayəsində biz aləmdəki hadisə və prosesləri təkcə indiki halda yox, onların hansı yöndə hərəkət edəcəyini, inkişafını öyrənirik. Başqa sözlə, onların mümkün gələcəklərini öncədən görürük və bu önbilməni əməli fəaliyyətimizdə istifadə edirik. Bu münasibətlə böyük kimyaçı alim D.İ.Mendeleyev yazır: «predmetlərin elmi öyrənilməsinin iki əsas, yaxud son məqsədi vardır: öngörmə və xeyir. İndi məlum olmayan nəyinsə öngörməsi, yaxud önsöylənməsi insanlara şeylərin lap mahiyyətinə nüfuz etməyin mümkünlüyünü bildirir... Lakin elmi öngörmələrin təntənəsi nəticədə xeyirlə nəticələnməzsə insan üçün məkansız bir şey olar. Bu onunla izah edilir ki, elmi önsöyləmələr idraka əsaslanmaqla insanın sərəncamına elə bir inam, qətiyyət verir ki, bunların köməyi ilə şeylərin təbii axarını istənilən səmtə yönəltməklə ona nail olunur ki, arzuolunanla gözlənilən indikinə, görünməyən görünənə yaxmlaşır[306].

Diferensiallaşma nəticəsində yaranan yeni elmlərin xarakterik xüsusiyyəti ondan ibarətdir ki, onların obyektlərini təbii

---

[306] Менделеев Д.И.Периодический закон. М., 1958,с.590

hiss orqanlarımız vasitəsilə qavramamız çətinləşir, belə demək mümkünsə, onlarda predmetlilik, əyanilik pünhanlaşır. Bu elmlər sırasına fiziki bilikdən: kvant mexanikasını, atom və nüvə fizikasını, elementar hissəciklər fizikasını, nüvə- maqnit rezonansını və s.; kimyəvi bilikdən: nəzəri kimyanı, molekulyar kimyanı, rezonans kimyasını və s.; bioloji bilikdən: molekulyar biologiyanı, molekulyar genetikanı, molekulyar biofızikam və s.; astronomik bilikdən: radioastronomiyanı, astrofizikanı, kosmoqoniyanı və onun qollarını və s. aid etmək olar. Bütün bu və digər bu qəbilli elmlərin obyektlərinin xassə və əlaqələrini, substratlarım dərk etmək üçün subyektin idrak orqanlarının təsir dairəsini genişləndirmək və təsir gücünü artırmaq üçün onlarla obyekt arasında «gücləndirici» və «sürətləndirici» (yaxud «ləngidici») həssas cihazlar, xüsusi qurğular yerləşdirilir. Bütün bu vasitələrin təyinatı obyektin mahiyyətinə nüfuz etməyi səmərəliləşdirmək və „sürətləndirməkdən, arzuolunanla gözləniləni, üstəlik bunları indiki ilə yaxınlaşdırmaqdan ibarətdir. Qətiyyətlə demək olar ki, insan idrakının səmərəlilik əmsalı «arzuolunanla» «gözlənilən», bunların hər ikisinin «indikinə» yaxınlaşması dərəcəsi ilə ölçülür.

Söylədiyimiz bu fikri əyani təsəvvür etmək üçün bir neçə elmin son dövrdə inkişafına və əldə edilmiş nailiyyətlər sayəsində formalaşmış duruma nəzər salaq. Məlumdur ki, XX əsrin əvvəllərində edilmiş bir sıra kəşflər sayəsində (işığın sürəti, xüsusi nisbilik nəzəriyyəsi, işığın kütləsi, elektronun və bir sıra digər elementar hissəciklərin, Plank sabitinin və s.) klassik mexanikası o vaxta qədər qeyd-şərtsiz qəbul edilən və «yenilməz həqiqət» sayılan prinsip və postulatları, nəzəri müddəaları gücdən düşdü, yeni yaranan və ya aşkarlanan bir substansiona, atributiv və yelyativ faktlarla həmin prinsip və postulatlar arasında mövcud əsaslarla həlli mümkün olmayan ziddiyyət yaranmışdı. Ziddiyyətin uğurla həll edilməsi üçün efemer tədbirlərin görülməsi kifayət etmirdi. Mexanika elminin özünün kökündən

dəyişilməsi, yeniləşməsi tələb olunurdu. Həmin tədəbi əyani şəkildə göstərmək üçün tək bircə determinizm prinsipinin taleyinə nəzər salaq. Kant-Laplas determinizmi adı ilə tanınan bu prinsipin məğzi bu idi ki, bərabərsürətli düzxətli hərəkətdə olan (təcili olmayan) sistemlərin başlanğıc parametrlərini (məkan koordinatlarını və impulsunu) biliklə hərəkət trayektoriyasmın istənilən nöqtəsində onun məkan koordinatlarını və impuls (sürət) göstəricisini təyin edə bilərik. Təbii ki, elektron da kəşf ediləndə onun təyininə də klassik ölçü vahidləri və klassik mexanika metodları ilə yanaşdılar. Nəticə xeyli çaşdırıcı oldu. Elektron klassik mexanikanın determinizm prinsipinə qəti tabe olmurdu. Hərəkət prosesində onun məkan koordinatlarını (yerini) nə qədər dəqiq müəyyənləşdirməyə çalışırıqsa, onun impuls göstərici (sürəti) o qədər qeyri-müəyyən olur. Və tərsinə, onun sürət halını (impulsunu) nə qədər dəqiq müəyyənləşdirməyə çalışırıqsa, onun məkan koordinatları o qədər qeyri-müəyyən olur. Elə bil ki, elektron bir donda iki təbiət gəzdirir. O, özünü gah dalğa, gah da korpuskula kimi aparır. Üstəlik onun davranışında müşahidə edilən bəzi faktlar korpuskula olmasına dəlalət edirsə, digər faktlar dalğa olmasına dəlalət edir. Kvant mexanikasının yaradıcılarından biri olan Heyzenberq müəyyən etmişdir ki, qeyri-müəyyənlik prinsipi iki qeyri-müəyyənliyin ( p, x) hasili Plank sabininin yarısına bərabər və ya ondan böyük ola bilər.

**DÜSTUR**

Kvant mexanikasının ana sütunlarından biri, baza təhsilinə görə tarixçi, XX əsrin ən görkəmli fiziklərindən olan Lui de Broyl özünün korpuskula - dalğa dualizmi adı ilə məşhur olan nəzəriyyəsi ilə kvant mexanikasına dayanacaq verdi. Məlum oldu ki, ikili təbiətə malik olan elementar hissəciklər statistik (ehtimali) xarakterlidirlər. Deməli, kvant mexanikasının predmeti klassik mexanikanın predmetindən daha dərin qatda olan mahiyyətlərin idrakından ibarətdir. Kvant mexanikası səviyyəsində fəaliyyət

göstərən qanunauyğunluqların «izini» klassik mexanikada axtarsaq əbəsdir. Məsələn, klassik mexanikadakı hərəkət trayektoriyası, eynivaxtlıq, səbəbiyyət, nisbilik, məkan, zaman və s. anlayışları kvant mexanikasında xeyli fərqli, bəzən isə tamamilə əks mənalar kəsb edir. Dirakm kəşfinə (yüksək sürətlərin təbiətini ifadə edən və Eynşteynin nisbilik nəzəriyyəsini nəzərə alan Dirak tənliyi), aşağı sürətlərə aid olan Şredinger kəşfinə (Şredinger tənliyi) söykənərək Kvant mexanikası mütəxəssisləri qısa bir müddətdə xeyli dəyərli kəşflər etmişlər. Bunlardan atomun quruluşu haqqındakı konsepsiyanın yeni təfsirini və radioaktivliyi göstərmək kifayətdir ki, göstərdiyin nailiyyətlərin nə qədər böyük olduğuna inana və inandıra bilək.

Belə bir məqamı da vurğulamalıyıq ki, kvant mexanikası aləmdəki hadisə və proseslərin mahiyyətlərini «gizləyən» pərdə-örtükləri lay-lay açaraq həmin mahiyyətləri aşkarlamaqla onların bir sıra «klassik» parametrlərinə yeni izah verir. Bununla da bir sıra fəlsəfi dünyagörüşü və metodoloji problemlərin izazı və şərhinə yeni baxış rakursu verir. Məsələn, məsələyə metafizik mövqedən yanaşıldıqda mikrohissəciklərin dalğa funksiyasının mahiyyətini açmaq və anlamaq mümkün deyildi. Bunun üçün məsələyə fəlsəfənin əksliklərin vəhdəti və mübarizəsi prinsipindən yanaşmaq zəruridir. Belədə aydın olur ki, elektronun ikili təbiətində əcaib, qeyri-adi bir şey yoxdur. Klassik fizikada dalğa ilə korpuskula bir-birini istisna edən keyfiyyətlər kimi qiymətləndirildikləri halda, kvant mexanikasında (və fəlsəfədə) dalğa ilə korpuskula bir-birlərinə həm əks, həm də bir-birlərini tələb edən keyfiyyətlərdir.

Kvant mexanikası sahəsində edilən bu kəşflər «bir kökdən çıxan», bir- biri ilə sıx məzmun və metodoloji bağlılıqda olan yeni elmi istiqamətlərin meydana çıxmasına səbəb oldu.

Fikrimizi daha anlaqlı etmək üçün elmi biliyin digər bir sahəsindən olan misallara da diqqət yetirək. Canlı haqqında elm olan biologiyadan biliyin üzvi materiyanın yeni, daha dərin

səviyyəsinə, molekulyar səviyyəyə nüfuz etməsi sayəsində «ayrılan» (bəlkə də yaranan) bilik sahəsinə molekulyar biologiya deyilir. Molekulyar biologiya canlı haqqında olan elmlərdə, sözün tam mənasında ciddi bir inqilab yaratdı. Üzvi aləm haqqındakı elmi nəzəriyyələrin baza anlayışları, irəli sürülən hipoteza və postulatlar, bunların hamısının zəminində duran paradiqma ciddi dəyişikliyə məruz qaldılar.

XX əsrin 60-cı illərinin sonunda SSRİ EA-nin o zamankı prezidenti görkəmli alim M.V.Keldış Akademiyanın ümumi iclaslarının birində etdiyi çıxışında demişdir ki, biologiya elminin molekulyar səviyyədə olan tədqiqatlara keçməsi kimyanın molekulun quruluşunu öyrənməyə keçidi, fizikanın atomun, nüvənin, elementar hissəciklərin strukturunun öyrənilməsinə keçidi nəticəsində yaratdıqları inqilablar kimi bir inqilab yaratmışdır. Şəksiz bu inqilab da kimyanın və fizikanın yaratdıqları inqilablar qədər bəhrəli olacaqdır. Yaxın onilliklər ərzində molekulyar biologiya sahəsində fantastik, adi təfəkkürə sığmayan böyük kəşflərin şahidləri olacağıq.

İngiltərə Kral Cəmiyyətinin prezidenti P.M.S.Blekett təxminən elə həmin vaxtlarda cəmiyyətin keçirdiyi Molekulyar biologiyaya dair Avropa Konfransında demişdir: «Molekulyar biologiya canlı aləm haqqındakı elmi, kvant nəzəriyyəsinin nüvə fizikasını inqilabiləşdirdiyi dərəcədə inqilabiləşdirmişdir»[307].

Məsələ burasındadır ki, molekulyar biologiyanın tədqiqat predmeti canlı ilə cansızın təmas nöqtəsidir. Məhz bu da elmi biliyin inkişafı üçün son dərəcə vacibdir. İkili xarakterli bu predmetin öyrənilməsi, bu səviyyədə baş verən proseslərə nüfuzetmə canlının struktur təşkili probleminin həllinə «açar» verir. Canlıda fəaliyyət göstərən bütün tipli qanun və qanunauyğunluqların fiziki, kimyəvi və fıziki-kimyəvi zəminli

---

[307] Enropean Conferenceon Molekular Biology. Geneva, 22-25 January. CEMB 68/45 E. P.15

olduğunu göstərir. Eyni zamanda bioloji təşkillərdə müşahidə edilən iki mühüm keyfiyyət aşkarlanır: bunlardan biri bütün səviyyələrdən və tiplərdən olan biomolekulyar təşkillərin hamısında müşahidə edilən, onların hamısı üçün invariant olan universallıqdır (biomolekulyar təşkillərin qurulma prinsiplərinin ümumiliyi, tamlığın formalaşması, tamla hissənin, strukturla funksiyanın nisbəti və s.); ikincisi isə, hər bir proses və hadisənin strukturunda olan spesifiklik, unikallıqdır. Bu iki məqamın üzvi vəhdəti molekulyar biostrukturların mahiyyətinə xasdır.

Beləliklə, aydın olur ki, canlının molekulu molekulyar tamlığı sadəcə müvafiq qaydada təşkil olunmuş və nizamlanan maddi komponentlərin mexaniki cəmindən ibarət deyildir, o, həm də canlıda baş verən prosesləri ehtiva edir. Maddi komponentlərlə proseslərin qarşılıqlı əlaqə və təsiri həyatdır.

Elmi biliyin inkişafında «bioloji eramn» başlanması canlının tədqiqində baş verən bir sıra inqilabi kəşflərlə bağlı reallaşmışdır. İlk növbədə bu özünü onda göstərmişdir ki, biologiyanın tədqiqat predmeti olan üzvi aləm bir sıra elmlərin, əslində elmlər kompleksinin obyektinə çevrilir. Bu kompleksə təkcə təbiətşünaslıq elmləri yox (fizika, kimya, onların «qız sahələriw, riyaziyyat, ekologiya və s.) həm də birbaşa üzvi aləmlə bağlı olmayan humanitar elm sahələri (iqtisadiyyat və onun qolları, sosiologiya və s.), tətbiqi və texniki elmlər də daxildir. Başqa sözlə desək, çağdaş biologiya elmi bir-birilə qarşılıqlı əlaqə və təsirdə olar, əhatə və təsir dairələrinin qarşılıqlı nüfüzetmədə olan bilik sahələrinin - elmlərin.

# BAŞ REDAKTORDAN

## ƏHMƏDLİ C.T.

***Pyotr Elmlər və İncəsənət Akademiyasının akademiki, əməkdar elm xadimi, f.e.d., rofessor***

## ULUQBƏY DÜHASININ FACİƏSİ

Əmir Teymurun nəvəsi (oğlu Şahruxun oğlu) Mühəmməd Taracay Uluqbəy (1394-1449) 1409-cu ildə hələ 15 yaşında bir gənc Səmərqəndin hökmranı seçilir. Hakimiyyətdə olduğu müddətdə səltənətinin ərazisini məharətlə qoruyur, hətta bir qədər genişləndirir. Mənbələrin məlumatına görə çox zərif qəlbli, ədalətli bir insan kimi hökmranlığı illərində Səmərqənddə abadlıq işlərinin aparılmasına, elmin, təhsilin, incəsənətin inkişaf etdirilməsinə hamilik etmiş, onun dövründə Səmərqənd şərqdə möhtəşəm elmi və mədəni mərkəzlərdən birinə çevrilmişdi. Ərəb ölkələrindən, İrandan, Hindistandan axıb gələn gənclər məhz burada təhsil alır, elm mərkəzlərində çalışırdılar.

Həmin elm mərkəzlərindən birini də Uluqbəy özü yaratmışdı. Onun layihələşdirdiyi, tikdirdiyi, istifadəyə verdiyi nəhəng rəsədxanada onlarla savadlı, dərin bilikli insan astronomiya elminin dərinliklərinə baş vurur, astronomik, riyazi və astroloji biliklərdə olan sirli məqamları açmaqla məşğul idilər.

Bu zaman Səmərqəndin necə şəhər olduğunu, təsəvvür etmək üçün Əmir Teymur hakimiyyətində səfirliyə gələn dəstənin başçısı Ryun Qonsali de Klavixonun şəhəri uzaqdan görərkən yazdıqlarına diqqət edək: «Burada nə qədər bağlar və üzümlüklər var, şəhərə yaxınlaşanda uzun ağaclardan ibarət olan meşəni, ortasında isə şəhərin özünü görürsən».

Uluqbəyin babası böyük Əmir Teymur öz paytaxtına çoxlu kölə, rəssam, memar, daşyonan, dülgər, dəmirçi, zərgər və s.

topladı və çoxsaylı məzarların, mavzoleylərin, gümbəzlərin, məscidlərin tikintisi ilə məşğul oldu. Bunların sırasında nəhəng Şahi-Zindanı - «Yaşayan şahı», Bibi Xanın məscidinin «Baqi-cahan» bağını və s. göstərmək olar. Bir sözlə, Əmir Teymurun vaxtında Səmərqənd Asiyanın mərkəzinə çevrildi. Bu şəhər elm, təhsil, ticarət, sənətkarlıq mərkəzi kimi bir çox ətraf xalqların taleyini və perspektivlərini müəyyənləşdirirdi.

Əmir Teymurun ölümü əsla Səmərqəndin ölümü olmadı: 1409-cu ildə, 15 yaşında hakimiyyətə gələn nəvəsi Uluqbəy dövründə də şəhərdə geniş tikinti işləri, elm və təhsil ocaqlarının qurulması işi artan sürətlə aparıldı. Böyük alim, astronom, humanist olan Uluqbəy hökmranlıq etdiyi 40 il ərzində çoxsaylı və müxtəlif təyinatlı və tərtibli mədrəsələr tikdirdi.

Bütün bu məscidlərdən, mavzoleylərdən, məzarlardan ən diqqətçəkəni və maraqlısı «Şahi-Zindan»dır. Hələ qədim dövrlərdən, islamdan xeyli əvvəllərdən ona dərin pərəstiş var idi. Bu pərəstişi görən və duyan islam ruhaniləri mavzoleyə toxunmadılar, onu islamın yayılmasında bir vasitə kimi istifadə etdilər. Bu zəmində də Muhammed Kusam ibn Abbas (guya Məhəmməd peyğəmbərin əmisi oğlu. Əslində belə bir şəxs Səmərqənddə olmamışdır) əfsanəsi yaranmışdır.

Əfsanə budur: guya Muhammed Kusamamn qoşun dəstəsi müqəddəs bir işlə - namaz qılmaqla məşğul olduğu zaman kafirlər onlara hücum edir və dəstənin hamısını, o cümlədən, Muhammed Kusamanı qılıncdan keçirirlər. Lakin başsız qalan Muhammed Kusama başını əlinə alıb bir quyuya, cənnətə girir.

Onun şərəfinə tikilmiş Şahi-Zinda məqbərəsi o ətrafda tikilən kompleksin ən möhtəşəmidir. Kahinlər, varlılar özlərinə məhz bu müqəddəs məqbərənin yanında mavzoley tikdirmək istəyirdilər.

Ərəb dünyasının ən böyük coğrafi İbn Battuta bu məzar haqqında yazır: «Məzar çox müqəddəsdir. Onun üstündə dördkünc qülləli bir bina tikilmişdir. Onun hər küncündə iki

mərmər sütun vardır, mərmərlər yaşıl, qara, ağ və qırmızı rəngdədir. Binanın daşı da müxtəlif rəngli mərmərlə örtülüb, qızılla bəzədilmişdir. Dam qurğuşundan düzəldilmişdir».

Mavzoleylər içərisində ən möhtəşəmi Uluqbəyin həmkarı, əməkdaşı olan böyük riyaziyyaçı, astronom alim, ömrü boyu nə varidat, qızıl, nə torpaq sahibi olan Rumiyə tikilən sərdabə xanlara, ağalara, çarlara və şahzadələrə tikilən sərdabələrin hamısından uca və gözəl olmuşdur. Uluqbəy belə bir kəlamı, rəhbər tutarmış ki, Ruminin topladığı varidat - elm, təhsil, zaman keçdikcə dəyərini artırır...

44 il Səmərqəndin hakimi olan, bütün bu dövr ərzində Səmərqəndin «Şərqin Darülfünununa» çevrilməsi üçün misilsiz işlər görən, dünyada ən əzəmətli rəsədxana tikdirən, astronim, astroloji, riyazi biliklərin inkişafı üçün çoxsaylı alətlər, cihazlar kəşf edən və onları elmi praktikada uğurla tətbiq edən, «Yeni astronomik cədvəllər» («Zinci-n-celniti Quraqoni») əsərinin müəllifi Uluqbəy ömrünün sonunda hökmdarlıq iddiasında olan oğlu Abu-əl-Lətif tərəfindən dəhşətli ədalətsizliyə məruz qalır. Qarşıdurmadan, «səyyah həyatmdan» cana doymuş, bezmiş Uluqbəy hicri tarixi ilə 853-cü ilin ramazan ayının 7-də (milad tarixi ilə 1449-cu il oktybr ayının 24-də) köməkçisi ilə birlikdə şah sarayının qapısında atdan düşür. Məqsəd hakimiyyətdən imtina etməkdən, Səmərqənddə qalıb elmi fəaliyyətini davam etdirməyə razılıq almaqdan ibarət idi. Yeni hö*kmdar Abd-əl-Lətifm quyruqbulayanları bu gözlənilən xəbəri təcili ona çatdırırlar. Elə həmin gün Uluqbəy üzərində «şeyxlərin məhkəməsi» qurulur. Oğlu Abd- əl-Lətif hakimiyyətə layiq olmadığını duyan və əksini heç kəsə inandıra bilmədiyini görən oğul atasının ədalətsizlikdə, amansızlıqda, qansızlıqda ittiham edir. Lakin, insafa gələrək, atasını sağ qoymağa, onun Həccə getməsinə razılıq verir.

Lakin elə həmin gecə Uluqbəyi görməyə gözü olmayan şeyxlər gizlin bir iclas keçirərək, onu ölümə məhkum edirlər. Qərardan xəbərsiz olan Uluqbəy Hacı Xorovla birlikdə Həccə

yola düşür. Yaxın qışlaqların (kəndlərin) birində arxaları ilə bir çapar gəlir və yeni xəbər gətirir: böyük hökmdara bu cür sadəliklə həccə getmək yaramaz. Böyük Teymurun nəvəsi lazımi hazırlıqlar görülənə qədər burada gözləməlidir».

Uluqbəyin başını qata-qata Sülduzlar nəslindən olan Abbasın gəlişini təmin etdilər (Abbasın atası cinayət işlətdiyinə görə şah Uluqbəyin əmri ilə öldürülmüşdü. Abbasın nökərləri qolları bağlı Uluqbəyi onun qabağında dizi üstə qoydular. Abbas qılıncını sivirərək, boyun tərəfdən Uluqbəyin başını çəpinə vurdu. Nökərlərdən biri cəld başı götürərək Abbasın ayaqları altına atır...

Bir saatdan sonra bu qanlı xəbər Səmərqəndə yayılır. Uluqbəyin ən yaxın köməkçisi, tələbəsi və dostu, münəccimi və quşağası Əli Quşçu bu xəbəri eşidən kimi başa düşdü ki, Uluqbəyin ölümü onun elmi fəaliyyətinin də, yaxınları və tələbələrinin və, elm və mədəniyyət xadimlərinin də, birinci növbədə onun rəsədxanası və əsərlərinin də ölümü deməkdir. O, nimdaş bir xalat altında alimin əsərləri doldurulmuş böyük torbanı götürür, xançal bağlayır, cəld atın belinə qalxaraq, bütün Səmərqənd görünən təpənin başına çapdı. Alimin rəsədxanası, əsərləri və kitabxanası həmin təpənin başında idi.

Əli Quşçu atı dəhmərləyərək, heç nəyə və heç yana baxmadan təpənin başından olan Uluqbəyin otağına çatdı. Gözətçiyə məlumatın düz olduğunu, hökmdarın öldürüldüyünü xəbər verdikdən sonra ondan bir parça çörək və aliimin əsərləri doldurulmuş iri torbanı alaraq atmı çapdı. Bundan sonra xeyli müddət rəsədxananın qapısı da, digər elm otaqları da bağlı qaldı. Heç kəs cəsarət edib göydə süzən səyyarənin uçuşunu izləmirdi. Ulduzları, planetləri, yer kürəsini, iqlim qurşaqlarını göstərən sxemlər, şəkillər, cədvəllər qalın toz qatı altında örtülmüşdü. Şeyxlər tərəfindən lənətlənmiş təpəyə heç kəs yaxınlaşma bilmirdi.

Lakin bir neçə aydan sonra Abu-əl-lətifin fitvası ilə şeyxlər, dərvişlər, mollalar aktiv fəaliyətə başladılar. Məqsəd Uluqbəydən

yer üzündə heç bir əsər-əlamətin qalmaması idi. Dərvişlərin qızışdırması ilə «böyük kütlə» lomla, külünglə, kətmənlə, elə əlləri ilə rəsədxananı dağıdıb uçurdular, alimin əli ilə hazırladığı bütün cihazları, elmi alətləri, hesablamaları məhv etdilər. Onlar arxayınlaşdılar hökmdarın müqəddəs tapşırığı uğurla yerinə yetirilmişdir. Dünya üzündə Uluqbəyi andıran heç nə qalmamışdır. Lakin atalar uzaqgörənliklə söyləmişlər ki, «sən saydığını say, gör fələk nə sayır».

Şeyxlərin, dərvişlərin, mollaların şadyanahğı» əbəs imiş. Onların hamısı qırıldı, dünyada izləri-tozları belə qalmadı. Uluqbəy isə həmişəyaşar çıxdı, onun əsərləri bütün dünyada yayıldı, bu gün də yaşayır...

Əli-quşçu Səmərqənddən birbaşa Herata yol aldı. Orada onu yaxşı tanıyırdılar. Uluqbəyin tapşırıqları ilə bu yerlərə dəfələrlə səfər edib, astronomların və riyaziyyatçıların işləri ilə tanış olmuşdu. Bir neçə ildən sonra Əli Quşçu Şərqdə «İkinci Ptolomey» adı ilə tanınırdı. Konstantinopol türklər tərəfindən tutulduqdan və İstambul adını aldıqdan sonra Əli-Quşçu bu şəhərə gəlir və həyatının ən ulu məqsədinə çatır - Uluqbəyin əsərlərini - Ulduz cədvəllərini və ona girişi çap etdirir. Uluqbəyin əsəri həmin an Dəməşqdə və Qahirədə, bir qədər sonra Londonda, Parisdə, Florensiyada, Cenevrədə də müxtəlif dillərə tərcümə edilib çap olunur. Ən maraqlı məqam bu idi ki, əsərlə tanış olan alimlərin əksəriyyəti təəccübünü gizlədə bilmirdi ki, teleskopun kəşfindən xeyli əvvəl hələ XV əsrdə bu əsər necə yazılmışdır.

Xüsusi vurğulamaq gərəkdir ki, bu dövrdə Uluqbəyin həmkarları və əməkdaşları sırasında məşhur riyaziyyatçı alim Cəmşid[308], Astronom alimlər və müəllimlər Muinnəddin və oğlu Mansur, Uluqbəyin ən yaxın köməkçisi və münəccimi olan Əli Quşçu, nəhayət, dahi Rumi də var idi.

---

[308] Latın dilində tərcüməsi olan «Tərpənməz və fırlanmada olan ulduzların cədvəli və boyu haqqında» kitabının müəllifi.

XVIII əsrin əvvəllərində Hindistanda Böyük Moğol dövlətində maharaca Çaypura Caysinqh II hələ 15 yaşında ikən Uluqbəyin əsəri ilə tanış olur və bir qəlbdən min qəlbə ona vurulur. Hakimiyyət hərisi olan Böyük Moğol Auranezab onun bu ehtirasını uşaqlıq şıltaqlığı hesab edərək, məhəl qoymur. Lakin cəsur sərkərdə və ağıllı dövlət başçısı olan Maharaca «döyüşdən başı açılanw kimi öz çadırına çəkilərək, Uluqbəyin əsərini oxumaqla məşğul olur, onu özünə müəllim sayırdı.

Maharaca Cadsinqhin sarayında o dövrün görkəmli hind alimləri loqarifm cədvəlinin tərtibçisi, Uluqbəyin əsərini hind dilinə tərcümə edən Uddambri Qucarati, astronomlar və riyaziyyatçılar Pundarik Ratnakar və Cahannatx və digərləri toplaşmışdılar. Elmə və təhsilə qayğı ilə yanaşan Maharaca onların hər biri üçün şərait yaradırdı.

1724-cü ildə Maharaca Cadsinqh tikdirdiyi və bu gün də mövcud olan rəsədxanalarından birincisini tikdirməyə başlayır. Maraqlı məqam budur ki, rəsədxananın binası da, binada quraşdırılan alətlər də, istifadə edilən cihazlar da hamısı Uluqbəyin rəsədxanasında olan cihazların, alətlərin surətləri idi. Caysinqh, əlbəttə, teleskopların, optik cihazların mövcudluğundan xəbərdar idi, üstəlik bu cihazların çoxunu xarici ölkələrdən, əsasən Avropa ölkələrindən satın alıb rəsədxanasına gətirtmişdi. Hətta bu cihazları işlətmək üçün onlardan öz elmi fəaliyyətində səmərəli istifadə etmək üçün Avropadan xeyli sayda məsləhətçilər də dəvət etmişdi. Bununla belə, məsləhətçilərə belə etibar etmədiyindən bir çox cihazları və qurğuları özü düzəldirdi. İri daşlarda düzəltdiyi cihaz və qurğulara - kvadrantlara, armillaya, ulduzları və planetləri müşahidə meydançasına daha çox etibar edir, onlara üstünlük verirdi.

İllər, aylar keçir, Uluqbəyin rəsədxanasının Səmərqənddəki binası da, binanın içindəki alətlər, cihazlar və qurğular da sanki yox imişlər. Elə təəssürat yaranırdı ki, orta əsr Səmərqənd şeyxlərinin, mollalarının, dərvişlərinin «arzuları», «istəkləri,

niyyətləri» yığıncaqlarında qərarlaşdırdıqları - «İslamm düşməni olan, allahın müəyyənləşdirdiyi qayda-qanunu pozan, bununla da küfr edən Uluqbəyin yer üzündə izi-tozu qalmamalıdır» hökmü çin olur, onlara hadisələrin sonrakı gedişini, elə bil ki, öncədən görürmüşlər. Lakin bu çox bəsit bir görüntü idi. Əslində isə elmin və praktikasının inkişafı Uluqbəyin yenidən diriləcəyindənw, onun əsərlərinin dünya astronomiya və riyazi bilik səhnələrini zəbt edəcəyindən, Uluqbəy rəsədxanasının tam bərpa ediləcəyindən xəbər verirdi.

1908-ci ildə rus arxeoloqu Vyatkin Uluqbəyin əsərləri ilə birlikdə, Hindistan möcüzələrinin, çoxlu qəribə, sirli həndəsi fiqurlarla «bəzədilmiş» alman müəllifinin əsərini müfəssəl öyrəndikdən sonra Uluqbəyin rəsədxanasını, daha dəqiqi rəsədxananın qalıqlarını axtarmaq qərarına gəlir. Onun sərəncamında, qeyd etdiyimiz alman müəllifinin əsəri də var idi. Peşəkar astronom olmayan müəllif rastlaşdığı qəribə həndəsi fiqurları - göyə aparan pilləkanı, daş çevrələri, üçbucaqları və s. Maharacanm təxəyyülünün və şıltaqlığının məhsulu sayırdı, çünki onların təyinatından, nəyi işarə və ifadə etmələrindən xəbəri yox idi.

Caysinqhin əsərini dərindən öyrənən Vyatkin bu qərara gəlir ki, Maharacanm təsvir etdiyi və müəllifliyini Uluqbəyə isnad verdiyi qurğular və cihazlar alimin öz rəsədxanasında da olmalıdır. Şeyxlərin cəhdlərinə baxmayaraq, rəsədxana izsiz yoxa çıxa bilməzdi. Məhz bu əqidə ilə qazıntı işlərini rəsmiləşdirdikdən sonra fəaliyyətə başlayır.

Təpənin kənarından mərkəzinə doğru qazılan hər üç xəndək kərpic ovuntusu, daş qırıntısı, sement tör-töküntüsünü aşkarlayırdı, sanki kimsə qəsdən binanı «uçurtmuşdu». Xəndəklər dörd metr dərinlikləşəndə fəhlələrdən birinin kətməni daşa toxundu. Xəndəklər təpənin mərkəzinə doğru yaxınlaşdıqca birləşməyə meylli gedirdi. Nəhayət, onlar cəmi bir kərpic enində olan divara dirəndilər. İndi mülahizə yürütmək ki, nə üçün

arxeoloq bu faktdan belə bir nəticə çıxardı ki, bina yumru olmuşdur mümkün deyildir. Rəsədxanalar yalnız bizim zamanda teleskop vasitəsilə göy qurşağını müşahidə etmək üçün yumru tikilməyə başladılar. Teleskop olmadıqda isə rəsədxana binalarının yumru tikilməsinə bir zərurət yox idi. Hər halda bu ideya Vyatkinin başına gəlmişdi. İndi yalnız güman edə bilərik ki, bu fikir təxəyyüli (intuitiv) bir fikir olmuşdur.

Əslində, güman etmək olar ki, aşkarlanan kərpiclər bu və ya digər ulduzun azimutunu təyin etmək üçün zəruri olan üfüqi çevrənin qalıqları idi. Bunu təsdiqləmək üçün Vyatkin qərara gəlir ki, kərpicin xətti ilə xəndəklərin təmas nöqtələrində on çala qazdırsın. On çalanın hamısı kərpic qatı ilə toqquşdu. Şübhə yox idi. Aşkarlanan radiusu əlli metr olan bu tikili rəsədxananın bünövrəsi idi.

Yeni qazılan xəndək dərinləşdikcə çoxlu sayda pilləkən aşkarlanırdı. Pillələrin hər iki tərəfində mərmərlə üzlənmiş çəpərlər var idi. Mərmərlərin üzlərində ərəb çələngi ilə ulduzların dərəcələrini işarə edən yazı var idi. Çalanın getdikcə dərinləşməsindən arxeoloq anladı ki, o, ulduzların sektantlarını və kvadrantlarını dəqiq təyin etmək üçün istifadə edilən şaquli çevrənin hissələridir.

Doğrudan da, qövsün yeraltı hissəsində səksən dərəcəyə qədər qeydlər olduğu halda, yerüstü zibildə 19 və 20 dərəcələri qeyd edilmiş mərmər lövhələr var idi. Bu göstəricilərin müqayisəli təhlili belə deməyə əsas verir ki, rəsədxananın parametrləri belə olmuşdur: kvadrantın qövsü 63 metr, çevrənin radiusu isə 43 metr olmuşdur. Qövsün bir hissəsi yerin altındakı boşluqda, bir hissəsi isə yerin səthinə çıxmaqla 40 metrlik dördbucaqlı qülləyə söykənirmiş.

Lakin o zaman bir çox səbəbdən qazıntı işini sona çatdırmadılar. Təpənin qazılmış sahələrini və kvadrantın açıq hissələrini nəzarətsiz qoyaraq Vyatkin və fəhlələr sonrakı işdən imtina etdilər.

Bu vaxtdan bir neçə müddət sonra rəsədxana meydançasına gələn astronom Sikora acınacaqlı bir vəziyyət gördü. Mərmər plitələrin xeyli qismi əhali tərəfindən oğurlanaraq məişətdə istifadə edilmişdi. Baxımsızlıq üzündən qazılmış xəndəklərin çoxu qumla və tikinti qırıntıları ilə doldurulmuşdu.

Gördükləri haqqında Sikora sərt məqalə ilə çıxış edir. Məqalədə müəllif yazır ki, «Uluqbəyin rəsədxanasından çox az bir şey qalmışdır - onun kvadrantının bir neçə dərəcəlik hissəsi. Bununla belə, rəsədxananın xərabəliklərini görən hər bir astronom rəsədxananın əsas alətinə və onun yaradıcısının əsas ideyasının nəhəngliyindən heyrətə gələr».

İkinci dünya müharibəsi ərəfəsində, 1941-ci ilin əvvəllərində Uluqbəy rəsədxanasının öyrənilməsi məqsədilə qazıntı işləri başlandı. Lakin həmin il iyun ayının 22-də müharibə başlandığına görə qazıntı işləri təxirə salındı. Lakin müharibə qurtardıqdan cəmi 3 il sonra, 1948-ci il ilin yayında Sovet Hökumətinin qərarı ilə Səmərqənddə qazıntı işləri başladı. Bu dəfə ekspedisiyanın ixtiyarında kifayət qədər maliyyə vəsaiti, texnika ilə birlikdə. Vyatkinin topladığı bol material, orta əsr Şərq və Avropa mənbələrindən yığılmış müxtəlif xarakterli bilik materialı var idi.

Bütün bu bilik materiallarını diqqətlə və müfəssəl öyrənən Sovet memarı Zasıpkin bəyan edir ki, Vyatkinin aşkarladığı üfüqi dairə ölçülərinə görə çox nəhəng olan rəsədxana binasının xarici üzlüyüdür. Bundan sonra görünən əhatəli, çoxsəviyyəli qazıntı işləri Uluqbəy rəsədxanasını, demək olar ki, orijinala çox yaxın bir şəkildə bərpa etməyə imkan vermişdir.

Səmərqəndin istənilən nöqtəsindən aydın görünən təpənin üstündə tənha və sirli bir dairəvi tikili yüksəlir. Formal olaraq bu binada üç mərtəbə vardır. Əslində isə onun hündürlüyü qırx metrdən çoxdur, diametri isə əlli metrdən artıqdır. Binanın damında kiçik cihazlar yerləşir, mərkəzində isə, hələ Vyatkinin aşkarladığı kvadrant yerləşir. Kvadrantın xəndəyi yerin altından

başlayır, sərt əyilərək yuxarıya qalxır, damın alt hissəsində əsas qalın divarla qovuşur. Kvadrant hər iki tərəfində ulduzların, planetlərin, yer şarının hərəkətlərini müşahidə etmək üçün və toplanmış empirik materialı qruplaşdırmaq, sistemləşdirmək, növləşdirmək üçün, bir sözlə, nəzəri fəaliyyətlə məşğul olmaq üçün otaqlar yerləşirdi.

Rəsədxananın altkürsüsü mərmərlə üzlənib, hər mərtəbədə olan 32 portal və tağlar rəngli kaşılarla bəzədilib.

Binanın divarlarının iç üzləri şəkillərlə, səma cisimlərinin yeddi qurşağını, ulduzları, yer kürəsini, iqlim qurşaqları ilə birlikdə göstərən, sxemlərlə, cədvəllərlə örtülüb. Binada həm də zəngin kitabxana yerləşir. Kitabxanada Şərqdə və Qərbdə çap edilən çoxsaylı əsərlər, əlyazmaları, Uluqbəy məktəbinin bütün üzvlərinin əsərləri toplanıb.

Dünya astronomlarının əsərlərindən bəlli olur ki, Hindistanda, qərb ölkələrində, hətta Kordovada, Andalusiyada tikilən rəsədxanaların hamısı Uluqbəy rəsədxanasının memarlıq üslubunda tikilmişdir. Bu rəsədxanalarda istifadə edilən cihazlar, alətlər, qurğular da Uluqbəyin öz rəsədxanasında istifadə etdiklərinin surətləridir.

XV əsrin Səmərqənd şeyxləri, mollalar, dərvişlər, nəhayət, Uluqbəyin əclaf oğlu Abd-əl- Lətif, şuldurlar sülaləsindən olan Abbas, digər qaragüruhlar nadir təfəkkür, geniş bilik diapazonuna malik olan Uluqbəyə ölüm hökmü çıxartdılar, cismani cəhətdən onu məhv etdilər. Həm də onların qara niyyətləri bu idi ki, Uluqbəyin adı və etdikləri yer üzündən silinəcək, unudulacaq. Lakin reallıq bunun tərsi oldu. Bir ildən sonra Abd-əl Lətif sui-qəsdlə öldürüldü, onun qəbri də məlum deyil. Yeni şahın fitvası ilə bütün məscidlərin minarələrindən o lənətləndi. Ondan sonra hakimiyyətə gələn Əmir Teymurun sülaləsindən olan padşahın göstərişi ilə Uluqbəy Teymurilərin sərdabəsində, şahlara göstərilən hörmət, ehtiram, şan-şöhrətlə dəfn edilir. Onun Abbas tərəfindən boynundan çəpinə kəsilmiş başını da sarkofaqda

«yerinə» qoyurlar.

Uluqbəyin sarkofaqının üstünə qoyulmuş mərmər plitədə bu sözlər yazılmışdır: «Bu işıqsaçan qəbir... hökmdarın son rahatlıq yeridir. O hökmdarın ki, onun səxavətilə cənnət bağı bəzədilmiş, cənnətliklərin güldanı xoşbəxt olmuşdur. O, bağışlanmış sultandır, elmli xəlifədir, aləmə dində kömək edən Uluqbəy sultandır - Allah onun qəbrini nurla doldursun... Onun oğlu atasına haqsızlıq edib, onu xançalla öldürmüşdür, atası zülümlə öldürülmüşdür. 853-cü peyğəmbər hicrisi ramazan ayının 10-da.

Rəsədxananın tədqiqi ilə məşğul olan komisyon üzvləri təxminən müəyyənləşdirdilər ki, bu qəbir Uluqbəyin qəbridir, qəbirdəki sarkafaqm içindəki də Uluqbəyin cənazəsidir. Sarkofaq açıldıqdan sonra komisiya üzvü həkim qafa tasını qaldıranda gördülər ki, baş çəpinə kəsilmişdir. Məşhur rus heykəltəraşı Gerasimov qafa tasına görə Uluqbəyin şəklini çəkmişdir. Bu şəkildən görünür ki, Uluqbəy nazik iri burunlu, nazik sifətli, iri gözlü, qalın dodaqlı bir adam imiş. Çap edilən bütün astronomiya dərsliklərində Uluqbəydən bəhs edilən yerdə onun məhz bu şəkli yerləşdirilir.

**MÜNDƏRİCAT**

**ELMLƏRİN İNTEQRASİYASI, BİLİYİN SİNTEZİ…278**
**ULUQBƏY DÜHASININ FACİƏSİ…………………… 287**

**Operator: P.A. Hüseynova**

**Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Şəhadətnamə №732**

**Müəllif Hüquqları qorunurş**
**Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə uyğun gəlməyə bilər. Faktların məsuliyyətinə görə müəllif məsuliyyət daşıyır.**

# ÇAĞDAŞ DÖVRÜN AKTUAL PROBLEMLƏRİ

CƏMİL ƏHMƏDLİ
f.e.d., professor, ADK

# İDRAK VƏ ÖNGÖRMƏ

Son zamanlar Azərbaycan mətbuatında, televiziyasında yeni peyda olmuş «peyğəmbərlər», «bilicilər», «falçılar», «ekstrasenslər» haqqında çox tez-tez yazılar və verilişlər gedir. Bunlar həyatın bütün sahələrinə dair ağılabatmaz, fantastik öngörmələr söyləyirlər. Qarabağ müharibəsinin nə vaxt qurtaracağı, Azərbaycanın sonrakı inkişafının necə olacağı, dünyada baş verən qlobal hadisələrin gələcəyi, xəstə insanların dərmansız, davasız müalicəsi, maşını itmiş insanların maşınının tapılması və s. haqqında söylənilən «öngönnələr»dən hamının xəbəri vardır. Qəribə burasıdır ki, əhalinin demək olar ki, bütün təbəqələrindən olan problemli insanlar «açıq və ya gizli» formada sadaladığımız «peyğəmbərlərə» müraciət edir, onlara külli miqdarda pul ödəyir ki, problemləri həll edilsin. Bəla əgər təkcə insanların pullarının əlindən alınmasında olsa idi ona dözmək çətin olmazdı. Məsələ burasındadır ki, insanlar problemlərinin həllinin qanuni və elmi əsaslarından uzaqlaşdırıldıqlarına görə problemləri nəinki həll edilmir, əksinə, daha da dərinləşir. Məsələn, həki mə yox falçıya müraciət edən xəstə insan bir müddətdən sonra xəstəliyinin fəsad verdiyini müəyyənləşdirir və həkimə müraciət etməyə məcbur olur. Lakin xəstəlik dərinləşdiyinə və kəskinləşdiyinə görə artıq həkim də əlac edə bilmir.

Migel Nostradamusun təxminən 500 il ərzində dünyanın, xalqların, millətlərin başına nə gələcəyini öncədən söyləməsi haqqındakı fikirlər qərinədən-qərinəyə, nəsildən-nəsilə, dildən-dilə köçə-köçə bu gün də insanları məşğul edir. Nostardamusun

katrenlərini diqqətlə oxuyan hər kəs aydın görər ki, orada söylənilən hər bir fikir alleqorik xarakterli, eyham təbiətli işarələrdir. Məhz bununla izah etmək olar ki, Nostradamus haqqında yazan çoxsaylı müəlliflər eyni bir katreni çox müxtəlif mənalarda, bəzən hətta, bir-birinə zidd olan çalarlarda yozurlar. Şəksiz, Nostradamus ağıllı adam olmuşdur. Bəşər tarixini əsaslı surətdə öyrəndikdən sonra tarixdə baş verən müharibələrin, inqilabların, üsyanların, sosial partlayışların müəyyən dövri xarakter daşıdığını, sanki, müəyyən zaman kəsiklərində təkrarlandığını aşkarlayıb. Güman ki, məhz bu məqamlara əsaslanan Nostradamus gələcəkdə də həmin qəbilli hadisələrin baş verəcəyini təxmini də olsa görmüş və söyləmişdir. Sosial hadisələrin polivariantlığı haqqında yuxarıda söylədiyimiz fikir eyni ilə Nostradamusa da şamil edilə bilər. O, yalnız hadisələrin ehtiva etdiyi imkanların hansının gələcəkdə reallaşmasını ümumi şəkildə söyləyə bilərdi.

Dediyim bu iki məqam məni elmi öngörmə haqqında bir yazı yazmağa sövq etdi.

İdrak, onun funksiyalrı, mərhələləri, reallaşma mexanizmi, vasitələri, əldə edilən biliyin mötəbərlik dərəcəsi və meyarları haqqında bir çox konsepsiyaların (aqnotisizm, idealizm, məntiqi pozitivizm, praqmatizm və s.) olmasına baxmayaraq biz məqaləmizdə əsas kimi inikas prinsipini qəbul etmişik. Həm də burada materiyanın ümumi inikas xassəsindən, inikasın tipləri və mərhələlərindən söhbət açmayacağıq. Məqsədimizə müvafiq olaraq yalnız fikri inikasdan, həm də öngörmə ilə bağlı, bəhs ediləcəkdir.

Ümumi şəkildə desək, idrak ətraf aləmdəki obyekt, hadisə və proseslərin insan beynindəki fikri inikasıdır. Adi və elmi bilik həmin inikasın vahidləri, şüur isə onun akkumlyasiya edilmiş nəticəsidir. Adi inikasdan elmi fikri inikası ayıran və axırıncını xarakterizə edən aşağıdakı spesifik cəhətləri ayırmaq olar: 1) elmi fikri idrak sırf mexaniki, həndəsi proyeksiya, güzgü əksi xarakteri

daşımır, o həmişə aktiv və yaradıcı xarakter daşıyır. Məhz ona görə də cəsarətlə deyə bilərik ki, elmi idrak obyektiv aləm hadisə və proseslərini təkcə passiv inikas etmir, habelə onu ideal obyektlər şəklin də yaradır. Bu mənada idrak prosesi iki istiqamətli bir hədi sədir. Burada, bir tərəfdən insanın bütün sosial keyfiyyətləri, subyektiv xassələri obyektivləşir, digər tərəfdən, idrak dairəsinə daxil olan obyektlər subyektivləşir; 2) elmi idrak həmişə seçmə xarakterlidir. Hətta hissi idrak səviyyəsində belə biz hiss orqanlarımız vasitəsilə fizioloji inikas etdirdiyimiz bütün obyekt və prosesləri elmi mənada dərk etimirik. İnikasdan aldığımız informasiya ikili xarakter daşıyır. Bir hissəsi bizim nəzəri, yaxud praktik mənafe dairəmizə daxil olduğundan beynimizdə inikas edərək şüurlu informasiya şəklində beyin neyronlarımızda yatır. Şüurlu fəaliyyətimiz əsasında məhz bu qəbildən olan informasiya durur Digər, çox böyük hissəsi isə fizioloji şəkildə inikas edilsə də idraki inikasdan keçmədiyinə görə bişüur şəklində beyin neyronlarında yatır. Bu o demək deyildir ki, bişüur informasiya insanın fəaliyyətində heç bir rol oynamır. Əksinə bizim fəaliyyətimizin çox böyük qismi həmin bu irrasional xarakterli informasiya zəminində qurulur. Məsələn, gün ərzində insan nəqliyyatda, küçədə, yığıncaqlarda çoxlu insanları görür və təbii onları fizioloji şəkildə inikas edir. Lakin günün axırında ondan soruşsaq ki, bu gün sən kimləri görübsən, o 5-6 nəfərin adını çəkməklə kifayətlənər. Adları çəkdiyi insanlar da ya onun qohumları, tanışları, ya qeyri adi bir əlaməti ilə diqqətini çəkənlər, yaxud da ekstremal bir şəraitdə gördüyü insanlardır. Deməli, idrakın seçim xarak terli olmasının əsasında iki amil dayanır: əvvələn, biz idrak obyektini hansı əlaqə və münasibət sistemində öyrənirik; ikincisi, idrak prosesində biz hansı məqsəddən çıxış edirik.

Buradan da fikri inikasın üçüncü spesifik cəhəti ortaya çıxır. Üçüncüsü, fikri inikas təkcə olanı inikas etmək deyil, həm də olmalının inikasdır. Başqa sözlə, fikri inikas həmişə qabaqlayıcı

xarakter daşıyır. Bu isə elə insan fəaliyyətinin məqsədyönlü xarakterdə olması deməkdir. Məqsəd fəaliyyətimizə daxil olan obyektlərin mövcud durumu ilə razılaşmadığımıza görə onun gələcəkdə necə olacağı haqqındakı ideal obrazdır. Qabaqlayıcı inikas, əslində bütün insanlara xasdır. Yazda torpağı şumlayıb, taxıl, kartof, tərəvəz əkən bir insanın fəaliyyəti qabaqlayıcı inikasa söykənir. O, yaxşı bilir ki, bütün qaydalara əməl etsə müəyyən müddətdən sonra yeni məhsul alacaqdır. İnsanı digər canlılardan fərqləndirən ən başlıca əlamət də bundan ibarətdir ki, o gələcəkdə nə edəcəyini əvvəlcədən şüurlu surətdə, ideal obrazlar şəklində yaradır. Sonradan isə həmin ideal obrazları öz praktik fəaliyyətində gerçəkləşdirir. Musiqi əsərini yazmağa hazırlaşan bəstəkar da, gələcəkdə tikiləcək evin layihəsini hazırlayan memar da, təyyarənin, maşının, cihazın maketini və ya layihəsini hazırlayan mühəndis də elmi bir problemin araşdırılmasından sonra yazılacaq əsərin süjetini və strukturunu hazırlayan alim də həmin prinsipə müvafiq hərəkət edir. Tarixən insanların ruh haqqındakı təsəvvürlərinin formalaşması da elə bu qabaqlayıcı inikas qabiliyyətinə söykənmişdir. Həmin qabiliyyəti insan özündə müşahidə edərkən ona izah və təfsir verməyə çalışmışdır. Lakin şüur aktı heç zaman birbaşa təzahür edən maddi əsasa malik olmadığından və yalnız maddiləşmə yolu ilə, dolayı vasitələrlə öyrənilə bilən bir hadisə olduğundan onu müstəqilləşdirmək, insandan kənarlaşdırmaq», ruhlar aləminə aid etmək və s. kimi nəticələr hasil olmuşdur.

Sözün ciddi mənasında öngörmə qabiliyyətinin iki növünü ayırmaq mümkündür: birinci növə, nəsildən nəsilə ötürülən empirik və praktik təcrübi biliklərin ümumiləşdirilməsi nəticəsində əldə edilən empirik öngörmə aiddir. Uzun illər yerətrafı havanı müşahidə edən və müşahidənin nəticələrini nəsildən-nəsilə ötürən cəmiyyət üzvləri ilin hər hansı bir fəslində havanın necə olacağı barədə empirik öngörmələr söyləyə bilərlər. Lakin bu hadisənin mahiyyəti, onu tənzimləyən

qanunauyğunluqlar həmin insanlara məlum olmadığından hadisənin izahı və təfsirini verə bilmirlər. Əlbəttə, empirik təcrübi öngörmələr də insanların həyatında çox mühüm rol oynayır. Əslində adi şüur hadisəsi kimi ortaya çıxan bu qəbilli öngörmələr insanın gündəlik həyatını həmişə müşayiət edir, onlardan praktik istifadə az-çox sapma ilə həmişə uğurla nəticələnir.

Öngörmənin ikinci növünə isə elm qanunları və nəzəriyyələrinin dərin idrakı əsasında söylənən öngörmələr aiddir. Əlbəttə, bu qəbildən olan öngörmələr özləri də empirik, təcrübi biliklərin tədricən toplanması və ümumiləşdirilməsi prosedurasına ehtiyac hiss edir. Axı qanunların və nəzəriyyələrin formalaşması özü də ənənəvi surətdə geniş empirik bilik materiallarının müəyyən məntiqi əməliyyatlarla ümumiləşdirilməsi, xüsusilə də onların ideallaşdırılması zəminində baş verir. Heç bir qanun və nəzəriyyə elmdə formalaşdırıldığı təzdə və məzmunda real gerçəklikdə təzahür etmir. Elmi biliyin müxtəlif sahələrində qanunların və nəzəriyyələrin formalaşdırılması əslində sonsuz məzmuna malik olan hadisələr qrupunu, onları fərqləndirən təkrarlanmayan əlamət və xassələrdən sanki fikrən məhrum etmək, onlarda olmayan, lakin onların inkişaf meylindən doğan əlamət və xassələrlə tamamlamaq yolu ilə həyata keçir. Buradan söyləyə bilərik ki, nəzəri öngörmə sırf məntiqi bir hadisədir. Bu qəbil öngörmələr ya deduktiv, ya da induktiv məntiqi əməliyyatla söylənə bilər. Bu, işin mahiyyətinə təsir etmir.

Bəzi müəlliflər, məsələn Eşbi, öngörməni yalnız keçmiş üzərindəki əməliyyat adlandırırlar. Fikrə diqqətlə yanaşsaq aydın görərik ki, burada çox rassional bir məqam vardır. O da ondan ibarətdir ki, hər növdən olan öngörmə əslində, naməlum haqqında bilik deməkdir. Bu naməlum özü 3 növə ayrıla bilər: birincisi, keçmiş haqqındakı biliklərimizdə naməlum məqamlara aid olan bilik, indi haqqındakı biliklərimizin bizə məlum olmayan və ya müşahidə edilə bilməyən obyektləri haqqında bilik, üçüncüsü, hazırda mövcud olmayan və yalnız gələcəkdə meydana çıxması

güman edilən obyekt və hadisələr haqqındakı bilik.

Birinci qəbildən olan öngörməyə retrosöyləmə və ya retrogörmə də deyirlər. Mənası ondan ibarətdir ki, keçmişdə baş vermiş hər hansı bir hadisəni tarixi idrak vasitəsilə öyrənərkən tarixi yazılı və yazısız materialların çatışmazlığı üzündən həmin hadisənin necə baş verməsinin tam mənzərəsini yaratmaq mümkün olmur. Tarixi prosesdə sanki boşluqlar meydana gəlir. Retroöngörmə qabiliyyəti məhz bu keçmişə yönəlik proseslərin necə baş verməsi və ya verəcəyi haqqında deyilən biliklərdir. Bu heç də o demək deyildir ki, biz tarixi öyrənərkən təftiş məqsədi güdürük. Tarixi nə təftiş etmək, nə də dəyişdirmək mümkündür. Tarixi idrak qarşısında o necə baş vermişsə elə də durur. Lakin tarix məhz keçmiş olduğundan onun tam mənzərəsini yarada bilmədiyimizdən tarixi boşluqları bizim idrakımızın gücü ilə doldurmağa çalışırıq. Başqa sözlə, tarixdə bizim üçün qaranlıq olan məqamların necə gedə biləcəyini indi söyləməyə cəhd göstəririk.

İkinci növdən olan öngörmələr hazırda bizim nəzəri idrak və praktik mənafe dairəmizə daxil olmayan, və, deməli, bizim bilmədiyimiz, lakin mövcudluğunu güman etdiyimiz hadisələr haqqında olan öngörmələrdir. Məlumdur ki, D.İ.Mendeleyev kimyəvi elementlərin xassələrinin onların atom çəkisindən asılılığını müəyyənləşdirən dövri sistem qanununu formalaşdırmışdır. Qanunun tələblərinə müvafiq olaraq kimyəvi elementləri sıralayan Mendeleyev müəyyən boşluqların olduğunu təyin etmişdir. Yenə, də həmin sistemin məntiqinə əsaslanaraq o boşluqlarda hansı elementlərin yerləşəcəyini, onların hansı keyfiyyətlərə və xassələrə malik olacağını əvvəlcədən söyləmişdir. Burada mühüm məqam ondan ibarətdir ki, Mendeleyevin öngördüyü elementlərin hamısı elə onun vaxtında da, əbədi də mövcud olmuşlar. Mendeleyevin təfəkkür məntiqinin gücü onda təzahür etmişdir ki, o, mövcud olan, lakin elmə o dövr üçün məlum olmayan elementləri və onların xassələrini sırf məntiqi model qurmaqla müəyyənləşdirmişdir. Bəzi alimlər

öngörmə, elmi kəşf və hipotezanı bir-birilə müqayisə edərək iki cür ifrata yol verirlər. Onlardan bir qismi sadaladığımız bu üç halın hamısının eyni məzmuna malik olduğunu və deməli, əslində, eyni mahiyyət daşıdıqlarını iddia edirlər. Digərləri isə bunları ayırmağa, məzmunlarını sanki müstəqilləşdirməyə cəhd göstərirlər. Bizim fikrimizcə bu üç məntiqi əməliyyat eyni sırada baş verən məntiqi prosesin bir-birini tamamlayan üç məqamıdır. Öngörmə hər hansı bir prosesin ümumiyyətlə mümkünlüyünü söyləməkdən ibarətdirsə, hipoteza onun hansı hədlər çərçivəsində reallaşma imkanını, elmi kəşf isə onun konkret təcəssümünü ifadə edir.

Üçüncü növdən olan öngörmələr isə hazırda mövcud olmayan, lakin inkişafın gələcək axarında meydana çıxa biləcək və bizim tərəfimizdən aşkarlana biləcək hadisə və proseslərin əvvəlcədən söylənməsidir. Bu qəbildən olan öngörmələrin mahiyyətini aydın təsəvvür etmək üçün sosial həyatda baş verən hadisə və proseslərin gələcək inkişafını əvvəlcədən söyləmək hallarına diqqət yetirək.

Sosial gerçəklikdə meydana gələn hər bir hadisə və proses başlanğıcda təsadüfi xarakter daşıyan bir sıra imkanlar şəklində olur. Sonrakı inkişafda yaranan konkret şəraitdən asılı olaraq bu imkanların biri onun gerçəkliyə çevrilməsi üçün zəruri olan amillərin ortada olması səbəbindən real imkana çevrilir. Başqa sözlə, onun konkret zaman və məkan kəsiyində gerçəkləşməsi üçün zəruri olan real amillər meydana çıxır. Sonrakı prosesdə bu imkan gerçəkləşir. Həmin gerçəyin özü də bir sıra inkişaf meyllərini ehtiva edir. «Seçmə prosesi» burada da özünü göstərir. Deməli, sosial hadisə və proseslərin inkişafındakı öngörmə alim tərəfindən hansı ilkin imkanın daha perspektivli olmasını və sonrakı inkişafda gerçəkləşməsini əvvəlcədən sezməkdən və söyləməkdən ibarətdir. Sosial həyat hadisələri həm obyektiv, həm də subyektiv baxımdan, polivariantlı olduqlarından bu variantların hansının inkişaf və təfəkkür məntiqinə uyğun olduğunu

müəyyənləşdirmək son dərəcə çətin bir vəzifədir. Məhz bu səbəbdən də sosial həyat hadisələrinin təhlili və proqnozlaşdırılması ilə məşğul olan bir sıra alimlərin söylədikləri öngörmələr sonradan reallaşmayıb. Bunu əyaniləşdirən bir misal kapitalizmin inkişaf edərək sosializmə çevriləcəyi haqqındakı öngörmədir. XIX əsrdə kapitalizmin inkişaf meylləri və qanunauyğunluqlarını dərindən tədqiq edən K.Marks belə bir nəticəyə gəlmişdir ki, gələcək inkişafda kapitalizm hökmən sosializmlə əvəzlənəcəkdir. Lakin sonradan kapitalizmin inkişaf imkanları saf-çürük oldu, Avropada və ABŞ-da həyata keçirilən bir sıra tədbirlər nəticəsində kapitalizm aləmində inkişaf imkanları sanki nəzərdən keçirildi və bu formasiyanın sonradan normal inkişaf etməsi üçün tədbirlər görüldü. Fikrimizcə məhz bu səbəbdən də həmin ölkələrdə kapitalizm inqilab yolu ilə devrilmədi, təkamül yolu ilə özü transformasiya etdi. Hazırda bir sıra Avropa ölkələrində və elə ABŞ-da, Yaponiyada olan quruluşu cəsarətlə sosializm adlandırmaq olar, çünki, onların əsasında duran təməl müddəaları Marksm sosializm nəzəriyyəsində irəli sürülmüş təməl müddəalarla üst-üstə düşür. Bunlar aşağıdakılardır:

a) kapitalizmin sosializmə keçməsi üçün ölkədə və regionda kapitalizmdə olduğundan daha yüksək səviyyəli məhsuldar qüvvələr və əmək məhsuldarlığı yaradılmalıdır;

b) əhalinin ictimai şüuru o dərəcədə yüksəlməlidir ki, yeni cəmiyyətin inkişaf meyllərini və perspektivlərini anlasın və bu prosesə aktiv şəkildə qoşulsun;

v) ictimai həyatın bütün sahələrində - iqtisadi, hüquqi, siyasi, sosial və s. sosial ədalət prinsipi tam həcmdə reallaşdırılmalıdır ki, insanlar yeni cəmiyyətin qurulmasının üstünlüklərinə əmin olsunlar və bu prosesin subyektinə çevrilsinlər;

c) mülkiyyət formasından asılı olmayaraq istehsalın nəticələri ictimailəşdirilsin və əldə edilən gəlir müxtəlif kanallarla

ictimai tələbatların ödənilməsinə yönəldilsin. SSRİ-də və digər sosialist ölkələrində bu müddəaların heç birinin əsas götürülmədiyinə əmin olmaq üçün onların tarixinə qısaca nəzər salmaq kifayətdir. Praktika göstərdi ki, Marksın yuxarıda söylədiyimiz öngörməsi optimal seçim olmadığından sonralar gerçəkliyə çevrilə bilmədi. Sosializm adı altında yaradılan quruluş isə totalitar hərbi - polis rejimindən başqa bir şey deyildi.

Öngörmə, hər şeydən əvvəl, nəzəri idrak vasitələri olan qanun, prinsip və nəzəriyyələrin başlıca funksiyasıdır. Əlbəttə, bu funksiyanın reallaşmasının başlıca şərti hadisə və proseslərdə olan determinasion əlaqələrin və onların əsas növü olan səbəb-nəticə əlaqələrinin idrakı və təfsiridir. Buna elmdə determinizm prinsipi deyilir. Kant və Laplasm adı ilə məşhur olan bu prinispin əsas tələbi ondan ibarətdir ki, əgər biz sükunətdə olan bir makro obyektin ilkin parametrlərini dəqiq biliriksə sürətin sabitliyi şərtilə sonrakı inersial hərəkət halında istənilən an onların parametrlərinin aldıqları yeni qiymətləri dəqiq təyin edə bilərik. Lakin sonralar fizikada elementar hissəciklər, xüsusilə də elektron kəşf ediləndən sonra, məlum oldu ki, bu sahədə mexaniki determinizm prinsipi işləmir. Bundan sonra elmdə bir çaş-başlıq yarandı. Bir qisim alimlər prinsipi saxta elan etdilər, digər qisim isə, yeni aşkarlanan hissəcikləri və onların xassələrini şeytan əməli adlandırdılar. Yalnız yüksək dialektik təfəkkürə malik olan alimlər vəziyyətdən çıxış yolunu tapa bildilər. Onlar belə bir öngörmə irəli sürdülər ki, bu yeni vəziyyətdə mexaniki determinizm prinsipi yalnız müəyyən hədlər çərçivəsində işləyir, bu hədlərdən kənarda isə determinizmin yeni məzmunu aşkarlanır. Fizikada qeyri-müəyyənlik prinsipi adlanan və Heyzenberqin, Şredingerin adı ilə bağlı olan prinsip məhz bu əsasda formalaşdırıldı.

Öngörmə ilə məşğul olan bir sıra alimlər onun nəzəriyyə və qanunların funksiyası olması fikrinə söykənərək bu qəbildən olan öngörmələri «determinasion öngörmələr» adlandırırlar. Lakin bu

da aydındır ki, aləmdə heç də hər şey dinamik determinizm qaydasında üzə çıxıb fəaliyyət göstərmir. Elə hadisələr də vardır ki, onlar təfəkkürün məntiqinə sığmır, sanki təfəkkür imkanlarından kənarda durur. Bu qəbilli hadisələrin dərki və təfsirində təfəkkürdən daha çox insanların intuisiyası rol oynayır. Bunu biz ürəyədamma da adlandıra bilərik. Buradan yeni bir sual ortalığa çıxır: nə üçün filan fikir başqalarının yox, məhz filankəsin ürəyinə damır. Əlbəttə, hər bir insanda intuisiya qabiliyyəti əzəli mövcuddur. Lakin bu qabiliyyət hər bir insanda fərqli gücə və intensivliyə malikdir. Digər cəhət də ondan ibarətdir ki, hər hansı bir sahədə insanın intuisiyasınm daha aktiv işləməsi üçün insanın özünün bu hadisə və proseslərlə uzun müddət məşğul olması tələb olunur. Məsələn, geniş yayılmış belə bir misala diqqət yetirək: guya Nyuton gəzintidən evə qayıdarkən yorulduğundan qonşunun bağında alma ağacının altında uzanır. Bu əsnada onun başına ağacdan bir alma düşür. Elə həmin dəqiqə də guya Nyuton ümumdünya cazibə qanununu kəşf edir. Deyirdilər ki, bağın sahibi sonradan məhkəməyə müraciət edir ki, alma ağacı mənim olduğuna görə məni də həmin kəşfin həmmüəllifi kimi təsdiqləməlisiniz. Hakim ağıllı adam olur. Soruşur ki, sən özün bağında alma ağıcmın altında yatmısanmı? Bağ sahibi bəli deyir. Başına ağacdan alma düşübmü? Bu suala da bəli deyir. Bəs nə üçün ümumdünya cazibə qanununu kəşf etməmisən deyir və onun iddiasını rədd edir. Nyuton başına alma düşməmişdən əvvəl uzun müddət bu problemlə məşğul olduğundan onun biliyi «böhran həddinə» çatmışdır. Almanın onun başına düşməsi isə intuisiyasını hərəkətə gətirdi və qanunun açılmasını təmin etdi.

Bəzi alimlər bu qəbilli hadisələrə söykənərək belə bir iddia ilə çıxış edirlər ki, söylənilən qəbilli öngörmələr intuitiv öngörmələrdir. Biz intuisiyanın idrakda və xüsusilə də öngörmədə rolunu inkar etməkdən çox uzağıq. Lakin bizə bu da aydındır ki, intuisiyam müstəqil bir qabiliyyət kimi qəbul edib mütləqləşdirmək, onu təfəkkür prosesinin ümumi axarından

kənarda fəaliyyət göstərən bir forma kimi qəbul etmək düzgün olmazdı. Fikrimizcə yuxarıda göstərdiyimiz iki qəbilli hadisələrin idrakında həm təfəkkür, həm də intuisiya iştirak edir. Böyük fransız fiziki Lui de Broyl yazır: «Elmi tədqiqatda təxəyyülün və intuisiyanın zəruri rolunu qiymətləndirməmək olmaz. İrrasional sıçrayışların köməyi ilə biz deduktiv mühakimələrin bizi saldığı sərt dairəni pozaraq fikrin ən cahanşümul kəşflərini edirik... Öz əsaslarına və metodlarına görə əslində rassional olan insan elmi mahiyyət etibarilə özünün ən gözəl nailiyyətlərini ağılın təhlükəli və qəfil sıçrayışları yolu ilə əldə edir. Bu sıçrayışlarda ciddi mühakimənin ağır çıdarlarından azad olmuş qabiliyyət təzahür edir ki, bunu da təxəyyül, intiusiya, itiağıllılıq adlandırırlar.[309] İntuisiyanın idrakdakı roluna dair bu qəbilli fikirlərə biz dövrümüzün ən görkəmli alim və mütəfəkkirləri akademik P.L.Kopitsa, akademik A.N.Kolmoqorov, L.Landau və Y.Livşits və b. əsərlərində tez-tez rast gəlirik.

İntuisiya yarıinstinktiv şüurdur ki, bu şüur adi şüur fövqündə dayanır, özünün idraki gücünə görə şüurüstüdür. «İntuisiya - həqiqətin sübut yolu ilə əsaslandırılmadan birbaşa görülməsi və əldə edilməsi qabiliyyətidir».[310] Doğrudan da, elm, rəssamlıq, musiqi və digər sahələrdə ciddi məntiqi mühakimələrdən daha çox ağılın «qəfil oyanması», «işıqlanması» rol oynayır. Sanki alim və mütəfəkkirlər hadisə və proses haqqında kifayət qədər empirik və hətta nəzəri biliyə sahib olmadan onların mahiyyətini görə və tuta bilirlər. Bu elə bir qabiliyyətdir ki, nə ona sahib olanlar onun mexanizmini izah edə bilir, nə də ətrafdakılar bu mexanizmi qavrayır. Lakin nəticə etibarilə intuitiv yolla edilən kəşflər, öngörmələr elmi bilik tarixində spn dərəcə böyük rol oynayırlar. Fikrimizcə söyləsək ki, bütün görkəmli kəşflərin və öngörmələrin əsasında şüur fövqündə duran intuisiya dayanır səhv etmərik. Lakin bununla belə bir daha təkrar etmək istəyirik ki, intuisiya

---

[309]Бройль Л.де. По тропам науки. М., 1962.с.294-295
[310]Бах: Спиркин А.Г.Философия. М., 2002. с.108-110.

qabiliyyətini idrak prosesinin fövqünə çıxartmağa, onu mütləqləşdirməyə və məxsusi idrak vasitəsi saymağa (Anri Berqson) heç bir əsas yoxdur.

İntuisiya qabiliyyətinə Z.Freydin psixoanalitikasında da böyük yer verilir. Lakin maraqlı burasıdır ki, şüurla yanaşı bişüuru insan fəaliyyətinin mühüm ünsürləri sayan Freyd bunları heç zaman bir-birindən qəti sədlə ayırmamışdır, bunlar arasındakı mümkün keçidləri dərindən təhlil etmişdir. Elə bu baxımdan da Freyd intuisiyanı irrasional idrak vasitələrindən biri sayır.

Praktik psixoloq ABŞ-da yaşayan və fəaliyyət göstərən Lora Dey özünün «İntuisiyanm inkişafına dair özmüəllim» adlı kitabında hesab edir ki, intuisiya qabiliyyəti hər kəsə xasdır. O yazır: «İntuisiya dil, təfəkkür və müsiqini qavramaq qabiliyyəti kimi anadan gəlmə qabiliyyətdir. İntuisiya bəzi insanlara müəssər olan vergi deyildir, o, istənilən əqli, emosional və ya psixi prosesin ayrılmaz bir hissəsidir... Bəzi insanlar intuitiv qabiliyyətə daha çox malikdirlər. Halbuki, başqaları məntiqçi, rəssam, yazıçı istedadına malikdirlər».[311]

İntuisiyanın nə olduğunu belə bir sadə misalla izah edək: bir zalda 20 nəfəri əyləşdirib, onlara detektiv tipli bir film göstəririk. Hər birinə bir vərəq, bir qələm verərək tapşırırıq ki, filmin nümayişi dövrü onun necə qurtaracağını müəyyən etdikdən sonra vaxtı qeyd etməklə fikirlərini yazsınlar. Alman nəticələrin təhlili aydın göstərir ki, nəticənin müəyyənləşdirilməsi müəyyən zaman ardıcıllığı ilə filmin qurtarmasına qədər düzülür. İnsanlardan eləlari də tapılır ki, film qurtardıqdan sonra da onun necə nəticələndiyi haqqında fikir deyə bilmir. Göründüyü kimi, filmin necə qurtaracağını ən tez müəyyən edən insanın intuisiya qabiliyyəti daha iti və güclüdür. Bu qabiliyyətin müəyyən hissəsi genetik əsaslara bağlansa da, başhca səbəb insanın malik olduğu intuisiya qabiliyyətinin inkişaf etdirilməsidir. Bu da, öz

---

[311]Лора Дей. Самоучитель по развитию интуиции. М., 2002, с.56-57.

növbəsində, insanın ümumi mədəniyyət səviyyəsindən, təhsil səviyyəsindən, tərbiyəsindən, təfəkkürünün tipi və itiliyindən asılıdır.

Öngörmədə intuisiyaya ayrılan rolu nə heçə endirmək, nə də mütləqləşdirmək olar. Əlbəttə, öngörmənin tipindən və növündən asılı olaraq, bəzi hallarda intuisiyamn rolu daha böyük olur. Lakin unudulmamalıdır ki, öngörmədə başhca rolu öngörmənin aid olduğu sahənin qanunauyğunluqlarının, meyllərinin, zərurətlərinin insanlar tərəfindən dərk edilməsi dərəcəsi oynayır. Fransız filosofu Anri Berqson da intuisiyamn idrakda və öngörmədə rolundan bəhs etmişdir. İntuitivizm adlanan bu təlimin başlıca naqisliyi ondan ibarətdir ki, onun tərəfdarları intuisiyamn idrakda və öngörmədə rolunu mütləqləşdirir, onu fitri qabiliyyət hesab edir, rasional idrakın rolunu isə kiçildirlər.

İnsan fəaliyyətinin gələcəyi və nəticələrini müəyyənləşdirmək qabiliyyəti, onlar haqqında ideal obrazların yaradılması bir sıra bir-biri ilə sıx bağlı kateqoriyalar vasitəsilə ifadə edilir. Bu kateqoriyalardan başlıcaları məqsəd, plan və proqnozdur. Məqsəd fəaliyyətimizə daxil olan obyekt və proseslərin hazırki vəziyyəti ilə razılaşmadığımızı və onun gələcəkdə bizim tərəfimizdən dəyişdiriləcəyi model - «gözlə- nilən gələcək» haqqında məntiqi bir qurğudur. Tərifdən aydın görünür ki, məqsəd hər hansı bir öngörmənin əsasında müəyyənləşdirilən fəaliyyət istiqamətidir. Bunun dəqiq təyin edilməsi üçün hökmən çox ciddi elmi tədqiqat aparılmalı, onun nəticələri qanunlar, prinsiplər, postulatlar şəklində formalaşdırılmalıdır. Digər tərəfdən, insanın fərdi və ictimai həyatı normativ bir hadisə olduğundan, bu normaların özləri, sanki, fəaliyyəti limitləşdirir, onları müəyyən hədlər çərçivəsində mümkün edirlər. Göstərilən bu iki məqamı nəzərə alaraq öngörmələri tədqiqat və normativ adları ilə iki növə ayırmaq mümkündür.

Hər bir məqsədin həyata keçirilməsi üçün insan və cəmiyyət hərəkət formaları və tədbirləri formalaşdırır və həyata keçirir.

Həmin hərəkət formalarının məzmunu, həyata keçmə mərhələləri, həyata keçirilmə metod və vasitələri planın məzmununu təşkil edir. Göründüyü kimi, hər bir plan da öngörmənin reallaşması istiqamtəində atılan subyektiv addımdır.

Öngörmə ilə birbaşa bağlı olan kateqoriyalardan biri də proqnoz və onun tərtibi prosesdurası olan proqnozlaşdırmadır. Fikrimizcə, proqnozu öngörmənin tələblərinin kəmiyyət göstəriciləri ilə ifadəsi kimi təriflәndirmək olar. Öngörmələr müxtəlif olduğu kimi proqnozlar da müxtəlif olur. Qısa müddətli proqnozlar yaxın gələcək haqqındakı öngörmələrə əsaslanır. Eləcə də, uzun müddətli proqnozlar gələcək perspektivlər haqqındakı öngörmələrə əsaslanır.

Bir ictimai-iqtisadi sistemdən digərinə keçid mərhələsini yaşayan ölkəmizdə də müxtəlif təbiətli və tərtibli öngörmələrə çox böyük ehtiyac vardır. Azərbaycanın bugünki reallığı, gələcəkdə hansı iqtisadi sistemin, siyasi rejimin, ideologiyanın və s. mümkünlüyünə dəlalət etdiyini müəyyənləşdirmək özü öngörmədir. Bu mühüm vəzifənin həyata keçirilməsində başlıca xidməl və məsuliyyət təbii ki, azərbaycan alimlərinin və azərbaycan dövlət strukturlarının öhdəsinə düşür. Göstərdiyimiz bu zəruri vəzifənin öhdəsindən nə dərəcədə uğurla gəlməyimizdən ölkəmizin, xalqımızın ictimai- iqtisadi, siyasi inkişafının gələcəyi asılıdır.

**CƏMİL ƏHMƏDLİ**
*f.e.d., professor, ADK*

# SOSİAL ƏDALƏT VƏ SOSİAL HARMONİYA

Nə qədər paradoksal görünsə də ədalət də, ədalətsizlik də insan şüurunun və sosiallığının məhsulu kimi meydana gəlmişdir. Hərəkət və davranışlarını instinktlərin tənzimlədiyi heyvanat aləminə nə ədalət, nə də ədalətsizlik xasdır. Orada həyatı tənzimləyən yaşayış uğranda mübarizənin əsasında duran güc, «cəngəllik» qanunu var. Ac bir pələng arıq bir ceyranı ovlayarsa «onu yemək ədalətsizlikdir» deyə azad buraxmaz. Habelə, əksinə. Tox olan pələng arıq və ya köklüyündən asılı olmayaraq heç bir ceyrana toxunmaz. Heyvanat aləminə nəzərən də ədalət və ədalətsizlik insanın ona münasibətində ortaya çıxır.

İnsan təbiət qüvvələri ilə üzləşərkən onların iki cür təsirinə məruz qalır - müsbət və mənfi. Qədərində yağan yağış əkilmiş bitkilərin normal inkişafını, heyvanların və insanların su ilə təminatını gerçəkləşdirdiyi halda, leysan yağışları evlərin, yolların, əkin sahələrinin dağılması, insanların və heyvanların qırılması ilə nəticələnirdi. Od da həmçinin. Od həm insanları soyuqdan, şaxtadan qoruyur, insan üçün qidanı bişirməyə kömək edir, vəhşi heyvanlardan qorunmaqda bir alət, vasitə kimi istifadə edilirdi, həm də yanğınlar törədərək meşələri, bitkiləri, yaşayış məskənlərini, elə insanların özlərini də məhv edirdi. Təbiət qüvvələrinin bu ikili üzü bu gün də müşahidə olunur. Həmin təbiət qüvvələrinin insana ikili, bir-birinə zidd olan münasibətilə üzləşən ibtidai insanlar ilk dəfə xeyir və şər anlayışlarını formalaşdırır, xeyiri ədalət, şəri isə ədalətsizlik kimi qiymətləndirdilər.

Arxaik dövrün dünyagörüşünün əsasında kosmosentrizm prinsipi dururdu. Onun mahiyyətində dünyanı da, cəmiyyəti də, ayrıca insanı da kosmos kimi anlamaq dururdu. Kosmos nizamlı,

qaydalı bir təşkildir, xaos isə kosmosun nizamı və ahənginin pozulmasıdır. Aləmdə kosmosla xaosun daim mübarizəsi gedir. Həmin mübarizədə kosmosun bütövlüyünü, nizam və ahəngini saxlamağa yönəlmiş bütün proseslər, hərəkət və davranışlar, insan əməlləri xeyir olduqlarına görə ədalətli, bunun əksinə olan və dağıdıcı xarakter daşıyan qüvvələr və onların etdikləri isə şər olduğundan ədalətsizdir. Dünya nizamla xaosun mübarizəsindən ibarətdir. Xaosdan mövcud dünya nizamının yaranması, sonradan destruktiv qüvvələrin dağıdıcı fəaliyyəti sayəsində kosmik nizamın pozulması əbədi qanun və prinsipdir. Bu ideya bütün mifoloji təfəkkür tiplərinin, dini dünyagörüşlərinin, əfsanələrin, dastanların, nağılların və s. əsasında durmuşdur. Sadaladığım növlərdən olan bütün yazılı və şifahi mənbələrin süjetlərinin ana xəttini həmin ideya təşkil edir. Yaşadığı təbii və sosial mühitdə ədalətin olmadığını və ya daim pozulduğunu görən insanlar onun bərpası və ya yaradılması uğrunda rəngarəng vasitələrdən istifadə edirlər. Qurban kəsmək, nəzir vermək, mahnı oxumaq, ritual rəqslər, dualar və bunların əksi olan qarğışlar, lənətlər və s., bir tərəfdən, xeyir qüvvələrin insanlara yönəlik gördükləri xeyir işlərə görə minnətdarlıq hissini bildirməyi, digər tərəfdən isə şər qüvvələri bəd əməllərinə görə lənətləməyi ifadə edirlər. Eradan 3000 il əvvəl yazılmış Şumer poeması Gilqamışda şəhər başçısı Gilqamışın dostu pəhləvan Erkidu ilö birlikdə Uruk şəhərini dağıtmaq istəyən şər qüvvələrə qarşı mübarizəsi və qələbə çalması, Vedlərdə, Upanişadda xeyir-şər qüvvələrin mübarizəsi, Bxaqavad Qitada Krişnanın dövri olaraq müxtəlif simalarda yerə enməsi və orada törədilən ədalətsizliklərə qarşı mübarizəsi və qələbəsi, Avestada xeyir allahı Hörmüzdin şər allahı Əhrimana qarşı mübarizəsi (işığın qaranlığa, xeyirin şərə, ədalətin ədalətsizliyə qarşı durması), Homerin «İliada» və «Odisseya» poemalarında Heraklın 12 qəhrəmanlığı, bütün miflərdə xeyir və şəri təmsil edən allahların və şər qüvvələrin mübarizəsi - bütün bunlar ədalət axtarışı, onun qələbəsi yolunda min cür əziyyətlə

bağlı mübarizə süjeti üzərində qurulmuşdur.

Bütün monoteist dinlər az-çox fərqlə zülm və əziyyətdə yaşayan binəsib kütlələrin həyatda görmədikləri ədalət və bərabərlik arzu və niyyətlərinə cavab olaraq meydana gəlmişdir. Bu dünyada tam ədalətə nail olmağın mümkünsüzlüyünü duyan din yaradıcıları ədaləti və bərabərliyi sanki o dünyaya köçürürlər. İnsanların bu dünyadakı əməllərinin əvəzi o dünyada qaytarılacaqdır deyə bu dünyadakı bütün zülm və əziyyətlərə dözmək, özünü o dünyaya hazırlamaq ideyası bütün dinlərdən qırmızı xətt kimi keçir. Ədalət və ədalətsizliyə bütün dini baxışların əsasında teosentrizim (allah hər şeyin mərkəzidir) ideyası durmuşdur.

Yeni Dövr ictimai fikrinin özülündə insan və onun qayğıları (antroposentrizm) durduğuna görə, ədalət də ədalətsizlik də sanki yenidən yerə qaytarıldı. Humanistlərin də, maarifçilərin də, Yeni Dövr filosoflarının da işlədikləri bütün problemlərin mərkəzində insanla bağlı məsələlər dayanır. F.Bekonun analitik metodu da, fransız materialistlərin «ağıllı eqoizm» nəzəriyyəsi də, Lokkun, Hobbsun, Russonun təbii hüquq təlimləri də, Kantm əxlaqi kateqorik imperativi də bu və ya digər formada ədalət və ədalətsizlik problemi ilə bağlı olmuşdur.

Ədalət və ədalətsizlik anlayışlarının insanın həyat və fəaliyyətinin müxtəlif sahələrində maddi əsası və təzahürü olsa da, onlar özləri maddi xarakter daşımır, onları heç bir maddi ölçü vahidlərilə ölçmək və qeydə almaq mümkün deddir. Bunların hər ikisi abstraksiyalardır. Lakin bunlar boş abstraksiyalar deyil, real gerçəklikdə və insanın fəaliyyətindi üzə çıxan və prinsipcə sonsuz sayda olan müvafiq hadisə, proses və davranışların təzahürləri üçün invariant olan ümumini ifadə edən abstraksiyalardır. Zaman, məkan, şərait, in- ..ıııın sosial vəziyyəti və intellektual səviyyəsi, cəmiyyətdə mövcud olan müxtəlif tipli və səviyyəli ictimai münasibətlərin xarakterindən asılı olaraq hadisə, proses, davranış və normalara ədalətli və ya ədalətsiz qiymətləri verilir. Aydındır

ki, elmli, bilikli bir insanla savadsız və biliksiz bir insanın eyni proses və hadisələrə verdikləri qiymətlər fərqli, bəzən do diametral əks olur. Ölkəmiz də yeni ictimai iqtisadi quruluşa keçidlə əlaqədar həyata keçirilən bir sıra tədbirlər (özəlləşdirmə, özəl bankların yaranması, sahibkarlıq və s.) İm sıra müsbət hallarla yanaşı xeyli neqativ hadisələrin də törəməsinə səbəb olmuşdur (sosial, iqtisadi, mənəvi deformasiyalar, işsizlik, dilənçilik, xəstəlik və s.). Qütbləşmiş cəmiyyətdə aşağı və yuxarı qütbləri təmsil edən insanlar, ayılındır ki, cəmiyyətdə baş verən müxtəlif halları əks mövqedən də qiymətləndirəcəklər. Varlanmanı sərvət toplayan inanlar ədalətli, sərvətdən məhrum olanlar isə ədalətsiz hesab edəcək. İşsizliyin yaranmasını yuxarı qütbə mənsub olan inanlar qanunauyğunluq kimi, aşağılar isə ən böyük ədalətsizlik kimi qiymətləndirəcəklər.

Yuxarıda dediklərimizdən belə bir sual irəli gəlir: əgər cəmiyyətdə baş verən hadisə və proseslər bu qədər müxtəlif və fərqlidirsə onda ədalət və ədalətsizlik nədir?

Əvvələn qeyd edək ki, ədalət və ədalətsizlik anlayışlarının bilavasitə maddi substratı yoxdur. Onları heç bir kəmiyyət ölçü vahidləri ilə ifadə etmək mümkün deyil. Digər tərəfdən, ədalət və ədalətsizlik birbaşa insanların fərdi və ictimai mənafeləri ilə bağlı olduğundan son dərəcə mürəkkəb və ierarxik məzmuna malikdir. Hər bir insanın və sosial birliyin mənafe vektorları həm sosial yükünə, həm də sosial istiqamətinə görə çox müxtəlifdir. Bir vətəndaş, zavod direktoru, deputat rollarında çıxış edən bir insanın elə bu üç yöndə olan mənafeləri bir-biri ilə toqquşur. Ailə başçısı kimi o övladlarına bioloji təmiz qida, saf su və s. vermək məqsədi güdür. Aydındır ki, bu məqsədin həyata keçməsi onun mənafeyinə uyğundur və deməli ədalət kimi qiymətləndirəcəkdir. Eyni zamanda neftayırma zavodunun direktoru işləyən həmin adamın neft istehsalını və emalını artırmaq mənafeyinə uyğundur və bunu da ədalətli sayacaqdır. Üçüncü tərəfdən, deputat kimi ekologiya problemlərinə dair optimal qanunların qəbul edilməsi onun sosial

rol funksiyasına daxildir. Ona görə də mənafeyinə uyğundur və deməli, ədalətlidir. Bu qəbildən olan misalların sayını artırmaq olar. Lakin elə bu dediklərimizdən də aydın görünür ki, ədalət insan fəaliyyətinin ictimai məzmununun ifadəsidir. Və bu anlayışda cəmiyyətlə onu təşkil edən sosial qurumlar arasındakı, müxtəlif tipli sosial qurumlar arasındakı, cəmiyyətlə şəxsiyyətlər arasındakı və nəhayət, şəxsiyyətlər arasındakı münasibətlər sistemi ifadə edilir. Sanki insanlar və sosial birliklər arasındakı fəaliyyət və bu fəaliyyətin nəticələrinin mübadiləsi ədalət anlayışında öz əksini tapır.

Ədalət insanların mənəvi həyatının ayrılmaz göstəricisidir. O, özü ayrıca bir fəaliyyət növü deyil, insanın fəaliyyətinin bütün növlərində (iqtisadi, sosial, hüquqi, siyasi, əxlaqi, dini və s.) baş verən hadisə və proseslərin insanlar və sosial birliklər tərəfindən qiymətləndirilməsi meyarı və vasitəsidir. Soruşulur ədalətli və ədalətsiz qiymətlərin bu rəngarəngliyində invariant olan, deyişmədə sabit qalan, sanki hamı tərəfindən qəbul edilən nələr var ki, onlar həmin anlayışlarda ifadə edilir. Fikrimizcə, invariant olan üç məqamı ayırmaq mümkündür:

1) fəaliyyət növünün qarşısında duran məqsədin qiymətləndirilməsi;

2) həmin məqsədə çatmaq üçün istifadə edilən vasitələrin qiymətləndirilməsi;

3) fəaliyyət nəticəsində əldə edilən nəticələrin qiymətləndirilməsi.

Şərh etməyə ehtiyac yoxdur ki, bu üç amili bir-birindən təcrid edilmiş, müstəqil həyata keçirilən əməllər kimi düşünmək olmaz. Bunlar üzvi vəhdətdə olan və bir-birini tamamlayan əməllərdir ki, yekunda ədalət və ya ədalətsizlik qiymətləri meydana gəlir.

Bəs fərdi və ya ictimai fəaliyyət qarşısında qoyulan məqsədin qiymətləndirilməsi meyarı nədən ibarətdir? Sualı cavablandırmaqdan ötrü yenə də mənafe anlayışına diqqət yetirək.

Ən ümumi şəkildə mənafeləri fərdi və ictimai növlərə

ayırmaq olar. Məqsədin qiymətləndirilməsi meyarını da bu iki növdən olan mənafelərin optimal nisbətində axtarmaq gərəkdir. Lakin bu nisbətin özünü də müəyyənləşdirmək xeyli çətindir. Belə bir şərq pritçası vardır: bir kişinin iki qızı olur. Birini bir şəhərə, digərini isə başqa bir kəndə ərə verir. Bir müddət keçdikdən sonra arvadı ilə məsləhətləşərək qızlarına baş çəkməyə gedir. Birincisinin evinə gedir, yaşayışları, güzəranları ilə maraqlanır, kürəkəninin nə işlə məşğul olduğunu soruşur. O, cavab verir ki, çoxlu kərpic kəsmişəm, havalar isti keçsə, günəşli olsa, kərpic yaxşı quruyacaq, onu satıb xeyli pul əldə edəcəyəm. Bunun üçün də gecə-gündüz Allaha dua edirik. Kişi yol alır ikinci qızının evinə. İkinci kürəkəninə də həmin sualla müraciət edir. O, cavab verir: xeyli taxıl və tərəvəz əkmişəm, əgər havalar yağışlı keçsə, bol məhsul götürüb satacağam və dolanışığımız üçün pul əldə edəcəyəm. Kişi qayıdır evinə və arvadına deyir: işlər xeyli gərgindir. Allahın bizə necə hava şəraiti yaratmasından asılı olmayaraq qızların birinin vəziyyəti gərgin olacaq. Allahın da vəzifəsi xeyli mürəkkəb və çətindir. Göründüyü kimi, bu kiçik pritçada mənafelər çarpazlaşması əyani surətdə göstərilmişdir. Lakin vəziyyətdən çıxış yolu burada nə insandan, nə də cəmiyyətdən asılıdır. Bu, yalnız ilahi qüvvə və ya təbiətlə bağlıdır. Həmin insanların öz məqsədlərinə nail olmaq üçün istifadə edəcəkləri vasitələr özlərindən asılı deyildir.

Fərdi və ya sosial fəaliyyətin məqsədinin ədalətli olmasının meyarı, fikrimizcə, həmin məqsədin sosial harmoniyaya uyğun gəlib gəlməməsindən asılıdır. Həmin bu məqam Quranda da, bir sıra fəlsəfi məktəblərdə də geniş yer almışdır. Qısa şəkildə bunu belə ifadə etmək olar ki, elə davran, elə hərəkət et ki, sənin davranış və hərəkətlərin başqalarının məqsəd və mənafelərinə zidd olmasın. Özünə rəva bilmədiyin bir şeyi başqalarına da rəva bilmə. Fransız materialistlərinin «ağıllı eqoizm» təliminin əsasında da məhz bu fikir dayanır. Hər bir insan öz azadlıq, xoşbəxtlik və bərabərliyinə elə vasitələrlə nail olmağa çalışmalıdır

ki, başqalarının azadlıq, xoşbəxtlik və bərabərliyinə toxunmasın. Bu baxımdan alıcını çəkidə və qiymətdə aldadan satıcının da, yaxşı bilən tələbəyə aşağı qiymət, bilməyən tələbəyə isə yüksək qiymət verən müəllimin də, qanuni bir işi icra etməyə rüşvət tələb edən məmurun da, intellekt və bacarıqca, professional qabiliyyətcə aşağı səviyyəli bir insanı bilikli və qabiliyyətli insanlara rəhbər təyin edənin də, övladına qarşı amansız olan valideyinin, valideyinə qarşı hörmətsizlik göstərən övladın da məqsəd və mənafeləri ədalətsizdir. Göstərilən halların hamısında güdülən məqsəd cəmiyyətin sosial ahənginə bu və ya digər dərəcədə xələl gətirir. Deməli, qarşıya qoyulan məqsəd həm onu güdən subyektin mənafeyini, həm də cəmiyyətin sosial mənafeyini nəzərə almalıdır.

Məqsəd heç vaxt abstrakt ola bilməz, o, həmişə fəaliyyəti müşayiət edən obyektiv və subyektiv amillərə söykənməlidir. Əgər belə olmazsa, onda məqsəd bir ifrat halda utopiyaya, digər ifrat halda isə insanlar üçün təhlükəli və faciəli bir amilə çevrilər. Buna əyani misal olaraq, ABŞ preziddenti C.Buşun İraqa qarşı başlamaq istədiyi müharibənin məqsədini göstərə bilərik. Onun rəsmi elan etdiyi məqsədi İraqda olan kütləvi qırğın silahlarını ləğv etmək, Səddam Hüseyn rejimini devirməkdən ibarətdir. İlk baxışda məqbul görünən bu məqsəd müharibə vasitəsi ilə həyata keçirilərsə kütləvi qırğına məruz qalacaq İraq xalqının, törəyə biləcək ekoloji qəzanın, böyük fəlakətlərlə üzləşəcək İraqla həmsərhəd ölkələrin əhalisinin taleyi ilə qütbi əkslik təşkil edir. Bütün bunlar isə Buşu maraqlandırmır. Doğrudan da «üzürü günahından ağırdır» ifadəsinin əsl yeridir.

Göründüyü kimi, məqsədin ədalətli olması fəaliyyətin də ədalətli olacağına dəlalət etmir. Məqsədin ədalətli olması üçün ona nail olmaq üçün istifadə edilən vasitələr də ədalətli olmalıdır. N.Makiavelliyə istinadən verilən «məqsəd vasitəyə haqq qazandırır» prinsipi elə əvvəlcədən ədalətsizliyə proqramlaşdırılmışdır. Cinayətə və cinayətkara qarşı cinayətkar

metodlarla mübarizə aparmaq yeni cinayətin yaradılınası deməkdir və deməli, ən böyük ədalətsizlikdir. Deməli, ədalətli məqsəd ədalətli vasitələrlə həyata keçirilməlidir. Ədalətsiz məqsəd ədalətli vasitələrlə həyata keçirilə bilmədiyi kimi, ədalətli məqsəd də ədalətsiz vasitələrlə həyata keçirilə bilməz.

Nəhayət, hər hansı bir məqsədin ədalətli və ya ədalətsiz olmasının ən önəmli göstəricisi onun reallaşması sayəsində əldə edilən nəticədir. Əgər əldə edilən nəticə həm fərdi, həm də ictimai mənafeyə uyğundursa, deməli məqsəd də, ona nail olmaq üçün istifadə edilən vasitələr də ədalətlidir. Əksinə, əgər məqsədin reallaşması fərdi və ictimai mənafelərə ziddirsə, deməli məqsəd də ona nail olmaq üçün istifadə edilən vasitələr də ədalətsizdir.

İnsanın fəaliyyəti iqtisadi, siyasi, hüquqi, əxlaqi, elmi sahələrdə gerçəkləşir. Hər bir sahədə də onun fəaliyyətinin qiymətləndirilməsinin spesifik meyarları vardır. Həmin meyarlar da müxtəlif normalar formasında ifadə olunur. Deməli, insan fəaliyyətinin nəticələrini adekvat qiymətləndirmək üçün ilk növbədə həmin normaların optimal olması zəruridir. Bu o deməkdir ki, nizamlayıcı normalar konkret ölkənin sosial, iqtisadi, siyasi, mənəvi inkişaf səviyyəsinə, insanların intellektual, sosial şəxsi, əxlaqi-psixoloji keyfiyyətlərinə, sosial birliyin mentalitetinə (yaşayış və düşüncə tərzinə) uyğun formalaşdırılmalıdır. Məhz bu şərt çərçivəsində normalar insan davranışı və fəaliyyətinin meyarı (ölçüsü) funksiyasını yerinə yetirə bilər. Normalar optimal olmazsa onların insanlar tərəfindən qəbul edilməsi çətinləşər və deməli, onların fəaliyyətdə gözlənilməsi xeyli çətinləşər. Bu isə ədalətin pozulması üçün geniş meydan açar. Hazırda bizim cəmiyyətin bütün təbəqələrindən olan insanlar arasında dəbdə olan «qanunlar işləmir, onların işləmə mexanizmi yoxdur» kimi ifadələrin meydana gəlməsinə səbəb olan amillərdən biri də qanunların optimal olmaması və bü üzdən də geniş əhali kütləsi tərəfindən qəbul edilməməsidir. Digər amil qanunun aliliyi və qanunun hamı üçün bərabərliyi prinsiplərinə əməl edilməməsidir.

Qanunverici orqan tərəfindən qəbul edilmiş qanun sonradan icra strukturları tərəfindən müxtəlif qərarlar və təlimatlar vasitəsilə o dərəcədə eybəcərləşdirilir ki, onun mahiyyətindən əsər-əlamət qalmır. Təbii ki, bu cür hallar qanunun aliliyi prinsipini pozmaqla onların işləməsini çətinləşdirir və deməli, rəngarəng xarakterli ədalətsizliklərin meydana gəlməsinə rəvac verir. Qanunun bərabərliyi prinsipinin pozulması da həmçinin. İnsanlar görəndə ki, qanunun eyni bir norması sosial və maddi vəziyyəti, siyasi baxışları fərqli olan insanlara eyni gücdə tətbiq edilmir, bəzilərinə nəzərən sərt, digərlərinə nəzərən daha yüngül cəza tədbiri görülür, gəldikləri ilk nəticə cəmiyyətdə ədalətin olmamasıdır.

Başlıca funksiyaları qanunların işləməsinə nəzarətdən ibarət olan hüquq mühafizə orqanlarının fəaliyyəti insanların və sosial birliklərin hərəkət və davranışlarının qiymətləndirilməsi meyarıdır. Günahsız bir insanın cəzalandırılması günahlı iki insanın cəzalandırılmamasmdan daha ağır nəticə verir. İnsanlarda inamsızlıq yaratmaqla bu hal cəmiyyətdə bədbinlik, süstlük əhval-ruhiyyəsinin, ədalətsizlik mühitinin qə- rarlaşmasına səbəb olur.

Ədalətin iqtisadi aspektində də eyni meyar işləyir. İqtisadi münasibətlər üç müstəvidə qurulur: insanlar arasında formalaşan mülkiyyət münasibətləri, yəni maddi sərvətlərin kimin əlində olması; konkret sosial zaman və məkanda formalaşan əmək münasibətləri, yəni iqtisadi fəaliyyətdə kimin nə ilə məşğul olması; cəmiyyətdə mövcud olan maddi nemətlərin bölgüsü münasibətləri. Hər üç müstəvidə ədalət insanların qabiliyyətləri, xidmətlərilə malik olduqları sərvətin nisbətilə ölçülür. Əgər qabiliyyətsiz, ictimai və fərdi fəaliyyəti səmərəsiz və az olan insan daha çox mülkiyyətə və maddi sərvətlərə malikdirsə, daha qabiliyyətli, bilikli və bacarıqlı insanlar isə bunlardan məhrumdurlarsa bu cəmiyyətdə ədalətin olmasından danışmaq əbəsdir, buna heç kəsi inandırmaq mümkün deyildir. Əmir Teymurla bağlı bir pritça vardır. Bir gün Əmir Teymur Molla Nəsrəddini yanına çağırır və deyir: Molla sən bilirsən ki, mən

fateh bir hökmdaram, ölkələr tuturam, şəhərlər fəth edirəm. Lakin bu ölkələrdə vəziyyətin necə olduğunu, onların ədalətli, yaxud ədalətsiz olduğunu öyrənməyə nə vaxtım, nə də imkanım olur. Sən mənə elə bir meyar deyə bilərsənmi ki, qısa bir vaxtda bunları öyrənim. Molla cavab verir: şah sağ olsun, bu çox sadə bir işdir. Çıx bazara, əgər yağı yağ qiymətinə, şoru şor qiymətinə satırlarsa, o cəmiyyət normal və ədalətlidir; əgər yağı da, şoru da eyni qiymətə satırlarsa, cəmiyyət korlanmaq üzrədir; əgər yağı şor, şoru isə yağ qiymətinə satırlarsa, o cəmiyyət ən eybəcər və ədalətsizdir.

Obrazlı şəkildə deyilmiş bu kalamın çox böyük sosial yükü vardır. Əgər cəmiyyətdə hər bir insan malik olduğu intellektual və sosial keyfiyyətlərə müvafiq olan sosial mövqe və vəzifə tutursa, bu cəmiyyət ədalətli cəmiyyətdir. Əksinə, əgər biliksizlər biliklilər üzərində, qabiliyyətsizlər qabiliyyətlilər üzərində, bədxahlar xeyirxahlar üzərində və s. hakimdirsə bu cəmiyyət ədalətsizdir.

Göründüyü kimi, ədalət cəmiyyətdə mövcud olan rəngarəng və çoxpilləli münasibətlər sisteminin bu münasibətlər üzərində qurulmuş müxtəlif yönlü qiymətləndirmə meyarıdır. Bu münasibətlər sisteminə cəmiyyət və onu təşkil edən sosial qurumlar arasında, şəxsiyyətlə cəmiyyət arasında, və, nəhayət, şəxsiyyətlər arasında olan münasibətlər zəminində qurulan fəaliyyət növləri daxildir. Cəmiyyətdə normal sosial harmoniyanın mövcudluğu və ahəngdar inkişafı üçün hər bir insan sosial ieararxiyada özünün keyfiyyətlər kompleksinə müvafiq mövqe tutmalıdır. Həmin mövqeyin obyektivliyi həm insanın özü, həm də digər insanlar tərəfindən qəbul edilərsə, söyləmək olar ki, bunun meyarı ədalətdir. Bu o deməkdir ki, insan sərf etdiyi əməyin kəmiyyətinə və keyfiyyətinə uyğun əmək haqqı almalı, hüquqları ilə mütənasib vəzifələrə və məsuliyyətə malik olmalı, xidmətlərinə bərabər mükafatlar, fəxri adlar almalı, törətdiyi cinayət əməlləri müqabilində qanunvericiliklə müəyyən edilmiş cəza almalıdır.

Əlbəttə, göstərdiyimiz bu tərəflər arasındakı nisbət cəmiyyətdə yaşayan insanların intellektual və sosial-şəxsi səviyyələrindən asılı olaraq fərqli, bəzən, hətta, bir-birinə zidd mənalar alır. Guya ədalətin real məzmuna malik olmadığını, yalnız bir abstraksiya olaraq heç vaxt gerçəkləşə bilmədiyini söyləyən müəlliflər də məhz bu fikrə əsaslanırlar. Ədalətin müxtəlif sosial zümrədən olan insanlar tərəfindən fərqli qiymətləndirildiyini biz artıq demişdik. Burada bir məqamı vurğulamalıyıq ki, bu dəyişkənliklə bərabər sosial zaman və məkanın, sosial şəraitin konkret qiymətlər aldığı məqamlarda hökmən bir invariant qiymətləndirmə meyarı olur ki, həmin dövrdə yaşayan insanlar da ictimai və fərdi münasibətləri, fəaliyyətin məqsədi, vasitələri və nəticələrini həmin meyarla qiymətləndirirlər. Ümumi şəkildə bu qiymətləndirmənin iki ölçüsü vardır - bunlar xeyir və şərdir. Məhz bu səbəbdən də ədaləti xeyirlə şəri ayıran bir meyar kimi də qiymətləndirmək olar.

Nəhayət, belə bir fikri də qeyd edək ki, ədalətin pozulmasının iki ifrat halı mövcuddur. Birincisi, insanların az və ya çox fərqli keyfiyyətlərə malik olmasına baxmayaraq, onların eyniləşdirilməsi və bərabərləşdirilməsi meyli. Həkim həkimdən, mühəndis mühəndisdən, müəllim müəllimdən biliyinə, peşəkarlığına, mədəniyyətinə, humanizminə görə fərqlənməsinə rəğmən onların hamısı bərabər əmək haqqı alır (keçmiş SSRİ-də olduğu kimi). İkinci halda isə heç bir obyektiv əsas olmadan sosial həyatın qütbləşməsi və insanların meyarsız olaraq müxtəlif qütblərdə yerləşməsidir. Bu isə cəmiyyətdə sosial harmoniyanın və ədalətin pozulmasıdır.

# MÜNDƏRİCAT

**İDRAK VƏ ÖNGÖRMƏ....................................................302**
**SOSİAL ƏDALƏT VƏ SOSİAL HARMONİYA.............316**